# QABUSNAMƏ

HEYDƏR ƏLİYEV
FONDU

**"Qabusnamə".** Bakı, Azərbaycan, 2014-cü il, 240 səh.

| | |
|---|---|
| Redaktor: | Ruslan Sadıxov |
| Rəssam: | Elçin Cabbarov |
| Dizayner: | Elşən Hacıməmmədov |
| Kompüter qrafikası: | Əbdüləli Səmədov |
| Korrektor: | Elnarə Babayeva |

Kitabın bu nəşri Heydər Əliyev Fondunun onuncu ildönümünə həsr olunur.

"Qabusnamə" tərbiyəyə və etikaya aid mühüm məsələləri özündə ehtiva edən etik-didaktik əsərdir. Nəsihət janrında yazılmış əsər üslubu sadə olmaqla yanaşı, canlı və əyləncəli ifadə edilmiş hekayələr, müdrik müəllif kəlamlarından ibarətdir. Bu əsər, 1082-1083-cü illərdə Azərbaycanın cənubunda, indiki İranın şimalında yerləşən Gilan dövlətinin padşahı Ünsürülməali Keykavus tərəfindən, oğlu Gilanşaha müraciətlə yazılmışdır.

"Qabusnamə" nəinki Azərbaycanda, həm də bir çox Şərq ölkələrində ən məşhur əsərlərdən biridir. Orta əsrlərdə bu kitab hər savadlı və mədəni insanın evində saxlanılırdı. Azərbaycan hökmdarları, ağaları, din xadimləri, alim və müəllimləri bu əsəri öz masaüstü kitabı hesab edirdilər. Xüsusilə gənc nəslin tərbiyəsində "Qabusnamə"nin böyük əhəmiyyəti vardır. Onun müdrik məsləhətləri bir çox əsrlər boyu aktual olaraq qalmaqdadır.

Əsər fars dilindən Azərbaycanın alim-şərqşünası Rəhim Sultanov tərəfindən tərcümə edilmişdir.

ISBN: 978-9952-483-68-0
© Heydər Əliyev Fondu

# MÜNDƏRİCAT


Ön söz ........ 5

Müqəddimə ........ 12

1-ci fəsil. Allahı dərk etmək yolu haqqında ........ 14

2-ci fəsil. Peyğəmbərlərin yaranması haqqında ........ 17

3-cü fəsil. Nemət sahiblərinə minnətdarlıq haqqında ........ 20

4-cü fəsil. İmkan olduqca itaətin artırılması haqqında ........ 23

5-ci fəsil. Ata və anaya hörmət haqqında ........ 27

6-cı fəsil. Təvazö və biliyin artırılması haqqında ........ 30

7-ci fəsil. Natiqlik məharətini artırmaq haqqında ........ 41

8-ci fəsil. Nuşirəvan Adilin nəsihətlərinin xatırladılması haqqında ........ 49

9-cu fəsil. Qocalıq və cavanlıq qaydaları haqqında ........ 53

10-cu fəsil. Özünü idarə etmək və yemək qaydaları haqqında ........ 59

11-cii fəsil. Şərab içmək qaydaları və onun şərtləri haqqında ........ 62

12-ci fəsil. Qonaq etmək, qonaq getmək və onların şərtləri haqqında ........ 65

13-cü fəsil. Zarafat, nərd, şahmat və onların şərtləri haqqında ........ 70

14-cü fəsil. Eşqbazlıq və onun qaydaları haqqında ........ 73

15-ci fəsil. Kef çəkmək qaydaları haqqında ........ 78

16-cı fəsil. Hamama getmək qaydaları haqqında ........ 80

17-ci fəsil. Yuxu və istirahət haqqında ........ 82

18-ci fəsil. Ova getmək haqqında ........ 86

19-cu fəsil. Çovkan oyunu haqqında ........ 88

20-ci fəsil. Döyüş haqqında ........ 91

21-ci fəsil. Mal-dövlət toplamaq qaydaları haqqında .......................... 95
22-ci fəsil. Əmanət saxlamaq haqqında .................................................. 99
23-cü fəsil. Qul almaq və onların şərtləri haqqında ........................... 102
24-cü fəsil. Ev və torpaq almaq haqqında ................................................ 109
25-ci fəsil. At almaq haqqında ........................................................................ 112
26-cı fəsil. Evlənmək haqqında ....................................................................... 116
27-ci fəsil. Övlad tərbiyə etmək və onların qaydaları
haqqında ................................................................................................................ 119
28-ci fəsil. Dost seçmək və onun qaydaları haqqında ........................ 125
29-cu fəsil. Düşməndən ehtiyatlı olmaq haqqında ............................. 129
30-cu fəsil. Cəza vermək və əfv etmək qaydaları
haqqında ................................................................................................................ 136
31-ci fəsil. Elm öyrənmək və fəqihlik haqqında .................................. 140
32-ci fəsil. Ticarət haqqında .............................................................................. 148
33-cü fəsil. Tibb elmi qaydaları haqqında ............................................... 155
34-cü fəsil. Nücum və həndəsə elmi haqqında ..................................... 163
35-ci fəsil. Şairlik qaydaları haqqında ....................................................... 168
36-cı fəsil. Musiqişünaslıq qaydaları haqqında .................................. 171
37-ci fəsil. Şaha xidmət etmək haqqında ................................................. 175
38-ci fəsil. Nədimlik qaydaları haqqında ................................................. 180
39-cu fəsil. Katibliyin qaydaları və şərtləri haqqında ......................... 184
40-cı fəsil. Şaha vəzirlik şərtləri haqqında .............................................. 191
41-ci fəsil. Sipəhsalarlıq qaydaları və şərtləri haqqında .................... 196
42-ci fəsil. Şahlıq qaydaları və şərtləri haqqında ................................. 199
43-cü fəsil. Kəndçilik və başqa bildiyin peşələrin qaydaları
haqqında ................................................................................................................ 209
44-cü fəsil. Comərdlik qaydaları haqqında ............................................ 212
Qeyd və şərhlər .................................................................................................... 228

# ÖN SÖZ

"Qabusnamə" bir çox Şərq ölkələrində ən məşhur və dəbdə olan əsərlərdən biridir. Orta əsrlərdə bu kitab hər savadlı və mədəni insanın evində saxlanılırdı. Xüsusilə gənc nəslin tərbiyəsində "Qabusnamə"nin böyük əhəmiyyəti vardır. Onun müdrik məsləhətlərinə Azərbaycanda əsrlər boyu tələbat olub və bu gün də əsər öz aktuallığını itirməyib.

"Qabusnamə" – etik-didaktik üslublu, nəsihət janrında yazılmış tərbiyəvi bir əsərdir.

Əsər üslubu sadə olmaqla yanaşı, canlı və əyləncəli ifadə edilmiş hekayələr, müdrik müəllif kəlamlarından ibarətdir.

"Qabusnamə" 1082-1083-cü illərdə Ünsürülməali Keykavus tərəfindən, oğlu Gilanşaha müraciətlə yazılmışdır. Bu hökmdarın fəaliyyəti təkcə siyasətlə məhdudlaşmırdı. O, yüksək mənəvi mədəniyyətə, ensiklopedik erudisiyaya, dərin fəlsəfi təfəkkürə malik bir insan idi. Əslən Gilanlı (Xəzər dənizinin cənub sahili) olan "Qabusnamə"nin müəllifi Samanilərin (Mərkəzi Asiyada sünni feodal sülaləsi (819-999-cu illər)) mədəni təbəqəsi ilə sıx bağlı idi. Əsəri ilə oğluna müraciət edərək onu xeyirxah və mərhəmətli, ədalətli və yüksək mənəviyyatlı insan kimi görmək istəyən müəllif çoxşaxəli təhsil, geniş maraq dairəsi, orijinallıq və iti düşüncənin daxili hərarət və temperamentlə ahəngdarlıq təşkil etdiyi ədəbi bir irs qoymuşdur.

Keykavus mütəfəkkir və şair idi. Və hesab edilir ki, hətta onun qüdrətli hökmdarlığı olmasaydı belə, təkcə öz yaradıcılığı ilə özünə nəsillərin diqqət və marağına layiq olmaq hüququnu təmin etmiş olardı. Keykavus yazırdı: "Ən xoşbəxt insan odur ki, düşüncəsi ilə əməli uyğundur". Dövrü anlamaq və uzaqgörən olmaq məqsədilə o, keçmişə müraciət edirdi. "Düşməndən necə ehtiyatlı olmaq haqqında" hekayəsində deyilir: "Belə eşitmişəm ki, Zülqərneyn bütün aləmi gəzib dünyanı zəbt etdikdən sonra, geri dönüb vətənə qayıdarkən Damğanda əcəli çatır. Vəsiyyət edir ki, məni tabuta qoyun, tabutda deşiklər açıb əllərimi xaricə çıxarın və əllərim açıq halda aparın, qoy camaat görsün ki, bütün dünyanı alsaq da əliboş gedirik".

"Qabusnamə"nin qeyri-adi populyarlığının sirri həm də ondadır ki, mətni çox sadə və asan

dildə yazılıb: oğluna münasibətdə incə yumoru və həlimliyi bütün əsərə nüfuz edir və intim bir ahəngdə müəllif ilə şəxsi söhbət illuziyası yaradır. Kitabı oxuyarkən, sanki bu qarşılıqlı münasibətlərə nüfuz edirsən və müəllifə, onun öyüd-nəsihətlərinə diqqət kəsilirsən. "Qocalıqda cavanlıq eşqinə düşən, məğlubiyyət zamanı şeypur çalana oxşar…" "Əgər birindən xoşun gəlsə, ürəyinə salıb onun haqqında fikirləşmə... Bil, bir saatlıq vüsal bir illik ayrılıq oduna yanmağa dəyməz. Aşiqlik şirin olsa da, başdan-ayağa məşəqqət, ürək ağrısı, iztirab və əziyyətdir" – demək olar ki, on əsr əvvəl müəllif Ünsürülməali tərəfindən yazılmış bu sətirlər bizi aldatmayacaq. Müəllifin fikrincə yaxşı işlər - "bol sədəqə vermək, yetimlərə və dul qadınlara qayğı göstərmək, əməksevərliyi tərənnüm etmək

və tənbəlliyi qınamaq, ədaləti tərif etmək, səbir və təmkinlilik aşılamaq, elmi və alimləri uca tutmaqdır". Kitabda mənəvi dəyərlər və nəsihətlər müxtəlif hekayələr və ailə ənənələrindən nümunələr vasitəsilə oxucuya çatdırılır. Bəzən, hekayələrdəki bu və ya digər fikri təsdiqləmək üçün şeirlərə müraciət edilir. "Qabusnamə" ictimai, ailə-məişət münasibətlərindən tutmuş, təhsil almaq, elm və sənət öyrənmək, adət-ənənələr haqqında nəsihətlər verir.

"Qabusnamə" əsrin qabaqcıl fikirlərini əks etdirir, çünki humanizm və mənəvi təmizlik bu əsərə öz təsirini göstərir. O, orta əsr Şərq ədəbiyyatında özünə məxsus yer tutur. Ünsürülməalidən sonra bu janr dahi Azərbaycan şairi Nizaminin "Yeddi Gözəl" (XII əsr) poemasında, Cəlaləddin Ruminin

"Məsnəvi"sində, şairlər Cami və Əhməd Donişin əsərlərində öz əksini tapmış və inkişaf etdirilmişdi. "Qabusnamə" ilə yanaşı, bir çox poetik əsərlərdə nəsihətverici hekayələrdən, tərbiyəvi və fəlsəfi məsəllərdən istifadə olunmuşdur. Nəsrəddin Tusinin (1201-1274-cü illər) "Əxlaqi-Nasiri", Nizamülmülkün (XI əsr) "Siyasətnamə" və s. əsərləri nümunə göstərmək olar.

"Qabusnamə"nin müdrik məsləhətləri orta əsr Şərq mütəfəkkirlərinə böyük təsir göstərmişdir və biz ümid edirik ki, oxucu Azərbaycanın bu görkəmli fəlsəfi düşüncə abidəsinə öz layiqli qiymətini verəcəkdir.

Kitab fars dilində yazılıb, çünki bu dil Şərqdə elm və savad dili, "Şərqin Latın dili" hesab olunurdu. Bu dildə fəlsəfi və poetik əsərlər nəşr

olunur, poetika və təbabət dərslikləri yazılır, hökmdarlar arasında danışıqlar aparılır, müqavilələr bağlanır və pozulur, filosoflar və mütəfəkkirlər bir-biri ilə yazışırdı. "Qabusnamə" və bir çox başqa kitablar fars dilindən Azərbaycanın alim-şərqşünası Rəhim Sultanov tərəfindən tərcümə edilmişdir.

Bu gün Azərbaycan müstəqil ölkə olduğu üçün öz oxucusuna Şərqlə ayrılmaz şəkildə bağlı olan ortaq mədəniyyətini, tarixini, fəlsəfəsini təqdim etmək istəyir. "Qabusnamə" də bu mənada varisliyin bariz nümunəsi hesab olunur.

بسم الله الرحمن الرحيم

Bu kitabı tərtib edən əmir Ünsürülməali Keykavus ibn İsgəndər ibn Qabus ibn Vəşmgir ibn Ziyar[1], Mövla əmirəlmöminin öz oğlu Gilanşaha belə deyir:

"Ey oğul, bil və agah ol ki, mən artıq qocalmışam. Qocalıq və zəiflik məni əldən salmışdır. Saç-saqqalıma çəkilmiş ağ xətlərin ölüm fərmanı olduğunu görürəm və heç kəs bu fərmanı pozacaq qüdrətə malik deyildir.

Ey oğul, öz adımı bu dünyadan köçənlər siyahısında gördükdə belə qərara gəldim ki, köç naməsi mənə çatmamış, mən sənə bir namə yazım, orada dünyanın yaxşı və pis işlərini, dövranın düz və gəc gərdişini təsvir edim, fürsət ikən özümdən sonra bir ad qoyum, atadan oğula yadigar olsun.

Ey oğul, zəmanə səni yumşaltmamış, sən öz ağlının gözləri ilə mənim sözlərimi oxu və ona əməl et, onda sən xoşbəxt olarsan, hər iki dünyada (həm sağlıqda, həm öldükdən sonra) yaxşı ad qazanarsan. Amandır, sən çalış bu kitabda deyilənlərə qulaq as. O zaman mən atalıq borcumu yerinə yetirmiş olaram. Sən mənim dediklərimdən yaxşı fayda götürə bilməsən də, elə adamlar tapıla bilər ki, onlar dəyərli sözlərə qulaq asıb, ona əməl etməyi qənimət sayarlar.

Hərçənd zəmanə belə gətirib ki, heç bir övlad atasının nəsihətinə qulaq asmır, gənclərin qəlbində elə bir qəflət atəşi var ki, onlar qocalardan daha çox bildiklərini güman edirlər. Mən bunları bilsəm də, atalıq məhəbbəti məni susmağa qoymur. Odur ki, xoşuma gələn, təbiətimə uyğun olan sözləri toplayaraq fəsillərə ayırdım, daha qısa və layiq olanları bu kitaba köçürdüm. Əgər əməl etsən, çox gözəl, etməsən, mən atalıq vəzifəmi yerinə yetirmiş olaram. Deyiblər: "Məsləhətçinin vəzifəsi deməkdir. Qulaq asmasalar, inciməyə dəyməz".

Ey oğul, bil, insanların fitrətində elə bir xüsusiyyət vardır ki, onlar dünyada əldə etdiklərini həmişə ən əziz adamları üçün qoyub getməyə çalışırlar. Bu dünyada mənim əldə etdiyim bu sözlərdir, ən əziz adamım isə sənsən. İndi köçməyə hazırlaşarkən, əldə etdiklərimi sənə yadigar qoymaq istəyirəm. İstəyirəm sən onları oxuyub xudpəsəndliyə yol verməyəsən, yaramaz işlərdən çəkinəsən, pak əcdadlarının adına layiq yaşayasan.

Ey oğul, bilməlisən ki, sənin valideynlərinin tayfası böyük və əsil-nəcabətli hökmdarlardır. Baban Şəmsülməali Qabus ibn Vəşmgirdir. Nəslin Gilan şahlarından olan Keyxosrov[2] və ƏbülMüəyyəd[3] övladlarının xanədanındandır. Firdövsi onların tərcümeyi-halını öz "Şahnamə"sində təsvir etmişdir. Gilan şahlığı sənin babalarına ondan yadigar qalmışdır. Sənin nənən, mənim anam "Mərzbannamə" əsərinin müəllifi şahzadə Mərzban ibn Rüstəm ibn Şərvinin[4] qızı idi. Onun on üçüncü babası Ənuşirəvan[5] Adil padşahın qardaşı Kavus ibn Qubad[6] idi. Sənin anan Məlik qazı Soltan Mahmud Nasirəddinin[7] qızı idi. Mənim nənəm deyləmilər hökmdarı Firuzanın[8] qızı idi.

Ey oğul, ağıllı ol, öz əcdadının qədrini bil, nanəcibliyə yol vermə. Hərçənd mən səndə yaxşılıq əlamətləri və xoşbəxtlik nişanələri görürəm, lakin bu sözləri təkrar etməyi lazım bilirəm: ey oğul, bil və agah ol, mənim getməyim yaxındır, sənin də mənim dalımca gəlməyin o qədər uzaq deyildir. Ona görə nə qədər ki, sağsan, gərək iş görüb fəaliyyət göstərəsən, bəlkə, beləliklə, əbədilik qazanasan. Əbədilik müvəqqətilikdən üstündür. Əbədiliyi isə yalnız bu dünyada qazanmaq olar. Bu dünya tarla kimi bir şeydir, yaxşıdan-pisdən nə əksən, onu da biçəcəksən. Əbədilik sarayının bünövrəsi müvəqqəti olan bu dünyada qoyulmalıdır. Yaxşı adamlar bu dünyada aslan təbiətli olarlar, pis adamlar isə it təbiətli. İt tapdığını oradaca yeyər, aslan isə şikarını başqa yerə aparar. Bu dünya bir ovlaqdır, sən isə ovçu, sənin ovun isə yaxşı əməllərindir. Çalış indi yaxşılıq elə ki, sonra xeyrini görəsən...

Ey oğul, onu da bil ki, bu nəsihətnaməni, bu qiymətli kitabı mən qırx dörd fəsildən ibarət yazdım. Ümid edirəm ki, bu kitab onu yazana, oxuyana, köçürənə və dinləyənə xoşbəxtlik gətirəcək".






## ALLAHI DƏRK ETMƏK YOLU HAQQINDA

Ey oğul, bil və agah ol ki, dünyada olan, olmayan və ola bilən hər nə varsa, hamısını olduğu kimi adam dərk edə bilər, yalnız o böyük Yaradandan başqa. Onu dərk etməyə yol yoxdur, ondan savayı nə varsa, hamısı dərk edilə bilər. Sən yalnız o zaman Haqq-Taalanı dərk edə bilərsən ki, özün dərketməz olasan.

Dərk edilən naxış, dərk edən isə nəqqaş kimi bir şeydir, əgər maddə naxışı qəbul etmirsə, heç bir nəqqaş onun üzərinə naxış vurmağı bacarmaz. Görmürsənmi, daşa nisbətən mum daha tez naxış qəbul

etdiyindən ondan möhrə hazırlayırlar, daşdan isə hazırlamırlar. Deməli, dərk edilmiş hər şeydə bir dərkolunma xüsusiyyəti var və o, Yaradanın nəyə qabil olduğunu göstərir. Ona görə sən özünə bax, Yaradana baxma. Sən yaradılmışa diqqət et ki, Yaradanı əql ilə dərk edə biləsən. Ayıq ol, vaxtı əldən verməyəsən, çünki vaxt keçicidir, keçici şeyin isə əvvəli və sonu olar.

Bağlı gördüyün bu dünyanın bağlılığına heyran olma və güman etmə ki, bu bağ həmişə açılmamış qalacaq. Sən Yaradanın yaxşılıqları və nemətləri haqqında fikirləş, özü haqqında fikirləşmə, çünki yolu o adam daha çox azır ki, yol olmayan yerdə yol axtarsın. Peyğəmbər əleyhissəlam demişkən: "Allahın nemətləri haqqında fikirləşin, zatı haqqında fikirləşməyin". Əgər bizi yaradan Allah öz bəndələrinə Onu dərk etməyə cəsarət və ixtiyar verməsəydi, heç kəs bu barədə bir söz deməyə cürət etməzdi. Sən Haqqı nə adlandırırsan adlandır, onun haqqında nə düşünürsən düşün, bu, Yaradanın ilahiliyinə deyil, yalnız sənin acizlik və miskinliyinə dəlalət edər, çünki sən Allahı heç vaxt layiq olduğu qədər tərifləyə bilməzsən. Belə olan təqdirdə sən Onu necə dərk edə bilərsən? Əgər sən tövhidin nə olduğunu bilmək istəyirsənsə, bil ki, sənin üçün mümkün olmayan hər şey Onun üçün mümkündür, məsələn, təklik kimi. Kim təkliyin mahiyyətini anlasa, o müşriklikdən azad olar. Təklik yalnız böyük Yaradana xasdır, ondan başqa nə varsa, hamısı cütdür.

Xüsusiyyətinə görə ikiləşən hər şey ya tərkibinə görə ikiləşər, cisim kimi, ya parçalanmağına görə ikiləşər, ədəd kimi, ya fərqinə görə ikiləşər, sifət kimi, ya təzahürə görə ikiləşər, cövhər kimi, ya mənşəyinə görə ikiləşər, əsli və fəri kimi, ya məkana görə ikiləşər, fəza və boşluq kimi, ya fəhmə görə ikiləşər, ağıl və nəfs kimi, ya müvazinətə görə ikiləşər, təbiət və surət kimi, ya qarşılaşmaya görə ikiləşər, ehtimal və qətilik kimi, ya qəbul edilmə nöqteyi-nəzərindən iki cür ola bilər, azlıq və çoxluq kimi, ya dərk edilmə baxımından iki ola bilər, varlıq və yoxluq kimi. Bunlar ziddiyyətli olduqları qədər də,



ikilik əlamətinə malikdirlər və onları tək adlandırmaq olmaz. Təklik yalnız Allaha aiddir. İkilik xüsusiyyəti olan nə varsa, onların heç biri Allah ola bilməz. Tövhidin mahiyyəti ondan ibarətdir ki, ürəyinə gələn hər şeyin Allah olmadığını biləsən, onların şəriki və tayı olmayan bir Allah tərəfindən yaradıldığını qəbul edəsən.




# PEYĞƏMBƏRLƏRİN YARANMASI HAQQINDA

Ey oğul, bil ki, böyük Yaradan bu dünyanı məqsədlə yaratmış, hədərə yaratmamışdır, onu ədalət və hikmət əsasında qurmuşdur, çünki O, varlığın yoxluqdan, xeyirin şərdən, bolluğun qıtlıqdan, gözəlliyin eybəcərlikdən daha yaxşı olduğunu bilirdi. O, bunların hər ikisini bilir və hər ikisini yaratmağa qadir idi, lakin O, yaxşılarını yaratdı, bildiyinin əksinə etmədi, hər şeyi vaxtında və ədalət əsasında yaratdı, cəhl, fəsad və nadanlıq əsasında yaratmadı. Beləliklə, dünyanın bünövrəsi hikmətlə qoyuldu, hər nə gözəl idisə, onu da

yaratdı. O edə bilərdi ki, günəşsiz işıq versin, buludsuz yağış yağdırsın, tərkibsiz maddə yaratsın, ulduzlara ehtiyac olmasın. Lakin dünya qanunauyğunluq əsasında qurulduğundan O, səbəbsiz heç bir şey yaratmadı və bu səbəbi dünyanı nizama salan bir vasitə etdi. Bu vasitə ortalıqdan qalxsa, işləri nizama salan səbəb də ortalıqdan qalxar, səbəb ortalıqdan qalxdıqda isə bütün nəzm-nizam da pozular. Hər bir işdə nizam olduğu kimi onu yaradan vasitə də lazım olur. Vasitəni ona görə yaratmışdır ki, biri hakim olsun, biri məhkum, biri ruzi verən olsun, biri ruzi yeyən. Bu ikilik isə Allahın təkliyinə dəlalət edər. Deməli, sən yalnız vasitəni görə bilərsən. Ona görə də diqqətli ol ki, az və çoxluğu vasitədən deyil, vasitəni yaradan Allahdan biləsən. Əgər torpaq məhsul vermirsə, onu təqsirkar hesab etmə, əgər ulduz ədalətli gərdiş etmirsə, onu müqəssir sayma. Ulduzların ədalət və zülmdən nə qədər xəbəri varsa, yerin də məhsul yetirməkdən o qədər xəbəri var.

Torpaq şirin meyvə əkilən yerdə zəhər bitirə bilmədiyi kimi, ulduzlar da öz bildiklərini edə bilməzlər, yaxşılığa adət etmiş olan pislik edə bilməz.

Dünya hikmətlə bəzədilmiş olduğundan ona zinət də lazım idi. Bu dünyaya diqqətlə bax ki, onun zinətini görə biləsən. Bu zinət nəbatat, heyvanat, yemək, içmək, geyim və müxtəlif nemətlərdən ibarətdir. Bunlar hamısı hikmət əsasında yaradılmışdır, necə ki, Özü bu barədə deyir:

"Biz yeri, göyü və onlar arasında nə varsa, hamısını əyləncə üçün yaratmadıq, onları biz hikmətlə yaratdıq"[9].

İndi ki sən dünyanın Allah tərəfindən hədərə yaradılmadığını bildin, onu da bilməlisən ki, bu yaradılan nemətlərlə kimə isə ruzi verilməsəydi, mənasızlıq olardı. Ruzi ona deyərlər ki, sən çörəyi ehtiyacı olana verəsən ki, o da yeyə. Bax, ədalət buna deyərlər. O, insanları yaratmaq istədi ki, onlara ruzi versin, indi ki insanlar yaranıbdır, deməli bütün nemətlər onlarındır.

Lakin insanlara dövlət və qayda-qanun lazımdır, dövlət isə rəhbərsiz keçinə bilməz, çünki ədalət və qayda-qanun olmadıqda ruzi yeyən adam ruzi verənin qədir-qiymətini bilməz. Ruzi verən öz nemətini nadana versə, bu onun nöqsanı olar. Ruzi verən nöqsansız

olduğundan öz ruzi yeyənlərini nadan qoymadı. O özü Quranda belə deyir: "İnsanların bilmədiklərini onlara öyrətdi".

O, peyğəmbərlər göndərdi ki, onlar bilik əldə etmək, ruzi yemək və ruzi verənə şükür etmək qayda-qanunlarını insanlara öyrətsinlər, beləliklə, dünyanın əsası ədalətlə, ədalətin təkmilliyi hikmətlə, hikmətin tamlığı nemətlə, nemətin bütövlüyü ruzi alanlarla, ruzi alanların kamilliyi yolgöstərici peyğəmbərlə tamamlansın.

Peyğəmbərin ruzi alanlardan üstünlüyü ondadır ki, onlar ruzi yeyənlərə ruziyə çatmaq yolunu göstərirlər.

Deməli, əgər ağıl gözü ilə baxsan, görərsən ki, ruzi alan aldığı ruzi və nemət müqabilində arzu və istəklərinin yerinə yetirilməsi xatirinə öz rəhbərinin haqqını etiraf etməyə və ruzi verəninə minnətdar olduğunu bildirməyə borcludur. Demək, peyğəmbərlərin haqq olduğuna inanmalısan və Adəmdən tutmuş Muhammədə qədər (Allah onların hamısına rəhmət eləsin) bütün peyğəmbərlərin düz danışan olduğunu qəbul etməlisən, şükür və niyazda ehmallıq göstərməlisən, Haqqın buyruqlarını yerinə yetirməlisən ki, beləliklə, yaxşı ad qazanıb təriflənəsən.






# NEMƏT SAHİBLƏRİNƏ MİNNƏTDARLIQ HAQQINDA

Ey oğul, bil ki, nemət sahibinə minnətdarlıq lazımdır, bu, hamıya vacibdir, özü də onun layiq olduğu qədər deyil, buyurulan qədər, çünki əgər hamı bütün ömrü boyu yalnız şükürlə məşğul olsa, yenə onun layiq olduğunun mində birini yerinə yetirə bilməz. Əgər Allah hər verdiyi nemət müqabilində azacıq da olsa şükür istəsə, bu olduqca çox olar, ona görə də İslam dinində itaət beşdir, bunların ikisi yalnız varlılara, üçü isə hamıya aiddir. Bunlardan biri (Haqqı) dildə iqrar edib ürəkdə təsdiq etmək, o biri beş dəfə namaz qılmaq, üçüncüsü isə otuz günlük oruc tutmaqdır.

Şəhadət Haqdan başqa hər şeyi inkar etməyin dəlilidir, namaz bəndəliyi iqrar etmək üçün sidqlə deyilən söz, oruc isə Allah-Taalaya verilən vədi təsdiq üçündür. Elə ki dedin: mən bəndəyəm, gərək bəndəlik bağını da boynuna bağlayasan, elə ki dedin: O, ağadır, gərək ağanın buyruğuna da qulaq asasan.

İstəyirsən ki, qulun sənə itaət etsin, sən də öz ağana itaət etməkdən boyun qaçırma, boyun qaçırsan, öz qulundan itaət gözləmə, çünki sənin öz quluna etdiyin mərhəmət Allahın sənə göstərdiyi mərhəmətdən çox ola bilməz.

İtaət etməyən bəndə olma[10], çünki itaət etməyən bəndə Allahlıq iddiasına düşər və tez məhv olar.

Layiqdir vurula o qulun başı
Ki, Allahlıq edə hər addımbaşı.

Bil və agah ol ki, namaz və oruc Allaha xasdır, onda ehmallıq etmə, xasda ehmallıq edən xalqa aid olan bütün işlərdən məhrum olar. Onu da bilməlisən ki, bizim şəriət sahibi namazı bütün dinə bərabər hesab etmişdir: kim namazdan əl çəksə, o, bütün dindən əl çəkmiş olar...

Amandır, oğlum, dünyada boş şeylərə könül vermə və demə ki, namazı qılmamaq da olar. Əgər sən namazı din xatirinə qılmaq istəməsən, heç olmasa sağlam düşüncə əsasında qıl. Bilməlisən ki, namazın bir neçə faydası vardır: birincisi, beş dəfə vacib namaz qılan adamın həmişə bədəni və paltarı təmiz olar, təmizlik isə, hər halda natəmizlikdən yaxşıdır; ikincisi, o, təkəbbür və qeybətdən uzaq olar, çünki namazın əsasını təvazökarlıq təşkil edir, təbiətini təvazökarlığa alışdırsan, bədənin də təvazökarlığa adət edər. Məlumdur ki, birinə tay olmaq istəyən, mütləq gedib ona qoşular. Xoşbəxt və varlı olmaq istəyənlər varlılara uyğunlaşmalı, bədbəxtlər də özü kimilərlə oturub-durmalıdır. Ağıllı adamların fikrinə görə, İslam dinindən qüvvətli heç bir dövlət, onun əmrindən qüdrətli heç bir qüvvət yoxdur. Deməli, əgər sən əbədi dövlət və nemət sahibi olmaq istəyirsənsə, dövlət sahibləri ilə yaxınlıq etməyə çalış və həmişə onların əmrlərini yerinə yetir, onların əksinə getmə ki, bədbəxt və günahkar olmayasan.

Amandır, ey oğul, namazı ələ salma, onun rükətlərinin və səcdələrinin natamamlığına istehza etmə. Bu nə dinə yaraşar, nə dünyaya.

Ey oğul, onu da bilməlisən ki, oruc ildə bir dəfə edilən itaətdir, onu yerinə yetirməmək insafsızlıq olar. Ağıllı adamlar belə bir şeyi özlərinə rəva görməzlər, gərək sən də görməyəsən. Orucluq ayı ifratsız keçə bilmir, lakin sən çalış ifrata yol vermə. Gördün ki, beş mötəbər, inanılmış üləma oruc tutub, sən də onlarla birlikdə oruc tut, onlar oruclarını yeyəndə, sən də ye! Nadanların sözünə uyma, bil və agah ol ki, Allah-Taalanın sənin ac və ya toxluğuna ehtiyacı yoxdur. Oruc, Allah tərəfindən sənin var-dövlətinə və özünə vurulan möhürdən ibarətdir. Bu möhür mal və bədənin yalnız bir hissəsinə deyil, bəlkə, bütün üzvlərinə vurulur: əl-ayağa, gözə, dilə, qulağa, qarına.

Ey oğul, bil və agah ol: orucluğun ən böyük məqsədi ondadır ki, sən gündüz yemədiyini ehtiyacı olanlara verəsən ki, zəhmətinin faydasını görmüş olasan, elə bu zəhmət ona görə lazımdır ki, onun xeyri ehtiyacı olana çatsın.

Ey oğul, diqqətli ol ki, hamıya aid olan bu üç itaətdə ehmallıq etməyəsən, çünki bu üç itaəti yerinə yetirməməyə heç bir üzr və bəhanə yoxdur. Lakin yalnız varlılara aid olan iki itaətdə üzrlü səbəb olduqda ehmallıq etmək mümkündür. Bu barədə çox danışmaq olar, lakin zəruri nə vardısa, hamısını dedim.



# Fəsil 4



## İMKAN OLDUQDA İTAƏTİN ARTIRILMASI HAQQINDA

Ey oğul, bil ki, Allah varlılar və seçilmiş bəndələri üçün daha iki dini vəzifə təyin etmişdir: bunlardan biri Həcc, digəri isə zəkatdır. Buyurmuşdur ki, kimin imkanı varsa, Onun Evini ziyarət etsin, yoxdursa, etməsin. Görmürsənmi, bu dünyada da şah sarayının qapıları yalnız dövlətli adamların üzünə açıq olur.

Həccin şərti səfərə çıxmaqdır, yoxsullara səfərə çıxmağı əmr etmək isə nadanlıq olar, çünki imkansız adam üçün səfərə çıxmaq təhlükəlidir. Lakin imkanın olduqda səfərə çıxmasan, dünyanın kef və ləzzəti

natamam qalar. Dünyanın kef və ləzzəti ondadır ki, görmədiyin şeyləri görəsən, yemədiyin şeyləri yeyəsən, əntiqə və nadir şeylər alasan. Səfərə çıxmadan belə şeyləri əldə etmək mümkün deyil. Səfərə çıxmış adamlar dünyagörmüş, təcrübəli, ağıllı və xoşbəxt hesab edilirlər, çünki onlar eşidilməmiş sözləri eşitmiş, görülməmiş şeyləri görmüşlər. Yaxşı deyiblər: "eşitmək hara, görmək hara!" Heç kəs dünyagörmüş adamları görməmişlərə bərabər tutmaz. Ona görə deyiblər ki:

Dünya görmüşləri ağıllı insan,
Dünya görməmişlə tutmamış yeksan!

Deməli, dövlətlilərə səfəri ona görə vacib buyurubdur ki, Onun verdiyi nemətin qədrini bilsinlər, bu neməti ağız ləzzəti ilə yeyib Allahın əmrini yerinə yetirsinlər və onun evini ziyarətə getsinlər. Lakin bunu yoxsul, imkansız və əliboş adamlara buyurmayıb. Bu barədə mən də aşağıdakı iki beytdə demişəm:

Yar məni çağırmayıb, yer vermirsə eyvanda,
"Yoxsulsan, gəlmə" deyib, xar edirsə hər yanda,
Onda təqsir görməyin, bax, o böyük Allah da
Öz evinə çağırmır insan yoxsul olanda.

Yoxsul Həccə getsə, özünü təhlükəyə salmış olar. Dövlətlilərə aid işlərə baş qoşan yoxsul sağlam adama aid işlərlə məşğul olan xəstəyə bənzər və onun vəziyyəti biri dövlətli, o biri yoxsul olan o iki hacının əhvalatına oxşar.

Əhvalat. Bir dəfə Buxara əmiri Həccə getmək qərarına gəlir. O, çox varlı idi, karvanda ondan dövlətlisi yox idi. Yüzdən yuxarı yüklü dəvəsi olan bu əmir bəzəkli kəcavədə oturub səhrada yırğalana-yırğalana, xumarlana-xumarlana yol gedirdi. Ona nə lazım idisə, hər şeyi var idi. Onunla birlikdə, dövlətlilərlə bərabər, yoxsullar dəstəsi də Həccə gedirdi. Onlar Ərəfata[11] çatdıqda ayaqyalın, başıaçıq, ac-susuz, ayaqları qabar çalmış bir dərviş əmiri təmtəraq



içində gördükdə üzünü ona çevirib deyir: "Qiyamət günü səninlə mənim mükafatım eyni olacaq, amma sən gör nə naz-nemət içərisində gedirsən, mən isə əzab və əziyyət içərisində?!"

Buxara əmiri deyir: "Allah eləməsin mənimlə sənin mükafatımız eyni olsun, əgər mən bilsəydim, səninlə mənim mükafatımız eyni olacaq, heç səhraya qədəm basmazdım".

Dərviş soruşur: "Nə üçün?"

Əmir deyir: "Ona görə ki, mən Allah buyruğu ilə gəlmişəm, sən isə onun əmrinə müxalif hərəkət edibsən, məni çağırıblar, mən qonağam, sən isə tüfeyli. Çağırılmış qonaq ilə çağırılmamışın hörməti eyni ola bilərmi? Haqq-Taala dövlətliləri çağırmış, yoxsullara isə belə demişdir: "Özünüzü öz əlinizlə təhlükəyə salmayın!" Sən Allahın əmri olmadan, yoxsul, ac-yalavac halda çölbiyabana çıxaraq özünü təhlükə qucağına atıbsan, Allahın buyruğuna əməl etməmisən. Nəyə əsasən sən əmrə baxanlarla bərabərlik edə bilərsən? Kimin imkanı olub Həccə gedirsə, o, Allahın tapşırığını yerinə yetirmiş olur və onun nəziri qəbul, duası müstəcab olur".

Ey oğul, əgər sənin də Həccə getmək imkanın olsa, xəsislik etmə. Həccə getmək üçün beş şərt lazımdır: qüvvət, nemət, vaxt, hörmət və əmin-amanlıq. Əgər bunlar sənə nəsib olsa, tam istifadə etməyə çalış. Bilməlisən ki, Həcc yalnız kifayət qədər var-dövlət olan zaman məsləhətdir və onu gələn ilə təxirə salmaq günah deyil.

Lakin zəkat o itaətdəndir ki, imkan olan yerdə onu təxirə salmaq olmaz, onu verməmək üzrlü sayıla bilməz. Allah zəkat verənləri özünə yaxın hesab etmişdir.

Başqalarına zəkat verən adam rəiyyət arasında şah kimidir, o, ruzi verən olar, başqaları ruzi yeyən.

Haqq-Taala belə lazım bilmişdir ki, bəziləri yoxsul olsun, bəziləri varlı. Əlbəttə, o istəsəydi, hamını varlı edə bilərdi, lakin ona görə iki təbəqə etdi ki, bəndələrinin şərəf və mövqeləri aydın olsun, yuxarılar aşağılardan fərqlənsin. Şah da öz xidmətçilərindən birini güclü və ruzi verən etsə və bu xidmətçi başqasına ruzi verə bildiyi halda özü yeyib başqasına verməsə, şahın qəzəbinə düçar ola bilər.

Zəkata gəldikdə isə, demək lazımdır ki, onu ildə bir dəfə vermək məcburidir. Sədəqə məcburi olmasa da, alicənablıq və insanpərvərlikdir, bacardığın qədər ver və xəsislik etmə, çünki sədəqə verənlər həmişə Allahın himayəsi altında, əmin-amanlıqda olarlar, Allahın himayəsini isə həmişə qənimət hesab etmək lazımdır.

Amandır, oğlum, ürəyində zəkat və Həcc haqqında şəkk və şübhələrə yol vermə, onları boş şey hesab edib demə ki, "qaçmaq, lüt olmaq, dırnağı tutmayıb, saçı vurdurmamaq nəyə lazımdır? Hər iyirmi dinardan nə üçün yarım dinar verim, zəkat nə üçündür, qoyun və dəvədən də zəkat olarmı, qoyunu nə üçün qurban kəsirlər?"

Belə hikmətlərdə ürəyini təmiz saxla. Elə güman etmə ki, sən bilmədiyin şeydə xeyir ola bilməz, onun yerini biz bilməyə də bilərik, sən Allahın buyruqlarını yerinə yetir, "niyə belə olur", "nə üçün edirlər"lə işin olmasın.

Elə ki bu əmrləri yerinə yetirdin, ondan sonra bilməlisən ki, ata-anaya hörmət də o böyük Allahın əmrlərindəndir.






# ATA VƏ ANAYA HÖRMƏT HAQQINDA

Ey oğul, bil ki, bizi yaradan, dünyanı abad saxlamaq üçün nəslin artıb törəməsini lazım bildi və heyvani şəhvəti buna səbəb etdi. Deməli, sağlam düşüncəyə görə, övlad (öz səbəbinə) hörmət etməli, öz əsil-zatına ehtiram qoymalıdır, onun əsil-zatı isə ata və anasıdır.

Demə ki: “ata-ananın mənim üzərimdə nə haqqı vardır, onların məqsədi öz şəhvətlərini söndürmək olub, məni yaratmaq olmayıb”. Məqsədləri şəhvəti söndürmək olsa da, onlar sənin yolunda ölümə də getməyə hazır olarlar, bu isə şəhvətdən daha üstündür.

Ana və ataya ən azı ona görə hörmət etmək lazımdır ki, onların hər ikisi səninlə Yaradan arasında vasitədir. Deməli, sən özünə və Yaradanına hörmət etdiyin qədər öz vasitələrinə də hörmət etməlisən. Ağlı başında olan hər bir övlad heç vaxt ata və ana haqqını unutmaz. Allah öz Kitabi-Məcidində belə deyir: "İtaət ediniz Allaha, itaət ediniz peyğəmbərə və öz amirlərinizə"[12].

Bu ayəni bir neçə cür təfsir etmişlər. Onlardan birində belə oxumuşam ki, "amirlər" ana və atadır, çünki ərəb dilində "əmr" sözünün iki mənası vardır: iş və əmr. Amir ona deyərlər ki, həm ixtiyarı olsun, həm iqtidarı. Ata və anada isə həm iqtidar var, həm ixtiyar. İqtidar - yedirdib bəsləmək, ixtiyar - yaxşı şeylər öyrətməkdir.

Ehtiyatlı ol, ey oğul, ata və ananın qəlbini incitmə, onların ürəyinə toxunma, çünki Yaradan, ana və atanı incidənə ağır cəza verir. Allah-Taala deyir: "Onlara tüfu demə, onları incitmə, onlara xoş sözlər de!"

Əli Əmirəlmömindən (Allah ondan razı olsun) soruşdular ki, ana və atanın haqqı nə qədər olar? Dedi: "Onun nə qədər olduğunu Allah-Taala Peyğəmbər əleyhissəlamın ana və atasının ölümündə göstərmişdir. Çünki onlar Peyğəmbər əleyhissəlamın peyğəmbərlik dövrünə qədər yaşasaydılar, Peyğəmbər (s.) onları hamıdan şərəfli tutmağı vacib bilərdi, bu da onun dediyi: "Mən Adəm övladının ən şərəflisiyəm və bunda qürurum yoxdur"[13] sözü səhv görünərdi.

Deməli, ana və atanın haqqını dini cəhətdən qəbul etməsən, ağıl və insanlıq nöqteyi-nəzərindən qəbul etməlisən. Ana və ata sənin əsl böyüdənin və tərbiyə verənindir, sən onların haqqını ödəməkdə kahıllıq göstərsən, bu ona dəlalət edər ki, sən heç bir yaxşılığa layiq deyilsən. Çünki aşkar xeyirxahlığın qədrini bilməyən adam dolayı xeyirxahlığın qədrini haradan bilər? Qədir bilməyən adama yaxşılıq etmək nadanlıqdır. Sən də nadanlıq adını qazanmağa çalışma. Öz övladının sənə qarşı necə olmasını arzulayırsansa, sən də öz ata və anana qarşı elə ol! Sən səni doğanla necə rəftar edibsənsə, səndən doğulan da səninlə elə rəftar edəcəkdir. Övlad meyvəyə bənzər, ata-ana isə ağaca. Ağaca nə qədər çox xidmət etsən, o qədər onun meyvəsi yaxşı və gözəl olar. Ata-anaya da nə qədər çox hörmət edib onlardan utansan, onların sənin haqqındakı duaları o qədər tez müstəcab olar.

Sən həm Allah yanında, həm valideynin yanında üzü ağ olarsan.

Amandır, miras xatirinə ana və atanın ölümünü arzulama. Ata-anan ölməsə də, sənin ruzin yetişəcək, çünki hər kəsin qisməti özünə çatacaq. Artıq ruzi əldə etmək üçün özünü çox da ora-bura vurma; ora-bura soxulmaqla ruzi artmaz. Ona görə deyiblər: "Zəhmət çəkməklə yaşa, özünə əziyyət verməklə yaşama!"

Ruzi haqqında həmişə Allahdan razı qalmaq istəyirsənsə, halı səninkilərdən yaxşı olanlara deyil, pis olanlara bax.

Mal-dövlət cəhətdən yoxsul olsan, çalış ağıl və kamalca dövlətli ol, çünki ağıl-kamal zənginliyi ki var mal-dövlətdən daha yaxşıdır. Ağıl ilə dövlət əldə etmək olar, dövlətlə ağıl qazanmaq isə olmaz. Cahil adam tez yoxsullaşa bilər, lakin ağılı oğru apara bilməz, su və od məhv edə bilməz.

Beləliklə, əgər ağlın varsa, sənət öyrən, çünki biliksiz ağıl paltarsız bədən, simasız adam kimidir. Yaxşı deyiblər: "Bilik ağlın aynasıdır".






# TƏVAZÖ VƏ BİLİYİN ARTIRILMASI HAQQINDA

Oğul, bil və agah ol ki, sənəti olmayan adamlar gövdəsi olub kölgəsi olmayan muğilan[14] ağacı kimi faydasız olarlar, nə özlərinə xeyir verərlər, nə başqalarına. Əsil-nəsəbli adamlar sənət və hünər sahibi olmasalar da, əsil-nəsəblərinə görə başqalarının yanında hörmətdən məhrum olmazlar. Pisi odur ki, nə cövhərin ola, nə hünərin! Lakin əsil-nəsəbli olanda çalış özünün müəyyən sənət və şöhrətin də olsun, çünki özünün qazandığın şöhrət əsil-nəsəb şöhrətindən daha yaxşıdır. Deyiblər ki, "Ləyaqət əql və ədəbdədir, əsil-nəsəbdə deyil!" Böyüklük

mərifət və bilikdədir, haralı və kimlərdən olmaqda deyil. Bil ki, sən ata və ananın şan-şöhrəti ilə kifayətlənməməlisən, çünki o, xarici bəzəkdir. Əsl ad-san ona deyərlər ki, onu öz istedad və bacarığınla əldə etmiş olasan, bu zaman səni "Zeyd", "Cəfər", "əmi", "dayı" əvəzinə "müəllim", "alim", "fəqih"[15], "həkim" çağırarlar. Əgər əsil-nəsəbi olan adamın öz bacarıq və ləyaqəti yoxsa, o heç kəsin işinə yaramaz. Lakin bir adamda hər iki xüsusiyyət olsa, ondan bərk yapış, əldən buraxma ki, o, hamının işinə yarayar.

Onu da bil ki, bütün sənətlər içində ən gözəl sənət danışmağı bacarmaqdır. Böyük yaradan insanı bütün məxluqatın ən şərəflisi etmiş və onu on xüsusiyyətə görə (beşi bədənin daxilində, beşi xaricində) başqa canlılardan üstün yaratmışdır.

Daxildə olan beş xüsusiyyət: təfəkkür, hafizə, təxəyyül, təsəvvür və danışıqdır, xarici beş xüsusiyyət: eşitmə, görmə, qoxu bilmə, toxunma və dad bilmə xüsusiyyətidir.

Bu xüsusiyyətlərdən canlılara olanları insanlardakı kimi deyil, ayrı cürdür. Buna görə də insan başqa canlılara üstün gəlmiş və onların üzərində hökmranlıq əldə etmişdir.

İndi ki bunu bildin, gərək sən dilini gözəl danışmağa və yaxşı şeylər söyləməyə öyrədəsən, yaxşıdan başqa heç bir şey deməyə adət etdirməyəsən, çünki dilə nə öyrədibsən, nəyə adət etdiribsənsə, həmişə onu da deyəcəkdir. Odur ki, deyiblər: "Dili xoş olanın havadarı çox olar".

Nə sənətin sahibi olursan ol, ancaq sözü yerində deməyi bil, çünki yersiz deyilən söz nə qədər gözəl olsa, yenə də çirkin görünər. Faydasız sözlərdən qaç, çünki faydasız sözlərdən həmişə ziyan gələr. Yalan iyi verən və hikmət ətri saçmayan sözlər deyilməsə, daha yaxşıdır.

Müdrik adamlar sözü şəraba oxşatmışlar, o həm məst edər, həm məsti ayıldar. Dindirilməmiş danışma, xahiş edilməmiş məsləhət verib nəsihət etmə, xüsusən, nəsihətə qulaq asmayana. Elə adam axırda özü yıxılar. Camaat içində heç kəsə nəsihət etmə. Deyiblər ki: "Adamlar içərisində nəsihət məzəmmətə bərabərdir". Çoxdan yolunu azmışları düzəltmək fikrinə düşmə, bacarmazsan. Əyri bitmiş, qol-budaq atmış və yüksəlmiş ağacı kəsib yonmayınca düzəltmək olmaz. Söz deməkdə xəsislik etmədiyin kimi, imkanın olsa mal verməkdə də xəsislik etmə,

çünki adamlar sözə nisbətən mala daha çox şirnikərlər. Pis ad qazanmış yerlərdən uzaq gəz, bədxah dostdan və pis yoldaşdan uzaq qaç, elə yerə get ki, səni axtarıb orada tapsalar, rüsvay olmayasan. Malını elə yerə qoy ki, istəyəndə tapa biləsən.

Xalqın qəm və kədərinə gülmə ki, xalq da sənin qəm və kədərinə gülməsin, ədalətli ol ki, ədalət görəsən, xoş danış ki, xoş söz eşidəsən. Şoranlıqda toxum əkmə ki, bar verməz, əməyin hədər gedər, yəni namərd adama yaxşılıq etmək şoranlığa toxum əkmək kimi şeydir. Lakin layiq olan adamlardan yaxşılığı əsirgəmə və yaxşılıq öyrədən ol ki, Peyğəmbər əleyhissəlam demişdir: "Yaxşılıq yolunu göstərən adam yaxşılıq edən adama bərabərdir". Yaxşılıq et və yaxşılığı öyrət, çünki bunlar biri-birindən ayrılmaz ekiz qardaşdır. Yaxşılıq etməkdən peşman olma, çünki yaxşı və pisliyin mükafatı sənə hələ bu dünyada, o dünyaya getməmişdən əvvəl çatacaq. Birinə yaxşılıq edərkən o adam nə qədər rahat olursa, sən də o qədər rahat olursan, pislik etdikdə o nə qədər inciyirsə, sənin də qəlbin bir o qədər ağrı və sıxıntı duyur, buna görə heç kəsə pislik etmə. Sən özün əzab çəkməkdən heç kəsə ziyan vura bilməzsən və sənin öz xoşun olmadan heç kəs səndən yaxşılıq görə bilməz. Deməli, "yaxşı və pisin mükafatı o dünyaya getməmiş hələ bu dünyada yetişəcək" sözləri tamamilə doğrudur. Heç kəs mənim bu dediklərimi inkar edə bilməz. Kim bütün ömrü boyu birinə yaxşılıq ya pislik edibsə, dərindən düşünsə, o, mənim haqlı olduğumu anlar və bu dediyim sözləri təsdiq edər. Deməli, nə qədər bacarırsansa, yaxşılığı heç kəsdən əsirgəmə, yaxşılıq bir gün öz bəhrəsini verəcəkdir.

Hekayət. Eşitmişəm, Mütəvəkkilin[16] Fəth adlı çox gözəl camallı, savadlı, tərbiyəli bir qulu var imiş. Mütəvəkkil onu oğulluğa götürmüş və doğma uşaqlarından daha çox sevərmiş.

Bu Fəth üzməyi öyrənmək arzusuna düşür. Üzgüçülər çağırılır. Dəclədə ona üzməyi öyrətməyə başlayırlar. Fəth üzməyi hələ yaxşı öyrənə bilməmişdi, lakin bütün uşaqlar kimi özünü elə göstərirdi ki, guya üzə bilir. Bir gün o, müəllimindən gizlin Dəcləyə atılır, su bərk axdığından Fəthi gicəllətməyə



başlayır. Fəth suya üstün gələ bilməyəcəyini anladıqda özünü suyun ixtiyarına verir və camaatın gözündən itir. Beləcə, su bir müddət onu aparır. Dəclənin kənarında ovuqlar var idi, Fəth bu ovuqlardan birinin yanından keçərkən əl atıb özünü onun içinə salır. Orada oturub öz-özünə deyir: "Görək Allah sonrasını neyləyəcək, hələ ki özümü bu dəhşətli suyun əlindən qurtarmışam". Yeddi gün o, bu ovuqda qalır. Elə birinci gün Mütəvəkkilə xəbər verəndə ki, Fəth suya atılıb boğulmuşdur, o, taxtdan düşüb yerə oturur və üzgüçüləri çağıraraq deyir: "Kim Fəthi ölü ya diri gətirsə, ona min dinar verəcəyəm". Sonra and içir ki, onu tapıb gətirməyincə yeməyə əl vurmayacaq.

Üzgüçülər Dəcləyə gedib suya baş vururlar, ümid gələn hər yeri axtarırlar. Nəhayət, yeddinci gün üzgüçülərdən biri həmən ovuğa rast gəlir. Fəthi görüb çox sevinir və deyir: "Burada ol, gedim qayıq gətirim".

Oradan qayıdıb Mütəvəkkilin yanına gəlir və deyir: "Ya Əmirrəlmöminin, Fəthi diri gətirsəm, mənə nə verərsən?" Deyir: "Beş min dinar nəqd verərəm". Üzgüçü deyir: "Fəthi diri tapmışam".

Qayıq gətirib Fəthi aparırlar.

Mütəvəkkil əmr edir ki, üzgüçüyə verdiyi vədi yerinə yetirsinlər. Sonra vəziri çağırıb deyir: "Get xəzinəmə, orada nə varsa, yarısını payla yoxsullara". Sonra deyir: "Yemək gətirin, axı o, yeddi gündür acdır". Fəth deyir: "Ya Əmirəlmöminin, mən toxam". Mütəvəkkil dedi: "Dəclənin suyundanmı toxsan?" Fəth deyir: "Yox, mən bu yeddi günü heç vaxt ac olmamışam, çünki hər gün çay aşağı üzərində iyirmi çörək olan bir tabaq üzürdü, mən də ondan iki-üç dənəsini əldə edir, qarnımı doydururdum. Hər çörəyin üstünə yazılmışdı: "Muhamməd ibn əl-Hüseyn əl-Əskaf".

Mütəvəkkil əmr edir şəhərdə car çəksinlər və desinlər ki, Dəcləyə çörək atan kimdirsə, qorxmasın, gəlsin, Əmirəlmöminin ona yaxşılıq edəcək. Sabahısı gün bir kişi gəlib deyir: "Mənəm o adam". Mütəvəkkil deyir: "Sübut!" Kişi deyir: "Sübutum odur ki, hər çörəyin üzərində mənim adım yazılmışdır: "Muhamməd ibnəl- Hüseyn əl-Əskaf". Mütəvəkkil deyir: "Doğrudur, indi de görüm, nə vaxtdan sən Dəcləyə çörək atırsan?" Muhamməd ibn əl-Hüseyn deyir: „Bir ildir".

Mütəvəkkil soruşur: „Nə üçün belə edirsən?“ Kişi deyir: „Eşitmişdim ki, deyirlər: yaxşılıq elə, at suya, bir gün gələr, xeyrini görərsən. Mənim əlimdən başqa yaxşılıq gəlmirdi, elə bunu bacarırdım ki, onu da etdim və öz-özümə dedim:“görək xeyri nə olacaq“.

Mütəvəkkil deyir: „Eşitdiyini etdin, gördüyün işdən də xeyir götürdün“. Sonra Mütəvəkkil kişiyə Bağdadda bir malikanə və beş kənd bağışlayır. Kişi həmən malikanəyə köçüb, varlı-sanlı oldu. Onun övladlarından hələ indi də Bağdadda yaşayanı var.

Mən, əl-Qaim Bi-əmrillah[17] dövründə Həccə getmişdim, Yaradan mənə Öz Evini ziyarət etmək imkanı vermişdi, onun övladını gördüm və bu əhvalatı Bağdadın qocalarından və ağsaqqallarından eşitdim.

Deməli, nə qədər bacarırsansa, yaxşılıq etməkdən əl çəkmə, camaata özünü yaxşılıq edən kimi tanıtdır, vədə xilaf olma, dildə bir şey deyib, ürəyində başqa şey tutma ki, buğda göstərib arpa satanlara oxşamayasan.

Bütün işlərdə ədalətli ol, çünki özü ədalətli olanın qazıya ehtiyacı olmaz.

Qəm və sevincini yalnız o adama de ki, qəminə qəmlənib, şadlığına şadlansın, qəm və şadlığını adamlar içərisində büruzə vermə, hər yaxşı və pis şey üçün tez şadlanıb kədərlənmə, belə iş uşaqlara yaraşar. Çalış hər xırda şey üstündə özündən çıxma. Böyük adamlar hər doğru və yalana görə təmkinliyi itirməzlər.

Nəticəsi şadlıq olan qəmi qəm, nəticəsi qəm olan şadlığı şadlıq hesab etmə.

Ümidsizlik baş verdikdə ümidini itirmə, çünki ümidsizlik ümidlə, ümid ümidsizliklə bağlıdır.

Dünyada bütün işlərin dəyişkən olduğunu bil. Nə qədər ki sağsan, haqqı inkar etmə. Kim səninlə höcətə başlasa, susmaqla onu susdur, çünki axmaqların cavabı susmaqdır.

Heç kəsin əməyini itirmə, hər kəsə özünə layiq haqq qazandır, xüsusilə öz qohum-qardaşının haqqını unutma, bacardıqca onlara yaxşılıq elə, ailə və tayfanızın qocalarının hörmətini saxla. Peyğəmbər (Allah ona xeyir-dua



versin) demişdir: „Peyğəmbər öz ümməti arasında necədirsə, ağsaqqal da öz tayfası arasında elədir". Lakin onlara çox da valeh olma ki, məziyyətlərini görə bildiyin kimi, eyiblərini də görə biləsən.

Başqasından təhlükə gözləyirsənsə, tez çalış ki, öz təhlükəsizliyini təmin edəsən. Təhlükə gözlədiyin adamdan „heç bir şey edə bilməz" deyə arxayın olma. „Heç nə olmaz" deyə zəhər içmək ağıllı iş hesab edilə bilməz.

Öz istedadınla qürrələnmə, dolanmaq üçün ağılsız və istedadsız olmaq lazımsa, ağılsız və istedadsız ol, belə olmaq lazım deyilsə, o zaman bir sənət öyrən, öyrənməkdən və yaxşı sözə qulaq asmaqdan ar etmə, beləliklə, sən arsızlıqdan qurtarmış olarsan.

Yaxşı və pisə fikir ver, insanların müsbət və mənfi cəhətlərini öyrən, onların nədən və nə qədər xeyir götürüb, ziyan çəkdiklərinə diqqət yetir və öz xeyrin üçün onlardan istifadə et. Bax gör insanları zərərə yaxınlaşdıran nədir, ondan qaç və ona yaxınlaş ki, o, insanları xeyrə yaxınlaşdırır.

Özünü elm və sənət əldə etməyə öyrət. Bilmədiyin şeyi öyrənməyə çalış. Bunun sənə iki faydası olar: ya bildiyin şeyi təcrübədən keçirmiş olarsan, ya bilmədiyin şeyi öyrənərsən.

Sokrat[18] demişdir: „Bilikdən daha zəngin xəzinə, pis xasiyyətdən daha rəzil düşmən ola bilməz, bilikdən daha böyük izzət, həyadan daha qəşəng zinət ola bilməz".

Deməli, oğlum, sən bilik yollarını tapmalısan, elə etməlisən ki, hansı vəziyyətdə olursan ol, bir saatın belə elm öyrənmədən boş keçməsin; axı biliyi nadanlardan da öyrənmək olar.

Əgər sən nadana qəlbinin gözü ilə baxıb, ağlının nəzəri ilə diqqət yetirsən, onun xoşagəlməz hərəkətlərini görərsən və bilərsən ki, nələri etmək lazım deyildir. İsgəndər[19] demişdir: „Mən xeyiri yalnız dostlardan deyil, düşmənlərdən də görürəm. Mən xoşagəlməz bir xəta etdikdə dostlar dostluq xatirinə onu ört-basdır edirlər ki, mən bilməyim, düşmənlər isə, əksinə, düşmənçilik üzündən açıb deyirlər. Mən də ondan xəbərdar olub, həmən pis işi bir daha təkrar etmirəm. Deməli, mən bu xeyiri dostdan deyil, düşməndən görmüş oluram". Sən də o biliyi alimdən deyil, cahildən öyrənmiş olarsan.

Elm və sənət öyrənmək, istər böyük olsun, istərsə kiçik, hamıya vacibdir, çünki insan öz tay-tuşları arasında üstünlüyü yalnız elm və sənətə görə əldə edə bilər. Tay-tuşlarda olmayan bir istedadı insan özündə gördükdə həmişə üstünlük hiss edir, camaat da onu başqalarından üstün tutur. Ağıllı adamlar bilik və istedadlarına görə tay-tuşlarından üstün tutulduqlarını gördükdə çalışırlar ki, öz bilik və istedadlarını daha kamil etsinlər. Deməli, insan belə edərsə, az keçməz ki, hamıdan böyük olar.

Bilik əldə etmək tay-tuş içərisində irəli getmək deməkdir, elm və sənətdən əl çəkmək isə geriliklə razılaşmaq deməkdir.

Bilik əldə edib sənət öyrənmək, bədəni tənbəllik xəstəliyindən qorumaq çox faydalıdır. Deyiblər ki, tənbəllik bədən üçün fəsaddır. Bədən sənin sözünə baxmırsa, ayıq ol, buna yol vermə, bil ki, bədən tənbəllik və rahatlığı sevdiyindən sənin sözünə baxmır. Bədənimizin hərəkəti təbii və özbaşına olmadığından və bədən istədiyi kimi deyil, əmr edildiyi kimi hərəkət etdiyindən nə qədər ki sən əmr etməmisən, heç vaxt sənin bədənin işləməyi arzu etməyəcək. Deməli, sən bədənini sözə qulaq asmağa və sənə tabe olmağa zorla məcbur etməlisən, çünki öz bədənini sözə baxmağa vadar edə bilməyənlər başqalarını da özlərinə tabe edə bilməzlər. Elə ki öz bədənini sənə tabe olmağa məcbur etdin, sonra sənət öyrənməklə hər iki dünyanın nemətinə sahib olarsan. Hər iki dünyanın neməti sənətdə, bütün sənətlərin açarı elm və tərbiyədədir. Xüsusilə, nəfsi tərbiyə etmək, təvazökarlıq, pəhrizkarlıq, düz danışmaq, təmiz ad çıxarmaq, başqalarına əziyyət verməmək və həyalı olmaq çox yaxşıdır.

Hərçənd həyalılıq haqqında hədisdə deyilibdir ki: „Həya imandan doğur", lakin çox yerdə utanmaq insana ziyan vurur. Elə utancaq olma ki, utancaqlıq üzündən vəzifəndə ehmallıq edib, öz işlərinə zərər vurasan. Çox zaman elə yerlər olur ki, məqsədə çatmaq üçün həyasızlıq eləmək lazım gəlir. Lakin həmişə yalan danışmaq, rüsvayçılıq etmək, sırtıq olmaq kimi hərəkətlərdən utan, düz danışmaq, yaxşı işlər görməkdən isə utanma. Çox adam ancaq utancaqlıq üzündən arzusuna çata bilmir.

Əgər utanmaq imandan doğursa, yazıqlıq da utancaqlıqdan doğur, ona görə də utanmağın və utanmamağın hər ikisinin yerini bilmək

lazımdır, məqsədə hansı uyğundursa, onu etmək lazımdır. Deyiblər ki: „Yaxşının müqəddiməsi utancaqlıqsa, pisin də müqəddiməsi utancaqlıqdır“.

Nadan adamı adam hesab etmə, əməlsiz alimi isə alim. Elmsiz pəhrizkarı zahid bilmə, cahil adamla isə dostluq etmə. Xüsusilə özlərini ağıllı hesab edən və öz avamlığı ilə lovğalanan axmaqlarla oturub-durma. Müdrik adamlardan başqa heç kimlə ünsiyyət saxlama, çünki yaxşılarla ünsiyyət saxlayanın adı da yaxşıya çıxar. Görmürsənmi, yağı küncütdən alırlar, lakin küncüt yağını bənövşə, ya qızılgüllə qarışdırdıqda və ya bir müddət onlarla bir yerdə saxladıqda yaxşıların kəraməti sayəsində artıq ona küncüt yağı deyil, qızılgül yağı və ya bənövşə yağı deyirlər?!

Yaxşıların məsləhətlərini və onların yaxşı işlərini unudub naxələf çıxma. Möhtaca etdiyin yaxşılığı başına vurma. Yaxşılığı başa vurmaq yaxşılıq etməmək kimi bir şeydir. Xoşxasiyyət və insanpərvər olmağı özünə peşə et, pis adətlərdən qaç və ziyankar olma, ziyankarlığın səmərəsi məhrumiyyət, məhrumiyyətin meyvəsi ehtiyac, ehtiyacın bəhrəsi alçalmaq olar. Çalış səni tərifləyən xalq olsun, bir neçə cahil olmasın, çünki cahillərin mədh etdiyi, alimlər içərisində pislənir.

Hekayət. Deyirlər ki, bir gün Əflatun[20] şəhərin adlı-sanlı adamları ilə bir yerdə oturub söhbət edirdi. Birisi onun görüşünə gəlib salam verdi, yanında oturub ordan-burdan danışdıqdan sonra dedi: Ey filosof, bu gün filankəsi gördüm, sənin barəndə danışır və tərifləyərək deyirdi: „Əflatun çox böyük filosofdur, indiyə kimi onun kimisi olmayıb və olmayacaqdır. İstədim onun tərifini sənə çatdıram“.

Filosof Əflatun bu sözü eşitcək başını aşağı salıb ağladı, bərk qanı qaraldı, halı pozuldu.

O kişi dedi: „Ey filosof, mən sənə nə dedim ki, halın belə pozuldu?“ Filosof Əflatun dedi: „Ey xacə, şəxsən sən mənə elə bir ağır söz demədin, lakin bundan daha ağır müsibət olarmı ki, nadanın biri məni tərifləsin, mənim gördüyüm iş ona xoş gəlsin? Bilsəydim nə nadanlıq etmişəm ki, onun təbiətinə yaxın olmuşam, tövbə edib o işdən əl çəkərdim. Halımın pozulması ondadır ki, mən hələ də nadanam, çünki nadanların təriflədikləri adamlar yalnız nadanlar olar“.

Bu barədə bir hekayət də yadıma düşdü.

Hekayət. Deyirlər ki, Muhamməd Zəkəriyya ər-Razi[21] bir dəstə şagirdi ilə gəzərkən bir dəliyə rast gəlir. Dəli Zəkəriyyadan başqa heç kəsə baxmır, onu diqqətlə nəzərdən keçirdikdən sonra üzünə gülür. Muhamməd Zəkəriyya geri dönüb evinə gəlir, əmr edir ki, əftimun[22] dəmləsinlər və onu içir. Şagirdləri soruşurlar: „Ay müəllim, bu otun dəmini nə üçün indi içdiniz?" Deyir: „O dəli güldüyü üçün. Əgər o məndə öz halına oxşar bir şey görməsəydi, üzümə gülməzdi, deyiblər: „Hər quş öz tayı ilə uçar!"

Bundan əlavə, tündxasiyyət olub özündən tez çıxmağa adət etmə, bir az həlim olsan yaxşıdır. Lakin o qədər yumşaq da olma ki, səni hop eləyib udsunlar. O qədər sərt də olma ki, sənə salam verməyə də qorxsunlar. Hamı ilə yola getməyi bacar, bu üsulla həm dostdan, həm də düşməndən istifadə edib arzuna çata bilərsən. Heç kəsi pislik etməyə öyrətmə, pislik öyrətmək pislik etmək kimi bir şeydir. Əgər günahsız olaraq biri səni incitsə, sən çalış onu incitmə, çünki özgəni incitməmək insanlığın bir hissəsidir. Deyiblər ki, əsl insanlıq camaatı incitməməkdir. Deməli, insan olmaq istəyirsənsə, gərək adam incidən olmayasan, adamlarla yaxşı rəftar edəsən. Gərək insan aynaya baxsın, görünüşü yaxşıdırsa, işi də görünüşü kimi yaxşı olmalıdır, çünki gözələ çirkinlik yaraşmaz, buğdadan arpa, arpadan buğda bitməməlidir. Bu barədə mənim bir dübeytim də vardır:

Gözəlim, bizə hey pislik edirsən,
Neçin bəs yaxşılıq umursan bizdən?!
Get, əzizim, get ki, səhv eyləyirsən -
Arpa əkibsənsə, buğda biçməzsən!

Aynaya baxdıqda özünü kifir görsən, yenə yaxşılıq et, çünki çirkinlik etsən, kifirliyi artırmış olarsan. Bu isə çox pis şeydir. Bir çirkinlik üstünə bir də çirkinlik gəlsən, bir yerdə iki çirkinlik olar.

Səmimi sözə qiymət verən, dünyagörmüş, sınaqdan çıxmış dostların nəsihətinə qulaq as və öz məşvərətçilərinlə həmişə təklikdə məsləhətləş, çünki sənin onlardan ala biləcəyin fayda yalnız təklikdə ola bilər. Sən mənim

bu dediklərimi oxuyub onlara əməl etsən, nə qədər qabil olduğunu dərk edərsən, lakin bunu anlayandan sonra öz bilik və istedadınla lovğalanma.

Hər şeyi öyrənib bilsən də, özünü bilməyən hesab et, çünki sən yalnız o zaman alim hesab edilə bilərsən ki, hələ də özünün nadan olduğunu başa düşəsən. Bu barədə belə bir hekayət də vardır.

Hekayət. Eşitmişəm, Xosrovun[23] hakimiyyəti və Bozorgmehrin[24] vəzirliyi dövründə Rumdan çox savadlı bir elçi gəlir. Xosrov o zamankı fars şahlarının adətinə görə taxta oturub elçini qəbul edir. Elçi öz etibarnaməsini təqdim etdikdən sonra şah da özünün Bozorgmehr kimi vəziri olduğunu göstərmək üçün etibarnaməni onun vasitəsilə alır və söhbət zamanı elçinin yanında Bozorgmehrə deyir: “Filankəs, dünyada nə varsa, hamısını sən bilirsən...” və istəyir o desin: “Bəli, bilirəm”, lakin Bozorgmehr deyir: “Xeyr, hökmdarım, bilmirəm”. Xosrov pərt olur, elçidən utanır və soruşur: “Bəs hər şeyi bilən kimdir?” Bozorgmehr deyir: “Hər şeyi hamı birlikdə bilir, hamı isə hələ anadan olmamışdır”.

Ey oğul, sən özünü hamıdan bilikli hesab etmə, elə ki özünü bilməyən hesab etdin, bilən olarsan, əsl bilən ona deyərlər ki, bilmədiyini öyrənə.

Sokrat bütün böyüklüyünə baxmayaraq demişdir: “Mən özümdən başqa böyük və ağıllı adamların mənə tənə vuracaqlarından və “Sokrat dünyanın bütün biliklərini öyrənmək iddiasında olmuşdur” deyəcəklərindən qorxmasaydım, mütləq deyərdim ki, mən heç nə bilmirəm və öyrənməyə də acizəm, lakin bunu deyə bilmirəm, çünki bu mənim tərəfimdən çox böyük iddia olardı”.

Əbu Şükur Bəlxi[25] bir beytdə özünün çox böyük alim olduğunu tərifləyir, o beyt budur:

O yerə çatmışdır indi elmim ki,
Anlayıb bilmişəm - hələ nadanam.

Ey oğul, nə qədər böyük alim olsan da, öz biliyinlə qürrələnmə, öhdəsindən gələ biləcəyin işlərdə də öz rəyin haqqında böyük fikirdə

olma, özləri haqqında böyük fikirdə olanlar həmişə peşmançılıq çəkərlər. Başqaları ilə məsləhətləşməyi özünə əskiklik hesab etmə, ağıllı qocalar və sınanmış dostlarla məsləhətləş. Bütün hikmət və peyğəmbərliyinə, müəlliminin və işlərini sahmana salanın Allah-Taalanın Özü olmasına baxmayaraq, Allah yenə də Muhammədə (s.) bununla kifayətlənməyə razılıq verməmiş və "işlərində onlarla məsləhət et" demişdir. Demiş ki: "ya Muhamməd, öz əshabə və dostlarınla məsləhət et, çünki sizdən hərəkət, Allah olduğum üçün isə, Məndən bərəkətdir".

Bilməlisən ki, bir adamın rəyi iki adamınkı kimi ola bilməz, bir göz iki gözün gördüyünü görə bilməz. Görmürsənmi, təbib xəstələndikdə və xəstəliyi şiddətləndikdə, nə qədər güclü həkim olur olsun, yenə də özü ilə kifayətlənməyib başqa bir həkimi çağırar, onun məsləhəti ilə müalicə olunar.

Yaxın bir adamın sənə işi düşsə, ona kömək etməyə çalış, rəqib və düşmənin olsa belə, yardım əlini və malını ondan müzayiqə etmə. İşi düzəlsə, etdiyin kömək onun sənə qarşı məhəbbətini artırar və ola bilər ki, o düşmən dönüb dost olsun. Görüşünə gələn söz ustalarına hörmət edib onlara bəxşiş ver ki, sənin görüşünə həris olsunlar (yəni tez-tez gəlsinlər). Adamların ən yazığı odur ki, alim olsa da, heç kəs onun görüşünə getməsin.

Camaat ilə mehriban danış və qaşqabağını turşutma. Qaşqabaqlı adam yaxşı sayılmaz. Adam nə qədər hikmət sahibi olsa belə, qaşqabağını tökdükdə onun nə hikmətində hikmətlik qalar, nə də sözündə gözəllik. Xülasə, bil ki, danışmağın qaydası necədir və nədir.






# NATİQLİK MƏHARƏTİNİ ARTIRMAQ HAQQINDA

Ey oğul, insan söz anlamağı və söz deməyi bacarmalı, pis adamlardan isə dilini saxlamalıdır. Ey oğul, sən doğru danışan ol, özünü doğru danışan tanıt ki, işdir bir gün zərurət üzündən yalan deməli olsan, doğru qəbul etsinlər. Lakin yalana oxşar doğru danışma. Doğruya oxşar yalan, yalana oxşar doğrudan yaxşıdır, çünki o yalana inanarlar, bu doğruya yox. Qəbul edilməyən doğrulardan qaç ki, rəhmətlik əmir Bus-Suvar[26] Fazi Şapur ibn əl-Fəzl ilə mənim başıma gələn əhvalat sənin də başına gəlməsin.

Hekayət. Ey oğul, bil ki, mən əmir Bus-Suvar dövründə Həccdən qayıtdığım il Gəncəyə cihad davasına getmişdim. Mən Hindistan cihadında çox iştirak etmişdim, indi də Rum cihadında iştirak etmək istəyirdim. Əmir Bus-Suvar böyük şah idi, dediyini eləyən, müdrik, ləyaqətli, ədalətli, şücaətli, fəsahətli, dini sevən, uzaqgörən idi, yəni şahlara xas olan bütün müsbət xüsusiyyətlər onda var idi, çox ciddi adam idi, zarafatı xoşlamazdı.

Məni görəndə çox hörmət etdi, mənimlə söhbətə başlayıb cürbəcür şeylər danışdı, mən də ona qulaq asırdım, lazım olan cavablar verirdim. Cavablarım onun çox xoşuna gəldi, mənə çoxlu kəramətlər göstərdi və geri qayıtmağa qoymadı. Mənə o qədər lütfkarlıq etdi ki, axırda mən də ürəkdən meylimi ona saldım, bir neçə il Gəncədə qaldım. Mən həmişə onun qonaqlıqlarında olurdum, şərab məclisində iştirak edirdim. O məndən müxtəlif şeylər soruşur, keçmiş şahların tarixi ilə maraqlanır, dünyanın vəziyyəti haqqında suallar verirdi. Bir gün bizim vilayət haqqında söz düşdü, hər yerin əcaib-qəraib adətlərindən soruşmağa başladı. Mən dedim: "Gürganın[27] yaxınlığında, dağın ətəyində bir kənd, bu kənddən uzaqda isə bir bulaq vardır. Kəndin arvadları su gətirmək üçün bir yerə toplanır, sonra həmin bulağa gedərək sərniclərini su ilə doldurur, başlarına qoyub qayıdırlar. Qadınlardan biri qabaqda sərnicsiz gedir, yola diqqətlə baxır. O yerlərdə təsadüf edilən yaşıl bir qurd (cücü) var, ona rast gələndə götürüb kənara atır ki, su aparan qadınlar onu tapdalamasınlar. Kim həmən qurdu tapdalayıb öldürsə, başında olan sərnic suyu dərhal iylənir, ona görə suyu yerə boşaldıb geri dönmək, sərnici pak eyləyib yenidən su ilə doldurmaq lazım gəlir".

Mən bu sözü dedikdə əmir Bus-Suvar üz-gözünü turşutdu, başını yırğaladı, bir neçə gün mənimlə əvvəlki kimi mehriban olmadı. Bir dəfə Piruzan Deyləmi[28] mənə dedi: "Əmir səndən gileylənib deyir ki, filankəs ciddi adama oxşayır, ancaq bilmirəm nə üçün mənə uşaq-uşaq sözlər danışır, onun kimi bir adam mənim kimi birisinə nə üçün yalan deyir?"

Mən o saat Gəncədən Gürgana bir qasid göndərdim və əmr etdim ki, belə bir kəndin həmən yerdə olduğu və



həmən cücü əhvalatının düzlüyü haqqında qazi, rəis, xətib, üləma və bütün etimadlı adamlar tərəfindən imza edilmiş bir arayış gətirsin. Dörd ay zəhmətdən sonra mən həmin arayışı alıb əmir Bus-Suvarın qarşısına qoydum. Oxuyub güldü və dedi: "Mən özüm bilirəm ki, sənin kimi adamdan yalan çıxmaz, xüsusilə, mənim yanımda, lakin elə də doğru danışmaq lazım deyil ki, inandırmaq üçün dörd ay zəhmət çəkib iki yüz mötəbər adamın imzası ilə sənəd hazırlayasan!"

Onu da bilməlisən ki, söz dörd cürdür: birini nə bilərlər, nə deyərlər, birini həm bilərlər, həm də deyərlər, birini deyərlər, lakin bilməzlər, birini bilərlər lakin deməzlər. Bilinməyən və deyilməyən sözlər dinə ziyanı olanlardır, bilmək lazım olmayıb deyiləsi sözlər Haqq-Taalanın Kitabında, Peyğəmbərin hədislərində, elmi kitablarda, üləmanın əsərlərində olan sözlərdir, çünki belə sözlərin şərhi yalnız təqliddən ibarət olar, onlardakı ziddiyyət, ixtilaf və çətinlikləri açıb göstərmək vəhydən xəbər vermək və ona bənzər kimi bir şeydir. Həm bilməli, həm deməli sözlərə gəldikdə, onlar həm dinə, həm dünyaya lazım olan, yəni hər iki dünyada işə yarayan sözlərdir. Belə sözlərin həm danışana, həm də dinləyənə faydası olar. Bilib deyilməyəsi sözə misal onu göstərmək olar ki, böyük bir adamın və ya bir dostun sənin yanında bir eybi ola, ya ehtimal üzündən və ya işin gedişindən elə güman edəsən ki, o, şəriətə düz gəlmir, desən, ya həmin böyük adamın qəzəbinə səbəb olarsan, ya o dostuna ziyan vurarsan, ya qara camaatın tənəsinə məruz qalarsan. Belə bir söz, bilib deyiləsi mümkün olmayan sözdür. Dediyim bu dörd növ sözün ən yaxşısı odur ki, həm bilmək olar, həm də demək. Lakin bu dörd növ sözün hərəsinin iki üzü vardır: biri gözəl, biri çirkin. Camaat arasında danışarkən gözəllərini danış ki, xalqın xoşuna gəlsin və qabiliyyətlərinin dərəcəsi məlum olsun. Böyük və ağıllı adamları sözlərinə görə tanıyarlar, sözləri adamlara görə yox. Hər adam öz sözünün altında gizlənmişdir. Əli Əmirəlmöminin belə demişdir: "Hər kəs öz dilinin altında gizlənmişdir". Söz var, bir cürə deyərsən,insanın ruhu təzələnər, başqa cür deyərsən, adamın qəlbi kədərlənər.



Hekayət. Eşitmişəm, bir dəfə Harun ər-Rəşid[29] yuxuda görür ki, bütün dişləri tökülübdür. Səhəri yuxuyozanı çağırıb soruşur:"Bu yuxunun mənası nədir?" Yuxuyozan deyir: "Əmirəlmöminin ömrü uzun olsun, bütün qohum-əqrəban səndən qabaq öləcək, belə ki, heç kəs qalmayacaqdır". Harun ər-Rəşid deyir: "Bu yuxuyozana yüz çubuq vurun, o belə bir ağır xəbəri nə üçün mənim üzümə dedi, bütün qohum-qardaşım məndən qabaq öləcəksə, onda mən kimə lazımam?!"

Əmr etdi, başqa yuxuyozanı çağırdılar, yuxunu ona danışdı.Yuxuyozan dedi: "Əmirəlmöminin gördüyü bu yuxu göstərir ki,Əmirəlmöminin bütün qohum-əqrəbasından çox yaşayacaqdır". Harun ər-Rəşid dedi: "Ağlın hökmü eynidir, təbir həmin təbirdir, lakin ibarələrdə böyük fərq vardır". Əmr etdi, haman kişiyə yüz dinar versinlər.



Deməli, sözün dalına-qabağına fikir verməк lazımdır, dediyin sözü ən gözəl tərzdə deməк lazımdır ki, həm söz anladan olasan,həm söz anlayan. Əgər dediyin sözü anlamasan, səninlə tutuquşunun nə fərqi var? O da söz deyə bilir, lakin söz anlayan deyil. Söz anlayan ona deyərlər ki, onun da sözünü başqaları anlasın, beləlari ağıllı adamlar hesab edilər, əks halda insan deyil, heyvan zümrəsindən sayılarlar. Sözü böyük hesab et, söz göydən enmişdir, onun qədrini bil, yerində deyilməli sözü saxlama, de, lakin yersiz danışmaqla da onu qiymətdən salma ki, hikmətə zülm etmiş olmayasan!

Nə desən düzünü de, mənasız müddəalarda olma. Hər müddəa üçün isə çox da sübuta can atma. Bilmədiyin elmdən dəm vurma, o elmdən çörək gözləmə, çünki sən elə elmdən, elə minbərdən məqsədinə çata bilməzsən, yalnız bildiyin elmdən məqsədə çata bilərsən. Bilmədiyin şeydən heç şey əldə edə bilməzsən.

Hekayət. Eşitmişəm, deyirlər ki, Xosrov (Ənuşirəvan) dövründə bir qadın Bozorgmehrin yanına gəlib bir məsələ haqqında ondan söz soruşur. Bu zaman Bozorgmehrin başı qarışıq imiş, deyir: „Ey qadın, sən soruşduğun şeyi mən bilmirəm". Qadın deyir: „Bunu

bilmirsənsə, bəs nəyə görə bizim hökmdarın çörəyini yeyirsən?“ Bozorgmehr deyir: „Bildiyim şeyə görə. Şah yalnız bildiyim şeyə görə mənim haqqımı verir. Bacarırsansa, gəl özün hökmdardan soruş, gör o bilmədiyim şey üçün mənə bir şey verir, ya yox?!“

Lakin işlərdə həddini aşma, ifratı zəhərli hesab et, hər məsələdə orta olmağa çalış. Bizim şəriət sahibi deyibdir: „İşlərin xeyirlisi ortada olanıdır“. Söz deyib iş görməkdə tələsmə. Mən ağır oturub yavaş tərpənmək üstə danlanmağı, yüngüllük edib tələsmək üstə təriflənməkdən üstün tuturam. Sənin yaxşı və pisliyinə dəxli olmayan sirləri öyrənməyə çalışma, özündən başqa heç kəsə sirr demə, desən, onu artıq sirr hesab etmə. Söz daxilən yaxşı olsa da, xaricən onu pisə yoza bilərlər, çünki insanların çoxu bir-birindən bədgüman olar. Hər işdə sözün, əməlin, vəziyyətin imkanına münasib olmalıdır. Hər nə desən, elə de ki, hamı sənin sözlərinin doğruluğunu təsdiq etsin.

Söz ustaları yanında doğru adam kimi tanınsan da, özünü hörmətdən salmaq istəmirsənsə, heç bir şey haqqında şahid olmağa razılıq vermə. Əgər versən, canfəşanlıq göstərmə və könüllü olaraq şahidlik etmə. Hər deyilən sözə qulaq as, lakin əməl etməyə tələsmə, fikirləş, danış. Dediyindən peşman olmamaq üçün əvvəl düşün, sonra sözü ağzından çıxar. Əvvəlcədən düşünə bilmək bacarmağa bərabərdir.

İşinə yarasa da, yaramasa da, heç bir sözü dinləməkdən darıxma, beləliklə, qoyma söz qapıları sənin üzünə bağlansın, sözün faydasından məhrum olasan. Heç vaxt soyuq danışma, soyuq danışmaq elə toxumdur ki, onun meyvəsi düşmənlik olar.

Alim olsan, özünü nadan hesab et ki, bilik qapıları sənin üzünə açılsın. Nə qədər ki, sözün eybini və hüsnünü anlamayıbsan, heç vaxt onu kəsmə və ya tərifləmə. İstər böyük olsun, istərsə kiçik, hər kəslə öz dili ilə danış ki, hikmətdən xaricə çıxmayasan və dinləyicini darıxdırmayasan. Lakin danışarkən səndən dəlil və sübut tələb edilərsə, belə yerdə elə danışmalısan ki, onları razı sala biləsən və onların arasından canını salamat qurtara biləsən.

Əgər sən söz ustadı olsan, özünü bildiyindən az göstərməyə çalış ki, söhbət vaxtı piyada olduğun meydana çıxmasın. Çox bilən, lakin az

danışan ol, az bilib çox danışan olma. Deyiblər ki, susmaq salamatlığa, çox danışmaq isə ağılsızlığa bərabərdir. Çox danışan adam ağıllı olsa da, onu ağılsız hesab edərlər, az danışan ağılsız olsa da, az danışdığı üçün camaat onu ağıllı hesab edər. Nə qədər düz, təmiz və mömin adam olsan da, özünü öymə, çünki sənin özün haqqındakı şahidliyini heç kəs qəbul etməz, çalış səni xalq tərifləsin, nəinki özün özünü. Çox bilirsənsə, yalnız kara gələnini, işə yarayanını de ki, zənganlı ələvi kimi sənə də ziyan gətirməsin.

Hekayət. Eşitmişəm, deyirlər ki, Sahibin[30] dövründə Zənganda bir qoca var idi. Bu qoca adlı-sanlı Şafei[31] (Allah ona rəhmət eləsin) səhabələrindən idi. Özü din xadimi, müfti, vaiz olmaqla qazi yanında müşavirlik də edərdi. Zəngan rəisinin də ələvi (yəni Əli nəslindən olan) bir oğlu var idi, o da vaiz və qazi yanında müşavir idi. Bunlar hər ikisi həmişə bir-birini ifşa edər və minbərdən bir-birinə ağır sözlər deyərdilər. Bir gün bu ələvi minbərdən həmən qocanı „kafir" adlandırdı. Xəbəri qocaya çatdırdılar, o da minbərdən haman cavanı „haramzadə" adlandırdı. Bu xəbəri də ələviyə çatdırdılar. Bərk özündən çıxdı, tez yerindən qalxıb Rey[32] şəhərinə, Sahibin yanına getdi, həmən qocadan şikayət edib ağladı və dedi: „Sizin dövrünüzdə yaramaz ki, Peyğəmbər övladını „haramzadə"adlandırsınlar". Sahibin həmin qocaya acığı tutdu, qasid göndərib onu Reyə çağırtdırdı. Şəriət üləması və seyidlərlə birlikdə məhkəmə düzəldib qocaya dedi: „Ey şeyx, sən Şafei (Allah ona rəhmət eləsin) imamlarının adamlarındansan, özün də alimsən, bir ayağın buradadır, bir ayağın gorda, heç sənə yaraşarmı, Peyğəmbər övladına „haramzadə" deyəsən? İndi ki bunu deyibsən, gərək sübut edəsən, yoxsa sənə şəriətin vacib bildiyi elə bir cəza verəcəyəm ki, xalq bundan ibrət alsın və heç kəs belə ədəbsizlik və hörmətsizliyə cəsarət etməsin". Qoca dedi: „Sözümün doğruluğuna sübutum həmin ələvinin özüdür, onun üçün onun özündən daha inandırıcı sübut ola bilməz. Lakin mənim sözümə görə, o, halalzadə və təmizdir, öz sözünə görə isə haramzadədir". Sahib dedi: „Bunu necə sübut edə bilərsən?" Qoca dedi: „Bütün Zəngan bilir ki, onun anasının kəbinini atasına mən kəsmişəm, o isə məni minbərdən kafir adlandırmışdır. Əgər o bu sözü ürəkdən deyirsə, o zaman kafirin kəsdiyi

kəbin haramdır, bu halda, onun öz dediyinə görə, o, haramzadədir. Yox, əgər ürəkdən demirsə, deməli yalançıdır, ona tənbeh lazımdır". Sonra qoca əlavə etdi: „Hər halda ya yalançıdır, ya haramzadə. Peyğəmbər övladı isə yalançı olmamalıdır, necə istəyirsiniz, onu elə də adlandırın, şübhəsiz ki, bu ikisindən birisini qəbul etmək lazım gələcək".

O cavan bərk tutuldu, heç bir cavab tapa bilmədi. Bu sözü fikirləşməyib dediyi üçün ağrısını çəkdi.

Ey oğul, söz danışan ol, söz güləşdirən olma. Söz güləşdirmək divanəlik kimi bir şeydir. Hər kimlə danışsan, diqqət et, gör o sənin sözlərinin müştərisidir, ya yox. Əgər yağlı müştəri tapsan, əl çəkmə, sözlərini sat, yox, müştəri deyilsə, o sözü saxla, onun xoşuna gələn başqa şeylər danış, qoy dönüb sənin müştərin olsun. Lakin çalış adamla adam ol, insanla insan, çünki adam başqadır, insan başqa. Qəflət yuxusundan ayılanlar xalqla mən dediyim kimi rəftar edər.

Bacardıqca söz deyib söz eşitməkdən çəkinmə, çünki insanlar söz eşitmək vasitəsilə söz deməyi bacaran olarlar. Sübut: əgər uşağı anasından ayırıb zirzəmiyə salsalar, orada süd verib böyütsələr, anası və dayəsi onunla danışmasalar, ona nəvaziş etməsələr, o heç kəsin səsini eşitməsə, böyüdükdə lal olar, lakin bu adam uzun müddət eşidib öyrəndikdən sonra dilə gəlib danışar. Başqa bir sübut: anadan kar doğulan lal olar. Görmürsənmi, lalların hamısı kardırlar?

Deməli, sözlərə qulaq as və yadında saxla, xüsusilə hökmdarın və alimlərin dedikləri hikmətli sözləri. Demişlər ki, alimlərin, hökmdarların nəsihətlərinə qulaq asmaq ağlın gözünü işıqlandırar, çünki ağıl gözünün tutiya[33] və sürməsi hikmətdir. Bu dediyim sözlərə canla-başla qulaq asıb onlara etiqad etmək lazımdır.

İndi belə mənalı və nadir sözlərdən bəzisi yadıma düşdü. Bu sözlər əcəm şahlarının şahı Ənuşirəvan Adilin dilindən deyilmişdir, mən onları bu kitabda ona görə xatırladıram ki, sən oxuyub öyrənəsən və onlara əməl edəsən. O padşahın sözlərinə və məsləhətlərinə əməl etmək bizə daha vacibdir, çünki biz o şahların nəslindənik.

Bil, mən keçmiş xəlifələr haqqındakı xəbərdə belə oxumuşam ki, xəlifə Məmun[34] (Allah ona rəhmət eləsin) Ənuşirəvanın məzarını

ziyarətə getmişdi. Onun dəxməsinə[35] çatanda gördü ki, bədəni taxt üzərində çürüyüb torpağa dönmüşdür. Onun taxtının üzərində, dəxmənin divarında pəhləvi dilində qızıl su ilə yazılmış bir neçə sətir yazı var idi. Məmun əmr etdi, pəhləvi dili bilən alimləri gətirdilər. Onlar həmən yazıları oxudular və ərəb dilinə tərcümə etdilər. Bu ərəb tərcüməsi əcəmdə məşhurdur. Birinci növbədə deyilirdi: „Nə qədər ki, mən sağ idim, Allahın bütün bəndələri məndən kömək alırdılar, elə bir adam olmamışdır ki, mənim qapıma gəlməsin, mənim nemətimdən bir qismət aparmasın. Ölüm qarşısında aciz qaldığım zamanda isə bu sözləri divara yazdırmaqdan başqa heç bir çarə tapmadım. Dedim ki, əgər bir adam bir vaxt məni ziyarətə gəlsə, bu yazıları oxuyub yadda saxlasa, qoy o da mənim mərhəmətimdən məhrum olmasın, bu nəsihət və öyüdlər o adamın ayaq zəhmətinin mükafatı olsun“.

Bu nəsihətlər aşağıdakılardır.






# NUŞİRƏVAN ADİLİN NƏSİHƏTLƏRİNİN XATIRLADILMASI HAQQINDA

Əvvəl demişdir: „Nə qədər ki gecə-gündüz gəlib-gedir, illərin dəyişməsinə təəccüb etməyin“.

Və demişdir: „İnsan bir dəfə peşman olduğu işdən bir daha peşman olmamalıdır“.

Sonra demişdir: „Həyatı arzu etdiyi kimi keçməyən adam nə üçün özünü diri hesab edir?

„Sonra demişdir: „Sənin haqqında pis danışanı onu sənə xəbər gətirəndən daha tez bağışla!“

Sonra demişdir: „Faydasız qulaq asan adamın başı başsağlığı verilən adamınkından daha çox ağrıyar“.

Sonra demişdir: „Ziyan dəyənlər içərisində ən çox ziyan çəkən ziyanını gözü ilə görəndir“.

Sonra demişdir: „Alınıb-satılan qul öz qarnının qulu olan adamdan daha azaddır“.

Sonra demişdir: „Elmi olub ağlı olmayan adama elm əziyyət verər“.

Sonra demişdir: „Həyatdan dərs ala bilməyən adama heç kəs dərs verməməlidir, çünki əməyi hədər gedər“.

Sonra demişdir: „Nadana hər şeyi qorumaq özünü öz nadanlığından qorumaqdan daha asandır“.

Bir də demişdir: „İstəyirsən xalq səni tərifləsin, sən də xalqı təriflə“.

Sonra demişdir: „İstəyirsən sənin xalqa sərf etdiyin əmək hədər getməsin, xalqın sənə sərf etdiyi əməyi hədər etmə!“

Sonra demişdir: „Dostunun az olmasını istəmirsənsə, kin saxlayan olma!“

Sonra demişdir: „Tez-tez kədərlənmək istəmirsənsə, paxıl olma“.

Bir də demişdir: „İncidilmək istəmirsənsə, özünə rəva bilmədiyini başqasına da rəva görmə“.

Sonra demişdir: „İstəyirsən ki, asudə yaşayasan, işlərini hadisələrin gedişinə uyğun qur“.

Sonra demişdir: „İstəmirsən ki, sənə divanə desinlər, tapılmayan şeyi axtarma“.

Sonra demişdir: „Həya-abırla yaşayıb dolanmaq istəyirsənsə, başqalarını rüsvay etmə“.

Sonra demişdir: „Aldanmaq istəmirsənsə, görülməmiş işi görülmüş hesab etmə“.

Sonra demişdir: „İstəyirsən ki, sirrinin üstü açılmasın, başqalarının sirrini açma“.

Sonra demişdir: „Dalda ələ salınmaq istəmirsənsə, əlin altında işləyənlərlə mülayim dolan“.

Sonra demişdir: „Uzun müddət peşman olmaq istəmirsənsə, nəfsinə tabe olma“.

Sonra demişdir: „Zirək olmaq istəyirsənsə, öz-üzünü başqalarının aynasında gör“.

Sonra demişdir: „Qorxusuz yaşamaq istəyirsənsə, başqalarına yamanlıq etmə".

Sonra demişdir: „İstəyirsən sənin qədrini bilsinlər, başqalarının qədrini bil".

Sonra demişdir: „İstəyirsən xalq səni ağıllı hesab etsin, ağılsız adama sirr vermə".

Sonra demişdir: „İstəyirsən camaatdan üstün olasan, duz-çörək verən ol".

Sonra demişdir: „İgidliyini xalqı incitməkdə görən adamı özünə düşmən say".

Sonra demişdir: „Sənin düşmənlərinlə dostluq edənə dost demə".

Sonra demişdir: „İstedadsız adamla dostluq etmə, istedadsız adam nə dostluğa yarayar, nə düşmənçiliyə.

Sonra demişdir: „Özünü alim sayan nadandan uzaq gəz".

Sonra demişdir: „Ədalətli ol ki, ədalət məhkəməsinə işin düşməsin".

Sonra demişdir: „Haqq acı olsa da, onu dinləmək lazımdır".

Sonra demişdir: „İstəyirsən düşmən sənin sirrini bilməsin, onu dosta demə".

Sonra demişdir: „Xırdaçılıq edən və böyük ziyan verən olma".

Sonra demişdir: „Ləyaqətsiz adamları diri hesab etmə".

Sonra demişdir: „Sərvəti olmadan dövlətli olmaq istəyirsənsə, gözü tox ol".

Sonra demişdir: „Hədərə alma ki, hədərə də satasan".

Sonra demişdir: „Tay-tuşa möhtac olmaqdansa, ölmək yaxşıdır".

Sonra demişdir: „Əclaf adamın çörəyi ilə dolanmaqdansa, acından ölmək yaxşıdır".

Sonra demişdir: „Hər düşündüyünü etibarsız adama demə, lakin etibarlı adamdan da gizlətmə".

Sonra demişdir: „Özündən aşağı adama möhtac olmaq böyük müsibətdir; suda boğulmaq alçaq adamdan kömək ummaqdan yaxşıdır".

Sonra demişdir: „Bu dünya üçün çalışan təvazökar fasiq[36] o dünya üçün çalışan təkəbbürlü abiddən[37] yaxşıdır".

Sonra demişdir: „Ən nadan adam odur ki, kiçiklikdən böyüklüyə çatana yenə də kiçik kimi baxa“.

Sonra demişdir: „Biri bilmədiyi şeyin doğruluğunu iddia edib sonradan onun yalan olduğunu etiraf edirsə, bundan böyük rüsvayçılıq olmaz „.

Sonra demişdir: „Ən səfeh adam odur ki, nağdı nisyəyə dəyişə“.

Sonra demişdir: „Ən alçaq adam odur ki, birinin ona ehtiyacı ola, onun isə imkanı olduğu halda kömək etməyə“.

Sonra demişdir: „İstəyirsən ki, ədalətlilər sırasında adın çəkilsin, sənə tabe olanları imkanın daxilində yaxşı saxla“.

Sonra demişdir: „İstəyirsən ki, sənin adını nəciblər sırasındaçəksinlər, tamahkar olma və tamahkarlığı yaxına buraxma“.

Sonra demişdir: „İstəyirsən qara camaat səni pisləməsin, onların işini təriflə“.

Sonra demişdir: „İstəyirsən ürəklərdə özünə yurd salıb seviləsən və xalq sənə nifrət etməsin, xalqın xeyrinə danış“.

Sonra demişdir: „İstəyirsən ki, xalq arasında ən yaxşı və ən bəyənilmiş adam olasan, özünə məsləhət bilmədiyini başqalarına da məsləhət görmə“.

Sonra demişdir: „Adamların ən yaxşısı olmaq istəyirsənsə, heç şeyi xalqdan əsirgəmə“.

Axırda demişdir: „İstəyirsən ki, dilin uzun olsun, əlini gödək et“.

Nuşirəvan Adilin öyüd və nəsihətləri bunlardan ibarətdir. Ey oğul, oxuyarkən, bu sözlərə xor baxma, bunlardan həm hikmət iyi gəlir, həm hökmdarlıq, çünki bunlar həm həkimlərin (hikmət sahiblərinin) sözüdür, həm hakimlərin. Bunların hamısını öz malın et. İndi nə qədər ki cavansan, öyrən, qocalanda qulaq asmaq istəməyəcəksən. Çünki qocalar elə şeylər bilərlər ki, onları cavanlar bilməzlər.






# QOCALIQ VƏ CAVANLIQ QAYDALARI HAQQINDA

Ey oğul, cavan olsan da ağlın qoca ağlı olsun. Demirəm ki,cavanlıq etmə, lakin özünü ələ ala bilən cavan ol, dağınıq və ölüvay cavan olma, diribaş cavan yaxşı olar. Filosof Ərəstu[38] demişdir: „Cavanlıq da dəliliyin bir növüdür, ona görə cavana dəliqanlı deyirlər“. Bundan əlavə, süst cavan olma, diribaşlıqdan bəla törəməz, amma süstlükdən bəla törəyər. Bacardığın qədər cavanlıqdan istifadə et, qocalıqda özün bacarmayacaqsan. Necə ki bir qoca kişi demişdir: „Cavanlığımda yaman fikir çəkirdim ki,

heyf, qocalığımda gözəllər məni sevməyəcəklər, indi qocalmışam, mən özüm onları istəmirəm“.

Böyük tanrım, coşqun cavan çağımda
Gecə, gündüz bu idi fikrim, sözüm:
Qocalıqda kim sevəcəkdir məni?
Qocalmışam indi, sevmirəm özüm!

Nə qədər cavan olsan da, izzətli və böyük Allahı unutma, heç vaxt ölümdən arxayın olma, çünki ölüm qocalıq və cavanlığa baxmır. Bu barədə Əscədi[39] belə demişdir:

Yaşla olsa idi ölüm, hər zaman
Qocalar ölərdi, ölməzdi cavan!

Bil ki, doğulan mütləq öləcəkdir.

Hekayət. Bir şəhərdə bir dərzi var idi. Bu dərzi şəhər darvazasının yanında dükan açmışdı. Qəbristanlığın yolu bu dükanın qabağından keçirdi. Dərzi mıxdan bir kuzə asmış və adət etmişdi ki, hər cənazə şəhərin darvazasından çıxarılanda o kuzənin içərisinə bir daş salsın. Ay qurtardıqda kuzənin ağzını açıb daşları sayar, neçə adamın öldüyünü bilərdi. Sonra kuzəni boşaldar və yenidən daş salmağa başlardı. Bir gün çatdı, dərzi özü də öldü. Bir kişi dərzini çağırmaq üçün gəldi, onun öldüyünü bilmirdi. Dükanı bağlı gördükdə qonşusundan soruşdu: „Dərzi hardadır ki, qapısı bağlıdır?“ Qonşusu cavab verdi: „Kuzədə“.

Ey oğul, ayıq ol, cavanlığına qürrələnmə. İstər taətdə[40] ol, istərsə məsiyətdə[41], hər vəziyyətdə olursan ol, lakin o böyük Yaradandan çəkin və bağışlanmanı istə, həmişə ölümdən qorx ki, ağır günahlarınla birlikdə dərzi kimi qəflətən kuzəyə düşməyəsən.

Həmişə cavanlarla oturub durma, hərdən bir qocalarla da gəlib-gedişin olsun. Dost və aşnalarını həm cavan, həm də qocalardan seç. Cavanlıq edib nalayiq bir iş görmək fikrinə düşsən, qocalar ona

mane olarlar, çünki qocaların bildiklərini cavanlar bilə-bilməzlər. Hərçənd qocalara sataşıb gülmək cavanların adətidir, qocaların cavanlığa ehtiyacı olduqları üçün onları bu səbəbə görə ələ salıb hörmətsizlik etmək cavanlara yaraşmaz. Əgər qocalar cavanlıq arzu edirlərsə, cavanlar da, şübhəsiz, qocalıq arzusunda olarlar. Qocalar cavan olub onun bəhrəsini də görüblər, lakin cavanların vəziyyəti daha çətindir, onlar bu arzuya çata da bilərlər, çatmaya da bilərlər. Diqqətlə baxsan, hər ikisinin bir-birinə ehtiyacı vardır. Hərçənd cavanlar özlərini hamıdan ağıllı, çoxbilən hesab edirlər, sən belə cavanlardan olma və qocalara hörmət et, onlara nalayiq sözlər demə, qocaların cavabı ağır olar.

Hekayət. Eşitmişəm, yüz yaşlı bir qoca varmış, beli bükülmüş, qəddi kamantək əyilmiş, əsaya təkyə edərək gəzirmiş. Bir cavan onu ələ salmaq üçün deyir: „Ey şeyx, bu kamanı neçəyə alıbsan, de, mən də alım". Qoca deyir: "Əgər ömrün olsa, səbr etsən, onu sənə havayı bağışlayarlar".

Nə qədər ləyaqətli və istedadlı olsan da, yüngülbeyin qocalarla oturub-durma, ağıllı-kamallı cavanlarla həmsöhbət olmaq yüngül qocalarla həmsöhbət olmaqdan yaxşıdır. Nə qədər cavansan, cavanlıq et, qocaldın - qocalıq. Bu barədə iki beyt də mən demişəm:

Dedim ört qapını, buyur otağa,
Könlümə hakim ol, qəlbimə ağa!
Dedi: "Get, ağ saçı tutdur boyağa,
Qocaldın, qoca ol, qoyulma lağa!"

Cavanlara qocalıq yaraşmadığı kimi, qocalara da cavanlıq yaraşmaz. Qocalıqda cavanlıq eşqinə düşən məğlubiyyət zamanı qələbə şeypuru çalana oxşar, necə ki, mən "Zöhdiyyat"da[42] demişəm:

Qoca vaxtı eşqə düşüb cavanlığa başlamaq
Məğlub ikən zəfər təbili çalmaq kimi bir işdir.

Şıltaq qoca olma. Deyiblər ki, şıltaq qoca daha pis olar. Murdar şıltaq qocalardan özünü gözlə. Qocalığa qarşı cavanlığa nisbətən daha lütfkar ol! Çünki cavanın hələ qocalmaq ümidi var, qocanın isə ölümdən başqa gözlədiyi bir şey yoxdur. Ona görə ki, sünbül yetişdikdə onu biçməsələr, özü tökülər, eləcə də meyvə dəydikdə dərilməsə, özü düşər. Mən bu barədə demişəm:

Əgər taxtın ayaqların ay üstünə belə qoysan,
Süleyman[43] tək dövlət və bəxt sahibi də əgər olsan,
Ömrün başa çatan zaman gərək yükü bağlayasan,
Çünki meyvə yetişdimi, ağacda saxlayammazsan!

Əli Əmirəlmöminin də (Allah ondan razı olsun) demişdir:

Ömür axıra yetəndə tez görünər nöqsanı,
Elə ki sona çatdı, tərk eyləyər insanı.

Onu da bilməlisən ki, səni həmişə olduğun kimi qalmağa qoymayacaqlar. Hisslərin kardan düşməyə başlayanda, görmə, danışma, eşitmə, qoxu bilmə, toxunma və dad bilmə qapıları sənin üzünə bağlananda nə sən öz həyatından bir ləzzət alacaqsan, nə də xalq sənin varlığından razı qalacaq, camaata yük olacaqsan. Belə yaşamaqdansa, ölmək yaxşıdır.

Lakin elə ki qocaldın, gərək cavanlıq hoqqabazlıqlarından əl çəkəsən, çünki ölümə yaxın olduqca cavanlıqdan bir o qədər uzaqlaşırsan. İnsanların ömrü günəş kimidir: cavanların günəşi şərqdə, qocalarınkı isə qərbdə olar. Qərbdə olan günəşi isə batmış hesab et. Mənim dediyim kimi:

Qocalığın əlində acizdir dünya şahı,
Sinn altmışa çatdımı, demək yaxındır səfər.
Gündüz namazı keçmiş, gəlmişdir əsr namazı,
Əsr namazı getdimi, gecəninki tez gələr.

Buna görə qoca cavanlıq fikrinə düşüb özünü cavan kimi aparmamalıdır.

Həmişə qocalara qarşı mərhəmətli ol, çünki qocalıq elə bir xəstəlikdir ki, heç kəs onu yoluxmağa gəlməz, elə bir dərddir ki, ölümdən başqa heç bir həkim onu sağalda bilməz. Ona görə qoca ölməyincə canını əziyyətdən qurtara bilməz. Hər xəstəlikdə yaxşılaşmaq ümidi var, qocalıqdan başqa. O, hər gün ağırlaşar və yaxşılaşmaq ümidi olmaz. Bir kitabda oxumuşam ki: "Adam otuz dörd yaşına qədər hər gün boyca və qüvvətcə artar, otuz dörddən qırx yaşa qədər olduğu kimi qalar, artıb əskilməz (Günəş də zirvəyə çatdıqda batana qədər yavaş hərəkət edir), qırxdan əlliyə qədər hər il keçmiş ilə nisbətən özündə daha zəiflik hiss edər. Əgər həştaddan çox yaşasa, saatbasaat dərdi və əziyyəti artır".

Nərdivanın pilləsi qırx olduğu kimi, ömrün də həddi qırx ildir, pilləkənin kəlləsində yuxarıya yol tapa bilmədiyin üçün qalxdığın yolla yenə də aşağı enməyə məcbur olacaqsan.

Hər saat dərd və əziyyətinin üstünə yeni ağrı və sancı artan bir adam şadlana bilərmi?

Ey oğul, görünür, qocalıqdan sənə çox şikayət etdim. Nə etməli? İnsanların qocalıqdan çox gileylənməsi heç də təəccüblü deyil, çünki qocalıq düşməndir, düşməndən isə şikayət edərlər. Necə ki mən demişəm:

Ondan şikayət etsəm, təəccüblənmə məndən,
O mənim düşmənimdir, giley olar düşməndən!

Ey oğul, mənim ən yaxın dostum sənsən, düşməndən isə şikayəti yalnız dostlara edərlər. Allah qoysa, sən də mənim kimi bu şikayəti öz övladının övladına edəcəksən. Bu barədə mənim iki beytim də vardır:

Qocalıqdan, ah, kimə edim şikayət?
Sənsən dərman bu dərdə, digəri yoxdur.
Ey qoca, gəl, dərdimi söyləyim sənə,
Cavanların bu dərddən xəbəri yoxdur…

Odur ki, qocalığın iztirabını qocalardan başqa heç kəs başa düşməz.

Hekayət. Atamın hacibləri[44] içərisində bir hacib var idi, ona Kamil hacib deyərdilər. Yaşı həştadı keçmiş bir qoca idi, at almaq istəyirdi. Mehtər ona bir cins at gətirdi, rəngi gözəl, özü kök, əli-ayağı düz idi. Hacib atı gördükdə bəyəndi, qiymətləşdilər, lakin dişlərinə baxdıqda, qoca olduğunu bildi, almadı, başqa birisi aldı. Mən ona dedim: "Ey hacib, filankəs alan atı sən nə üçün almadın?" Dedi: "O, cavan bir adamdır, qocalıqdan xəbəri yoxdur, o at isə zahirən gözəldir, əgər elə adam belə bir ata vurulursa, üzrlü hesab edilə bilər. Lakin mənim qocalıq əzab və əziyyətindən xəbərim var, qocalığın nə olduğunu bilirəm, qoca at alsam, bu mənim üçün üzrlü sayılmaz".

Ey oğul, çalış, qocalıqda bir yerdə özünə məskən sal. Qocalıqda səfərə çıxmaq yaxşı iş deyil, xüsusilə, yoxsul üçün. Çünki həm qocalıq düşməndir, həm yoxsulluq. İki düşmənlə yola çıxmaq isə ağıllı adama yaraşmaz. Lakin əgər təsadüfən və ya zərurət üzündən səfərə çıxmalı olsan, Allah-Taala sənə rəhm edib qürbətdə işini düz gətirsə, bil ki, bu, bir yerdə oturub qalmaqdan yaxşıdır. Belə halda qoy öz doğma yurdunun havası başına vurmasın, harada işin düz gətirirsə, orada da özünə məskən sal. Harada günün yaxşı keçirsə, oranı da özünə vətən hesab et. Doğrudur, deyiblər ki, "Vətən ikinci anadır", lakin buna çox da aludə olma və öz işlərinin yaxşı getməsinə çalış. Deyiblər ki, "xoşbəxtləri xoşbəxtlik özü çəkər, bədbəxtləri isə doğma yurd". Lakin elə ki işlərinin yaxşı getdiyini gördün, əlinə faydalı bir iş keçdi, çalış onu əldən buraxma, özünü orada möhkəmlət. Elə ki möhkəmləndin, artıq şey tələb etmə, qorx ki, artıq əvəzinə azlığa düşməyəsən! Deyiblər: yaxşı qoyulmuş şeyi daha yaxşı qoyma ki, artıq tamahlıq üzündən daha pis vəziyyətə salmayasan. Lakin gün keçirib dövran sürməkdə başıpozuq olma. İstəyirsən dost-düşmən gözündə qədir-qiymətin olsun, gərək xalq arasında əsil-nəsəbin, dərəcə və rütbən aydın olsun. Avara həyat keçirmə, öz yaşayışına fikir ver, ifrata varma.



## Fəsil 10



# ÖZÜNÜ İDARƏ ETMƏK VƏ YEMƏK QAYDALARI HAQQINDA

Ey oğul, bil ki, adi adamların işlərində müəyyən bir qayda-qanun, nizam-intizam olmaz, onlar bir şeyin vaxtı olub-olmadığına fikir verməzlər. Ağıllı və böyük adamlarda isə hər işin öz vaxtı olar, gecə-gündüzün iyirmi dörd saatını öz işləri arasında bölərlər. İşlər bir-birinə qarışmasın deyə, onların hərəsinə müəyyən vaxt və hədd-hüdud qoyarlar. Onların xidmətçiləri də bilər ki, nə vaxt, nə ilə məşğul olmaq lazımdır ki, işlər öz qaydasında getsin. Hər şeydən əvvəl yemək haqqında.

Bil ki, bazar adamlarının adəti gecə çox yeməkdir və onun böyük ziyanı vardır, həmişə mədəni qıcqırdır. Hərbi adamların peşəsi elədir ki, onlar vaxta baxmazlar, harada və nə vaxt tapsalar, orada da yeyərlər, bu isə heyvan adətidir, çünki harada ələf tapsalar, orada da yeyərlər. Böyük və əsil-nəsəbli adamlar isə gecə-gündüzdə bir dəfə yeyərlər. Bu, özünü saxlamaq (pəhriz) qaydasıdır, lakin bu, adamı zəiflədib qüvvətdən salar. Deməli, böyük və hörmətli adam elə etməlidir ki, səhər tezdən xəlvətdə bir şey yeyib sonra dışarı çıxsın və günorta namazına qədər öz işləri ilə məşğul olsun.

Yemək vaxtı çatdıqda kim səninlə bir yerdə çörək yeyəcəksə, onları çağırtdır. Yeyərkən tələsmə, təmkinlə ye və süfrə başında, şəriətdə deyildiyi kimi, adamlara hədis danış, lakin başını aşağı sal, camaatın tikəsinə baxma.

Hekayət. Eşitmişəm, deyirlər ki, bir dəfə Sahib Əbbad öz nədimləri və yaxın adamları ilə birlikdə çörək yeyirmiş. Oradakılardan biri kasadan bir tikə götürür. Onda tük var imiş. Sahib görüb deyir: "Tükü tikəndən götür". O adam tikəsini yerə qoyub, durub gedir. Sahib əmr edir, onu geri qaytarırlar. Sahib soruşur: "Filankəs, nə üçün çörəyi yeməmiş süfrədən qalxdın?" O adam deyir: "Tükü tikəmdə seçən bir adamın çörəyini yeməyi özümə layiq bilmədim". Sahib o sözdən bərk utanır.

Lakin həmişə özünə fikir ver, bir az gözlə, sonra əmr et xörək gətirsinlər. Böyük adamlarda iki adət vardır: bəziləri əvvəlcə özünün, sonra isə başqalarının kasalarının verilməsini əmr edər, bəziləri isə, əksinə, əvvəlcə başqalarının, sonra isə öz kasalarının verilməsini buyurar. Bu kəramət, o isə siyasət üsuludur.

Əmr et, müxtəlif xörəklər hazırlasınlar, həm turşu olsun, həm şirini. Elə et ki, çox yeməyə adət etmişlər də, az yeyənlər də sənin süfrəndən tox qalxsınlar. Əgər sənin qarşında yemək olsa, başqasının qabağında olmasa, öz qarşında olan yeməyi ona göndər. Süfrə başında üzünü turşutma, qaşqabaqlı oturma, xörək hazırlayıb mizi sahmana salanlarla dalaşma, demə ki, "nə üçün filan xörək yaxşıdır, filan yemək isə pis". Belə sözləri başqa zaman, sonra da demək olar.

İndi ki çörək yemək şərtlərini bildin, şərab içmək üsulunu da bil, çünki onu da nizama salmaq üçün xüsusi qayda-qanun vardır.






# ŞƏRAB İÇMƏK QAYDALARI VƏ ONUN ŞƏRTLƏRİ HAQQINDA

Demirəm şərab iç, ya içmə, çünki bilirəm cavanlar başqasının sözü ilə cavanlıqdan əl çəkməzlər. Mənə də çox deyiblər, lakin eşitməmişəm. Yalnız əlli ildən sonra Allahın mənə rəhmi gəlmişdir, tövbə edib şərabı tərgidə bilmişəm.

Lakin əgər içməsən, hər iki dünyada fayda götürmüş olarsan: həm Allah səndən razı qalar, həm də xalqın qınağına düçar olmazsan. Ağılsız adamların adət və peşələrindən, xoşagəlməz əməllərindən uzaqlaşarsan, israfçılığa yol verməzsən, maddi güzəranın isə xeyli yaxşı

keçər. Bütün bu deyilənləri nəzərə alıb şəraba meyl etməsən, məni çox sevindirmiş olarsan.

Lakin bilirəm, cavansan və yoldaşların qoymazlar içməyəsən. Hədər yerə deməyiblər: „Təklik pis yoldaşdan yaxşıdır". Əgər içsən, bilirəm, ürəyində tövbə etmək istəyəcəksən, tutduğun işdən peşman olacaqsan. Hər halda şərab içməli olsan, gərək onu necə içmək lazım olduğunu biləsən, bilməsən, zəhr olar, bilsən - padizəhr. Həqiqətdə də belədir, yemək və içməkdə qayda-qanuna riayət etməsən, nəticəsi pis olar. Deyiblər ki:

Padizəhr zəhr olar, çox olsa əgər.
Hər şey həddin aşsa, bil, ziyan verər.

Çörək yedikdə o saat şərab içmək olmaz, üç saat gözləməlisən ki, üç dəfə susayıb su içəsən. Susamasan da, üç saat gözlə, çünki mədə sağlam və qaydasında olsa, həddindən artıq xörək yemiş olsan belə, yeddi saata həzm gedəcəkdir: üç saat həll edəcək, üç saat da şirəsini çəkib ciyərə göndərəcəkdir ki, o da onu bütün daxili bədən üzvləri arasında bölüşdürsün, çünki bölüşdürən odur. Bir saat keçdikdən sonra nə qalsa, bağırsaqlara göndərər. Səkkiz saata mədə boşalmalıdır, boşalmırsa, o, mədə deyil, çürümüş tuluqdur.

Dedim, yeməkdən üç saat sonra iç ki, xörək mədədə tam həzm edilmiş olsun və sənin dörd təbiətin[45] xörəkdən onlara düşən payı almış olsun. Bundan sonra şərab iç, beləliklə, həm şərabdan həzz alarsan, həm təamdan.

Amma şərab içməyə ikindi namazından sonra başla ki, məstlik vaxtı çatanda gecə düşmüş olsun, xalq sənin sərxoşluğunu görməsin. Məst olduqda yerini dəyişmə, məstlikdə yerini dəyişmək yaxşı olmaz. Şərab içmək üçün çölə və bağa getmə, getsən, keflənənə qədər içmə, evə gəl, sərxoşluğu evdə et. Evin tavanı altında mümkün olan şeyləri çölün asimanı altında etmək olmaz. Hər kəs evində öz ölkəsində olan padşah kimidir, səhrada isə - yad ölkədə olan qərib kimi.

Şərab içərkən elə iç ki, həmişə iki-üç badəyə yer qalsın. Artıq yeyib, artıq içməkdən özünü saxla, sərxoşluq və toxluqdan uzaq ol. Toxluq təamın son tikəsində olur. Demək, həmişə bir tikə az yeyib bir badə az

içməlisən ki, hər ikisinin artıqlığından xilas olasan. Çalış içki düşkünü olma, çünki düşkünlüyün nəticəsi iki şey ola bilər: xəstəlik və dəlilik. Nəticəsi belə olan bir işlə məşğul olmağına dəyərmi?

Mən bilirəm ki, belə sözlərlə sən içkidən əl çəkməyəcəksən, ancaq heç olmazsa, çalış, səhər acqarına şərab içməyi özünə adət etmə, təsadüfən səhərlər içməli olsan, hərdənbir iç. Ağıllı adamlar səhər içməyi pisləmişlər. Səhər içməyin birinci ziyanı odur ki, sübh namazını bada verərsən, ikincisi, dünənki gecə xumarlığı başından çıxmamış, bugünkü səhər buxarlığı ona əlavə olunar, bunun nəticəsi isə melanxoliyadan başqa bir şey olmaz, iki müfsidin[46] fəsadı bir müfsidin fəsadından çox olar. Bundan əlavə, başqaları yatarkən sən ayıq qalarsan, onlar ayıq olduqda sən yatmağa məcbur olarsan. Gündüz yatmayıb gecəni oyaq qalanda sabahısı bir tərəfdən şərabın təsiri, digər tərəfdən yuxusuzluğun nəticəsində bədənin üzvləri yorğunluqdan ağrımağa başlar. Səhər içkisindən sonra adətən dava-dalaş olar, bunun da axırı ya peşmançılıqdır, ya yersiz pul məsrəfi. Yalnız əsaslı səbəb olduqda tək-tək hallarda səhər içmək olar, lakin içməsən, daha yaxşıdır, çünki pis adətdir. Əgər şəraba həris olsan, cümə axşamı ona görə içmə ki, cümə günü camaatın görüşünə getməli və cümə namazı qılmalı olacaqsan. Bir cümə axşamı şərab içməməklə sən bir həftə camaatın könlünü ələ alarsan, xalqın məzəmmətindən uzaq olarsan və sənin xərcin xeyli azalar, çünki hər ildə əlli cümə var, deməli, əlli günlük xərcin cibində qalar, bədənin, nəfsin, əqlin, ruhun da dincəlmiş olar, bir həftədə beyin və damarlarına dolmuş içki buxarı həmin bir gecə içərisində yayılıb yox olar. Bir gecə dincəlməyin həm səhhətinə və halına, həm cibinə və malına fayda verər.

Deməli, beş xüsusiyyətin əmələ gəlməsinə səbəb olan bir adətə vərdiş etmək lazımdır.






# QONAQ ETMƏK, QONAQ GETMƏK VƏ ONLARIN ŞƏRTLƏRİ HAQQINDA

Yad adamları hər gün qonaq etməyə çalışma, çünki hər gün qonaqlıq xərcini çatdırmaq olmaz. Bax gör ayda neçə dəfə qonaqlıq edə bilərsən, üç dəfə edə bilsən, bir dəfə et, lakin həmən üç qonaqlığın xərcini bir qonaqlığa sərf et, qoy süfrəndə heç bir eyib olmasın və eyib axtaran adamların ağzı sənin süfrən haqqında bağlansın. Evinə qonaq gəldikdə onu qarşılamaq üçün adam göndər, ona mehribanlıq et. Hər kəsə özünə layiq qayğı göstər, necə ki, Əbu Şükür deyir:

Qonaq ya dost olsun və yaxud düşmən,
Gərək layiqincə hörmət edəsən.

Meyvə varsa, xörəkdən əvvəl meyvə gətir, yesinlər. Bir az ara ver, sonra xörəkləri süfrəyə düzdür, lakin özün oturma, qoy qonaqlar sənə bir dəfə, iki dəfə desinlər "otur", əgər qonaq çox deyilsə və sənin oturmağın münasibdirsə, yalnız bundan sonra onların təklifini qəbul edib yemək ye və hamıdan aşağı otur. Qonaqdan üzr istəmə, çünki qonaqdan üzr istəmək qara camaat və bazar əhlinin xasiyyətidir və hər saatbaşı demə ki, "filankəs, heç yemirsən, yaxşı ye, utanma, bağışla, sənin üçün elə bir şey hazırlaya bilməmişəm, inşallah gələcəkdə xəcalətindən çıxaram" və s. Belə sözlər adlı-sanlı adamların sözü deyil. Bu, ildə yalnız bir dəfə qonaqlıq verə bilən, məsələn, bazar əhli kimi adamların sözüdür. Belə sözlərdən adamlar utanar və çörək yeyə bilməz və sənin süfrəndən yarı ac, yarı tox durarlar. Bizim Gilanda[47] yaxşı bir dəb vardır: elə ki qonağı evə apardılar, qabağına süfrə açıb yanına kuzələrdə su qoydular, qonaq sahibi olan ev yiyəsi və xidmətçilərin hamısı, yalnız bir nəfərdən başqa, çıxıb gedərlər. O bir nəfər uzaqda dayanıb qonağa lazım olan qulluğu edər, beləliklə, qonaq istədiyi qədər yeyib qurtardıqdan sonra ev yiyəsi qayıdar. Ərəblərdə də qayda belədir.

Qonaqlar xörəyini yeyib qurtardıqdan və əllərini yuduqdan sonra əmr et, gülab və ətir gətirsinlər. Qonağın nökər və xidmətçilərinə də yaxşı bax, çünki adamı tərifləyən və ya rüsvay edən onlar olar. Əmr et, məclisə çoxlu ətirli göyərtilər qoysunlar, gözəl mütrüblər gətirsinlər. Yaxşı şərabın yoxdursa, qonaq etmə. Gərək içki və musiqi gözəl olsun ki, xörəyində nöqsan olsa, eybini onlar örtə bilsin. İçki günah olduğu üçün elə etmə ki, həm günah edəsən, həm də kefi pozasan.

Mənim bu dediklərimin hamısını etsən, qonaqların haqqını yerinə yetirmiş olarsan. Qonaqların bu haqqını sən özün üçün vacib hesab etməlisən.



Hekayət. Belə eşitmişəm ki, İbn Müqlə[48] Bəsrənin divan işlərini Nəsr ibn Mənsur Təmimiyə tapşırır. Bir il keçdikdən sonra geri

çağırıb ondan hesabat tələb edir. O, çox dövlətli bir adam idi və onun dövlətində xəlifənin gözü var idi. Hesab verdikdə onun ayağında çoxlu mal qaldığı aşkara çıxır. İbn Müqlə deyir: "Ya bu malı ödə, ya zindana get". Nəsr deyir: "Ya mövlana, mənim malım var, lakin burada deyil, bir ay mənə aman ver. Bu qədər mal üçün həbsxanaya getmək mənə yaraşmaz".

Müqlənin oğlu bilirdi ki, o kişinin bu qədər malı verməyə imkanı vardır və doğru söyləyir, ona görə deyir: "Əmirəlmöminindən əmr yoxdur və sən bu malları verməyincə başqa yerə gedə bilməzsən, hələlik burada, mənim sarayımda hücrələrin birində otur, bu bir ayı mənim qonağım ol". Nəsr deyir: "Əmrinə razıyam". Sonra İbn Müqlənin sarayında məhbus kimi qalır. Təsadüfən ramazan ayının əvvəli imiş. Axşam olanda İbn Müqlə deyir: "Filankəsi gətirin, bizimlə orucunu açsın". Xülasə, Nəsr bütün ramazan ayını onun yanında iftar edir. Elə ki orucluq bayramı qurtarır və bir neçə gün keçir, Müqlənin oğlu xəbər göndərirki, "malın gətirilməsini yubadırlar, nə tədbir görək?" Nəsr deyir: "Mən qızılları vermişəm". Müqlənin oğlu deyir: "Kimə veribsən? "Nəsr deyir: "Sənə vermişəm". Müqlənin oğlu təəccüb edib deyir: "A kişi, sən qızılı kimə veribsən?" Nəsr deyir: "Mən qızıl verməmişəm, lakin bir ay sənin çörəyini yemişəm, tam biray sənin çörəyinlə oruc açıb, qonağın olmuşam. İndi məndən qızıl istəyirsən. Bəs mənim zəhmət haqqım necə olsun?" Müqlənin oğlu gülüb deyir: "Qəbzini al və salamatlıqla get, mən o malı sənə diş muzdu verdim, sənin əvəzinə o qızılı mən özüm qoyaram".

Beləliklə, Nəsr malını müsadirə olunmaqdan xilas etdi.

Deməli, xalqın minnətini götürən, xoş sifət, gülərüz ol, lakin yersiz gülmə, şərab az iç və qonaqlardan tez məst olma. Elə ki gördün, qonaqlar kefləniblər, bu zaman öz mərhəmətini göstər, onların sağlığına badələr qaldır və ləzzətlə iç, qonaqlarla mehriban olub zarafatlaş, şuxluq et, lakin yersiz gülən olma, çünki yersiz gülmək dəlilik kimi bir şeydir.

Qonaq sərxoş olduqdan sonra getmək istəsə, bir-iki dəfə qalmasını xahiş et, qayğıkeşlik göstər, qoyma getsin, üçüncü dəfə icazə ver getsin.

Əgər sənin qulamlarından bir xata baş versə, bağışla, qonaqların yanında danlama, üzünü turşudub onlarla dava-dalaşa başlama və demə ki, "bu niyə belə pisdir, bu niyə belə yaxşıdır". Əgər bir şey sənin xoşuna gəlməyibsə, başqa vaxt deyə bilərsən ki, belə etməsinlər, qonaq yanında isə gərək özünü saxlayıb dözəsən. Əgər qonağın min axmaqlıq edib nalayiq sözlər desə, hamısını bağışla və ona layiqincə xidmət et.

Hekayət. Eşitmişəm, bir dəfə xəlifə Mötəsim[49] öz qarşısında bir günahkarın boynunun vurulmasını əmr edir. O kişi deyir: "Ya əmirəlmöminin, o böyük Allah xatirinə mənə bir içim su verib qonaq edin, yaman susuzam, sonra nə istəyirsiniz, onu da edin". Mötəsim and xatirinə əmr edir ona su versinlər. O kişi suyu içdikdən sonra ərəb adətinə görə deyir: "Ya əmirəlmöminin, Allah sənin payını artıq eləsin, mən bu bir içim su ilə sənin qonağın oldum, indi isə insanlıq naminə qonağı öldürməzlər, məni öldürmə, bağışla ki, sənin əlinlə tövbə etmiş olum". Mötəsim deyir: "Doğru deyirsən, qonağın haqqı böyükdür, səni bağışladım, bundan sonra bir daha xata etmə, çünki sənə də qonaqlıq haqqını yerinə yetirmək vacibdir".

Lakin qonaqlıq haqqı haqq qanan, qədirbilən adamlar üçündür, yoxsa bu o demək deyildir ki, hər qabağına çıxanı, ya hər tüfeylini evinə aparıb yedirdib-içirdəsən, əzizləyib yola salasan ki, nə var, bu mənim qonağımdır. Kimə yaxınlıq edib, kimə ürək verməyi bilmək lazımdır.

Haşiyə. Əgər qonaq olsan, hər kəsə qonaq olma ki, ada-sana ziyanı vardır. Qonaq getdikdə ac getmə, tox da getmə ki, bir şey yeyə biləsən və süfrə sahibinin ürəyinə dəyməyəsən. Şərab iç, lakin ifrat etmə, eyib olar. Süfrə sahibinin evinə getsən, dost evi olsa da, elə yerdə otur ki, ora sənin yerin olsun, sırtıq olma, süfrə başında və mey məclisində füzulluq etmə və süfrə xidmətçilərinə demə ki, "ay filankəs, filan nimçəni, filan kasanı filan yerə qoy", özünü elə göstərmə ki, guya mən bu ev adamıyam. Üzlü qonaq olma, camaatın kasa və nimçəsinə göz dikmə. Öz nökərlərinə



süfrədən bir şey vermə ki, deyiblər: "Süfrədən pay səfillikdir". Şərab düşkünü olma, elə et ki, yol gedərkən sənin sərxoşluğunu bilməsinlər, elə keflənmə ki, insanlıq simasını itirəsən. Məstliyi evində et, dilinə bircə qədəh şərab dəyibsə, nökərlərin yüz günah etsələr və tənbehə layiq olsalar da, yenə onlara cəza vermə, çünki heç kəs bu tənbehi qəbul etməz, hamı deyər ki, kefli olduğu üçün belə edir. Nə etmək istəyirsənsə, şərab içməmiş et, onda bilərlər ki, məqsədin budur, içdiyin üçün deyil. Sərməst nə etsə, onu sərxoşluğa yozarlar, deyərlər ki, dəliliyi tutub. Deyirlər: "Əlcünün-fünun", yəni "dəlilik cürbəcür olar".

Sərməstliyin növü müxtəlifdir: çoxlu əl çalıb ayaq yerə döymək, ağlamaq, gülmək, mahnı oxumaq, yeməkdə şitini çıxarmaq, zəvzəkləyib çox danışmaq, danışmayıb hey susmaq, mehribanlıqda həddini aşmaq, qulluq göstərməkdə ifrata varmaq – bunların hamısı ya sərməstlikdir, ya dəlilik.

Bütün bu dediklərimdən özünü qoru, ailə üzvlərindən və qullarından başqa heç bir yad adamın qarşısında sərməstlik etmə. Hərçənd cavanlara yüngül musiqi xoş gəlir, onu sevirlər, çalırlar və çalınmasını tələb edirlər, lakin əgər sən xanəndə və mütrüb çağırsan, təkcə yüngül hava oxumalarını istəmə, qoy səni diringiçi və mey düşkünü hesab etməsinlər.






# ZARAFAT, NƏRD, ŞAHMAT VƏ ONLARIN ŞƏRTLƏRİ HAQQINDA

Bil, ey oğul, deyiblər: "zarafat şərin müqəddiməsidir", yəni zarafat bütün bəlaların bələdçisidir. Bacardıqca şit zarafatdan qaç, əgər zarafat etsən, heç olmazsa, məst vaxtı etmə, belə halda şər və bəla daha çox olar. İstər ayıq ol, istərsə məst, nalayiq zarafatlardan və söyüş söyməkdən utan, xüsusilə nərd və şahmat oynadıqda, çünki bu iki oyunda adamlar daha tez əsəbiləşir və zarafata az davam gətirirlər. Çox nərd və şahmat oynamağı özünə adət etmə, oynamalı olsan, hərdənbir oyna, quşdan, qoyundan, qonaqlıqdan və ya bunlardan daha kiçik olan bir şeydən oyna.

Girov və puldan oynama, puldan oynamaq tərbiyəsizlikdir və qumar hesab edilər. Oynamağı yaxşı bilirsənsə, qumarbazlıqda ad çıxarmışla oynama ki, sən də qumarbaz kimi tanınarsan. Oynayırsansa, özündən daha adlı-sanlı və şöhrətlisi ilə oyna. Nərd və şahmatda nəzakət qaydası belədir: əgər nərd oynasan, zərləri qoy əvvəlcə rəqib götürsün, şahmatda da ilk gedişi ona ver. Lakin cığalbazlar, xidmətçilər, arvadlar, uşaqlar və tündxasiyyətli adamlarla girovdan oynama, axırı cəncəl olar. Zərin xalları üstündə rəqiblə mübahisə edib hay-küy qaldırma, and içmə ki, filanı atmışdım. Andın doğru olsa da, camaat onu yalan güman edər.

Bütün şər və fəsadın əsası zarafatdır; zarafat etməkdən özünü qoru. Hərçənd zarafat nə günahdır, nə eyib. Peyğəmbər (s.) də zarafat edib.

Hekayət. Aişənin evində bir qarı var idi, bir gün Peyğəmbərdən (s.) soruşdu: "Ey Allahın elçisi, mənim üzüm behiştə gedənlərinki kimidir, ya cəhənnəmə", yəni: "Mən behiştliyəm, ya cəhənnəmlik?" Deyirlər Allahın elçisi zarafat edərdi, lakin həm də doğrusunu deyərdi. Peyğəmbər (s.) zarafatyana qarıya deyir: "O dünyada heçbir qoca qadın behiştdə olmayacaq". Qarının kefi pozulur, ağlamağa başlayır. Peyğəmbər (s.) gülərək deyir: "Ağlama, mənim sözüm də xilaf ola bilməz, doğru dedim ki, heç bir qoca behiştdə olmayacaq, çünki qiyamət günü hamı qəbirdən cavan qalxacaq". Qarının könlü açılır.



Zarafat etmək olar, lakin söyüş söymək yaramaz. Əgər söyüş etməli olsan, barı az söy və öz taylarına de ki, cavab qaytarsalar, eyib olmasın. Şit zarafat etdikdə də ona ciddilik qarışdır, lakin söyüşdən qaç. Doğrudur, hər zarafatda bir şitlik var, lakin həddini bilmək lazımdır. Hər nə desən, onu da eşidərsən,

xalqa nə edirsənsə, onu da xalqdan gözləməlisən. Lakin heç kəslə dalaşma, dalaşmaq kişi işi deyil, arvad və uşaq işidir. Əgər, işdir, biri ilə dalaşmalı olsan, elə dalaş ki, barışığa yer qalsın. Çox da sırtıq və inad olma. Alçaq adamların ən pis xasiyyəti sırtıqlıq və inaddır. Ən gözəl sifət təvazökarlıqdır. Təvazö elə bir vergidir ki, heç kəs ona həsəd etməz. Hər sözbaşı demə: „a kişi!“, çünki səbəbsiz olaraq „a kişi“ deyən adam kişini kişilikdən salmış olar.

Şərab içmək, zarafat etmək, eşqbazlıq - bunların hamısı cavanların işidir, lakin bu işlərin əndazəsini bilmək yaxşıdır, bunları elə gözəl təşkil etmək olar ki, camaat sənə irad tuta bilməz.

İndi ki şərab içmək, zarafat etmək, nərd və şahmat haqqında bir neçə söz deyildi, istər-istəməz məhəbbət, eşqbazlıq qaydaları və onların şərtləri haqqında da bəzi şeylər demək lazım gəlir.

Yerinə yetirib-yetirməyəcəyini bilmirəm, çünki ürəyə hökm etmək çətin işdir.






# EŞQBAZLIQ VƏ ONUN QAYDALARI HAQQINA

Aşiq olmaq barədə bil, ey oğul, kimin təbiəti zərif olmasa, o aşiq ola bilməz. Eşq təbiətin zərifliyindən doğur, zəriflikdən doğan hər şey isə, şübhəsiz, zərif olar. Odur ki, deyiblər:

Təbiət lətif olduqda, məlum şeydir ki, o, zərif təbiətə qoşulmağa meyl göstərəcəkdir.

Bu eşqdir, incəlik, lətiflik istər,
Hər yerdə özütək zəriflik istər.

Görürsənmi, cavanlar qocalara nisbətən daha tez aşiq olurlar. Çünki cavanların təbiəti qocalarınkına görə daha incədir. Kobud təbiətli bədniyyət adam aşiq ola bilməz. Bu elə bir xəstəlikdir ki, ona yalnız incə ruhlu adamlar tutular.

İstər kobud təbiətli ol, istərsə incə təbiətli, çalış aşiq olma. Aşiqlik çox başıbəlalı bir işdir, xüsusilə, yoxsulluqda. Aşiq olan yoxsul canına qəsd etmiş olar. Bil ki, yoxsulluq olan yerdə aşiqlik can vermək kimi bir şeydir, xüsusilə, qocalıq vaxtı, çünki qoca pul xərcləməsə, məqsədə nail ola bilməz. Mənim dediyim kimi:

Pulsuz idim, tutmuşdum bu azardan,
Pulsuzluqdan məhrum oldum o yardan.
Bu halıma uyğun bir məsəl də var:
“Pulsuz gedən boş qayıdar bazardan”.

İşdir, əgər birindən xoşun gəlsə, ürəyinə salıb onun haqqında fikirləşmə, həmişə qəlbinə eşqə qalib gəlməyi öyrət, heç zaman şəhvət əsiri olub iztirab çəkmə. Bu, ağıllı adamlara yaraşmaz, çünki aşiqlikdə insan ya vüsalda olar, ya fəraqda. Bil, bir saatlıq vüsal bir illik ayrılıq oduna yanmağa dəyməz. Aşiqlik şirin də olsa, başdan-ayağa məşəqqət, ürək ağrısı, iztirab və əziyyətdir. Fəraqda olsan, əzabdasan, məşuq ilə bir yerdə olsan, sevgilin hal əhlidirsə, ürəyini çəkəcək, naz-qəmzəsi ilə səni əldən salacaq. Onun şıltaqlığı, sonra isə ayrılıq qorxusu vüsaldan da ağır olacaq, çünki ardınca fəraq gələn vüsal fəraqdan da ağır olar. Məşuqən mələk təbiətli olsa belə, yenə məzəmmətdən yaxanı qurtara bilməzsən, həmişə sənin qeybətini qırar və məşuqən haqqında şayiələr yayarlar.

Deməli, özünü saxla və aşiqlikdən qaç. Ağıllı adamlar özlərini aşiqlikdən qoruya bilərlər, çünki ilk baxışdan aşiq olmaq mümkün deyil. Əvvəl göz görür, sonra könül bəyənir. Elə ki könül bəyəndi, ürəyin ona mail oldu, könül ikinci dəfə görmək istəyir. Əgər sən öz şəhvətini ürəyinin ixtiyarına versən, ürəyini isə şəhvətə tabe etsən, sonra məşuqəni bir daha görmək üçün tədbir düşünməyə başlarsan. Görüş ikinci dəfə baş tutduqda könül ikiqat meyl edir, qəlb daha çox döyünməyə başlayır, insan üçüncü görüş eşqinə düşür. Elə ki üçüncü dəfə gördün, əhvalatı açıb söylədin, söz deyib cavab eşitdin, iş bitdi.

Çuvalı suya verdin, it də getdi, ip də getdi.

Bundan sonra özünü ələ almaq istəsən də, bacarmazsan, çünki iş işdən keçmiş olar, vaxt uzandıqca eşqin də artar, qəlbin hökmünə tabe olmağa məcbur olarsan.

Lakin əgər sən ilk görüşdə özünü saxlaya bilsən, ürək istədikdə onu ağlın ixtiyarına versən və ağıl ürəyi bir daha onun adını çəkməyə qoymasa, özünü başqa şeylə məşğul etsən və ya şəhvətini başqa şey ilə söndürsən və gözü onu görməkdən məhrum etsən, bir həftədən artıq əziyyət çəkməzsən, daha o sənin yadına düşməz, tezliklə özünü bəladan qurtarmış olarsan.

Lakin belə edə bilmək hər adamın işi deyil, çox ağıllı olmaq lazımdır ki, adam bu xəstəlikdən yaxasını qurtara bilsin. Muhamməd Zəkəriyya özünün "Xəstəliklərin təqsimatı" adlı əsərində eşq xəstəliyi və onun dərmanı haqqında deyir ki, eşq xəstəliyi ara vermədən oruc tutmaq, ağır yük daşımaq, uzun səfər etmək, həmişə işləmək, həddindən artıq kefə aludə olmaq və bu kimi bir xəstəlikdir. Lakin əgər hər görüşü sənə zövq və rahatlıq gətirən bir adamı sevirsənsə, bunu rəva bilirəm.

Şeyx Əbu Səid bul-Xeyrin[50] dediyi kimi, insanlar dörd şeysiz keçinə bilməz: birincisi - çörək, ikincisi - paltar, üçüncüsü - ev, dördüncüsü - sevimli dost. Hər kəsin özünə görə, istər halal, istər haram, arzusu olar. Lakin dostluq başqadır, aşiqlik başqa. Hərçənd o aşiq şair bir beytdə demişdir:

Xoşdur sənin bu atəşin, gözəl yar,
Heç yandıran bir atəş də xoş olar?!

Bil ki, insanlar dostluqdan həmişə ləzzət çəkərlər, aşiqlikdən isə əziyyətə düşərlər. Əgər cavanlıqda aşiq olsan, yeri var, başa düşərlər, üzrlü sayarlar, deyərlər cavandır. Çalış qoca vaxtı aşiq olma. Qocanı üzrlü hesab etməzlər. Əgər qara camaatdan olsan, iş bir az asanlaşar, şah olsan, amandır, belə işlərə baş qoşma, zahirdə heç kəsə könül vermə, çünki qocalıq aşiqliyi şahlara çox baha başa gələr.

Hekayət. Babam Şəmsülməalının[51] vaxtında xəbər gətirirlər ki, Buxarada bir tacirin iki min dinar qiymətində bir qulu var. Bu əhvalatı, Əhmədi Coğdi əmirin yanında danışır. Əmir Səd Nəxxası çağırıb

Buxaraya göndərir, həmin qulu iki min iki yüz dinara alıb Gürgana gətirir. Əmir qulamı bəyənir, onu özünə dəsmaltutan təyin edir. Əmir əlini yuyanda o, dəsmalı tutar, əmir isə əlini qurulayarmış. Bir müddət keçdikdən sonra, bir dəfə əmir əlini yuyur, qulam dəsmalı ona verir. Əmir əlini silə-silə dəsmalı buraxmayıb hey ona baxır, məlum olur ki, qulam onun xoşuna gəlir, sonra dəsmaldan əl çəkir.

Bir az keçdikdən sonra o, Əbul-Abbas Qanimiyə[52] deyir: "Bu qulamı azad edirəm və filan kəndi ona bağışlayıram. Fərman yaz, bir kəndxuda qazı da onun üçün tap. Qoy onun evində otursun və saqqalı gələnə qədər evdən xaricə çıxmasın".

Əbul-Abbas vəzir idi, deyir: "Əmr hökmdarın əmridir, lakin əgər mümkünsə, əmir buyursun, görək burada nə hikmət var?" Əmir deyir ki: "Bu gün bir hadisə baş verdi, çox da pis oldu. Yetmiş yaşında şah hara, aşiqlik hara! Mənə yetmiş yaşdan sonra Allah bəndələrini dolandırmaq, ordu, xalq və ölkənin hayına qalmaq lazımdır. Mən eşqbazlıqla məşğul olsam, nə Allah yanında üzrlü sayılaram, nə bəndə yanında".

Bəli, cavan nə etsə, üzrlüdür, lakin adam nə qədər cavan olsada, gərək dəlicəsinə eşqini büruzə verməsin, beləliklə, siyasət və hörmətə sədəmə vurmasın.

Hekayət. Qəzneydə[53] eşitmişəm, Məsudun xidmətində on qulam var imiş, onu da onun şəxsi paltar saxlayanı imiş. Onların arasında Nuştəkin adlı bir qulam sevimlisi imiş. Lakin heç kəs, o cümlədən bu on qulam da bilmir ki, Soltanın sevimlisi kimdir, çünki Soltan Nuştəkinə nə bağışlayırmış, hamıya da ondan verirmiş ki, hərə elə bilsin Məsudun sevimlisi odur. Soltanın bu bəxşişləri verməkdə məqsədi isə Nuştəkin imiş. Beş il bu minval ilə keçir. Bir gün Soltan sərxoş ikən deyir: "Mənim atam Ayaza nə bağışlamışdısa, onların hamısını bütün pul, qəbz və iqtaları[54] ilə birlikdə Nuştəkinə verilməsi haqqında fərman yazın". Yalnız bundan sonra bilirlər ki, onun sevimlisi Nuştəkin imiş.

Hərçənd mən bu əhvalatları danışıram, lakin bilirəm ki, aşiq olanda mənim dediklərimə əməl etməyəcəksən, ona görə, eşq haqqında qocavarı bir rübai demək istəyirəm:

Kimdə həyat ola, həm natiq ola,
Gərəkdir o, Əzra, ya Vamiq ola.
Əgər ikiüzlü deyilsə insan,
Mütləq gərək sevə, ya aşiq ola!

Hərçənd mən belə demişəm, amma sən mənim rübaimə fikir vermə, ona əməl etmə, çalış aşiq olma. Birini sevməli olsan, eləsini sev ki, sevməyinə dəysin. Əlbəttə, məşuq Ptolemey[55] ya Əflatun olmayacaq, lakin bir az ağıllı olmalıdır. Bilirəm, Yəqub oğlu Yusif də olmayacaq, lakin bir az gözəlliyi, incəliyi olmalıdır ki, camaatın ağzını bağlaya biləsən və sənin üzrünü qəbul etsinlər. Axı camaat bir-birinin qeybətini qırıb, bir-birinə eyib tutmağa adət etmişdir. Birindən soruşdular: "Eybin varmı?" Dedi: "Yox". Dedilər: "Eyib tutanın necə?" Dedi: "Nə qədər istəyirsən!" Dedilər: "Onda dünyada ən eyibli adam sənsən".

Qonaq getsən, sevgilini özünlə aparma, aparsan, xalqın qabağında onunla mazaqlaşma, bütün fikir-zikrini ona vermə, qorxma, onu heç kəs yeməz. Elə təsəvvür etmə ki, o, hamının gözünə sənə görünən kimi görünür. Bu barədə şair belə deyir:

Mən yazığın halına vay olsun o gün ki, sən
Mənə görünən kimi, hamıya görünəsən.

Sənin gözünə hamıdan gözəl göründüyü kimi, başqalarının da gözünə hamıdan çirkin görünə bilər.

Bir də ona fasiləsiz olaraq meyvə, noğul vermə, dəqiqəbaşı qonaq etmə, hər saatdan bir çağırıb qulağına söz demə, guya mən xeyirli-zərərli şeyləri gizli deyirəm; camaat biləcək ki, sən nə dedin.






# KEF ÇƏKMƏK QAYDALARI HAQQINDA

Birini sevsən, ayıq və məst halda onunla ara vermədən əlaqədə olma, səndən ayrılan hər nütfədə, məlumdur ki, bir şəxsin, bir canlının toxumu vardır. Əlaqədə olsan, heç olmasa, sərxoş vaxtı olma, ziyanı daha çoxdur, lakin xumar vaxtı daha yaxşıdır. Nə vaxt yadına düşdü, o saat onunla məşğul olmağa başlama. Bu, heyvan xasiyyətidir. Heyvan hər işin yerin bilməz, nə vaxt yadına düşsə, o vaxt da məşğul olar. Adama müəyyən vaxt lazımdır ki, onunla heyvan arasında bir fərq olsun...

Dediyim kimi, çox əlaqədə olmağın ziyanı var, ona görə hər nə etsən iştaha ilə et, zorla etmə, ziyanı az olar. Lakin istər meylin olsun, istərsə yox, yayın istisindən və qışın soyuğundan özünü qoru. Bu fəsillərdə ziyanı daha çox olar, xüsusilə, qocalara. Bütün fəsillərdən ən yaxşısı bahardır, ən münasibi də budur. Bahar fəslində hava mülayim olar, sular çoxalar, dünya gözəlliyə və rahatlığa doğru üz qoyar. Böyük aləm belə olduqda, kiçik aləm sayılan bizim bədənimiz də onun təsirindən mülayimləşər. Bədəndə olan ünsürlər arasında müvazinət yaranar, damarlardakı qan artar, beldəki kişilik maddəsi çoxalar və insanlar təbii olaraq bir biri ilə əlaqədə olmağa meyl göstərərlər. Bu meyl təbii ehtiyacdan doğduğundan ziyanı az olar.

Bir də bacardıqca yayın istisində və qışın soyuğunda qan aldırma. Bədənində qanın artdığını hiss etsən, yemək-içməklə qaydaya sal. Fəslə zidd heç nə yemə. Yayda və qışda qadınlara çox meyl etmə. Bu barədə qısa danışdım, bundan artıq danışmağada ehtiyac yoxdur.






# HAMAMA GETMƏK QAYDALARI HAQQINDA

Bil, ey oğul, hamama gedəndə tox getmə, ziyanı var. Hamam çox yaxşı şeydir, demək olar ki, alimlər bina tikməyə başlayandan bəri hamamdan daha gözəl heç bir şey yaratmamışlar. Lakin bütün yaxşılığına baxmayaraq, hamama hər gün getmək olmaz, yoxsa bədənə ziyanı olar, həm də vasvasılıqda sənə eyib tutarlar... Hər gün hamama getməyin nəinki xeyri yoxdur, hətta zərəri vardır: əsəbləri, oynaqları yumşaldar, onların bərkliyini azaldar və insan təbiəti hər gün hamama getməyə adət edər, bir gün getmədikdə adam xəstə

kimi olar, bədənin üzvləri kobudlaşar. Buna görə iki gündən bir hamama getmək lazımdır.

Qışda və yayda hamama getdikdə əvvəlcə soyuq otaqda biraz otur ki, təbiətin oranın havasına öyrəşsin, sonra orta otağa keçib bir qədər də burada otur ki, o otaqdan da fayda götürmüş olasan, sonra isti otağa get, orada da bir az otur ki, bədənin istiyə alışsın. Hamamın istisi sənə təsir edəndə xəlvətxanaya gedib, orada başını yu. Gərək hamamda çox qalmayasan, öz üstünə çox isti və çox soyuq su tökməyəsən, ılıq yaxşıdır. Hamam xəlvət olsa, böyük xoşbəxtlikdir. Alim adamlar boş hamamı bütün qənimətlərdən qiymətli hesab edirlər. Hamamdan çıxdıqda saçını yaxşı-yaxşı qurutmalısan, sonra dışarı çıxa bilərsən. Saçın yaş yola düzəlmək nə ağıllı adamlara, nə adlı-sanlı adamlara yaraşar. Hamamdan saçı yaş çıxıb böyük adamların yanına getmək yaramaz, bu tərbiyəsizlik sayılar.

Hamamın xeyri və ziyanlarının hamısını dedim. Vəssalam. Lakin hamamda su və pivə içməkdən özünü qoru, çox zərərlidir. Nəticədə, bədən boşluqlarında su yığılması xəstəliyinə səbəb olar. Əgər xumarlığın varsa, onu yatırmaq üçün bir az içmək olar, bunun zərəri azdır.






# YUXU VƏ İSTİRAHƏT HAQQINDA

Ey oğul, bil və agah ol ki, Rum alimlərində[56] belə bir adət vardır: onlar hamamdan çıxdıqdan sonra hamamın geyinmə otağında bir az yatmayınca dışarı çıxmazlar. Belə bir adət başqa heç bir xalqda yoxdur. Müdrik adamlar yuxunu kiçik ölüm adlandırmışlar, çünki istər yatmış olsun, istər ölmüş, heç birinin bu dünyadan xəbəri olmur, fərq ondadır ki, biri nəfəsli ölüdür, biri nəfəssiz. Çox yatmaq tərifləməsi adət deyil: bədəni süstləşdirər, xasiyyəti yerindən oynadar, insanın sifətini təbii halından çıxıb, qeyri-təbii hala salar. Beş şey insana üz verdikdə

dərhal onun simasını dəyişdirər: gözlənilməz şadlıq, qəflətən baş vermiş bədbəxtlik, qəzəb, yuxu, sərxoşluq. Altıncısı qocalıqdır, insan qocaldıqda onun siması dəyişər, amma bu, başqa növ dəyişmədir.

İnsan yuxuda olarkən nə diri hesab edilə bilər, nə ölü. Ölüyə irad tutmaq mümkün olmadığı kimi, yatmışa da irad tutmaq olmaz. Mən demişəm:

Hərçənd cəfa edib bükdün belimi,
Lakin mən üzmərəm səndən əlimi.
Yatmısan, yatanı danlamaq olmaz,
İnciyib atmaram mən gözəlimi.

Çox yatmaq ziyan olduğu kimi, az yatmağın da zərəri vardır. Əgər bir adam yetmiş saat qəsdən yatmasa və ya zorla onu oyaq saxlasalar, ölüm təhlükəsi qarşısında qalmış olar.

Lakin hər işin öz əndazəsi vardır. Alimlər deyiblər ki, gecə gündüz iyirmi dörd saatdır. Bunun iki hissəsini oyaq olub, bir hissəsini yatmaq lazımdır, səkkiz saatını kef, əyləncə və ruhi ləzzətə, səkkiz saatını isə yuxuya sərf etmək lazımdır ki, on altı saat içərisində yorulmuş bədənin üzvləri rahatlanıb dincələ bilsin. Cahil adamlar bu iyirmi dörd saatın yarısını yatıb, yarısını oyaq qalarlar, tələbələr iki hissəsini yatıb bir hissəsini məşğul olarlar, ağıllılar isə bir hissəsini istirahət edər, iki hissəsini ayıq olarlar.

Dediyimiz kimi, hər səkkiz saatı bir cür keçirmək lazımdır. Bilməlisən ki, Haqq-Taala gecəni yatmaq üçün, bədənin dincəlməsi üçün yaratmışdır. Necə ki demişdir: "Biz gecəni örtük yaratdıq"[57]. Bu həqiqəti də bil ki, bütün canlılar bədən və candan ibarətdir. Bədən məskəndir, can isə onun sakini. Canın üç xüsusiyyəti vardır: yaşamaq, yüngüllük və hərəkət, bədənin də üç xüsusiyyəti vardır: ölmək, ətalət və ağırlıq. Canla bədən bir yerdə olduqca can bədəni idarə edər, həm işlədər, həm yaşadar, bəzən isə bədənin xüsusiyyətləri onu işdən qoyar, qəflətə sövq edər. Bədən öz xüsusiyyətini büruzə verdikdə ətalətə, yatmağa meyl göstərərlər, yatmaq evin dağılmasına oxşar, ev dağılanda nə varsa, həmişə aşağı

töküldüyü kimi, bədən də yatanda insanın bütün ruhunu əhatə edər: nə qulaq eşidər, nə göz görər, nə burun qoxu bilər, nə damaq ləzzət anlar, nə lamisə işləyər, nə də dil nitqə gəlib bir şey deyə bilər. Hafizə və fikir öz məkanlarından xaricdə olduqlarından onlara təsir edə bilməz. Görmürsənmi, bədən yatdıqdan sonra fikir müxtəlif yuxular görür, hafizə isə onu yadında saxlayır və insan ayıldıqdan sonra gördüyünü nağıl edir. Əgər bunlar da öz yerlərində olsaydı, onları da əhatə edərdi, onda nə fikrə bir şey gələrdi, nə hafizə onu yadda saxlayardı.

Əgər nitq də öz yerində olsaydı, o zaman bədən yata bilməzdi, yata bilib danışa bilsəydi, o halda yuxu və istirahət də olmazdı, çünki bütün canlıların istirahəti yuxudadır. Deməli, Haqq-Taala heç bir şeyi hikmətsiz yaratmamışdır. Gündüz zorla da olsa özünü yatmaqdan xilas et, bacarmasan, az yatmağa çalış, gecəilə gündüzü qarışdırmaq ağıllı iş deyil. Böyük və dövlətli adamların adətidir ki, yayda günorta vaxtı bir qədər dincələrlər, ola bilər yatsınlar, ola bilər, yox. Lakin dincəlməyin əsl yolu budur ki, adət olduğu üzrə bir saat istirahət edəsən. Bu mümkün deyilsə, vaxtın xoş keçən bir adamla xəlvətə çəkilmək lazımdır ki, günəş keçsin, hərarətin kəsəri azalsın. Sonra dışarı çıxmaq olar. Ümumiyyətlə çalışmaq lazımdır ki, ömrün çoxu ayıqlıqda keçsin, onsuz da çox yatmaq lazım gələcəkdir.

Lakin istər gecə, istərsə də gündüz yatmaq istərkən tək yatma, elə adamla yat ki, o sənin ruhunu oxşasın, çünki ölmüş və yatmış müəyyən mənada eynidir: nə bunun, nə də onun dünyadan xəbəri olmur, biri diri yatır, biri ölü. Bu iki yatmış arasındakı fərq ondan ibarətdir ki, biri çarəsizlik və məcburiyyət üzündən tək yatır, o birisi isə məcburiyyət olmadığından. Nə üçün bu məcburiyyət olmadığı halda o birisi kimi tək yatasan?! Odur ki, bu dünyada səninlə yatan adam ruhunu oxşamalıdır, o biri dünyada isə kimin səninlə yatacağının əhəmiyyəti yoxdur. Belə olduqda diri və ölü yatmağın fərqi aşkar olar.

Səhər tezdən durmağı adət etmək lazımdır. Elə etmək lazımdırki, gün çıxmamışdan qabaq durasan və Allahın borcunu vermiş olasan. Gün çıxandan sonra duran adamın ruzisi az olar. Çünki

bir tərəfdən namazı buraxmış olar, ikinci tərəfdən namazın babalı onun boynunda qalar. Deməli, səhər tezdən dur və Allahın borcunu ver, ondan sonra öz işlərinə başla. Səhər bir işin olmasa, ova və ya gəzməyə gedə bilərsən, həm şikar ovlarsan, həm kef çəkərsən. Allah qoysa, belə də edərsən.






# OVA GETMƏK HAQQINDA

Ey oğul, bil ki, at minmək, ov etmək, çövkan oynamaq böyük adamlara xasdır, xüsusilə, cavanlıqda. Lakin hər işin öz vaxtı, həddi, əndazəsi olmalıdır. Hər gün ova getmək olmaz. Həftədə yeddi gün vardır, iki gün ova get, üç gün şərab iç, iki gün isə öz təsərrüfat işlərinlə məşğul ol.

Lakin ata mindikdə alçağına minmə, adam yekəpər olsa da, alçaq at onu kiçik göstərər, alçaq boy olanda isə uca at onu hündür nəzərə çarpdırar. Yorğa və sakit ata yalnız səfərə çıxarkən min, çünki at sakit olanda adam özünü boş saxlayır. Şəhər içərisində və başqa atlılarla

birlikdə getdikdə, oynaq və tünd qaçan ata min ki, onun tündlüyü səni ayıq olmağa məcbur etsin. Həmişə atda düz, şəstlə otur ki, gözə pis dəyməyəsən.

Ovlaqda boş yerə at çapma, hədərə at çapmaq qulamların və uşaqların işidir. Yırtıcı heyvanların arxasınca da at salma, çünki yırtıcı heyvan ovundan xeyir gəlməz, həyat üçün isə təhlükəli olar. İki böyük şah heyvan ovunda həlak olmuşdur. Biri atamın babası Vəşmgir ibn Ziyar, ikincisi isə əmioğlum Əmir Şərəfülməalidir[58]. Qoy səndən kiçiklər çapsınlar, sən çapma. Yalnız böyük padşahların qarşısında ad qazanmaq və ya özünü göstərmək üçün çapmağına dəyər.

Deməli, ovu sevirsənsə, qızılquş, çərğ[59], şahin, qaplan və tazıilə ova get. Həm ovun ov olsun, həm təhlükə baş verməsin.

Yırtıcı heyvanların nə əti yeməli olar, nə dərisi geyməli. Əgər qızılquşla ova getsən, bil ki, şahlar bunu iki cür edirlər: Xorasan padşahları qızılquşu özləri uçurtmazlar, İraq şahları adətən özləri uçurdarlar. Hər ikisi olar. Şah olmasan, nə cür istəyirsən, elə də et, şah olsan və özün uçurtmaq istəsən, o da mümkündür.

Lakin qızılquşu heç vaxt bir dəfədən artıq uçurtma, çünki padşahabir quşu iki dəfə uçurtmaq yaraşmaz. Bir dəfə uçurt, bax gör ov gətirir, ya yox, sonra başqa qızılquş tələb et. Şahın ovda məqsədi tamaşa olmalıdır, yemək tamahı olmamalıdır. Əgər şah tazı ilə ova çıxırsa, iti o özü tutmamalıdır, qulları iti onun qabağınca aparmalıdırlar, o isə tamaşa etməlidir. Ovun dalınca at çapma. Qaplanla ova çıxsan, heç vaxt onu arxadan atının tərkinə mindirmə, qaplan gəzdirmək şaha yaraşmaz, bir də yırtıcı heyvanı öz arxasına mindirmək ağıllı iş hesab edilməz, xüsusilə, şahlara və hökmdarlara. Ov və onun şərtləri bundan ibarətdir.






# ÇÖVKAN OYUNU HAQQINDA

Ey oğul, bil, əgər çövkan oynamaqdan həzz alsan, çox oynamağı özünə adət etmə, çox adamlar çövkan oynamaqdan zərər görüblər.

Hekayət. Belə deyirlər ki, Əmr Leysin[60] bir gözü kor imiş. Xorasan əmiri olduqdan sonra bir dəfə çövkan oynamaq üçün meydana gedir. Onun Əzhər Xər[61] adlı bir sərkərdəsi var imiş, gəlib onun atının cilovundan tutur və deyir: "Qoymaram səni top vurub çövkan oynayasan". Əmr Leys deyir: "Necə olur ki, siz vurmağı özünüzə


شه از دنبال گوی خود روان شد
گدا بگرفت و سوی شه دوان شد
شه صاحب قرانش آفرین کرد
وزان پس قرینا با خود قرین کرد

rəva görürsünüz, çövkan oynamağı mənə rəva görmürsünüz?" Əzhər cavabında deyir: "Ona görə ki, bizim iki gözümüz vardır, əgər top gözümüzə dəysə, bir gözümüz kor olar, bir gözümüz qalar və bununla işıqlı dünyanı görə bilərik, sənin isə bir gözün vardır, bədbəxtlikdən əgər top o gözünü də çıxartsa, gərək Xorasan əmirliyinin fatihəsi oxunsun". Əmr Leys deyir: "Bütün eşşəkliyinə baxmayaraq düz deyirsən, söz verirəm ki, nə qədər sağam, topa əl vurmayam".

Əgər ildə iki dəfə çövkan oynamağa həvəs göstərsən, razı qalaram. Lakin at üstündə çox oynamaq lazım deyil, qorxusu var. Top vurmaq üçün süvarilərin sayı səkkizdən artıq olmamalıdır. Sən meydanın bu başında dur, bir nəfər də o başda dursun, altı nəfər isə ortada top vursun. Top sənin tərəfinə gələrsə, onu vurub geri qaytar və atı da o qədər çap, lakin qarmaqarışıqlığa soxulma ki, həm sədəmədən özünü qoruyasan, həm məqsədə çatmış olasan. Böyük adamların çövkan oynamaq qaydaları bundan ibarətdir, kömək isə Allahdandır.






# DÖYÜŞ HAQQINDA

Ey oğul, döyüş meydanında olsan, orada yavaş tərpənib süstlük göstərmək yaramaz. Düşmən sənə üstün gəlib axşam xörəyi yeməmişdən əvvəl, sən ona qələbə çalıb səhər çayını iç. Döyüşün ortasına düşmüş olsan, özünü itirib canından qorxma, gorda yatmalı olan adam heç bir vəchlə evdə yata bilməyəcək, necə ki, təbəri dilində mən demişəm:

Heç qorxusu yoxdur düşmən olsa şir,
Bilmərəm dünyada mən qorxu nədir.
Nə gözəl demişdir o ağıllı pir:
“Öləsi adama ev olar qəbir!”

Həmin mənanı farsca da deyirəm ki, hamıya məlum olsun:

Açıq ya da gizli şir olsa düşmən,
Şirə sən şəmşirlə cavab ver həmən.
Gorda tək yatmağa məhkum olsan sən,
Evdə nigarınla yata bilməzsən!

Döyüşdə bir addım irəli getmək mümkünsə, bir qədəm geri qoyma. Düşmən tərəfindən mühasirəyə alınsan, savaşı dayandırma, çünki yalnız savaşla düşməni ram etmək olar. Onlar sənin igidliyini gördükdə qorxuya düşərlər. Belə yerdə ölümü özün üçün xoşbəxtlik hesab et. Heç vaxt qorxma, ürəkli ol. Qoçaqların əlində qısa qılınclar uzun görünər. Vuruşda ehmallıq yaramaz, balaca qorxaqlıq və ya süstlük oldumu, min canın olsun, birinidə salamat apara bilməzsən. Ən alçaq adam sənə üstün gələr. Beləliklə, öldürülsən, rüsvayçılıq olar, bədnamlıqla şöhrət taparsan. Qəhrəmanlıqda məşhur olsan, səndən bir səliqəsizlik baş versə də, ziyan çəkməzsən, tay-tuşların içində başıaşağı olmazsan. Lakin şöhrət və dövlət olmadıqda adamın öz tay-tuşları arasında hörməti də olmur. Belə yaşayışdan isə ölüm üstündür. Yaxşı adla ölmək pis adla yaşamaqdan yaxşıdır.

Xoşdur yaxşı adla əgər ölsəm mən,
Mənə ad qalacaq, öləcək bədən.



Lakin nahaq qan tökməyə həvəskar olma, heç bir insanın qanını halal hesab etmə. Öldürsən, yolkəsənləri, oğruları, gorqazanları, yolazanları öldür. Nahaq qan hər iki dünyanın bəla qapılarını sənin üzünə açmış olar. Qiyamətdə cəzasını alarsan, bu dünyada pis ad qazanarsan. Gücsüzlər sənə etibar etməz.

Xidmətçilərin ümidi qırılar. Xalq sənə nifrət edər. Camaat ürəklərində sənə kin bəslər. O dünyada bütün əzab-işgəncələr nahaq qan üstündə verilər. Lakin mən kitablarda oxumuşam, təcrübədən də görmüşəm ki, nahaq qanın cəzasını elə bu dünyada da çəkərlər. Əgər adamın öz taleyi uğurlu olsa, bəla onun övladına yetişər. Buna görə, özünə və balalarına yazığın gəlsin, nahaq qan tökmə. Lakin haqq qanın axıdılmasında da kahıllıq göstərmə, işlərinə ziyan dəyər. Məsələn, mənim babam Şəmsülməalı haqqında nağıl edirlər ki, o, çox qəddar adam imiş və heç kəsi bağışlamazmış. Çox pis adam imiş, buna görə qoşun ona nifrət edirmiş. Qoşun mənim əmim Fələkülməali ilə əlbir olur, o, məcburiyyət üzündən gəlib öz atasını həbs edir, çünki ordu ona demişdi: "Sən bu işdə bizimlə bir olmasan, biz bu şahlığı özgələrinə verəcəyik". Şahlığın öz xanədanının əlindən çıxacağını gördükdə zərurət üzündən, şahlıq xatirinə bu işi elədi. Babamı tutub əl-qolunu bağladılar, kəcavəyə mindirdilər, inanılmış adamlardan ibarət keşikçi qoydular və Kənaşı qalasına göndərdilər. Onu yola salanlar içərisində Abdullah adlı bir adam var idi. Yolda Şəmsülməali həmin adama deyir: "Ya Abdullah, bu işin kim tərəfindən edildiyini, bu tədbirin necə həyata keçirildiyini bilirsənmi? Necə oldu ki, mən bu işdən xəbər tutmadım?" Abdullah deyir ki, bunu filankəslər və filankəslər etmişlər. Beş sipəhsaların adını çəkir, deyir: "Bu işi onlar etmiş, ordunu onlar yoldan çıxarmışlar, bu işdə mənim də əlim olmuşdur. Lakin sən bu işi məndən görmə, özündən gör, çünki bunun səbəbi ordunun üz döndərməsi deyil, sənin çoxlu adam öldürməyindir". Şəmsülməali deyir: "Səhvin var, bu iş mənim başıma adamları öldürmədiyim üçün gəlmişdir. Əgər iş ağıllı qurulsaydı, gərək sənin və o beş nəfərin də qanı axıdılmış olaydı. Belə etmiş olsaydım, həm işlərim sahman olardı, həm özüm salamat qalardım".

Bunu deyirəm, biləsən ki, görülməsi zəruri olan işlərdə ehmallıq etməyəsən, məcburi olanlarda süstlük göstərməyəsən. Bir də ki, adam axtalatmağı özünə adət etmə, bu, qan tökməyə bərabər bir şeydir. Öz şəhvətin xatirinə bir nəslin kökünü kəsirsən, bundan daha ağır zülm ola bilməz. Sənə xədim lazımsa, xədim edilmiş tap ki, onun günahı başqasının boynunda olsun, sən bu günaha batmayasan.

Döyüş məsələsinə gəldikdə isə, dediyim kimi ol, canının hayına qalma, nə qədər ki, bədənini itlərə yem etməmisən, adını şirlər adına qoşa bilməzsən. Bil ki, bir gün doğulan, bir gün də öləcəkdir.

Canlılar üç növdür: danışan canlılar, danışıb ölənlər, canlı ölülər, yəni: mələklər, insanlar, quşlar və heyvanlar. Pəhləvi dilində bir pars kitabında oxumuşam: Zərdüştdən soruşurlar ki, "canlılar neçə növdür?" O da belə cavab verib deyir: "Danışan canlılar, danışan və ölən canlılar, ölən canlılar".

Deməк, məlum olur ki, bütün canlılar ölür və heç kəs öz əcəlindən əvvəl getmir. Ona görə də döyüşdə inamla vuruşub səy göstərmək lazımdır ki, həm çörəyə çatasan, həm şöhrət tapasan. Ölüm və ölmək haqqında əmirəlmöminin Əli ibn Əbu Talib əleyhissəlam bir hədisdə belə demişdir: "Doğulduğum gündə ölmüşəm". İndi mən hədisdən-hədisə keçsəm, çox danışmalı olaram. Hərçənd deyiblər ki, "çox bilən çox danışar".

Qayıdıram əvvəlki sözə: bil ki, çörək və adı bu dünyada qazanarlar. Elə ki qazandın, çalış mal-dövlət topla, topladığını yaxşı saxla və yerində xərclə.






# MAL-DÖVLƏT TOPLAMAQ QAYDALARI HAQQINDA

Ey oğul, bir şey ələ gətirmək mümkünsə, fürsəti fövt etmə, lakin şey üstündə özünü təhlükəyə də vermə. Səy et, hər şeyi özünə layiq, ən yaxşı üsulla ələ gətir. Elə ki gətirdin, möhkəm saxla, heçə-puça xərcləmə, əldə saxlamaq, ələ gətirməkdən çətindir. Xərcləmək lazım gəldikdə çalış, onun əvəzini tez yerinə qoy, əgər hey götürüb əvəzini yerinə qoymasan, Qarun[62] dövləti də olsa, qurtarar. Lakin ona çox da könül salma, əbədi hesab etmə ki, bir gün sona çatdıqda kədərlənməyəsən. Deyiblər ki: "Bir şeyi düşmənə qoyub getmək, onu dostdan xahişlə istəməkdən yaxşıdır".

Bir şeyi bərk-bərk saxlamaq onu bərk axtarmaqdan məsləhətlidir. Az da olsa, hər şeyi saxlamağı vacib bil, çünki azı saxlamağı bacarmayan, çoxu da saxlaya bilməz. Öz işini başqalarının işindən üstün tut, kahıllıqdan utan, kahıllıq bədbəxtliyin şagirdidir. Zəhmətdən əmələ gəlir. Görmürsənmi, əmək nemət yaradır, tənbəllik isə dövlət dağıdır?! Müdrik adamlar deyiblər: "Abadlıq istəyirsinizsə, çalışqan olun, dövlət istəyirsinizsə, qənaətcil olun, çox dost istəyirsinizsə təvazökar olun".

Zəhmət və səy nəticəsində əmələ gəlmiş şeyi tənbəllik və xamlıq üzündən itirmək ağıllı iş hesab edilməz. Ehtiyac günü peşmançılıq fayda verməz. Zəhmət çəkirsənsə, çalış bəhrəsini də özün götür. Şey nə qədər qiymətli olur-olsun, onu layiqli adama müzayiqə etmə, çünki heç kəs, heç bir şeyi özü ilə gora aparmayacaq. Lakin başqalarına möhtac olmamaq üçün gərək insanın çıxarı gəlirinə uyğun olsun, çünki ehtiyac yalnız yoxsulların evində deyil, bütün evlərdə ola bilər. Məsələn, əgər birinin gəliri bir dirəm[63], çıxarı bir dirəm bir həbbədirsə[64], o həmişə ehtiyac içində olar. Gəlir bir dirəmsə, çıxar bir dirəmdən bir həbbə az olmalıdır. Belə evdə heç vaxt ehtiyac olmaz. Nəyin varsa, ona da qane ol, çünki qənaət özü dövlət deməkdir. Qismətində nə varsa, o da sənə çatacaq.

Xoş söz və adamların köməyi ilə düzələ bilən işlərə pul sərf etmə. Yoxsul adamın qədir-qiyməti olmaz. Bil ki, qara camaat xeyir görmədiyi halda dövlətliləri xoşlar, zərər çəkmədiyi halda bütün kasıblardan da acığı gələr. İnsanın ən ağır günü ehtiyacdır. Varlılar tərəfindən edilərkən təriflənən hərəkətlər yoxsullar üçün eyib hesab edilər.

İnsanların zinətini onların əliaçıqlığında bil, hər kəsin qiymətini isə onun zinətinə görə təyin et. Lakin israfı düşmən bil, onu uğursuzluq hesab et. Allahın düşmən hesab etdiyi hər şey onun bəndələri üçün uğursuzluq olar. Necə ki deyiblər: "İsraf etməyiniz, o, israf edənləri sevməz". Böyük Allahın sevmədiyi şeyləri sən də sevmə. Hər bədbəxtliyin bir səbəbi var, yoxsulluğun da səbəbi israfçılıqdır. İsrafçılıq yalnız mal-dövləti xərcləməkdə deyil, yemək, işləmək, danışmaq hər iş olur-olsun, israf etmə, çünki israf bədəni taqətdən salar, ruhu incidər, ağlı çaşdırar, ömrü söndürər. Görmürsənmi, çırağın ömrü yağa bağlıdır?! Lakin çırağa həddindən artıq yağ töksən, o

dərhal sönər. Ölümə səbəb olan həmin yağ qaydasında tökülsə, həyata səbəb olar. Belə məlum olur ki, ölümə səbəb həmin israfdır. Deməli, çırağa həyat verən yağdır, lakin həddini aşdıqda israf meydana çıxır, həyat verən həmin yağ dönüb öldürücü olur. Allah da ona görə israfı düşmən hesab etmişdir. Alimlərdə heç bir işdə israfı bəyənməyiblər, çünki israfın nəticəsi həmişə ziyan olur.

Lakin öz həyatını acı eləmə, ruzi qapısını üzünə bağlama, imkan daxilində özünə yaxşı bax, lazım olan heç bir şeydə səhlənkarlıq etmə. Öz işində səhlənkarlıq göstərən bəxtindən fayda götürə bilməz və arzularına çata bilməz. Xülasə, ələ gətirə bildiyin şeyləri xeyirli işlərə sərf et, var-dövlətini paxıl adama tapşırma, qumarbazlara, əyyaşlara etibar etmə. Mal-dövlət toplamaqda səhlənkarlıq etmə, rahatlıq zəhmətdədir, zəhmət isə dincəlməkdə. Bugünün rahatlığı sabahın zəhməti olduğu kimi, bu günün də zəhməti sabahın istirahəti olar.

Zəhmətli-zəhmətsiz hər nə əlinə gəlirsə, çalış bir dirəmdən iki dang[65] evinə və ailənə xərclə. Lazım gəlsə, ehtiyacın olsa belə, bundan artıq xərcləmə. Beləliklə, iki dang xərclədikdən sonra o biri iki dangı ehtiyat topla və onu yadına salma. Onu varislərinə və qocalıq günlərin üçün saxla ki, köməyinə çatsın. Yerdə qalan o biri iki dangı isə bəzək-düzək işlərinə sərf et. Lakin elə bəzək-düzək şeyləri al ki, onlar xarab və məhv olmasınlar. Məsələn: daş-qaş, qızıl, gümüş, bürünc, mis və bunun kimi.

Bundan artıq bir şeyin olsa, torpağa ver, çünki torpağa nə versən, artıqlaması ilə geri alarsan, mayan da həmişə yerində qalar, qazancın da bol və halal olar. Hər məcburiyyət və zəruriyyət ucundan avadanlığını satma və demə ki: "Nə olsun, bu gün məcburən satıram, başqa vaxt alaram". Əvəzini mütləq ümidi ilə hər dəfə çətinlik üz verdikdə, avadanlığı satsan, ola bilər ala bilməyəsən, əvvəlki də əldən getsin, ev boş qalsın. Beləliklə, çox çəkməz ki, sən müflislərin müflisi olarsan.

Bir də ki, hər zərurət üzündən borc alıb girov qoyma. Pulu sələmlə verib sələmlə alma, borc istəməyi ən böyük rəzalət və həyasızlıq hesab et, bacardıqca özün də heç kəsə bir dirhəm belə borc



vermə, xüsusilə, dostlara, çünki dostlardan borcu istəmək ən ağır işdir. Lakin borcu verdikdə onu artıq özününkü hesab etmə, ürəyində elə tut ki, o pulu dostuna bağışlayıbsan. Özü qaytarmayınca istəmə ki, bunun nəticəsində dostluq pozulmasın, çünki dostu düşmən etmək asandır, düşməni dost etmək isə çox çətindir. Birincisi - uşaqların, ikincisi isə ağıllı qocaların işidir.

Adamların ən yaxşısı olmaq üçün varından müstəhəqq adamlara pay ver, başqalarının malında isə gözün olmasın. Etibarlılıqda, ad qazanmaqda öz malını özününkü bil, özgə malını özgəninki.






# ƏMANƏT SAXLAMAQ HAQQINDA

Ey oğul, bir adam sənə əmanət versə, qətiyyən götürmə, elə ki, götürdün, möhkəm saxla. Əmanət saxlamaq bəladır, çünki onun nəticəsində üç haldan başqa bir şey ola bilməz. Əgər bu əmanəti ona geri qaytarmalı olsan, Allah-Taalanın nazil etdiyi: "Əmanətləri yiyələrinə qaytarın" hökmünü yerinə yetirmiş olarsan. Comərdlik və kişilik odur ki, əmanəti qəbul etməyəsən, qəbul etsən, qoruyub sağ-salamat sahibinə qaytarasan.

Hekayət. Belə eşitmişəm, bir kişi səhər alaqaranlıqda evdən çıxıb hamama gedərkən yolda öz dostuna rast gəlir və deyir: "Mənimlə hamama getmək istəyirsənmi?" Yoldaşı deyir: "Hamamın qapısına qədər sənə yoldaşlıq edə bilərəm, lakin hamama gedə bilmərəm, işim var". Hamamın yaxınlığına qədər bir yerdə gedirlər. Yol ayrıcına çatdıqda dostu xəbərdarlıq etmədən geri dönüb başqa tərəfə gedir. Təsadüfən, bir oğru da həmin kişinin dalısınca oğurluq məqsədilə hamama gedirmiş. Birdən kişi geri baxır, oğrunu görür, lakin hələ alaqaranlıq olduğundan onu dostu təsəvvür edib, qurşağından dəsmala bağlanmış yüz dinarı çıxarır, həman oğruya verir və deyir: "Ay qardaş, bu əmanətdir, al, mən hamamdan çıxandan sonra qaytararsan". Oğru qızılı alır, kişi hamamdan çıxana qədər heç yerə getməyib orada gözləyir. Hava işıqlanır. Kişi paltarını geyib yola düzəlir. Oğru onu çağırıb deyir: "Ey cavanmərd, qızılını geri al, sonra get, sənin əmanətin üzündən bu gün mən də işimdən avara oldum". Kişi deyir: "Bu nədir, əmanət nədir, sən kimsən?" Oğru deyir: "Mən oğruyam, sən isə hamamdan çıxana qədər bu qızılı mənə tapşıran adam". Kişi deyir: "Oğrusansa, bəs nə üçün mənim qızıllarımı aparmayıbsan?" Oğru deyir: "Əgər öz peşəmlə ələ keçirsəydim, min dinar olsaydı, sənə yazığım gəlməzdi, bir dinar da sənə qaytarmazdım. Lakin sən bunu mənə əmanət olaraq veribsən, insafsızlıq olar ki, sən alicənablıq edib mənə əmanət verəsən, mən də nanəciblik göstərib ona xəyanət edəm".

Bir də, təsadüfən, qərəzsiz olaraq əmanət sənin əlində xarab olsa, əvəzini ala bilsən yaxşıdır. Əgər şeytan səni yoldan azdırsa, əmanətə tamah salsan və onu dansan, bu çox pisdir.

Əgər əmanəti sahibinə qaytarsan, o vaxta qədər əmanəti saxlamaq üçün çox iztirab və zəhmət çəkməli olarsan, bu qədər əziyyətdən sonra haman şeyi yiyəsinə qaytararsan, zəhmət sənə qalar, o adam isə heç bir vəchlə özünü sənə minnətdar hesab etməz. Deyər: "Öz şeyim idi, vermişdim, geri aldım, sənə qalmayacaq idi ki".



Doğru deyirəm, çəkdiyin əziyyət üçün "sağ ol" deyən olmaz, əvəzində isə ləkələnə bilərsən.

Əmanət itsə, heç kəs inanmaz, xəyanət etmədiyin halda, xalq arasında xain sayılarsan, tay-tuş içərisində hörmətdən düşərsən, artıq heç kəs sənə etibar etməz. Özündə saxlasan, haramdır, böyük günaha batarsan, bu dünyada istifadə edə bilməzsən, o dünyada Haqq-Taalanın qəzəbinə gələrsən.

Haşiyə. Lakin bir adama əmanət verdikdə gizlin vermə, heç kəs sənin malını ondan ala bilməz. Bir də ki, iki etibarlı şahid olmadan heç kəsə öz malını etibar etmə, verdiyin əmanət müqabilində qəbz al ki, məhkəməyə getməkdən azad olasan. İş gedib məhkəməyə çıxsa, məhkəmədə kobudluq etmə, çünki kobudluq zorakılıq əlamətidir. Bacardıqca yalandan and içmə və and içməkdə məşhur olma, elə et ki, əgər bir vaxt and içmək lazım gəlsə, xalq sənə inansın. Nə qədər dövlətli olursan ol, xeyirxah, düzdanışan olmasan, özünü yoxsul hesab etməlisən, çünki bədxah və yalançının axırı yoxsulluqdan başqa bir şey olmaz. Əmanətin qədrini bil. Deyiblər ki, "əmanət kimyadır, həmişə dövlətli olarsan".

Düz danışan və etibarlı adam ol, dünyanın bütün dövləti düzdanışan və etibarlı adamlarındır. Çalış, adam aldadan olma. Ehtiyatlı ol ki, səni də aldatmasınlar, xüsusilə qul almaqda. Allah köməyin olsun.






# QUL ALMAQ VƏ ONUN ŞƏRTLƏRİ HAQQINDA

Qul alsan, çox ayıq ol. Adam almaq çox çətin bir elmdir. Qul var ki, yaxşı görünər, lakin elm gözü ilə baxdıqda əksi olar. Adamların çoxu elə güman edir ki, qul almaq da başqa alver kimidir, lakin bilməzlər ki, qul almaq da fəlsəfə kimi bir elmdir. Tanımadığı malı alan adam məğmun olar, adamı tanımaq isə ən çətin məsələdir, çünki adamların mənfi və müsbət xüsusiyyətləri çoxdur. Elə eyib var ki, onu örtmək üçün yüz müsbət xüsusiyyət lazım olar, elə müsbət cəhət də var ki, yüz eybi örtməyə kifayət edər.



Adamı yalnız elmi fərasət[66] və təcrübədən başqa heç bir şeylə tanımaq olmaz. Elmi fərasət isə bütünlükdə peyğəmbərliyə daxildir, onu ən kamil şəkildə peyğəmbərlərdən başqa heç kəs bilə-bilməz. Yalnız peyğəmbər öz fərasəti ilə adamın pis və yaxşı cəhətini təyin edə bilər. Lakin buna baxmayaraq, öz bildiklərimdən, özgələrindən eşitdiklərimdən istifadə edib, qul almaq şərtlərindən sənə danışmaq istəyirəm.

Bil ki, qul almaqda üç şərt var: birincisi, fərasət vasitəsi ilə zahiri, daxili eyib və hünərlərini aşkara çıxarmaq; ikincisi, zahiri əlamətlərə görə xarici və daxili xəstəlikləri təyin etmək; üçüncü, cinsləri tanımaq və onların müsbət və mənfi cəhətini müəyyən etmək.

Fərasətin şərti odur ki, alarkən yaxşı fikirləşəsən. Qulların iki cür müştərisi olar: biri onun üzünə baxar, lakin bədəninə, əl-qoluna baxmaz; biri üzünə baxmaz, qalan yerlərinə baxar, incə, gözəl, ya ətli-yağlı olduğunu istər. Lakin kim sənin quluna baxsa, əvvəl üzünə, sonra qalan yerlərinə nəzər salar. Deməli, yaxşı olar ki, üzü gözəli seçəsən, çünki sən özün də həmişə onun üzünü görəcəksən. Demək, əvvəlcə onun gözlərinə və qaşlarına, sonra burnuna, sonra iki dodağına və dişlərinə, daha sonra isə tüklərinə bax. Böyük və cəlallı Allah insanın bütün gözəlliyini qaş-gözdə, zərifliyini burunda, şirinliyini dodaq və dişlərdə, təravətini üzün dərisində yaratmışdır, başın tükünü isə bütün bunların bəzəyi etmişdir.

Bundan sonra qalan yerlərinə bax. Əgər qaş-gözdə gözəllik, burunda zəriflik, dodaq və dişlərdə şirinlik, dəridə təmizlik varsa, o qulu al, bədəninə, əl-qoluna fikir vermə. Bunların heç biri yoxdursa, onda məlahətli olmalıdır. Mənim əqidəmə görə, gözəlliyi olmayan məlahət məlahəti olmayan gözəllikdən yaxşıdır.



Demişəm, qulu hansı iş üçün alırsan al, gərək o, hər şeydə: uzunluq-gödəklikdə, köklük-arıqlıqda, ağlıq-qırmızılıqda, yekəpərlik və naziklikdə, boyunun yoğun və incəliyində, saçın cod və yumşaqlığında mütənasib olsun. O, girdə dallı, yumşaq ətli, gözəl qamətli, hamar dərili, sümüyü düz, saçı qəhvəyi, qaragöz, enliqaş, nazikburun,

incəbel, çənəsi yumru, ağdiş olmalıdır. Hansı qul gözəl, xoş xasiyyət və qürurlu olsa, o, yumşaq təbiət, iş bacaran və şirin söhbət olar.

Ev üçün alınan xoşbəxt qul qaməti düz, köklüyü orta, dərisi ağ, rəngi al, enlik-ürək, barmaqları aralı, alnı geniş, şəhlagöz, gülərüz olmaqdır. Belə qul elm öyrənmək, təsərrüfatı idarə etmək, katiblik, xəzinədarlıq və başqa bütün işlərə yarar.

Musiqi üçün alınan qulun əti yumşaq və az, xüsusilə dal tərəfdə nə kök, nə arıq və barmaqları nazik olmalıdır. Ayıq ol, üzüətli alma, heç nə öyrənə bilməz. Lakin ovcu yumşaq, barmaqları aralı, üzügülər, dərisi nazik, tükü nə uzun, nə gödək, nə tünd qırmızı, nə tünd qara, şəhlagöz, ayağının altı düz olmalıdır.

Belə qul hansı peşəni istəsən, tez öyrənər, xüsusilə musiqini.

Hərbi işə alınan qulun tükü cod, qaməti uca, yekəpər, əti möhkəm, sümüyü bərk, oynaqları qüvvətli olmalı, əzələləri uzun, qabarıq, bütün bədənində damarlar aydın və iri görünməlidir, barmaqları sərt, ovcu iri, sinəsi geniş, kürəyi enli, boynu güclü, başı yumru (daz olsa, daha yaxşı), qarnı batıq, beli təng, yeriyərkən baldırları yuxarı dartılan, üzü qəzəbli, gözü qanlı olmalıdır. Belə qulam savaşda şücaətli və xoş taleli olar.

Hərəmxana üçün alınan qul qara dərili, turşüz, gönüqalın, qurubədən, naziktük, qayışpaça, yoğundodaq, yastıburun, gödəkbarmaq, əyribel, çöpboyun olmalıdır. Belə qul hərəmxanaya xidmət etməyə layiqdir, amma ağ dərili, alyanaqlı yaramaz.

Kürən quldan, xüsusilə saçlarını uzadanlardan ehtiyatlı ol, onların gözündə nəmlik və qəmlik olmamalıdır. Beləleri ya arvadsevən olar, ya aradüzəldən.

Utanmaq bilməyən ortayaşlı qul mehtərliyə yaxşıdır. O, enliqaş, irigöz, enlikürək, əl-ayağı kobud və gödək, xüsusilə əyri olmalıdır. Özü kürən, gözü göy, gözünün ağında qırmızı dənələr, uzun dodaq, iridiş, böyükağız olmalıdır. Belə qul çox həyasız, nanəcib, ədəbsiz, qarayaxan və dava axtaran olar.

Aşpazlığa və fərraşlığa[67] yarayan qulun əlamətləri bunlardır: onun üzü təmiz, bədəni pak, çöhrəsi girdə, əl-ayağı zərif, gözləri mavi, boyu uca, az danışan, saçı qumral və uzun olmalıdır. Belə qul dediyim işə yarar.

Deməli, bil, dediyim bu şərtləri nəzərə al.

İndi də onların hərəsinin müsbət və mənfi cəhətlərini deyirəm, biləsən.

Türkan[68] qulları doqquz cür olur, hərəsinin də özünə görə ayrı xasiyyəti və təbiəti var. Onların hamısından pis xasiyyətlisi qıpçaq və quzlardır, hamısından xoşxasiyyət və üzüyolaları isə xötənlilər, xalluxlar, bəxşilər, tibetlilər, hamısından süst və tənbəlləri çigillər, hamısından ürəkli və şücaətliləri rumilərdir. Hamısından zəhmətkeş, əməksevən və işə yarayanları çiyan, tatar və yağmalardır[69].

Türklərin gözəllikləri ümumi görünüşlərindən məlum olar, onların yaxşı cəhətlərini tərif, pis tərəflərini tənqid etməkdən bir şey çıxmaz. Hindlilərdə isə əksinə. Məsələn, türkə baxdıqda, başı böyük, üzü enli, gözləri kiçik, burnu yastı, dişləri kobud nəzərə çarpır və ayrılıqda bunların heç biri gözəl deyildir, lakin hamısına bir yerdə baxanda sima çox qəşəng görünər.

Hindlilərin üzləri isə əksinədir, ayrı-ayrı baxdıqda hərəsi özlüyündə gözəldir, lakin hamısına birlikdə baxdıqda türklərin surəti kimi görünər. Lakin türklərdə elə xasiyyət, məziyyət və adət var ki, onlar hindlilərdə yoxdur. Amma cəldlikdə türklərə çatan olmaz, türklərin nəyi gözəldirsə - ən gözəldir, nəyi pisdirsə - ən pisdir. Onların ən böyük eybi odur ki, huşsuz, nadan, dikbaş, davakar, narazı, qəddar, bədməst, səbəbsiz qarışıqlıq salan, danışığını bacarmayan olarlar. Gecələr daha cürətli olarlar, gecə göstərdikləri şücaəti gündüzlər göstərə bilməzlər. Onların üstün cəhəti odur ki, çox igiddirlər, qorxmadan açıqdan-açığa düşmənçilik edər, tapşırılan bütün işləri hərisliklə yerinə yetirərlər. Çox incəruhlu və kefcil olarlar, eyşişrət məclislərində, şənliklərdə onlara çatan olmaz.

Səqləbilər, rumilər, alanlar[69] təbiət etibarilə türklərə yaxındırlar, lakin türklərdən daha təmkinli və zəhmətkeşdirlər. Alanlar gecə türklərdən daha çox igid, daha çox Allahpərəst olarlar. İşləməkdə rumilərə yaxın olsalar da, ruhda türklərə yaxın olarlar. Lakin onlarda bir neçə eyib vardır: oğurluq, əmrə tabe olmamaq, vəfasızlıq, qeyri-səmimilik, səbirsizlik, lənglik, süstlük, ağasına düşmənlik, bir ayağı qaçmaqda olmaq. Üstün cəhətləri: bədəni yumşaqlıq, xoş təbiətlilik, istiqanlılıq, səliqə ilə işləmək, doğru danışmaq, qoçaqlıq, üzüyolalıq, hafizəlilik.

Ruminin eyibləri: danışıq bilməyən, kinli, süst təbiətli, nasaz, cırtqoz, acgöz və dünyapərəst olmaqdır. Üstün cəhətləri özünəbaxan, mehriban, xoş ətirli, təsərrüfatcıl, zarafatcıl, dillərini saxlayan olmalarıdır.

Erməninin eybi: bədfel, kündəbədən, oğru, gözügötürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyüş sevən, ürəyi xıltlı, ağasına düşmənçilikdir. Ümumiyyətlə, onlar başdan ayağa müsbətdən mənfiyə yaxındırlar, lakin doğru danışan, tez başa düşən, işlərini bilən və zəhmətsevən olarlar.

Hindlilərin eybi odur ki, dili bilməzlər, evdəki kənizləri rahat buraxmazlar. Lakin hindlilərin də cinsi başqa tayfaların cinsinə oxşamaz, çünki hindlilərdən başqa bütün xalqlar bir-biri ilə qarışmışlar, hindlilərin Adəm zamanından başlamış belə bir adətləri var ki, heç bir təbəqə başqa təbəqəyə qatışmaz, baqqallar qızlarını baqqallara, qəssablar qəssablara, çörəkçilər çörəkçilərə, hərbçilər hərbçilərə, brəhmənlər brəhmənlərə verərlər. Onların hərəsinin isə bir xüsusiyyəti var və bunları bir-bir şərh edə bilmərəm, kitab əndazədən çıxar. Onların yaxşısı - həm mehribanı, həm ağıllısı, həm şücaətlisi - ya brəhmən olar, ya brəhmən kimilər.

Nubilərin və zəncilərin eybi daha azdır. Zənci nubidən yaxşıdır, Peyğəmbərin (s.) hədisində zəncilərin haqqında çox təriflər vardır. Cinsləri tanımaq, onların hərəsinin mənfi və müsbət cəhətlərini bilmək bunlardan ibarətdir. İndi də üçüncü şərti deyirəm, biləsən.

Zahiri və batini xəstəliklərin hamısını xarici əlamətlərdən bilməyi öyrən ki, xam düşüb ilk baxışdan almayasan. Çünki ilk baxışda gözəl nəzərə gələnlərin çoxları sonradan çirkin görünürlər, çox çirkinlər olur ki, sonra gözəl görünür. Bir də insanların üzü həmişə bir qaydada qalmır, həmişə gah gözəlliyə meyl edər, gah çirkinliyə. Ona diqqətlə bax ki, heç şey sənin nəzərindən qaçmasın. Bir çox daxili xəstəliklər olar ki, gəlməyə hazırlaşarlar, lakin hələ gəlməmiş olarlar. Bir neçə gündən sonra başlayacaq xəstəliklərin isə xüsusi əlamətləri olar. Məsələn, əgər yanağı bir az sarıya çalsa, dodağının rəngi qaçmış olsa, gözləri pərişanlıq ifadə etsə, bu, babasil əlamətidir; göz qapaqları həmişə şişmiş olsa, istisqa[70] xəstəliyidir. Gözün qırmızılığı, alın damarlarının şişkinliyi ürək keçmə xəstəliyi əlamətidir.

Kirpikləri gec-gec vurmaq, dodağı tez-tez gəmirmək, melanxoliya, burun sümüyünün əyriliyi, burunun düz olmaması burun babasili[71] və burundan qanaxma xəstəliyi əlamətidir. Tük tünd qara, cod və arabir daha qara olsa, demək, o, saçını qaraltmışdır. Bədənin dağlanma yeri olmayan müxtəlif yerlərində dağ olsa, duda sürtə bilərlər, fikir ver, cüzam olmasın; dodağın rənginin qaçması, gözünün sarılığı sarılıq xəstəliyinə dəlalət edər.

Qul alarkən arxası üstə uzat, hər iki böyürünü əlinlə yoxla, gör şiş, ağrıyan yeri varmı, olsa, bu, qara ciyər və ya dalaq xəstəliyinin olduğuna dəlildir.

Gizli xəstəlikləri yoxladıqdan sonra açıq xəstəlikləri yoxlamağa başla: ağzın iyini, burnun iyini, qulağın karlığını, dilin pəltəkliyini, səsin yoğun və cırlığını, nitqin səlis və pozğunluğunu, yerişini, dişin sıra və saflığını, diş diblərinin möhkəmliyini yoxla ki, səni aldatmasınlar. Bütün bu dediklərimi etdikdən, görüb hər şeyi aydınlaşdırdıqdan sonra alacağın qulu etibarlı və düz adamdan al, qoy sənin də evində düz dolansın.

Əcəmi[72] tapsan, fars alma, çünki xaricini öz xasiyyətinə uyğunlaşdıra bilərsən, farsı isə yox.

Şəhvət üstün gələn vaxt qul və cariyələrin göstərilməsini tələb etmə, qul çirkinsə, ehtirasın çoxluğu onu sənin gözünə gözəl göstərər. Əvvəlcə, şəhvətini söndür, sonra onları almaqla məşğul ol. Başqa yerdə əzizlənmiş qulu alma. Əzizləsən, sənə minnətdar olmaz, çünki başqa yerdə bunu görmüşdür, pis saxlayıb əzizləməsən, qaçar, ya satılmasını istər, ya ürəyində sənə qarşı kin bəslər.

Qulu alanda elə yerdən al ki, orada onunla pis rəftar etmiş olsunlar. Ona balaca yaxşılıq etsən, sənə minnətdar olar, səni ürəkdən sevər.

Vaxtaşırı qula pul ver, qoyma həmişə pula möhtac olsun, yoxsa pul əldə etmək üçün başqa yerə gedər. Qiymətli qul al, hər kəsin ləyaqəti onun qiyməti ilə müəyyən edilər. Çox ağası olmuş qul alma. Çox ərdə olmuş arvad da və çox ağası olmuş qul da tərifə layiq bir şey olmaz. Hər nə alsan, gündən-günə qiyməti artan al.

Qul satılmasını həqiqətən istəyirsə, inad etmə, sat. Arvad həqiqətən boşanmaq, qul doğrudan satılmaq istəyirsə, o arvaddan və bu quldan

şadlıq gözləmə. Qul səhv və xəta üzündən deyil, qəsdən tənbəllik edib bilə-bilə səhlənkarlıq göstərirsə, ona zorla yaxşı işləməyi öyrətmə, o, heç bir vəchlə çalışıb cəld, işbacaran və səliqəli olmayacaq. Onu sat.

Yatmışı səslə oyatmaq olar, tənbəli təbillə də hərəkətə gətirmək olmaz. İşə yaramayan əhli-əyalı başına toplama. Az arvadlılıq ikinci dövlətlilikdir.

O qədər xidmətçi saxla ki, qaçmasınlar, saxladığına isə yaxşı bax. Bir nəcib saxlamaq iki nanəcib saxlamaqdan yaxşıdır.

Qoyma sənin evində qullar bir-birinə qardaş, cariyələrə isə bacı desinlər, ondan böyük şeylər törəyər. Öz qullarını və azadanlarını[73] gücləri çata biləcək qədər yüklə, elə etmə ki, gücləri çatmadıqları üçün tabe olmaqdan boyun qaçırsınlar. Özün insaflı və düz ol ki, düzlər və insaflılar tərbiyəçisi olasan.

Qul öz ağasını atası və anası hesab etməlidir. Qul satandan qorxmayan qulu alma, ulaq baytardan qorxan kimi qul da qul satandan qorxmalıdır. Hər xırda şeyin üstündə satılmasını istəyən qul, demək, satılıb alınmasından utanmır, ona bel bağlama, ondan xeyir gəlməz, tez başqası ilə əvəz et. Mən dediyim kimiləri tap ki, başağrısı olmasın.






# EV VƏ TORPAQ ALMAQ HAQQINDA

Ey oğul, əgər ev, kənd, torpaq, ümumiyyətlə, alınıb satıla bilən hər nə alırsansa, qanuna riayət et. Hər nə alırsan, bolluqda al, hər nə satırsan qıtlıqda sat, qazanmağa çalış və bundan utanma, çənə döyüb ucuz almaq qazancın yarısıdır. Hər nə alsan, onun xeyir və ziyanını bilib almaq lazımdır. Müflis olmaq istəmirsənsə, qazanmamış xərcləmə. Mayana ziyan vurmaq istəmirsənsə, axırı zərər olan mənfəətdən qaç. Çox varlı olub, yoxsulluq istəmirsənsə, paxıl və həris olma. Hər işdə səbirli ol, səbirli olmaq ağıllı olmağa bərabərdir.

Heç bir işdə öz xeyrinə laqeyd olma, çünki laqeydlik axmaqlığa bərabərdir.

İşin dolaşsa, özünü itirmə, səriştəli ol, işlər öz qaydasına düşənə qədər səbir et. Tələsməklə heç bir iş düzəlməz.

Almaq məsələsinə gəldikdə, ev almaq istəyirsənsə, elə küçədə al ki, adamları etibarlı olsun. Şəhər kənarında alma, divar altında olanını alma, ucuzluq xatirinə dağılmış alma, hər şeydən əvvəl qonşusuna bax. Deyiblər: "Əvvəl qonşu, sonra ev".

Müdrik Bozorgmehr demişdir: "Dörd şey böyük bəladır: pis qonşu, böyük ailə, nacins arvad, ehtiyac".

Heç vaxt qonşusu ələvi olan ev alma, alimlərin və dövlət xadimlərinində evini alma. Çalış elə küçədə ev al ki, orada hamıdan dövlətli sən olasan. Lakin etibarlı qonşu seç. Elə ki ev aldın, qonşuna hörmət et, onun haqqını tapdalama, belə deyiblər: "qonşunun haqqı daha böyükdür".

Küçənin və məhəllənin adamları ilə mehriban dolan, xəstələrinin kefini soruş, təziyə yerlərinə get, cənazələrini basdırmaqda iştirak et, ümumiyyətlə, qonşuya bütün işlərində kömək et, şadlıqları ilə şadlan, öz imkanına görə pay göndər, hədiyyə ver. Beləliklə, sən küçənin ən hörmətli adamı olarsan.

Küçə və məhəllənizin uşaqlarını xoş dindir, başlarını sığalla, qocalarının kefini soruş, hörmətlərini saxla. Sən xalqla necə rəftar etsən, o da səninlə elə rəftar edər. Onu da bil ki, insanın başına nə gəlirsə, öz əməlindən gəlir. Ona görə edilməyə layiq olmayanı etmə, deyilməyə layiq olmayanı demə, edilməyə layiq olmayanı edənlər görməyə layiq olmayan günlər görərlər.

Bacardıqca yurdunu böyük şəhərlərdə sal, elə şəhərdə sal ki, sənin üçün ən əlverişli olsun. Elə ev al ki, onun divarları başqalarınkından uca olsun, camaatın gözü sənin evinə düşməsin, lakin sən də qonşularının evinə baxmaqla onları narahat etmə.

Torpaq alsan, qonşusu və quyusu olmayan torpaq alma! Nə alsan, bolluq ilində al, şərikli və şübhəli torpaq alma, torpağın xətərsiz bir dövlət olduğunu bil. Torpaq alanda həmişə onun abad olmasına çalış, hər gün yeni-yeni tikintilər sal ki, hərəsindən bir

xeyir götürəsən. Torpaq və imarətin abadlığı üçün kahıllıq etmə, yalnız abadlıq gəliri artırar. Gəlir istəmirsənsə, onda bütün çölləri və səhraları öz torpağın hesab edə bilərsən, gəlir isə yalnız abadlıq nəticəsində əldə edilə bilər.






# AT ALMAQ HAQQINDA

Ey oğul, at alanda çalış səhv etməyəsən. Adamın və atın mahiyyəti eynidir. Yaxşı adama və yaxşı ata nə qədər qiymət qoysan, layiqdir, eləcə də pis adamı və pis atı nə qədər pisləsən, yeri var. Müdrik adamlar demişlər: „Dünya insanla, insan heyvanla“, heyvanların ən gözəli isə atdır. Onu saxlaya bilmək həm təsərrüfatçılığa dəlalət edər, həm mərdliyə. Bir məsəl var, deyərlər: “Atını və paltarını yaxşı saxla, at və paltar da səni yaxşı saxlar“.

Atın yaxşısını və pisini tanımaq adam tanımaqdan çətindir. Adamı danışdırmaqla tanıyarlar, atın isə nitqi yoxdur, onun nitqi xarici görünüşüdür. Atı yoxlamağa başlayanda əvvəl onun görünüşünə bax. Xasiyyətdə səhv etmək mümkündür, görkəmdə yox. Yaraşıqlı atların əksərinin xasiyyəti də yaxşı olar. Atın görünüşcə ən yaxşı xüsusiyyətləri isə, baytarların dediyinə görə, bunlardır: dişləri nazik, sıx və ağ, alt dodağı nisbətən uzun, burnu dik, enli və uca, alnı geniş, qulaq boşluqları hamar, qulaqları dik və düz, qulaqların arası açıq, boynu dik, şax və nazik, aşağı hissəsi, yalı uzun, döşü geniş, əllərinin və ayaqlarının ortası aralı, quyruğu gur və uzun; xayası qara, gözü və kirpikləri qara; yol getdikdə ayıq, beli gödək, dalı enli, qabırğalarının hər iki tərəfi ətli olmalıdır. Beləsi yaxşı at sayılır. Lakin atları fərqləndirən bir xüsusiyyət də onların rəngidir. Ən yaxşı at xurmayıya çalan kəhər atdır. Bu, həm gözəl olar, həm isti-soyuğa dözər, həm də zəhmətkeş olar. Ağ at isə zəif olar, lakin xayası, budlarının arası, quşqunu, dırnağı, əlayağı, döşü, alnı və quyruğu qara olsa, yaxşıdır.

Kürən at, xüsusilə pul-pul olan tünd qızıl rənglisi, alnı, paçasının arası, budları, gözü, dodağı - bunların hamısı qara olsa yaxşıdır. Səmənd at da belə olmalıdır. Kül rəngli atda başqa xal və rəng olmamalıdır.

Qara at gərək tünd olsun və gözündə qırmızılıq olmasın. Çox zaman qırmızıgöz atlar dəli və eyibli olur. Boz at az hallarda yaxşı olar, xüsusilə gözü, quşqunu, dırnağı ağ olanı pisdir.

Qara zolaqlı boz at kürəndə dediyim xüsusiyyətə malik olsa, yaxşıdır. Ala atı bəyənməzlər, yaxşısı da az çıxar.

Atların müsbət tərəflərini bildin, eyiblərini də bil. Atlarda bir sıra eyiblər var ki, onların bəzilərinin həm işə ziyanı var, həm görünüşcə, həm təbiətcə çirkin olar. Bəziləri də var ki, belə deyil, lakin nəsdir, sahibini öldürəndir.

Elə xəstəliklər və eyiblər var ki, onları aradan qaldırmaq olar, elələri də var ki, - yox. Hər eybin və xəstəliyin özünə görə adı var və bu ada görə onu bilmək olar. Deyirəm biləsən: biri lallıqdır. Lal at tez-tez yolu



azar, madyan gördükdə təxərrüşə gəlsə də, şeyhə çəkib kişnəyə bilməz. Digəri əşalıq, yəni gecə korluğudur. Belə at gecələr başqa atların hürkdüyü şeylərdən hürkməz, haraya sürsən, ora ya gedər, heç şeydən çəkinməz. O biri eyib karlıqdır. Karlığın əlaməti odur ki, atların kişnəməsini eşitdikdə şeyhə ilə cavab verməz. Həmişə qulaqlarını sallayar.

Solaxaylıq. Solaxay at da yaxşı deyil, çox büdrəyər. Əlaməti odur ki, dəhlizə girdikdə, əvvəlcə sol ayağını içəri qoyar.

Əməş at, yəni gündüz kor olan at pis olar. Əlaməti budur ki, gözünün hədəqəsi yaşıla çalan qara rəngli olar, həmişə gözünü açıq saxlayar, kirpiyini qırpmaz. Bu eyib bir gözündə və hər iki gözündə ola bilər.

Çəpgözlük. Çəpgöz at zahirən şikəst görünsə də, ərəb və əcəmlərin fikrinə görə uğurlu hesab edilər. Eşitmişəm ki, Düldül[74] də çəp imiş.

Ərcəl və əcim at, yəni ağayaq uğurlu olmaz. Ağlıq sol ayağında (istər qabaq, istər dal) olsa, daha uğursuz olar. Göygöz at. Hər iki gözü göy olsa, xüsusilə, çəp olsa, pisdir. Müğrəb at, yəni ağgöz pisdir. Buğe at pisdir. Əqvəd, yəni düzboyun at da pisdir, belə at yaxşı ola bilməz. Hur atın da hər iki ayağı əyri olduğundan pis sayılır, farslar ona Kaman ayaq deyərlər. Tez-tez yıxılar, yəhərinin altı tüklü olan at da uğursuz olar, qoltuğunun altı, paçalarının arası və hər iki ayağı tüklü olan at daha uğursuz olar. Dırnağının iç tərəfində pırpız tük olan fərsun atı da yaxşı sayılmaz. Lakin dırnağının üst tərəfində olsa, eybi yoxdur. Əsdəf, yəni dırnağı çevrilmiş at da pis olar, ona əxnəf də deyərlər.

Ön və ya arxa ayaqları uzun olan at eniş-yoxuşda aciz qalar. Bu da pisdir, belə ata fəzəq deyildir.

Əzəl, yəni əyriquyruq adlanan at da pisdir, ona kəşəf də deyilir, çünki əsbabı həmişə aydın görünər. İtquyruq at da pis olar. Əfxəc adlanan at da pisdir, çünki ayağını öz yerinə qoya bilməz. Əsbət at da yaxşı olmaz. Həmişə axsayar, çünki oynaqları arasında şiş olar. Ərun atı da pis olar, çünki belələrinin qabaq ayağının oynağında sümük olar, dal ayağında da olsa, pisdir. Ona əqrən deyərlər. Minməyə qoymayan, təpik atan, cilov dartan, çox kişnəyən, tez-tez yel buraxan, uzun-uzadı pişaba çıxan, tez-tez təxərrüşə gəlib şeyhə çəkilən, şahə qalxan atlar da pis olar. Göygöz at gecəkoru olar.



Hekayət. Bir hekayət eşitmişəm, Əhmədi Feriqunun[75] çobanı Novruz günü onun yanına gəlib deyir: "Novruz hədiyyəsi gətirə bilməmişəm, lakin ondan daha yaxşı şad xəbər gətirmişəm". Əhməd əmr edir, desin. Çoban deyir: "Dünən sizin atlar min dənə göygöz dayça doğmuşdur". Əhməd deyir: "Bu çobana yüz çubuq vurun, min gecəkoru atın doğulması şad xəbər deyil".

Dediklərimi bildin, indi də deyim, at xəstəliklərinin adını bil: çox tərləmək, ağız suyunun axması, topuq şişi, manqa, dırnaqçatlaması, məxmərək, hürkəklik, döyənək, diz sümüyünün kirəcləşməsi, qoturluq, dırnağın sürtülməsi, dırnaqaltı iltihabı, qarın şişi, cüzam, xərçəng, alalıq, dəbəlik, ayağın keyişməsi, boğaz iltihabı, inaq, qapma, sidiyin dayanmaması, təngnəfəslik, arıqlıq, yəhəryarası, dizin bükülməsi.

Bu xəstəliklərin yalnız ümumi şəkildə adını çəkirəm, şərh etsəm, uzun olar. Bu dediklərimin hamısı eyibdir. Lakin ən böyük eyib qocalıqdır. Elə eyib var ki, ona göz yummaq olar, lakin qocalığa yox.

At alanda ucasını al, beş dangdan aşağı olmasın; adam özü gözəl, qaməti uzun olsa da, alçaq atda balaca görünər.

Bil, atların sağ tərəfindəki qabırğaları çox halda sol tərəfdəkilərdən bir dənə artıq olar. Say, əgər bərabər olsa, qiymətindən bir az da baha al. Az at tapılar ki, ona çata bilsin.

Heyvan, torpaq, mülk, hər nə alsan, eləsini al ki, sağlığında özün xeyrini görə biləsən, səndən sonra isə arvad-uşaq və varislərin. Axır bir gün gələcək, sənin də arvad-uşağın olacaq.






# EVLƏNMƏK HAQQINDA

Ey oğul, evlənsən öz hörmətini qoru, mal şirin olsa da, onu arvad-uşağından əsirgəmə. Lakin arvadı yaxşı saxla, arvadı üzüyola, mehriban tərbiyə et, bu sənin əlindədir. Mən bir misrada deyirəm:

Uşağı tərbiyəylə, arvadı saxlamaqla!

Amma arvad alanda malına görə alma, çox gözəlini də axtarma, gözəlliyə görə məşuqəni seçərlər. Arvad ismətli, namuslu, dindar,

evdar, ərini sevən, həyalı, təmizkar, başıaşağı, üzüyola, əlidüz, malyığan olmalıdır, beləsi gözəl də olar. Deyiblər: "Gözəl arvad həyatın bəzəyi olanıdır".

Arvad mehriban, ürəyəyatan, gözəl olsa da, o saat özünü arvadın ixtiyarına verib onun əmrlərinə tabe olma.

İsgəndərdən soruşdular: "Nə üçün Daranın[76] qızını arvadlığa götürmürsən, o ki çox gözəldir?" Dedi: "Biz bütün dünyaya əmr verdiyimiz halda, arvadın bizə hökm etməsi çirkinlik olar".

Özündən daha adlı-sanlı arvad alma. Bakirə qız var ikən, ər görmüşə meyl salma, qoy onun qəlbində sənin məhəbbətindən başqa heç kəs olmasın, elə təsəvvür etsin ki, bütün kişilər eyni cür olar, başqa kişilərə meyli düşməsin.

Mehriban olmayan, ev dolandırmağı bacarmayan arvaddan qaç. Deyiblər: "Ər axar çaydır, arvad isə bənd". Lakin arvad sənin malına sahib olsa və sənə aid olan malı sən istədiyin kimi istifadə etməyə qoymasa, onda arvad sən olarsan, o yox.

Arvadı yaxşı ailədən almaq lazımdır, kimin qızı olduğunu bilmək lazımdır. Arvadı ev dolandırmaq üçün alarlar, şəhvət söndürmək üçün yox. Şəhvəti bazardan pulla alınmış cariyə ilə də aram etmək olar, bu qədər xərc töküb, əziyyət çəkməyə ehtiyac qalmaz.

Arvad gərək tam həddi-buluğa çatmış, ağla-kamala dolmuş olsun. Atasının və anasının necə ev saxladığını, necə ev dolandırdığını görmüş olsun. Beləsini tapsan, ehmallıq etmə, tez elçi göndər. Bir də çalış qısqanma, qısqanacaqsansa, heç evlənmə, çünki sənin qısqanclığın çox zaman zorla onu əyri yola getməyə məcbur edər. Bil, qısqanclıq və qeyrət üzündən bir çox qadınlar ərlərini öldürər, ya özlərini daha ləyaqətsiz adamlara təslim edərlər. Bundan çəkinməzlər.

Lakin arvaddan şübhələnib onu qısqanmasan, pulunu ondan gizlətməsən və yaxşı saxlasan, Allahın verdiyindən onu yaxşı dolandırsan, o sənə atandan və uşaqlarından daha mehriban olar. Sən özünə ondan daha yaxın, daha səmimi bir dost tapa bilməzsən. Lakin şübhələnib qısqansan, o sənə min düşməndən daha qorxulu düşmən olar. Yad düşməndən qorunmaq olar, lakin arvaddan yox.

Bakirə qız alsan, nə qədər şəhvətli olsan da, hər gecə ona yaxınlıq etmə, o səndən inciməz, elə güman edər ki, adət belədir. Əgər bir gün üzrlü səbəbdən yaxınlıq edə bilməsən və ya səfərə getsən, arvadın buna dözüb səbr edə bilər. Hər gecə yaxınlıq edib öyrəşdirsən, sən olmadıqda yenə ürəyi istər və çətin səbr edə bilər.

Kişilər çirkin, qoca olsalar da, arvadlarını görməyə onlara imkan yaratma. Heç bir cavan xidmətçini, zənci və ya sadə olsa belə, arvadların olduğu evə buraxma. Kardan düşmüş qoca zənciləri buraxmaq olar.

Qeyrət şərtlərini yerinə yetir. Qeyrətsiz kişini adam hesab etmə. Kişinin qeyrəti olmasa, məsləki də olmaz.

Arvadını mən dediyim kimi saxlaya bilsən və Allah-Taala sənə övlad versə, onların da tərbiyəsinin hayına qal.






# ÖVLAD TƏRBİYƏ ETMƏK VƏ ONUN QAYDALARI HAQQINDA

Ey mənim əzizim, əgər Allah sənə oğul versə, əvvəlcə, ona yaxşı bir ad qoy, ataların vəzifələrindən biri də budur. İkincisi, onu mehriban dayələrdən birinə tapşır, vaxtında sünnət etdir və imkan daxilində qonaqlıq ver. Sonra Quran oxumağı öyrət, elə et ki, Quranı əzbərdən bilsin. Böyüdükdə savaş qaydalarını təlim et, qoy at çapmaq, silah oynatmağı öyrənsin, bilsin ki, hər silahdan necə istifadə edərlər.

Döyüş qaydalarının təlimi qurtardıqda, övladına üzmək öyrətməlisən.

Hekayət. Mən on yaşına çatanda, bizim bir hacib var idi, ona Bamənzar hacib deyərdilər, yaxşı at çapmaq bilərdi. Reyhan adlı bir zənci var idi, o da yaxşı bilərdi. Atam rəhmətlik onların hər ikisinə tapşırdı ki, at çapmaq, nizə oynatmaq, zubin[77] tullamaq, çövkan, tab-tab[78] oynamaq, kəmənd atmaq, ümumiyyətlə qəhrəmanlıq və igidliyə aid nə varsa, hamısını mənə öyrətsinlər. Sonra Bamənzər hacib və Reyhan xədim atamın yanına gəlib dedilər: "Ağanın oğlu biz nə bilirdiksə, hamısını öyrənmişdir. Ağa buyursun, sabah ovlaqda öyrəndiklərini nümayiş etdirsin". Əmir dedi: "Yaxşı".

Sabahısı getdim, nə öyrənmişdimsə, hamısını atama göstərdim. Əmir onlara xələt verilməsini əmr etdi, sonra dedi: "Mənim bu oğlum hər nə öyrətmişsinizsə, hamısını yaxşı mənimsəyibdir. Lakin ən lazımlı bir sənəti öyrənməmişdir". Dedilər: "O hansı sənətdir? "Əmir dedi: "Onun bildiyi bütün sənət və məharətlər elə şeylərdir ki, ehtiyac olduqda, özü edə bilməsə, bunu onun əvəzinə başqaları edə bilər, lakin o sənət ki, özünə lazımdır və oğlumun əvəzinə onu başqası edə bilməz, öyrətməmişsiniz". Onlar soruşdular: "O hansı sənətdir?" Əmr dedi: "Üzmək! Özündən başqa heç kəs bunu onun üçün edə bilməz".

Absükundan[79] iki mahir üzgüçü çağırdılar. Məni onlara verdilərki, üzmək öyrətsinlər. Könlüm yox idi, zorla getdim, lakin yaxşı öyrəndim.

Təsadüfən, Həccə getdiyim il Mosul[80] darvazası yaxınlığında qarşımızı kəsdilər, karvanı çapdılar, ərəblər çox olduğundan gücümüz çatmadı, nəhayət, Mosula çılpaq gəlməli oldum. Bilmirdim nə edim, Dəclədə gəmiyə minib Bağdada getdim. Orada yaxşı bir iş düşdü, Allahım kömək elədi, axır gedib Həccə çıxdım. Bunu deməkdə məqsədim budur ki, Dəclədə Əkbəraya[81] çatmazdan əvvəl qorxulu bir yer, dərin bir girdab var, oradan keçmək üçün mahir dənizçi olmaq lazımdır. Oradan necə keçməyi bilməyən gəminin batmasına səbəb olar. Biz gəmidə bir neçə nəfər idik, oraya çatdıq, gəmi sürən naşı idi, oradan keçməyi bilmirdi. Səhvən gəmini xətərli yerə sürdü, gəmi batmağa başladı. İyirmi beş nəfərə yaxın idik. Mən, bəsrəli qoca bir kişi və mənim qoçaq qulamlarımdan Kavi adlı birisi üzüb çıxdıq. Qalanları həlak oldular.



Bundan sonra mənim atama olan məhəbbətim bir az da artdı, onun üçün verdiyim sədəqə və ehsanların miqdarını çoxaltdım. Bildim ki, o ağıllı qoca belə bir günü əvvəlcədən görürmüş, ona görə mənə üzməyi öyrədib, mən isə anlamamışam.

Deməli, elm və sənətdən hər nə öyrənmək lazımsa, hamısını övladına öyrət, beləliklə, sən atalıq borcunu və atalara xas olan mehribanlıq vəzifəsini yerinə yetirmiş olarsan. Axı dünyanın hadisələrindən arxayın olmaq, adamların başına nələr gələcəyini bilmək mümkün deyil. Hər elm və sənət bir gün işə yarayar. Deməli, elm alıb sənət öyrənməkdə tənbəllik etmək olmaz. Təlim vaxtı müəllimlər onu döysələr, müdafiə etmə, qoy vursunlar, çünki uşaq elm və ədəbi çubuq gücünə öyrənər, öz xoşuna öyrənməz. Əgər tərbiyəsizlik etsə, sən bundan qəzəblənsən, özün döymə, müəllimləri ilə qorxut, ürəyində kin bəsləməmək üçün əmr et, onlar tənbeh versinlər. Lakin oğlunla inzibatlı ol, elə et ki, səni aciz hesab etməsin, həmişə ürəyində səndən qorxsun.

Dirəm, qızıl, hər nə arzu edirsə, imkan daxilində ondan əsirgəmə, qoyma ki, o pul xatirinə sənin ölümünü istəsin, miras üçün bədnam olsun. Elm alıb sənət öyrənmək övladın haqqıdır. Övlad pis də olsa, sən ona baxma, elm və sənət öyrətməkdə səhlənkarlıq göstərmə. Heç bir dərrakəsi olmasa, sən öyrətsən də, öyrətməsən də, həyat onu öyrədəcək. Deyiblər ki, "Ata-anası tərbiyə etməyəni gecə və gündüz tərbiyə edər". Həmin fikri babam Şəmsülməali başqa ibarə ilə belə demişdir: "Ata və anası tərbiyə etməyən adama gecə və gündüz tərbiyə verər".

Lakin atalıq şərtini yerinə yetir, qoy taleyi necədirsə, elədə yaşasın. İnsan heçdən yarandıqda xasiyyət və təbiəti də onunla birlikdə yaranır, yalnız təcrübəsizlik, acizlik və zəiflik üzündən onu büruzə verə bilmir. Böyüdükcə onun bədəni və ruhu da qüvvətlənər, yaxşı və pis əməlləri görünməyə başlar. Özü kamala çatdıqda, adəti də kamala yetişər, yaxşı və pis tərəfləri tam şəkildə meydana çıxar. Lakin sən elm və sənəti özünə miras edib övladlarına qoy get ki, onun haqqını yerinə yetirmiş olasan, çünki övlad üçün tərbiyədən yaxşı miras yoxdur. Sadə adamların övladları üçün yaxşı miras peşədir. Peşə başqa şeydir,

sənət başqa şey. Lakin həqiqətə qalsa, mənim əqidəmcə, peşə ən böyük sənətdir. Böyük adamların uşaqları yüz peşə öyrənib birini də işlətməsələr, bu, eyib deyil, bəlkə, sənətdir, bir gün gələr, hərəsi bir işə yarayar.

Hekayət. Bil, elə ki, Qoştapsı[82] taxtdan saldılar (bu əhvalat uzundur, ancaq məqsəd budur ki, onun yolu Ruma düşür), Kostəntəniyyəyə[83] gedir, dünya malından yanında heç nəyi olmur. Çörək dilənmək ona ar gəlir. Deməə, o, uşaqlığında dəmirçilərin necə qılınc, bıçaq, üzəngi, yüyən və başqa dəmir şeylər qayırdığını görmüş, alnına bu sənət yazıldığı üçün həmişə dəmirçilərin yan-yörəsində dolanmış, onlara diqqətlə baxmış və bu peşəni öyrənmişmiş.

O, Rumda çarəsiz qaldıqda gedib Rum dəmirçilərinə deyir: "Mən bu sənəti bilirəm". Onu muzdur qəbul edirlər. Nə qədər orada qalır, o peşə ilə güzəranını keçirir və heç kəsə möhtac olmur, vətənə qayıdana qədər xərcini dəmirçilikdən çıxarır. Vətənə qayıtdıqda orduya əmr edir ki, heç bir böyük adam övladına sənət öyrətməyi eyib hesab etməməlidir, qoy qüvvət və şücaət işə yaramayan vaxtlarda heç olmazsa onlar sənətdən istifadə edə bilsinlər. Hər öyrənilən peşə bir gün işə yarayar.

Sonra Əcəmdə bu, adətə keçdi. Elə bir böyük adam tapılmazdı ki, o öz övladına bir peşə öyrətməsin. Ona ehtiyac yox olmasada, adətə çevrilmişdi.

Deməli, nə öyrənmək mümkünsə, hamısını öyrən, faydasını görərsən. Lakin oğlun həddi-buluğa çatdıqda ona diqqət yetir, gör nəyə həvəsi var, nə ilə məşğul olmaq istəyir, təsərrüfatı sevir, ya arvad almaq fikrindədir, yoxsa güzəranını yaxşılaşdırmaq? Bundan sonra evləndirməyə hazırlaş.

Oğluna qız alarkən və ya qızını ərə verərkən çalış öz qohumlarından olmasın, qızı özgələrindən al, qohumu alsan da, almasan da onun əti ətindən, qanı qanındandır. Başqa qəbilədən al ki, həm sənin qəbilən qohumluğunda qalsın, həm də özgə bir qəbilə yeni qohumun olsun, beləliklə, gücün ikiqat artsın, köməyin iki olsun.

Elə ki gördün təsərrüfatdan başı çıxmır və xoş güzəran keçirməyi bacarmır, xalqın, müsəlmanın qızını bəlaya salma, hər ikisini bədbəxt etmə. Qoy böyüyünə qədər öz bildiyi kimi yaşasın. Hər halda sən öləndən sonra alnına nə yazılıbsa, o da olacaq.

Haşiyə. Övladın qız olsa, onu həyalı bir dayəyə tapşır, böyüyəndə ona bir müəllimə tut...

Nə qədər ki, sənin evindədir, onunla mehriban dolan, çünki qızlar ata və analarının əsiri olarlar. Lakin oğlan atasız qalsa belə, yenə öz işini tələb etməyə gedə bilər, necə olur-olsun özünü dolandırar. Qız isə yazıq olar, hər nəyin varsa, əvvəlcə qıza xərclə, onun işlərini düzəlt və onu birinin boğazına keçirib, onun qəmindən xilas ol. Qızın bakirədirsə, bakir kürəkən tap, qoy arvad könlünü ona versin, ər də arvadının qədrini bilsin, hər iki tərəf bir-birinə bab olsun.

Hekayət. Belə eşitmişəm, Şəhrbanu[84] hələ kiçik bir qız ikən Əcəmdən Ərəbistana əsir aparılır. Ömər Əmirəlmöminin (Allah ondan razı olsun) onu görür, deyir, bunu satın. Onu satmağa apararkən, Əli Əmirəlmöminin (Allah ondan razı olsun) rast gəlir və Peyğəmbər (s.) adından bu xəbəri gətirir: "Şah övladını satmaq rəva deyildir".

Hədis çatdıqdan sonra Şəhrbanunu satmayıb Səlman Farsinin[85] evinə aparırlar ki, sonra ərə versinlər. Ərə getmək məsələsini Şəhrbanuya xəbər verdikdə o deyir: "Əri görməyincə onun arvadı olmayacağam".

Şəhrbanu uca bir yerdə oturur, Ərəb və Yəmənin böyükləri gəlib onun qabağından keçirlər ki, kimi bəyənsə, onun da arvadı olsun. Bu zaman Səlman onun yanında oturub gələn-gedənləri tanıtdırır və deyirmiş: "bu filandır, o bəhmandır" və nöqsanlarını sayırmış.



Ömər keçərkən, Şəhrbanu deyir: "Bu kimdir?" Səlman deyir: "Ömərdir". Şəhrbanu deyir: "Böyük adamdır, lakin qocadır". Əli keçəndə soruşur: "Bu kimdir". Səlman deyir: (Allah ondan razı olsun) "Əlidir". Şəhrbanu deyir: "Alicənab adamdır, lakin sabah Fatimeyi-Zəhranın üzünə baxa bilmərəm,

utanıram, buna görə də istəmirəm". Əli oğlu Həsən (Allah ondan razı olsun) keçdikdə onun kim olduğunu bildikdən sonra deyir: "Mənə layiqdir, lakin arvadları çoxdur, istəmirəm". Əli oğlu Hüseyn (Allah ondan razı olsun) keçərkən kim olduğunu bildikdən sonra deyir: "Bu mənim malımdır, mənim ərim o ola bilər. Bakirə qızın əri bakir oğlan olmalıdır, mən ərə getməmişəm, o da arvad almayıb".

Ancaq gözəl kürəkən seç, qızını kifir adama vermə. Qız çirkin ərə könül verməz, sən də rüsvay olarsan, əri də. Adaxlı gülərüz, əlidüz, təmizdin, təsərrüfatdan başı çıxan olmalıdır. Bilməlisən ki, o, qızının xərcini haradan və hansı yolla ələ gətirir. Lakin kürəkən həm dövlətdə, həm şöhrətdə səndən aşağı olmalıdır ki, o səninlə fəxr etsin, sən onunla yox, belə olduqda qızın da rahat yaşayar.

Deməк istədiyim bunlardır, bundan artıq bir şey tələb etmə. Qız satan olma, onda kürəkən də mürüvvətli olub öz insanlığını yerinə yetirər. Nəyin var, hamısını ver, qızını onun boğazına keçir və özünü bu böyük möhnətdən xilas et. Dostlarına da bunu məsləhət gör. Yaxşısını Allah bilir.






# DOST SEÇMƏK VƏ ONUN QAYDALARI HAQQINDA

Ey oğul, bil, nə qədər ki insan sağdır, onun dosta ehtiyacı var. Qardaşı olmayan adam dostu olmayandan yaxşıdır. Bir alimdən soruşurlar: „Dost yaxşıdır, yoxsa qardaş?“ Deyir: „Qardaş da dost olsa, yaxşıdır“.

Dost olsa qardaşım, qardaş yaxşıdır,
Düşmən olsa, qara bir daş yaxşıdır.

Deməli, dostlar haqqında fikirləşirsənsə, onlara bəxşiş, hədiyyə göndər, mərdlik göstər, çünki dost hayına qalmayanın dostları da hayına qalmaz. Belə adamlar həmişə dostsuz qalar. Deyirlər ki, guya dost adamı qohumdan uzaqlaşdırır. İnanma.

Tez-tez dost dəyişdirməyi adət etmə, dostu çox olanın eyibləri örtülər, ləyaqətləri meydana çıxar. Lakin təzə dost tapdıqda köhnəsinə arxa çevirmə. Yenisi ilə dost ol, köhnəsi də qoy yerində qalsın, beləliklə, dostların sayı çoxalsın. Deyiblər ki: „Yaxşı dost böyük xəzinədir". Bir də, səninlə dostlaşmaq istəyən, lakin hələlik yarım dost olan adamlar haqqında da fikirləş, onlara yaxşılıq et, qayğı göstər, xeyir-şərdə onlara kömək et. Səndə mərdlik gördükdə dönüb sadiq dostun olarlar.

İsgəndərdən soruşurlar: „Az müddətdə bu qədər böyük bir dövləti hansı xüsusiyyətinlə ələ gətirdin? Deyir: „Düşmənlərə lütf etmək, dostlara kəramət göstərməklə".

Bir də, dostlarının dostları haqqında fikirləş, onlar da dostlar cərgəsində hesab edilərlər. Lakin düşməninlə dostluq edəndən ehtiyatlı ol, ola bilər onunla dostluğu səninkindən möhkəm olsun və düşmənindən əvvəl sənə zərər yetirsin.

Qardaşım, əlini üz o dostundan
Ki, düşmənlə durub otura hər an.

Dostunla düşmənlik edənlərdən də özünü qoru. Heç bir səbəb və əsas olmadan səndən şikayətlənən dostlardan dostluq gözləmə.

Dünyada eyibsiz adam ola bilməz, lakin sən mərd ol, mərd adamda nöqsan olmaz. Namərdlə dostluq etmə, namərd dostdan xeyir gəlməz. Badə dostlarını dost hesab etmə, çünki onlar qədəhi dost tutarlar, səni yox. Dostun yaxşısı da olar, pisi də, hər ikisi ilə dostluq et, yaxşıları ilə ürəkdən dostluq et, pisləri ilə dildə dost ol. Beləliklə, hər iki tərəfin dostluğu təmin edilmiş olar. Ehtiyac həmişə yaxşı dostlara düşməz, elə vaxt gələ bilər ki, pis dostlara da adamın işi düşə bilər. Hərçənd yaxşıların yanına getmək pislərin yanında hörmətini azaltdığı kimi, pislərin də yanına getmək yaxşıların yanında hörmətini azaldar, lakin sən yaxşıların yolu ilə get ki, hər iki dəstənin dostluğu sənə nəsib olsun. Amma heç vaxt axmaq

adamlarla dostluq etmə, çünki axmaq dost öz dostluğu ilə elə şeylər edər ki, yüz ağıllı öz düşmənçiliyi ilə onu edə bilməz.

Yalnız yaxşı və istedadlı adamlarla dostluq et ki, sən də dostlarının şöhrət tapdığı istedadlarla hörmət qazanıb təriflənəsən. Tək olmaq pislə oturmaqdan yaxşıdır. Bu barədə mən iki beyt də demişəm.

Ey könül, vəhşitək çölə qaçırsan,
Nə dərd anladırsan, nə söz qanırsan.
Demək pis həmdəmsən, yaxşı ki, getdin,
Tənhalıq yaxşıdır, məncə, pis dostdan.

Danlanmaq istəmirsənsə, dostların və adamların haqqını tapdalama. Deyiblər ki, iki cür adam məzəmmət edilməyə layiqdir: biri dostların haqqını tapdalayanlar, ikincisi, yaxşı işə qiymət qoymayanlar. Bil ki, insanların dostluğa yarayıb-yaramadığını iki şeylə müəyyən etmək olar: birincisi odur ki, dostu dara düşə, o, imkan daxilində heç bir şeyi dostundan müzayiqə etməyə və ağır gündə ondan üz döndərməyə; ikincisi, əgər dostu vəfat etsə, onun övladını və qohumlarını yanına çağırıb onlara yaxşılıq edə, hər dəfə dostunun qəbrinin ziyarətinə getdikdə həsrətini bildirə; doğrudur, bu, dostun özü deyil, lakin qəbir ki, onun qəbridir.

Hekayət. Belə danışırlar ki, Sokratı öldürməyə apararkən bütpərəstliyi qəbul etməsini təkid edirlər. Deyir: „Allah eləməsin ki, yaradandan başqa birinə sitayiş edəm“.

Onu edama aparırlar. Adətin tələb etdiyi kimi tələbələrindən bir dəstə onun yanınca gedir və ah-fəğan edirlər. Sonra ondan soruşurlar: "Ey filosof, indi ki ölümə razı olubsan, de görək, səni harada dəfn edək?" Sokrat təbəssüm edib deyir: "Əgər məni yenidən tapa bilsəniz, harda istəyirsiniz, dəfn edin", yəni "tapdığınız mən olmayacağam, mənim qəbrim olacaqdır".



Adamlarla orta dost ol, dostlarının çoxluğuna bel bağlama, əsl dost özünü hesab et, dalına və qabağına diqqətlə bax, dostlarının etibarlılığına ümid edib arxayınlaşma, min dostun olsa belə, heç kəs sənə özündən artıq dost ola bilməz. Dostu xoş və bəd gündə yoxla, xoş gündə hörmətinə, bəd gündə isə köməyinə görə. Düşmənini düşmən hesab etməyəni dost bilmə, elə adam tanış adlanar, dost sayılmaz.

Dostlarınla narazılıq vaxtlarında da xoş vaxtlardakı kimi rəftar et. O adamı dost hesab et ki, onun da səni dost hesab etdiyinə əminsən.

Dosta dostluq xatirinə elə şey öyrətmə ki, bir vaxt düşmən olsa, onun vasitəsilə sənə ziyan yetirə bilsin. Sonrakı peşmançılıq fayda verməz.

Yoxsul olsan, dövlətli dost axtarma, çünki yoxsulu heç kəs sevməz, xüsusilə dövlətlilər. Dostu özünə bab seç, varlı olsan, dövlətli dost seçə bilərsən. Lakin dostluqda möhkəm ol, onda sənin də işlərin möhkəm olar. Axmaq bir şey üstə dost səndən üz döndərirsə, onu geri qaytarmağa çalışma, deməli ləyaqəti yoxdur.

Tamahkar dostdan qaç, onun dostluğu tamah üzündən olar, həqiqi dostluq olmaz. Kinli adamlarla dostluq etmə, kinli adam dostluğa layiq deyil, ürəyi həmişə kinlə dolu olan adamın qəlbinə dostluq daxil ola bilərmi?!

Dost seçmək qaydalarını öyrəndin, indi də dünyada baş verən işlər, yaxşılıq və pislik haqqında dinlə.






# DÜŞMƏNDƏN EHTİYATLI OLMAQ HAQQINDA

Mümkün qədər çalış özünə düşmən qazanma, lakin düşmənin olsa, kədərlənmə, ondan da qorxma, istər açıqda, istərsə gizlində düşmənin işlərindən qafil olma, daima ona pislik etməyə çalış, həmişə onu yıxmaq haqqında tədbir tök, ancaq onun hiyləsindəndə əmin olma. Bəla, müsibət və qəflət qapılarının üzünə bağlı qalmasını istəyirsənsə, vəziyyətini düşməndən gizli saxla.

Düşmənin səninlə işi olmayınca, sən öz düşmənçiliyini bildirmə, özünü əvvəldə olduğu kimi apar. Ruhdan düşmüş olsan da, ağıllı

hərəkət et, özünü ona düşkün kimi göstərmə. Düşmənin şirin dilinə uyma, düşmən sənə şəkər versə, sən onu zəhər hesab et.

Bircə üzvü bədənin dost ola düşmənlə əgər,
İki düşmən bil onu, vur ona iki xəncər.

Güclü düşməndən həmişə özünü gözlə, ondan qorx, çünki iki adamdan qorxmaq lazımdır: biri - güclü düşməndən, ikincisi -xain dostdan. Heç vaxt düşməni zəif hesab etmə, kiçik düşmənlə də böyük düşmən kimi mübarizə apar, demə ki, o kimdir, nə edə bilər?

Hekayət. Belə eşitmişəm ki, Xorasanda Mühəlləb adlı çox nüfuzlu, hörmətli, xeyirxah, şöhrətli bir əyyar[86] var imiş. Deyirlər, bir gün küçə ilə gedərkən, ayağının altında qovun qabığı qalır, sürüşüb yerə dəyir. Dərhal bıçağı çəkib qovun qabığını doğram-doğram edir. Soruşurlar: "Ey xacə, ad-sanın var, qoça adamsan, utanmırsanmı, qovun qabığı ilə bıçaq davasına çıxırsan?" Mühəlləb deyir: "Məni yıxan qovun qabığı idi, bəs mən kimi bıçaqlaya idim? Məni yıxan mənim düşmənimdir, düşmən nə qədər kiçik olsa da, onu "heç" adlandırmaq olmaz. Düşməni heç hesab edən özü heç olar".

Deməli, düşmən düşməni məhv etmək fikrində olar. Düşmən səni məhv etməmiş sən tədbir gör, özünü ondan qoru. Lakin hazırlıq işlərini də əldən buraxma. Ancaq kiminlə düşmənçilik edib, üstün gəlsən, hər yerdə pisləyib onun acizliyini üzə vurma. Aciz adama qələbə çalmaq sənin üçün iftixar hesab edilməz, Allah eləməsin, sonralar bir vaxt o sənə qalib gəlsə, aciz və zəif bir adam tərəfindən məğlub edildiyin üçün rüsvay olarsan. Buna görədir ki, bir padşah zəfər çalanda onun düşməni zəif olduqda da, şairlər "mədhnamə", katiblər "fəthnamə" yazarkən, əvvəlcə düşmənin çox qüvvətli və qüdrətli olduğunu təsvir edərlər, onun ordusunu tərifləyərlər, düşmənin bir çox atlı və piyadalarını Söhrab[87] və əjdaha adlandırarlar, qoşunlarının vuruşmasını, sərkərdələrinin qəhrəmanlığını bacardıqları qədər şişirdib tərifləyərlər. Yalnız bundan sonra mədh edəcəkləri öz ağalarının böyüklüyünü və ordularının

məğlub edilməzliyini göstərmək üçün deyərlər ki, bax, bizimkilər filan böyük sərkərdənin filan qədər pəhləvanları olan qüdrətli ordusunun öhdəsindən gəldi, onu əzib darmadağın etdi.

Əgər düşmən ordusunu pisləyib, onun sərkərdəsinin aciz olduğunu desələr, o zaman belə aciz bir adamı məğlub etmiş şah nəyə fəxr edib qürrələnə bilər ki, hələ onun adına "mədhnamələr", ya "fəthnamələr" də yazılsın?!

Hekayət. Rey məmləkətində Seyyidə adlı bir qadın şahlıq edirdi. Şah nəslindən, ismətli, namuslu və düz bir qadın idi. Anamın əmisi qızı, həm də Fəxrəddövlənin[88] arvadı idi. Fəxrəddövlənin əcəli çatdıqda, şahlıq adını onun Məcdəddövlə ləqəbli oğluna verdilər. Lakin hakimiyyət otuz bir il Seyyidənin əlində oldu, ölkəni o idarə etdi. Bu Məcdəddövlə böyüdükdə naxələf çıxdı, şahlığa ləyaqəti yox idi, şahlıqdan onda yalnız quru bir ad qalmışdı. O, evdə oturar, kənizlərlə kef çəkərdi. Anası otuz ildən yuxarı Rey, İsfahan və Kuhistanda şahlıq etdi.

Bunu deməkdə məqsədim var. Sənin baban Soltan Mahmud ibn Səbüktəkin haman Seyyidəyə qasid göndərib deyir: "Gərək xütbəni[89] mənim adıma oxutdurub, sikkəni mənim adıma basdırarsan, bac-xərac verəsən, yoxsa gəlib Reyi alaram, oranı xaraba qoyaram". Belə çox hədə-qorxular yazır.



Qasid gətirib məktubu verir, Seyyidə deyir: "Soltan Mahmuda de ki, nə qədər ərim sağ idi, mən ürəyimdə qorxurdum ki, sən bu fikrə düşüb Reyə hücum edərsən. Lakin elə ki, ərim vəfat etdi, işlər mənim öhdəmə qaldı, bu qorxu ürəyimdən çıxdı. Dedim, Soltan Mahmud ağıllı şahdır, bilir ki, mənim kimi bir qadınla müharibə etmək onun şəninə yaraşmaz. İndi əgər gəlsən, Allah da şahiddir ki, qaçmayacağam, savaşa başlayacağam. İki şeydən biri olacaq - iki qoşundan biri məğlub ediləcək; əgər mən qalib gəlsəm, yazıb bütün dünyaya car çəkəcəyəm ki, yüzlərlə şahları məğlub etmiş Soltan Mahmudu mən məğlub etmişəm, mənə həm "fəthnamə" yazarlar, həm "mədhnamə". Sən mənə qalib gəlsən, nə yaza bilərsən? Deyəcəksən ki, bir qadını məğlub etmişəm? Sənə nə "fəthnamə", düşər, nə də "mədhnamə". Qadını məğlub etmək çox da fəxr deyil. Deyərlər: "Soltan Mahmud bir qadını məğlub etmişdir".

Bu sözdən sonra nə qədər ki, Seyyidə sağ idi, Soltan Mahmud Rey xəyalına düşmədi və ora hücum etmədi.

Bütün bunları ona görə deyirəm ki, öz düşmənini çox da rüsvay etməyəsən, lakin ondan arxayın da olmayasan, xüsusilə ev düşmənindən. Özün də ev düşmənindən daha çox qorx, çünki sənin işlərindən onun xəbəri olduğu qədər yadın xəbəri ola bilməz, səndən qorxuya düşəndə, ürəyində həmişə sənə pislik etmək fikrində olar və sənin vəziyyətinin də nə yerdə olduğunu yaxşı bilər. Xaricdəki düşmən o qədər bilməz. Buna görə də heç bir düşmənlə həqiqi dostluq etmə, üzdə dostluq et, bəlkə sonra dönüb həqiqi oldu, çünki çox zaman düşmənçilik dostluğa, dostluq isə düşmənçiliyə çevrilir, belə dostluq və düşmənçilik çox möhkəm olur.

Düşmənlərlə yaxınlığı çarəsizlik hesab et. Düşmənə elə zərər vur ki, bundan sənin özünə ziyan dəyməsin. Çalış dostların sayı düşmənlərindən ikiqat artıq olsun. Çox dostlu, az düşmənli ol. Min dosta ümid edib bir düşmən qazanma və bil ki, o min dost sənin hayına qalmaz, bu bir düşmən isə vayına çıxar.

Hər kəsi öz yerində oturtmağı bacar. Öz qədrini bilməyən adamın mərdliyində nöqsan var. Düşmən səndən güclü olsa da, onun işini çətinləşdirməkdən əl çəkmə, düşmən səndən aman istəsə, nə qədər

böyük düşmən olsa və sənə nə qədər pislik etmiş olsa, yenə aman ver və bunu böyük xoşbəxtlik hesab et. Deyiblər: “Düşmən istər ölsün, istər qaçsın, istər aman gətirsin”.

Lakin düşməni aciz və gücsüz görəndə o saat atılıb üstünə minmə. Düşmən sənin əlinlə həlak olubsa, şadlıq etməyinə dəyər, öz əcəli ilə ölübsə, sevinmə. O zaman sevinə bilərsən ki, sən heç vaxt ölməyəsən. Doğrudur, filosoflar deyiblər: “Hər kəs düşməndən bir dəfə artıq nəfəs alıb ölsə, o, ölümü xoşbəxtlik hesab etmək lazımdır”, lakin hamımızın öləcəyimizi bildiyimizdən sevinmək lazım deyil. Mən belə deyirəm:

Əgər ölüm sovurmuş göyə düşmən külünü,
Niyə bundan sevinib gülürsən, şadlanırsan,
Bilirsən, o sənin də solduracaq gülünü,
Bəs özgənin ölümün neçin şadlıq sanırsan?

Biz hamımız eyni yerə getməyə səfərbərliyə alınmışıq və səfərə çıxarkən yaxşı əməldən başqa heç bir şeyi özümüzlə apara bilməyəcəyik.

Hekayət. Belə eşitmişəm ki, Zülqərneyn[90] bütün aləmi gəzib bütün dünyanı zəbt etdikdən sonra geri dönərək vətənə qayıtmaq istərkən Damğanda[91] əcəli çatır. Vəsiyyət edib deyir ki, məni tabuta qoyun, tabutda deşik açıb mənim əllərimi o deşikdən xaricə çıxarın, əlim açıq olduğu halda aparın, qoy camaat görsün ki, bütün dünyanı aldıq, lakin əli boş gedirik. “Qəsb etdik və tərk etdik”. Hər şeyi bu dünyada qoyuruq; aldıq, lakin saxlaya bilmədik. Bir də anama deyin ki, istəyirsə ruhum şad olsun, mənə elə adamla yas saxlasın ki, onun ya heç bir əzizi ölməmiş olsun, ya özü əbədi yaşayacağına ümid bəsləsin.

Kimin ayağından yapışıb yıxsan, onun əlindən tutub qaldır, çünki ipi həddindən artıq bərk dartsan, qırılar. Demək, bütün işlərin əndazəsini bil.

İstər dostluqda, istərsə düşmənlikdə mötədil ol, çünki mötədillik bütün ağıllıların məcmusunun orta ağlıdır. Çalış həsəd doğura biləcək

şeyləri sənin paxıllığını çəkən adamlara göstərmə, həyatları boyu sənə kin bəslərlər. Bədxahlarına qarşı bədxah ol, lakin tamahkar, mənsəbpərəst adamlarla höcətləşib onlara baş qoşma, mənsəbpərəstlik özü gec-tez onu yıxar. Kuzə hər dəfə su ilə dolu qayıtmaz. Həyasız və davakar adamlarla təmkinlə dolan, lakin təşəxxüslü adama qarşı təkəbbürlü ol. Nə vəzifədə olursan ol, adamlarla insan kimi rəftar etməyi heç vaxt unutma, hirsləndikdə acığını udmağı bacar, dost və düşmənlə qışqıra-qışqıra danışma, dilişirin ol, şirindilli olmaq ovsunçuluğa bərabərdir. Yaxşı-pis nə deyirsənsə, cavabında da onu gözlə. Hərzə sözün mərzə də cavabı olar. Eşitmək istəmədiyini başqasına da demə. Xalqın üzünə deyə bilmədiyini dalınca da danışma. Ehtimala görə adamları hədələmə, işi görməmiş özünü öymə, demə: "bunu edəcəyəm", de ki, "bunu etmişəm". Bu barədə mən belə demişəm:

Ey sənəm, eşqini atdım qəlbimdən,
Dağ boyda qəmini çöl etdim həmən.
Mən bu gün demirəm, "nə edəcəyəm".
Sabah deyəcəyəm: "Bax, etmişəm mən".

İşi sözdən üstün tut. Sənə diliuzunluq etmək istəyən adama da diliuzunluq etmə. Heç vaxt ikiüzlü olma və ikiüzlü adamlardan qaç. Od püskürən əjdahadan qorxma, amma sözgəzdirən adamdan qorx, çünki onun bir saatda sökdüyünü bir ilə də tikmək olmaz.

Qul ilə mübahisə etmə. Nə qədər böyük və adlı-sanlı olsan da, özündən aşağı adamla höcətə girişmə.

Filosof demişdir: "Bəlaların çoxundan xilas olmaq istəyirsənsə, on xasiyyəti özünə peşə et: özündən güclü ilə vuruşma, yalançı adamla məclis qurma, xəsis adamlarla ünsiyyət saxlama, nadanla öcəşmə, davakar və tündxasiyyət adamla şərab içmə, arvadlarla çox oturub-durma, sirrini başqalarına vermə, yoxsa böyüklüyünə hörmət qoyan olmaz, nüfuzdan düşərsən; biri sənə böhtan atsa, üstünə götürmə, çalış onu özündən rədd et; heç kəsi o qədər tərifləmə ki, məzəmmət etmək lazım gələndə pisləyə biləsən, o qədər pisləmə ki, lazım gələndə tərifləyə

biləsən. Sənsiz işi keçən adamı hərbə-zorba gəlmək və şikayət etməklə qorxutma, sənə ehtiyacı olmayan sənin hədəndən də, şikayətindən də qorxmaz, onu hədələməklə özünə dalınca danışan bir adam əmələ gətirmiş olarsan. Sənsiz keçinə bilməyən adamları isə birdəfəlik təhqir edib ruhunu öldürmə, gücünü ona göstərib başqalarının acığını ona tökmə. Böyük günah etmiş olsa da, onu bağışla, özündən balacalara nahaq yerə bəhanə axtarma. Beləliklə, sən onlardan xeyir götür, onlar da sənin abadlıq işinə yaxşı baxarlar.

Kiçiklər sənin mülkündür, var-dövlətindir, onlara yaxşı baxmasan, çörəksiz, azuqəsiz olarsan, yaxşı baxsan, işlərin saz gedər, razı qalarsan.

Sözə baxan nöqsanlı nökər sözə baxmayan nöqsansız nökərdən yaxşıdır.

Əmrinin və işinin yerinə yetirilməsini istəyirsənsə, bir işi iki adama buyurma. Deyiblər ki, bir qazanı iki aşpaz bişirsə, qaynamaz, bir evin iki xanımı olsa, ev süpürülməmiş qalar. Şair demişdir:

Tapşırma bir işi sən iki adama, canım,
Ev zibilli qalacaq, evdə iki olsa xanım!

Əmr yerinə yetirən olsan, özünə şərik axtarma ki, o işdə müvəffəqiyyət qazansan, həmişə ağanın qarşısında üzüağ olasan. Lakin dost-düşmənə mərhəmətli ol, camaatdan xəta baş verdikdə coşma, hər sözə bir əmma qoyma, hər haqq-nahaq şey üstündə xalqı incitmə, həmişə təriflənmək istəyirsənsə, kəramətli ol.






# CƏZA VERMƏK VƏ ƏFV ETMƏK QAYDALARI HAQQINDA

Ey oğul, bil və agah ol ki, hər xəta üstündə adama cəza verməzlər. Əgər biri günah etsə, əvvəlcə ürəyindən onun günahının bağışlanmasını istə. Axı o da adamdır, ilk günahı Adəm etmişdir. Bu barədə mən deyirəm:

Əgər bir gün gəlməmişəm görüşə,
Ey munisim, yüz dəfə ah etmişəm.

İlk günahı Adəm etmiş, bağışla,
Mən adamam, mən də günah etmişəm.

Nahaq cəza vermə ki, günahsız cəza almayasan. Hər şey üstündə qəzəblənmə, acıqlı vaxtlarda hirsini udmağı bacar. Bir günahı bağışlamağı səndən xahiş etsələr, qəbul et, günah nə qədər böyük olsa da, bağışlamağı özünə adət bil; bəndə günah etməsə, ağanın onu bağışlamasına ehtiyac qalmaz. Hər günah üçün cəzalandırsan, bəs sənin kəramətin nə olar? Bağışlamağı vacib bilsən, böyüklük şərəfindən məhrum olmazsan. Lakin bağışladıqdan sonra bir də ona sərzəniş edib həmin günahı yada salma, bu elə bağışlamamaq kimi bir şey olar. Amma özün günah etmə ki, üzr istəməli olasan, lakin etdinmi, üzr istəməkdən utanma, qoy düşmənçilik aradan qalxsın.

Birisi cəzaya layiq günah işləmişsə, əvvəlcə günahın dərəcəsini təyin et, sonra ona müvafiq cəza ver. İnsaf sahibləri belə demişlər: "Cəza günaha müvafiq olmalıdır". Mən isə belə deyirəm: "Əgər biri günah etmişsə və o, cəzaya layiqsə, sən bu günaha müvafiq cəza verməlisən ki, helm, rəhm və kəramət qaydalarını unutmayasan; bir dirəmlik günah edibsə, yarım dirəmlik cəza vermək lazımdır ki, beləliklə, həm kəramətli hesab ediləsən, həmdə ləyaqətli, çünki kəramətli adamlara rəhmsiz olmaq yaramaz.

Hekayət. Eşitmişəm, Müaviyə[92] dövründə bir dəstə adam cinayət iş görür və onları öldürmək lazım olur. Müaviyə əmr edir, boyunlarını vursunlar. Bu zaman onlardan birisini boynunu vurmaq üçün irəli gətirirlər. O kişi deyir: "Ya Əmirəlmöminin, bizə nə etsəniz, yeri var, mən öz günahımı boynuma alıram. Lakin, Allah xatirinə, istəyirəm, mənim iki kəlmə sözümə qulaq asıb ona cavab verəsiniz. Deyir: "De". O kişi deyir: "Bütün dünya sənin həlim və kəramətli olduğunu bilir, əgər biz bu günahı sənin qədər həlim və kərim olmayan bir padşaha etsəydik, o bizə nə edərdi?" Müaviyə deyir: "Mən nə edirəmsə, o da onu edərdi". O kişi deyir: "Bəs onda sənin mərhəmətli və kəramətli olmağının bizə nə faydası? Həmən



zülm, həmən cəza?" Müaviyə deyir: "Sən bu sözü bir az qabaq demiş olsaydın, heç o birilərin də boynu vurulmazdı, kim qalıbsa, hamısını bağışlayıram".

Deməli, günahkar üzr istəsə, onu qəbul et, çünki bağışlanması mümkün olmayan günah yoxdur.

Bir möhtac adamın sənə ehtiyacı düşsə və bunun dinə zərəri, dünya işlərinə ziyanı olmasa, dünya malı xatirinə onun xahişini rədd etmə, imkan daxilində ona kömək et, sənin haqqında olan yaxşı fikrini pisə çevirmə. O adam sənin haqqında yaxşı fikirdə olmasaydı, səndən bir şey istəməzdi. Ehtiyac vaxtı o sənin əsirin olur. Deyiblər ki, "Ehtiyac əsirliyə bərabərdir". Əsirlərə isə rəhm etmək lazımdır. Əsiri öldürmək təriflənməz, pislənər. Bu mənada kahıllıq göstərmə, onda hər iki dünyada şöhrət qazanarsan.

Bir adama ehtiyacın düşsə, əvvəlcə bax, gör o adam səxavətlidir, yoxsa xəsis. Səxavətli olsa, ehtiyacını istə, lakin münasib vaxt seç, qanı qaradırsa, istəmə, acdırsa, yenə istəmə. Bir şey xahiş edərkən fikirləş, yaxşı sözlər tap, otur, ən yaxşı hörmət qaydalarına riayət et, sonra qısa şəkildə xahişini bildir. Xahiş edərkən həddindən artıq təvazökar və nəzakətli ol, təvazökarlıq xahişin qəbul edilməsi üçün ikinci vasitədir. Əgər xahiş etməyib acarsan, heç vaxt əliboş qayıtmazsan. Bu barədə mən deyirəm:

Ey könül, ürəkdən keçirsə nigar,
Zəhmətsiz vüsala ancaq bir yol var.
Gərək yar deyən tək edəsən, könül,
Sən xahiş bacarsan, o da ram olar!

Kimə ehtiyacın varsa, özünü ona qarşı nökər və qul kimi apar, məqsədinə çatdıqda isə hər yerdə ona təşəkkür et (Allah-Taalada buyurubdur ki, "Şükr etsəniz, qismətinizi artıraram"). Allah-Taala şükr edənləri sevər. Bundan əlavə, birinci yaxşılıq qarşısında edilən təşəkkür ikinci xahişin yerinə yetirilməsinə ümid verər.

Sənin xahişini yerinə yetirmirsə, öz bəxtindən küs, ondan şikayətlənmə. O sənin şikayətindən qorxsaydı, özü sənin ehtiyacını

yerinə yetirərdi. İşin düşən adam rəzil və xəsisdirsə, ayıq vaxtı ondan heç nə istəmə, verməz. Məst olduqda istə. Rəzil və xəsis adamlar kefləndikdə səxavətlənər, lakin sabahısı peşmançılıq çəkərlər.

İşin rəzil adama düşsə, özünü yazıqlar cərgəsində hesab et. Deyiblər, üç adam yazıq sayılar: axmağın əli altında işləyən ağıllı, gücsüzə tabe olan qüvvətli, xəsisə möhtac olan səxavətli.

Bil, müqəddimədə dediyim sözlərdə və müxtəlif məsələlər haqqında yazdığım fəsillərdə məqsəd bacarığım daxilində sözün ləyaqətinə, onun qüdrətinə haqq verməkdən ibarət idi.

İndi də peşələrdən danışmaq istəyirəm, onu da oxuyub biləsən, bəlkə, lazım oldu. Ona görə istəyirəm ki, hər nə bilirəmsə, əvvəlindən tutmuş axırına qədər hamısını sənə öyrədəm. Bəlkə, ölərkən sənin tərəfindən arxayın olub bu dünyadan rahat gedəm. Hərçənd mən özüm də elmdə piyadayam, lakin bilsəm də, faydası yoxdur, çünki mən atamın sözünə necə baxmışamsa, sən də mənim sözümə elə baxacaqsan. Deməli, səni danlamağına dəyməz, lakin mən öz vəzifəmi yerinə yetirirəm.

İstəyirsən qulaq as, istəyirsən yox, mən hər peşədən bir az danışacağam ki, sözdə də xəsis olmayım, sinəmdə nə varsa, hamısını deyim.






# ELM ÖYRƏNMƏK VƏ FƏQİHLİK[93] HAQQINDA

Ey oğul, bil və agah ol ki, sözün əvvəlində "peşələrdən danışacağam" deyərkən mən dükan saxlamağı nəzərdə tutmurdum. Peşə yalnız dükançılıq deyil. İnsan nə ilə məşğul olsa, o da onun peşəsi sayılar. İnsan öz sənətini yaxşı bilməlidir ki, ondan fayda götürə bilsin. İndi görürəm, elə bir iş və peşə tapmaq mümkün deyil ki, onda nizam-intizam olmasın. Hər peşənin öz qayda-qanunu var. Peşələr isə müxtəlif və çoxdur, bunların hamısının üsulunu bilmək lazımdır. Bunların hər birini ayrı şərh etmək mümkün deyil, kitab böyüyüb şişər və əsas məqsəddən uzaq düşərik.

Lakin hansı sənət olur-olsun, üç yerə bölünür: ya peşəyə aid elmdir, ya elmə aid olan peşədir, ya ağıl işlətməklə əmələ gələn peşənin özüdür.

Peşə ilə əlaqədar olan elmlər: tibb, nücum, həndəsə, yerölçmək, poeziya və sairə. Elmlə əlaqədar olan peşələr musiqişünaslıq, baytarlıq və bu kimilərdir. Bunların hərəsinin öz qaydası var. Sən bu qayda-qanunları bilməsən, usta olsan da, bu məsələdə əli-qolu bağlı qalarsan. Peşələrin özləri isə məşhurdur və onların şərhə ehtiyacı yoxdur. Yeri gəldikcə, imkan daxilində, hərəsinin öz qaydasını sənə göstərəcəyəm, çünki bu, iki haldan xaric deyil: ya ruzigarın təsadüfləri, zamanın hadisələri sənin özünü bunlara möhtac edəcək, heç olmazsa, o ehtiyac vaxtı bunların sirrindən istifadə edərsən, ya böyük olduğun üçün ehtiyacın olmayacaq. Lakin böyüklərin də sənət bilməsi zəruridir.

Ey oğul, bil, axirət elmindən götürə biləcəyin qədər heç bir elmdən o qədər xeyir götürə bilməzsən. Dünya elmindən xeyir götürmək istəsən, gərək ona bir peşə qoşasan, əks halda fayda görməzsən. Məsələn, şəriət elmində: qazı, qəyyum, müdərris, vaiz olmasan, dünya malından bir şey əldə edə bilməzsən. Nücum elmində: təqvimçilik, rəmmallıq, falçılıq, gözbağlayıcılıqla məşğul olmasan, istər ciddi, istərsə qeyri-ciddi, münəccimə heç bir şey düşməz. Tibb elmində: əliitilik, yalandan təsəlli, saxta dərman olmasa, həkim bir şey qazana bilməz.

Buna görə ən böyük elm din elmidir, çünki onun əsası tohid, törəməsi şəriət ehkamları, səmərəsi isə dünya malıdır. Deməli, ey oğul, bacardıqca din elminə də yiyələnməyə çalış. Müvəffəq olsan, əvvəlcə dinin əsaslarını öyrən, sonra isə törəmələrinə keç, çünki əsası bilmədən törəməyə keçmək, əsli bilmədən fərə keçmək təqlid hesab edilər.

Haşiyə. Əgər dediyim peşələrdən elmi[94] seçsən, pəhrizkar, qənaətkar, elm sevən ol, dünya malına aludə olma. Səbirli, incə ruhlu, gec yatan, tez duran ol, kitab hərisi ol, təvazökarlığa adət et, işdə tez yorulan olma. Əzbərləmə və təkrarlamada tənbəllik etmə, ardıcıl olaraq keçmişin təcrübəsini öyrən, tədqiqatçı, sirləri açan, alimlərin dostu, hörmətcil, elm öyrənməkdə həris və utanmaq bilməyən, öz müəllimlərinin haqqını itirməyən, qədrini bilən ol.

Elə etmək lazımdır ki, kitab, dəftər, qələm, davat, qələmdan, qələmyonan, bıçaq və bunun kimi şeylər həmişə öz yanında olsun. Ürəyində bunlardan başqa heç bir şey olmamalıdır. Nə eşitsən, yadında saxla, təkrar et, lakin azdanışan və uzaqgörən ol, təqlidçi olma. Hansı elm axtaran adamda bu sifətlər olsa, o, tezliklə öz əsrinin yeganə alimi olar.

Haşiyə. Əgər müfti olsan, əzbərdən çox şey bilən, çox dərs oxumuş ol. Namaz qılıb oruc tutmaqda ifrata varma, ikiüzlü olma, təmizbədən, təmizpaltar və hazırcavab ol. Bir məsələni yaxşı öyrənməmiş fitva vermə. Öz ehtimalına və başqasını təqlidə əsasən iş görmə. Öz rəyini üstün tut. İki adamın şəhadəti və sözü ilə kifayətlənmə. Etibarlı adamlardan başqa heç kəsin yazısını qəbul etmə. Hər kitabda və risalədə yazılanı qanun hesab etmə. Rəvayətə qulaq asmaq istəyirsənsə, naməlum adamların rəvayətlərinə yox, məşhur ravilərin[95] rəvayətlərinə qulaq as. Etibarlı olmasalar, tək-tək adamların gətirdiyi xəbərlərə inanma. Arası kəsilmədən gətirilən xəbərlərə qarşı soyuqqanlı olma. Deyilənlərə qulaq asmağı adət et, lakin qərəzli cavab vermə. Mübahisə etməli olsan, rəqibinə fikir ver, onun sözünü rədd edib əksini sübut etmək iqtidarın varsa, məsələyə qarış, yoxsa, sözü qısa et, bir misal gətirməklə kifayətlən. Eyni məsələ haqqında bir-birinə zidd iki fikir demə, əvvəl dediyin sözü yadında saxla ki, sonrakı sözünlə onu puç etməyəsən. Mübahisə din alimləri arasında gedirsə, əvvəlcə hədisi de, sonra onu təmsil, təşbeh və mümkün ola bilən həyati hadisələrlə müqayisə et. Üsul[96] mübahisəsində vacibatdan olanları olmayanlarla bir yerdə izah etmək eyib sayılmaz. Hər şeydən əvvəl məqsədi qarşıya qoy, sonra aydın, sərrast və yaraşıqlı danış, sözləri çeynəyib tüpürmə, qırıq-qırıq söyləmə, lakin uzunçuluq da etmə, mənasız danışma.

Haşiyə. Ey oğul, əgər vaiz olsan, hafiz[97] ol və əzbərdən çox şey bil, xitabət kürsüsünə qalxdıqda tez otur, rəqibinin zəifliyinə əmin olmayınca mübahisəyə girişmə. Kürsüdə nə istəyirsən de, onu da iddia et. Sual verən olsa, qorxusu yoxdur, lakin fəsahətlə danış və elə hesab et ki, sənin məclisində oturanların hamısı heyvandır. Nə istəyirsən de, lakin özünü çaşdırma. Paltarını və canını təmiz saxla. Müridlərin və

nərə çəkənlərin olsun, qoy onlar məclisdə otursunlar, sən hər təsirli söz dedikdə nərə çəkib ah-fəryad qoparsınlar və məclisi qızışdırsınlar. Camaat ağlayanda sən də hərdən bir ağlamsın. Sözdə çaşsan, qorxma, salavat çevirtdirib dua oxu. Xitabət kürsüsündə cansıxıcı olma, qaşqabağını tökmə, onda məclisin də cansıxıcı və ağır olar. Ona görə deyiblər ki, "Ağırlığın nəticəsi ağırlıq olar". Danışarkən diribaş ol, qızdığın vaxt birdən süstləşmə. Həmişə dinləyicilərə fikir ver, əhvalat istəsələr, əhvalat danış, rəvayət istəsələr - rəvayət. Qara camaatın nədən xoşlandığını bilsən, onlar da səni qiymətləndirərlər. Elə ki gördün bazarın tutub, qorxma, nəyin varsa, hamısını fəsahətli söz və bəlağətli kəlam kimi işə ver getsin, bazar yaxşı gətirəndə hər şeyi alarlar. Lakin müvəffəqiyyət qazandığın vaxtlar çox ehtiyatlı ol, çünki düşmən belə hallarda özünü büruzə verir.

Bəyənilmədiyin yerlərdə qalma, xitabət kürsüsündə oturarkən verilən sualların cavabını bilirsənsə, de, bilmirsənsə, özünü itirmə, de ki, dua istəyiblər. Məclisdə dediyin sözləri yaxşı yadında saxla ki, təkrar etməyəsən. Həmişə xoşsifətli ol, şəhərlərdə çox qalma, rövzəxanalarla falçıların ruziləri ayaqlarında olar. İşin düz gətirdikdə işgüzar ol, vaizlik şərəfini qoru, bədənini, paltarını təmiz saxla, şəri məsələlərə - oruc, namaz və s. - istər zahirdə, istərsə batində, könüllü riayət et. Dilin yağlı olsun, bazara çox getmə, camaat səni çox görməsin, beləliklə, xalqın gözündə hörmətin olsun.

Pis-yaxın adamdan ehtiyatlı ol, xitabət kürsüsünün hörmətini saxla, bu barədə başqa yerdə də xatırlamışam, təkəbbürdən, yalançılıqdan, rüşvətxorluqdan uzaq ol. Xalqa nəyi məsləhət görürsənsə, özün də elə et, qoy xalq səni insaflı bilsin.

Elmi yaxşı öyrən, öyrənmədiyini isə yaxşı ibarələrlə ifadə et ki, mənasız müddəa, yersiz söz, yararsız mövizə üçün xəcalət çəkməyəsən. Hər nə desən, xofla rica[98] arasında de, bir dəfəliyə xalqı Allahla qorxudub ümidini kəsmə, bir dəfəliyə də hamını ucdan tutma savab etməmiş behiştə göndərmə. Nədə mahirsənsə, nəyi yaxşı bilirsənsə, o barədə də çox danış ki, sözündə əsassız müddəalar olmasın, əsassız müddəaların bəhrəsi həmişə rüsvayçılıq olar.



Əgər alimlikdə böyük dərəcəyə çatıb qazılıq rütbəsinə qalxa bilsən, çalış səbirli, təmkinli, diribaş, gözüaçıq, tədbirli, uzaqgörən, adam tanıyan, siyasət bilən, din elmindən xəbərdar, təriqət şaxələrindən başı çıxan, hər tayfanın xasiyyətinə bələd, hər məzhəbin mahiyyətinə vaqif, hər təbəqənin zövqündən xəbərdar adam olasan. Qazılığın bütün incəlikləri sənə məlum olmalıdır ki, bir məzlum sənə müraciət etsə və onun şahidi olmasa, lakin ona qarşı ədalətsizlik edilib haqqı tapdalanmış olsa, sən o yazığa kömək edə biləsən, hiylə işlədib məharət göstərəsən və onun haqqını özünə qaytarmağı bacarasan.

Hekayət. Təbəristanda[99] bir kişi var idi, ona qazı əl-qüzat Əbul Əbbas Ruyani[100] deyərdilər. Bu adam elmdə, helmdə, pəhrizkarlıqda, uzaqgörənlikdə, tədbir tökməkdə çox məşhur idi. Bir dəfə bir kişi onun məclisinə şikayətə gəlib yüz dinarının başqa bir adam tərəfindən verilmədiyini iddia etdi. Qazı cavabdehdən soruşdu, o rədd etdi. Qazı müddəidən soruşdu: "Şahidin varmı?" Dedi: "Yoxumdur". Qazı dedi: "Onda cavabdehə and içdirəcəyəm".

Müddəi zar-zar ağlayıb dedi: "Ey qazı, and içdirmə, yalandan içər, qorxusu yoxdur". Qazı dedi: "Mən şəriət qanununu poza bilmərəm, ya sənin şahidin olmalıdır, ya o and içməlidir". Müddəi qazının qabağında yerə yıxıldı, özünü torpağa sürtməyə başladı və dedi: "Amandır, belə etmə, mənim şahidim yoxdur, o yalandan and içəcək, mən məğmun olacağam, pulum batacaq, mənim işim üçün bir tədbir gör".

Qazı həmin kişinin belə ah-zar edib şivən qopardığını gördükdə doğruluğuna inandı. Sonra dedi: "A kişi, bu borc məsələsini əməlli-başlı danış görüm, bunun əsli necə olubdur". Müddəi dedi: "Ey qazı, çoxdan idi ki, bu kişi mənimlə dostluq edirdi. Birdən bir kənizə aşiq oldu. Kənizin qiyməti yüz əlli dinar idi. Bu kişinin isə heç nəyi yox idi. Məcnun kimi gecə-gündüz ağlayır və ah-zar edirdi. Bir dəfə gəzməyə getmişdik, biz ikimiz çöldə tək idik, bir müddət oturub söhbət etdik. Bu kişi hey kənizdən danışır və zar-zar ağlayırdı. Onun halına ürəyim yandı, iyirmi illik dostum idi. Dedim: "Filankəs, sənin pulun yoxdur, mənim onu alacaq qədər pulum yoxdur. Bir adam tapa bilərsənmi ki, sənin dadına çatsın? Mənim bütün var-yoxum yüz dinardır, uzun illər

ərzində toplaya bilmişəm. Bunu sənə verirəm, qalanını özün bir yol ilə tap, kənizi alıb bir ay saxla, bir aydan sonra satıb pulumu qaytar”. Bu kişi mənim qarşımda yerə yıxılıb and içdi ki, heç bir ay da çəkməz, sonra xeyrinə-ziyanına satıb sənin pulunu qaytararam.

Mən qızılları qurşağımdan açıb bu kişiyə verdim; bir mən idim, bir o idi, bir də Allah. İndi dörd ay keçir, nə qızılımı verir, nə kənizi satır“.

Qazı dedi: “Sən qızılı ona verən zaman harada oturmuşdunuz?” Dedi: “Bir ağacın altında”. Qazı dedi: “İndi ki sən ağacın altında olubsan, bəs nə üçün deyirsən şahidin yoxdur?” Sonra cavabdehə dedi: “Sən burada mənim yanımda otur”. Sonra müddəiyə dedi: “Ürəyini sıxma, ağacın yanına get və ona de ki, qazı səni çağırır. Əvvəl iki rükət namaz qıl, bir neçə dəfə Peyğəmbərə (s.) salavat çevir, sonra ona de ki, qazı deyir gəlib şahidlik etsin”.

Cavabdeh dodaqaltı gülümsədi, qazı gördü, lakin üstünü vurmadı, ürəyində qəzəbləndi, lakin hirsini uddu.

Müddəi dedi: “Ey qazı, qorxuram o ağac mənim sözümlə gəlməyə”. Qazı dedi: “Mənim də möhürümü apar, ağaca de ki, bu, qazının möhürüdür, deyir gəlsin, şahidlik etsin”.

Kişi qazının möhürünü alıb getdi. Cavabdeh orada qazının yanında oturdu, qazı bu kişiyə əhəmiyyət verməyib başqa işlərlə məşğul olmağa başladı. İş arasında bir dəfə qazı üzünü kişiyə çevirib soruşdu: “A kişi, filankəs o ağaca çatmış olarmı?” Kişi dedi: “Yox, hələ çatmaz, ey qazı”. Qazı yenə öz işi ilə məşğul olmağa başladı.

O kişi möhürü aparıb, ağaca nişan verdi və dedi: “Qazı səni çağırır”. Bir az gözlədikdən sonra ağacdan heç bir cavab çıxmadığı üçün kor-peşman qayıdıb qazıya dedi: “Ey qazı, möhürü göstərdim, gəlmədi”.

Qazı dedi: “Səhv edirsən, ağac gəldi, şahidlik edib getdi”. Sonra üzünü cavabdehə çevirib dedi: “Bu kişinin pulunu ver!” Kişi dedi: “Mən burada oturduğum müddətdə heç bir ağac gəlib burada şahidlik etməyib”. Qazı dedi: “Doğrudur, heç bir ağac gəlib şahidlik etməmişdir, lakin əgər sən o ağac altında bundan qızıl almayıbsansa, bəs mən səndən soruşanda ki, bu kişi ağaca çatıb, ya yox, sən nə üçün dedin: “Hələ yox”, yəni buradan ora qədər uzaqdır. Qızıl almayıbsansa, haradan bildin ki, o hələ ora çatmayıb? Sən ondan qızıl

almamış olsaydın, mənə deyərdin: "Nə ağac, mən ağac-zad tanımıram və bilmirəm ki, o hara getmişdir".

Qazı kişini məcbur etdi, qızılı alıb yiyəsinə verdi.

Deməli, bütün hökmləri kitabdan çıxarmazlar, gərək özündən də axtarıb bir şey tapasan.

Bir də, gərək evdə çox təvazökar olasan, məhkəmə məclisində isə nə qədər heybətli oturub qaşqabağını töksən, gülməyib az danışsan, o qədər əzəmətli və həşəmətli görünərsən. Vüqar və təmkinlə hərəkət et, söz eşidib hökm verməkdən qanın qaralmasın, özündən çıxma, səbirli ol, çətin məsələ rast gəldikdə tək öz rəyinlə kifayətlənmə, başqa müftilərlə də məsləhətləş. Həm işə fikrin aydın olsun, dediyim kimi, şəriət məsələlərindəki təcrübədəndə istifadə et, çünki şəriətdə qazının rəyi də qanun hökmündədir. Bir çox məsələləri şəriətlə həll etmək çətin olduqda qazı onu asanlıqla yoluna salar. Qazı müctəhid olmalıdır və bir neçə halda fitva verməməlidir: birinci, ac olduqda, ikinci, susuz olduqda, üçüncü, hamamdan çıxdıqda, dördüncü, qanı qaraldıqda, beşinci, dünya işləri haqqında fikirli olduqda.



Qazının diribaş və cəld vəkilləri olmalıdır ki, hökm çıxarıb fitva verərkən müttəhimlər qazıya cürbəcür sərgüzəştlər danışıb ona nağıl və əhvalat söyləməsinlər və beləliklə, havayı yerə onun vaxtını almasınlar. Qazının borcu hökm çıxarmaqdır, istintaq deyildir. Bir çox istintaqlar var ki, onu aparmamaq aparmaqdan yaxşıdır.

Qazının nitqi qısa olmalı, o tezliklə şahidləri dindirib anda keçməlidir.

Adamların dövlətli və sırtıq olduğunu gördükdə işi boş tutmayıb, yəni qorxmayıb, bütün təcrübələrdən, tədbir və fəndlərdən istifadə etmək lazımdır. Həmişə qazının yanında ədalətli və xeyirxah məşvərətçilər olmalıdır. Qazı çıxardığı hökmləri geri götürməməli, verdiyi əməlləri qüvvədə saxlamalı və onları dəyişdirməməlidir.

Zəruriyyət olmadan öz əli ilə heç bir qəbz, qəbalə və təliqə yazmamalıdır. Öz imzasının qədrini, öz sözünün hörmətini saxlamalı və yalnız öz qolu olan yerə möhür vurmalıdır. Qazının ən böyük hünəri onun elmi gözəl bilib helmi yaxşı mənimsəməsidir.

Əgər bu sənətlə məşğul olmasan, ya müvəffəqiyyət qazanmasan və orduda qulluq etməyi özünə peşə seçməsən, heç olmasa ticarətə meyl göstər, bəlkə, bu yolla bir şey ələ gətirəsən, çünki ticarətlə qazanılan hər şey halal hesab edilər və hamı tərəfindən bəyənilər. Kömək isə Allahdandır.






# TİCARƏT HAQQINDA

Ey oğul, bil və agah ol ki, tacirlik əsl mənada sənət hesab edilə bilməsə də, diqqətlə baxdıqda orada da hər peşədə olan bir qayda-qanun görmək olar. Başı çıxan adamlar deyiblər ki, ticarətin əsasını nadanlıq, törəməsini isə ağıl təşkil edir. Necə ki deyiblər: "Axmaqlar olmasaydı, ağıllılar məhv olardı", yəni ağılsızlar olmasaydı, dünya dağılardı. Bu sözləri deməkdə məqsədim odur, biləsən ki, artıqtamahlıq üzündən Şərqdən Qərbə gedən, dağlar aşan, dənizlər keçən, canını və malını təhlükəyə atan, oğru və quldurlardan, vəhşi və yırtıcı

heyvanlardan, yolkəsənlərdən, karvançapanlardan ehtiyat etməyib Şərqin nemətlərini Qərb adamlarına çatdıran, Qərbin mallarını Şərq adamlarına satdıran və beləliklə, dünyanın abadlığına səbəb olan bir kəs varsa, o da sövdəgərdir. Belə qorxulu işlərə yalnız o adam razı ola bilər ki, onun ağıl gözü tutulmuş olsun.

Sövdəgərlik iki cürdür, hər ikisi də təhlükəlidir: biri sələmlədir, biri səfərlə. Sələmlə ona deyərlər ki, adamlar bir yerdə qalıb, baha satmaq ümidi ilə satılmayan şeyləri alıb saxlarlar, burada təhlükə mal üçün olar. Ürəkli və uzaqgörən olmaq lazımdır ki, cürət edib qazanc ümidi ilə satılmayan şeyləri alasan. Səfərə çıxanın isə kim olduğunu demişəm. Hər iki halda sövdəgər qoçaq və qorxmaz olmalıdır. Lakin qorxmazlıqla bərabər, həmişə ürəyi təmiz və əlidüz olmalıdır, öz xeyri üçün xalqın ziyanını istəməməli, öz qazancı xatirinə camaatın zərərini arzu etməməlidir. Müamiləni[101] özündən aşağılarla etməli, özündən böyüklə etdikdə, onun düz, dəyanətli, etibarlı, insaflı mürüvvətli olmasına fikir verməlidir. O, adam aldadanlardan özünü qorumaqla, maldan başı çıxmayan adamla alver etməməlidir ki, qapı döyülməkdən arxayın olsun. Yoxsul və axmaq adamlarla sövdəsi olmamalıdır. Olsa, tamah əlini üzməlidir ki, dostluq pozulmasın. Balaca ziyan və qazanc üstündə o qədər dostluqlar pozulub ki...

Artıqtamahlıq üzündən nisyə alver etməməlidir, bəzən "çox" dalınca qaçarsan, "az" əldə edərsən, xırda səhv buraxarsan, böyük zərər çəkərsən, necə ki mən deyirəm:

Dedim, getsəm onun yanından əgər,
Bəlkə, ürək sakit oldu bir qədər.
Ordan qaçdım, qaçdı yuxum, iştaham
Xırda səhvdən doğurmuş böyük zərər!

Qənimətdən yemək mümkün olduqca, qazancdan yemə, qazancdan yemək mümkün olduqca, mayadan yemə. Sövdəgərinən böyük zərəri mayadan yeməkdir. Ən qazanclı mal odur ki, onu xalvarla, batmanla alıb, misqalla, dirhəmlə satasan. Ən zərərli mal bunun əksini bil. Qazanc ümidi ilə taxıl almaqdan vaz keç, taxıl satanlar həmişə

bədniyyət və bədtiynət olarlar. Ən böyük düzlük odur ki, alverdə yalan danışmayasan. Ticarətdə yalan danışmaq nə kafirə yarayar, nə müsəlmana. Mən bu barədə aşağıdakı şeirdə deyirəm:

Eşq oldu qəlbimə yanğınlar salan,
Naz oxu sinəmi nişanə alan!
Eşqini almışam qan bahasına,
Alverdə, bilirsən, deməzlər yalan!

Beh almamış heç bir şeyi əldən vermə. Ticarətdə utanmaq olmaz. Zirək adamlar demişlər: "Utanmaq ruzini azaldar". Baha satmaqdan qorxma, lakin insafsızlığa da yol vermə. Bu sənətdən başı çıxanlar demişlər: "Ticarətin əsası qazanc və insafdır". Qazanc dövlət artırar, insaf - şöhrət. Bu barədə mən bir hekayətdə eşitmişəm.

Hekayət. Eşitmişəm bir sövdəgər bir behsaxlayan dükanın qarşısında min dinarlıq alver edir. Alver qurtardıqdan sonra sövdəgərlə beh saxlayan dükançı arasında xırda pul üstündə mübahisə başlayır. Behsaxlayan deyir: „Sənə bir dinar da verəcəyəm". Sövdəgər deyir: „Yox, bir dinar qızıl, bir də qara pul". Səhərdən günortaya qədər qara pul üstündə çənə döyürlər, sövdəgər qışqırır, bağırır, hay-küy salır, öz sözündən dönmür ki, dönmür. Nəhayət, behçi yorulub bir qızıl dinarla haman qara pulu sövdəgərə verir. Sövdəgər pulu alıb yola düzəlir. Bu hadisənin şahidi olmuş adamlar sövdəgəri məzəmmət etməyə başlayırlar. Bu zaman behçinin şagirdi sövdəgərin dalınca gedib ondan şagirdanəlik[102] istəyir. Sövdəgər qızıl dinarla həmən qara pulu ona verir, uşaq geri qayıdır. Behçi uşağa deyir: „Ay haramzadə, sən gördün ki, bu adam səhərdən günortaya qədər camaatdan utanmayıb bir qara pul üstündə nə oyun çıxardı, ümid edirdin ki, sənə bir şey verəcək?" Uşaq qızılı ustasına göstərir, usta təəccüb edir və öz-özünə deyir: „Xudaya xudavəndə, bu nə işdir, bu xəsislikdə adam bu qədər böyük bir əliaçıqlığı nə üçün etmişdir?"

Behçi sövdəgərin dalınca gedib deyir: „A kişi, mən sənə təəccüb edirəm. Sən bütün günü camaat içində həmən pul üstündə mənə baş

ağrısı verdin, incitdin, sonra hamısını da mənim şagirdimə bağışladın. O xəsislik nə üçün idi, bu əliaçıqlıq nə deməkdir?“ Sövdəgər deyir: „Ey xacə, mənə təəccüb etmə, mən sövdəgər babayam, sövdəgərliyin qaydası budur ki, ticarətdə bir dirhəm aldanmış olsan, ömrünün yarısını aldanmış olarsan, eləcə də səxavətdə xəsislik etsən, özünün nanəcibliyini sübut etmiş olarsan, ona görə mən nə ömrüm boyu aldanmağı istəyirəm, nə nanəcib olmağı“.

Mayası olan sövdəgər şərikli ticarətdən qaçmalıdır. Şərikli alver etməli olsa, insaflı, dövlətli və abırlı adamla etməlidir ki, vərşikəst çıxdıqda ədalətsizlik etməsin. Bir də elə mal almamalıdır ki, saxlanması böyük xərc tələb etsin, sınan və ya çürüyən olsun. Bəxtini yoxlamaq xatirinə mayasını xərcləməməlidir, yalnız o halda belə etmək olar ki, zərər baş verərsə, mayanın yarısından çoxunun qalacağına əmin olsun.

Kim səndən başqa yerə məktub aparmağı xahiş etsə, əvvəl o məktubu oxu, sonra sahibinə çatdır. Başıbağlı məktublardan çox bəlalar gəlmişdir. Bilmək olmaz, iş necə olacaq! Lakin ehtiyacı olan adamların məktubunu aparmaqdan ehtiyat etmə. Hər şəhərə çatanda pis hadisələri danışma, ölüm xəbəri vermə, lakin muştuluq çatdırmaqda da ehmallıq göstərmə.

Yoldaşsız səfərə çıxma, etibarlı yoldaş tap. Karvanda adamların sıx olduğu yerdə ol, malını da adamların sıx olduğu yerdə qoy. Silahlı adamlar arasında getmə, çünki yolkəsənlər birinci növbədə silahlılara basqın edərlər. Piyada atlıya qoşulmamalı, düzlüyünə əmin olmadığı özgə adamdan yol soruşmamalıdır. Çox nanəcib adamlar var ki, yolu yanlış göstərər, sonra özləri dalınca düşər və malını tutub əlindən alarlar. Yolda biri rast gəlsə, ona gülərüzlə salam ver, özünü yazıq və yorğun göstərmə.

Rəsədbanlara[103] xəyanət etmə, lakin şirin dil töküb onları yumşaltmağı da unutma. Hazırlığın olmayınca yola çıxma, yol rahat və abad olsa da, yayda qış paltarı götürmədən səfərə getmə. Çarvadarlarla[104] yaxşı dolan, nabələd yerdə qalmalı olsan, etibarlı sığınacaq tap.

Üç cür adamla durub oturmaq olar: comərd və şücaətli, imkanlı və dövlətli, insaflı və mürüvvətli. İstiyə, soyuğa, aclığa, susuzluğa davamlı

olmağa çalış. Rahat həyata öyrənməkdə ifrata varma ki, zərurət üzündən çətinlik baş versə, asan keçirə biləsən. Bacardığın işlərin hamısını özün gör, başqalarına etibar etmə, çünki dünya malı adamı tez aldadar. Alıb-atmaqda diribaş ol, düz danış, vədini yerinə yetir. Çox alıb çox satmağı bacar. Mümkün olduqca nisyə alver etmə, etməli olsan, bir neçə cür adamla etmə: malı az olanla, alverə təzə başlayanla, alimlə, ələvi ilə, uşaqla, qazının yaxın vəkilləri ilə, şəhər müftiləri ilə, dövlət xidmətçiləri ilə. Heç vaxt bu qəbildən olan adamlarla alverin olmasın. Bu cür adamlarla alveri olan axırda zərər görüb peşmançılıq çəkmədən yaxasını qurtara bilməz.

Görməmiş adama heç bir şeyi etibar etmə, sınaqdan çıxarılmamış adama inanma, imtahandan çıxmışı isə hər addımbaşı yoxlama, sınaqdan çıxmışı çıxmamışla əvəz etmə, uzun vaxt lazımdır ki, etibarlı bir adam ələ gətirəsən. Məsəl var, deyərlər: „Sınaqdan çıxarılmış div sınanmamış adamdan yaxşıdır". Adamı əvvəl başqa adamla imtahan et, sonra özün sına. Sənə layiq olmayan adam başqasına da layiq olmaya bilər. Lakin yoxlayanda həmişə işə görə yoxla, sözə görə yox. Nəqd sərçə nisyə tovuzdan yaxşıdır. Quru səfərində ona yarım, dəniz səfərində isə ona on bir qazancın olsa, yenə dəniz səfərinə çıxma, çünki dəniz səfərinin qazancı topuqdan olar, zərəri xirtdəkdən. Az qazanc xatirinə böyük sərmayəni bada vermək olmaz. Quruda bir bədbəxtlik üz versə, mal gedər, can qalar, dənizdə isə hər ikisinin qorxusu vardır. Malın əvəzini tapmaq olar, canın isə yox. Dəniz işini padşahlıq işinə bənzədiblər, birdən gəlib birdən gedər. Lakin dövlətin varsa, maraqlı şeylər görmək məqsədi ilə bir dəfə gəmiyə minməyinə dəyər.

Peyğəmbər (s.) demişdir: „Bir dəfə dəniz səfərinə çıxın və böyük Allahın necə xariqələr yaratdığına tamaşa edin".

Alverdə çənə vurmaqdan qorxma, lakin malı da əldən çıxartma.

Öz işini bütünlüklə başqalarının ixtiyarına vermə. Deyiblər: „Başqalarının əli ilə yalnız ilan tutmaq yaxşı olar". Həmişə gəlir və çıxarının hesabını saxla, imza verib heç bir şeyi öz öhdənə götürmə ki, istədiyin vaxt boyun qaçıra biləsən. Təsərrüfat işlərini yaxşı öyrən ki, səhv və nöqsanlara yol verməyəsən. Nökərlərinə və yaxın adamlarına hər şeyi hesabla ver, onlardan da hesab tələb et, həmişə gözün üstlərində olsun

ki, qazanc və zərərlərindən xəbər tuta biləsən. Xain adamlardan qaç, özün də başqalarına xəyanət etmə. Kim xalqa xəyanət etsə və elə bilsə ki, başqalarına xəyanət etmişdir, səhv edir, xəyanəti o, özünə etmiş olar.

Hekayət. Qoyun saxlayan bir kişinin böyük qoyun sürüsü və çox düz, əməlisaleh bir çobanı var idi. Qoyunlar gündə nə qədər süd verirdilərsə, azına-çoxuna, artığına-əksiyinə baxmadan çoban hamısını ağasının yanına aparardı. Ağası isə həmin südə su qatıb çobana qaytarar və deyərdi: „Apar sat!“ Çoban həmin kişiyə öyüd verib nəsihət edər və deyərdi: „Ey xacə, müsəlmanlara xəyanət etmə, xalqa xəyanət edənin axırı yaxşı olmaz“. Kişi çobanın sözünə baxmayıb südə su qatmağında davam edərdi.

Bir dəfə çoban təsadüfən qoyunları suyu qurumuş bir dərədə yatırdıb özü bir təpənin başına dırmaşdı və orada yuxuladı. Bahar fəsli idi, birdən dağlarda gürşad yağışlar başladı, sel axıb dərəni doldurdu və bütün qoyunları boğub öldürdü.

Sanki o su toplandı, dama-dama göl doğdu,
Birdən daşdı sel kimi, bütün sürünü boğdu.

Çoban şəhərə gəlib qoyun sahibinin yanına südsüz getdi. Kişi soruşdu: „Nə üçün süd gətirməyibsən?“ Çoban dedi: „Ey xacə, sənə dedim, südə su qatma, xəyanət olar, sözümə baxmadın. İndi camaata süd əvəzinə satdığın o sular bir yerə toplanıb hücuma keçdilər və sənin bütün qoyunlarını apardılar“.

Bacardıqca çalış, xəyanətdən qaç, kim bir dəfə xəyanət etsə, artıq heç kəs ona inanmaz. Düzlüyü özünə peşə et. Ən böyük məharət düzlükdür.

Ticarətdə və sövdəgərlikdə xoşrəftar ol. Heç kəsə vədə vermə, verdikdə vədə xilaf çıxma. Şeyin mayasının neçə olduğunu demə, deyərsənsə, düzünü de ki, Allah da mayana bərəkət versin. Ticarətdə qəbz verib almaqda ayıq ol. Qəbz yazmalı olsan, haqqını almayınca onu əldən vermə. Hara getsən, orada özünə bir tanış tap.

Sövdəgərlik etsən və əvvəllər heç vaxt görmədiyin bir şəhərə getməli olsan, özün haqqında mötəbər bir adamın xasiyyətnaməsi ilə

get, bəlkə, işə yaradı, lazım olmasa da, ziyanı yoxdur. Bilmək olmaz ki, orada işlər necə gedəcək. Adamlarla yola getməyə çalış. Yola getməyən, nadan, axmaq, tənbəl, namaz qılmayan, hörmət qanmayan adamla səfərə çıxma. Deyiblər: „Əvvəl yoldaş, sonra yol".

Sənə etibar edən adamların ümidini puça çıxarma, şeyləri görməmiş alma. Satmaq istədiyin şeylərin əvvəl qiymətini öyrən. Şərt-peymanla satma ki, məhkəməyə düşməkdən və dedi-qodudan xilas olasan.

Ev saxlamaq yolunu yaxşı öyrən. Ən böyük ticarət, evi və onun avadanlığını saxlamaqdır. Təsərrüfat işlərini pərakəndə halda aparma. Evə nə lazımsa, ildə bir dəfə bolluq vaxtı hamısını birdən al, özü də bir ildə sərf edə biləcəyindən iki dəfə çox al. Sonra qiymət öyrən, qiymət qalxdıqda şeylərin hərəsindən yarısını sat. Beləliklə, həmin ili havayı dolanmış olarsan. Burada nə günah var, nə bədnamlıq və heç kəs səni bu işdə xəsis hesab etməz, çünki bu, ev dolandırmaq yollarından biridir. Öz təsərrüfat işlərində kəsir görəndə gəliri artırmaq haqqında tədbir tök, kəsiri aralıqdan qaldır. Gəliri qaldırmaq haqqında bir çarə tapa bilməsən, xərcini azalt. Elə bu da gəliri artırmaq kimi bir şeydir. Ticarəti bəyənməsən və elmdə şöhrət qazanmaq fikrinə düşsən, din elmi nəzərə alınmasa, tibb elmindən ən faydalı və ən şərəfli elm yoxdur. Peyğəmbər (s.) deyibdir: „Elm ikidir: din elmi, bədən elmi".






# TİBB ELMİ QAYDALARI HAQQINDA

Ey oğul, bil, təbib olsan, gərək tibb elminin əsaslarını həm nəzəri, həm əməli cəhətdən yaxşı biləsən. Bil ki, bədəndə hər nə varsa, ya təbiidir, ya qeyri-təbii. Təbii olanlar üç növdür: birinci növ odur ki, bədənin möhkəmliyi və davamlılığını saxlayır; ikinci növ isə bədənin möhkəm və davamlılığını saxlayana tabe olanlardır; üçüncü odur ki, bədəni bir haldan başqa hala keçirir. Qeyri-təbii olanlar ya bilavasitə, ya dolayısı ilə zərər yetirənlər və ya özləri zərərli olanlardır. İnsanın bədəninin möhkəmliyini və davamlılığını mühafizə edən ya maddədir,

ya surət. Maddə olanlar ya uzaqdır, məsələn, ünsürlər kimi, onların sayı dörddür: hava, od, torpaq və su; ya ünsürlərə nisbətən daha yaxındır, məsələn, məzac[105] kimi, onların sayı doqquzdur: biri mülayim, səkkizi isə qeyri-mülayim; bunların da dördü sadədir, dördü mürəkkəb; ya məzaca nisbətən daha yaxındır, məsələn, tərkib[106] kimi; onların dasayı dörddür: bəlğəm, səfra, öd, qan; ya tərkibdən daha yaxındır, məsələn, üzvlər kimi; onların sayı bəzilərinin fikrinə görə dörd, bəzilərinkinə görə isə ikidir.

Bu dediyim sözlərin mənası budur ki, bədən üzvləri tərkibdən, tərkiblər məzacdan, məzac isə ünsürlərdən əmələ gəlmişdir, ünsürlər isə ən uzaq maddələrdir.

Surət cinsindən olanlar üçdür: nəfsani, heyvani və təbii.

Nəfsani qüvvət və hissdən ibarətdir. Hiss beş növdür: görmə, dad, eşitmə, qoxu, lamisə. Qüvvət və hərəkət, hərəkətin sayı və növü bədənin hərəkət üzvlərinin say və növünə bərabərdir. Qüvvətdən ibarət olan üçdür: təxəyyül, təfəkkür və zikr. Heyvanilər ikidir: fəal və passiv (genetik və potensial). Təbii üç növdür: istehsal edənlər, nizama salanlar və yeyənlər.

Fəaliyyətlər qüvvələrin sayına mütabiqdir: nəfsani, heyvani, təbii. Ruh qüvvələrə xidmət etdiyindən fəaliyyətlərin sayı qüvvələrin sayına tam bərabər olar.

Bədənin möhkəmliyini və davamlılığını saxlayanlara tabe olanlar, məsələn, soyuqluğa[107] tabe olan köklük məzacdır. İstiliyə[108] tabe olan arıqlıq məzacdır, yanağın qırmızılığı kimi ki, qana tabedir, sarılıq kimi ki, səfraya tabedir, nəbzin vurması kimi ki, heyvani fəal qüvvəyə tabedir, qəzəb kimi ki, passiv heyvani qüvvəyə tabedir, həya kimi ki, mülayim şəhvani qüvvəyə tabedir, hikmət kimi ki, mülayim nitq nəfsinə tabedir, xüsusiyyət və keyfiyyət kimi ki, maddə və ya surətə tabedir.

Bədəni bir haldan başqa hala keçirən vasitələrə zəruri səbəblər deyilir. Onlar altı növdür: birincisi hava, ikincisi yemək, üçüncüsü hərəkət və sakitlik, dördüncüsü yuxu və ayıqlıq, beşincisi geniş və dar təbiətlilik, altıncısı hadisələr, məsələn, qəm, qəzəb və s. Bunlara ona görə zəruri deyirlər ki, insanlar onlarsız keçinə bilmir. Onların hərəsinin insan bədəninə öz xüsusi və tam təsiri vardır. Bunlardan biri

müvazinətdə olsa, onların hamısının adamlar tərəfindən işlədilməsi düz və müvazinətdə olar, əksinə bunlardan bəziləri öz müvazinətini itirsə və ya insanlar tərəfindən düz istifadə edilməsə, ifratlıq üzündən xəstəlik və nasazlıq əmələ gələr. Təbiətdən xaric olanlar da üç qisimdir: 1) xəstəlik, 2) əlamətləri, 3) nəticələri. Xəstəlik də üç növdür: oxşar üzvlərin xəstəliyi, oxşamayan üzvlərin xəstəliyi, bağların xəstəliyi. Oxşar üzvlərin xəstəliyi ya isti xəstəliyi olar, bu, beş qisimdir, ya soyuq xəstəliyi olar, bu, səkkiz qisimdir, ya rütubət xəstəliyi olar, ya quru. Bunların hərəsi dörd qisimdir. Oxşamayan üzvlərin xəstəliyinin səbəbi ya anadangəlmə olar, ya kəmiyyətcə olar, ya vəziyyətcə, ya sayca.

Xilqətdən olan xəstəliklər ya şiş olar, ya batıq. Bu da yeddi cürdür, ya bərk olar, bu da iki cürdür; ya yumşaq, bu da iki cürdür. Miqdara görə xəstəliklər üç cür, vəziyyətə və saya görə isə hərəsi iki cürdür. Bağlar dörd cürdür, xəstəlikləri isə üç cürdür: oxşar üzvlərin xəstəliyi, oxşamaz üzvlərin və bağların xəstəliyi. Buna ümumi - müştərək xəstəliklər deyilir, çünki o həm oxşar üzvlərə, həm də oxşamaz üzvlərə aid olur.

Oxşar üzvlərin xəstəliyi səkkiz cürdür, dördü sadə: isti, soyuq, yaş, quru; dördü mürəkkəb: isti-yaş, isti-quru, soyuq-yaş, soyuq-quru. Oxşamaz üzvlərin xəstəliyi dörd cürdür: xilqətdən olanlar, miqdara görə, vəziyyətə görə, saya görə. Xilqətdən olan xəstəliklər dörddür: şişə görə, batıqlığa görə, bərkliyə və boşluğa görə. Miqdara görə xəstəliklər iki cürdür: artmaq yolu ilə əmələ gələnlər, əksilmək yolu ilə əmələ gələnlər. Vəziyyətə görə xəstəliklər iki cürdür: ya üzv öz olduğu yerdən oynayır, ya başqası ilə bitişməklə fəsad törədir. Saya görə də xəstəliklər iki cürdür: ya çoxalmaqla əmələ gələr, ya azalmaqla.

Bağda (rabitədə) olan xəstəliklər ya oxşar üzvlərdə olar, ya oxşamaz üzvlərdə, ya da hər ikisində.

Əlamətlər - ya özünü hərəkətdə göstərər, ya vəziyyətdə göstərər, ya ifrazatda. Hərəkətdə göstərənlər üç cürdür, vəziyyətdə göstərənlər dörd cürdür, ifrazatda göstərənlər üç cür.

Bilməlisən ki, elm iki qisimdir: nəzəri və əməli. Nəzəri mən dediklərimidi. Yaxşı-pis, sənə dediyim bu nəzəri cəhətin haradan oxumaq mümkün olduğunu da indi deyirəm, biləsən ki, bunların hərəsinin şərhi və incəlikləri nədən ibarətdir.

Mənim dediyim bu nəzəriyyələri Calinus[109] , əsasən, özünün „On altı traktat“[110] kitabında, bəzilərini isə başqa əsərlərində geniş izah edir. Ünsürlər nəzəriyyəsinə gəldikdə isə, bu barədə həkimə lazım olacaq qədər məlumatı „On altı traktat“ kitabında olan „Ünsürlər“ fəslindən, məzaclar haqqında olan nəzəriyyəni „Məzaclar“ fəslindən, tərəflər nəzəriyyəsini həmən məcmuədə olan „Təbii qüvvələr“ kitabının ikinci məqaləsindən, oxşar üzvlər bəhsini „Kiçik anatomiya“ kitabından, təbii qüvvələr nəzəriyyəsini „Təbii qüvvələr“ kitabından, heyvani qüvvələr nəzəriyyəsini „Ən-nəbz“ kitabından öyrən. Bunların hamısı „On altı traktat“ məcmuəsindədir. Nəfsani qüvvələr nəzəriyyəsini „Bokrat (Hippokrat)[111] və Əflatunun rəyləri“ kitabından öyrən, bu da Calinusun əsəridir, lakin „On altı traktat“ məcmuəsinə daxil deyil.

Əgər bu kitabı daha dərindən öyrənib, öz bilik səviyyəni artırmaq istəyirsənsə, ünsürlər və məzaclar haqqında „Əlkun əl-fəsad“[112], „Əs-səma-ül-aləm“[113] kitablarını oxu, qüvvələr və hərəkətlər haqqında „Ən-nəfs“[114] və „Əl-hiss-ul-Məhsus“[115] kitablarını oxşar üzvlər haqqında „Əl-heyvanat“[116] kitabından, xəstəliklərin növünü „On altı traktat“ məcmuəsində olan „Əl-iləlü əl-Əraz“ kitabının birinci məqaləsindən öyrən. Əlamətlərin səbəbləri haqqında həmin məcmuənin üçüncü məqaləsini, xəstəliklərin səbəbləri haqqında yenə də dediyim həmin məcmuənin dördüncü, beşinci və altıncı məqalələrindən oxu.

Haşiyə. Nəzəriyyədən danışdığım üçün sözün uzanmasına baxmayaraq, gərək bir az da əməliyyədən danışam, çünki nəzəriyyə və əməliyyə cisim və ruh kimi bir yerdə olarlar, cisim ruhsuz, ruh da cisimsiz kimi olmaz.

Müalicəyə başlarkən qocaların və cavanların yeməklərinə fikir ver, baxanlarına diqqət yetir.

Xəstəliklərin müalicəsi iki cürdür: həkim xəstənin qüvvəsini, xəstəliyin növünü, səbəbini, təbiətini, yaşadığı yeri, bədənin vəziyyətini bilməyincə müalicəyə başlamamalıdır.

Haşiyə. Sidik, nəbz, xarici görünüş, zərərsiz və zərərli əlamətlər, səpkilərin növü, ləkələr, daxildə ola biləcək xəstəliklər, onlardakı ağrı və böhranların, hərarət və qızdırmaların növünü bilməli, nə kimi tədbirlərin olduğunu öyrənməli, dava-dərman düzəltməkdə, onların tərkibini təyin etməkdə mahir olmalı və bunları hər müalicə qanununa görə mütəxəssislərin tapdıqları nüsxələr əsasında hazırlamalıdır.

Onların hərəsi haqqında harada oxumaq mümkün olduğunu deyirəm ki, sənə məlum olsun və ehtiyac olduqda tapa biləsən. Hifzi-səhhət haqqında „On altı traktat“ məcmuəsindəki „Tədbir Əsihha“ fəslindən oxumaq lazımdır, xəstələrin müalicəsi, müalicə qanunları haqqında „On altı traktat „ məcmuəsindən oxu, zərərsiz və zərərli əlamətlər haqqında „Təqəddəmətül-mərifə“ və Bokratın „Fəsillər“indən oxumalı, nəbz nəzəriyyəsini „Böyük nəbz“ və „Kiçik nəbz“ kitablarından, sidik haqqında yenə də „On altı traktat „da olan „Əl Böhran“ fəslindən və bura daxil olmamış başqa əsərlərindən öyrənmək lazımdır.

Daxili xəstəliklərin əlamətləri haqqında „On altı traktat“da olan „Əsan-əkməh“ fəslindən, böhranlar nəzəriyyəsi haqqında yenə də „On altı traktat“da olan „Əl-Böhran“ fəslindən, böhran müddətini yenə də orada olan „Əyyam-ül-böhran“, qızdırma bəhsini oradakı olan „Əl-hümməyat“ fəslindən, ağır xəstəliklər müalicəsini Bokratın əsərlərindən olan „Maüş-şəir“ kitabından, daxili xəstəlikləri „Hilətül-bər“ kitabından, dərman hazırlamağı isə Calinusun „Dərmanların tərkibi“ kitabından öyrənmək lazımdır.



Müalicə edən gərək çoxlu təcrübə etsin, lakin təcrübələrini məşhur və böyük adamlar üzərində aparmamalıdır. Xəstəxanalarda işləməli və çoxlu xəstə görməli, çoxlu müalicə etməlidir ki, nadir xəstəliklər, nasazlıqlar ondan gizli qalmasın, kitabda oxuduğu şeyləri gözü ilə görmüş olsun və müalicə vaxtı aciz qalmasın. Bokratın

„Vəsiyyətlər"ini oxumalıdır ki, xəstələrin müalicəsində vicdanlı olub, düzlük göstərməyi bacara bilsin.

Həmişə özünü və paltarını təmiz saxlamalı, xoş qoxulu ətirlər vurmalıdır. Xəstələrə baxarkən üzügülər, mehriban olmalı, xoş sözlər deyib xəstənin könlünü alıb, ona ürək-dirək verməlidir. Həkimin ürək-dirəyi xəstənin fitri hərarətini artırar, ona qüvvət verər.

Haşiyə. Xəstəni yatmış bilsən, çağıranda cavab versə, lakin səni tanımasa, gözünü açmaq istədikdə gözü qapansa, pis əlamətdir. Huşunu itirmiş adam çabalasa, yerini islatsa - pis əlamətdir. Huşunu itirmiş adam hey qışqırıb əllərini və barmaqlarını tutub sıxsa, bu da pis əlamətdir. Xəstənin gözünün ağı, adi haldan daha ağ, ya qarası daha qara olsa, dilini ağzında dolandırsa, ağır nəfəs alsa, pis əlamətdir. Böyük paxıllıqdan və ya kədərdən xəstələnsə, ya təngnəfəslik əmələ gəlsə, pis əlamətdir. Xəstə ara vermədən qırmızı, sarı, qara, ağ qussa, ya qusmağı dayanmasa, bu da qorxuludur.

Əgər xəstə üstünə getsən, bu əlamətlərin heç biri olmasa, sağalmaq ümidi daha çox olar.

Haşiyə. Sonra nəbzini tut, döyünüb barmağın altında qalxırsa,qanı artıbdır; barmağın altında zəif və tez-tez vurursa, səfrası artıbdır; barmağın altında zəif, zərif, yumşaq, yavaş vurursa, ödü artmışdır; barmağın altında gec, sərt və süst vurursa, rütubəti artmışdır. Nəbzin hansı tərəfə çox meyl etməsini istəyirsənsə, müalicəni də həmin istiqamətdə apar.

Nəbzini aydınlaşdırdıqdan sonra sidiyinə bax.

Haşiyə. Əgər sidiyin rəngi ağ olsa, şəffaf olmasa, xəstəliyi qəmdəndir. Ağ şəffaf olsa, xəstəliyi yelin, rütubətin və həzm olunmamağın çoxluğundandır. Su kimi şəffaf olsa, əsəbilikdən və işlərin düz gəlməməyindəndir. Bürünc rəngində olsa və onda xırda-xırda zərrələr görünsə, ishaldandır. Yağ rəngində olsa, dibində xətlər

görünsə, vaxtın çatmış olduğunu bildirər. Zəfəran rəngində olsa, bil ki, hərarəti var, səfra qanı qarışmışdır. Sidiyin üstü sarımtıl, dibi qaramtıl olsa, bu səfradandır. Müalicə etmə; üstüqaraya çalsa da, ondandır. Sidiyin dibi sarıya, ya yaşıla çalsa, o tez əvvəlki vəziyyətinə qayıdar. Xəstə sayıqlayırsa, sidik qırmızı və ya qaramtıl isə, demək, öd qanla qarışmış və onun köpüyü üzə çıxmışdır, bundan da ehtiyatlı ol; qara olsa və üzərində qan kimi bir şey durmuş olsa, xəstənin üstünə getmə; əgər qara olsa və onda kəpək kimi bir şey olsa, ya üzərində qan kimi bir şey dursa, o xəstəyə əlvida de. Sidik sarı olsa, parlaq günəş rəngində görünsə, ya qırmızımtıl sarıya çalsa, xəstəlik qandadır, əmr ver, qan alsınlar, tezliklə sağalar, sarı olsa, onda qırmızı xətlər görünürsə, onu Allaha tapşır. Sidik sarı olsa, onda ağ cizgilər görünsə, xəstəlik uzun çəkər, yaşıl olsa, orada çox dayanma, yaşıl-ağ olsa və onda sirkəqurdu kimi bir şey görünsə, onda yel babasili var və xəstə taqətsiz olar.

Nəbz və sidiyə baxdıqdan sonra xəstəliyin növünü öyrən, çünki xəstəliklərin növü bir cür olmaz.

Haşiyə. Yeməklə kifayətlənmək mümkünsə, dərman və yağ vermə, yaş dəsmal, məlhəm və yağla kifayətlənmək mümkünsə, həb və toz vermə. Çalış dərman verməklə ifrata varma. Rahatlanmaq və sakitlik yaratmaqla iş düzələ bilərsə, qusdurmağa çox cəhd göstərmə. Vəziyyəti xarablaşdıqda xüsusi dərmanlarla müalicəyə başla, yalnız sakitlik yaratmaqla kifayətlənmə. Heç vaxt xəstəni danlama; öz qulluğunun hayına xəstədən daha çox qal, demə ki, o artıq yaxşı olmuşdur. Qarınqulu xəstəyə çox bərk pəhriz qoyma, onsuz da pəhrizi yerinə yetirməyəcək. Sən o yediyi xörəklərin zərərini aradan qaldırmağa çalış. Həkimin ən yaxşı xüsusiyyəti dərdi və dərmanı düzgün təyin edə bilməsidir.

Bu barədə ona görə çox danışıram ki, mən bu tibb elmini həddindən artıq sevirəm. Çünki faydalı elmdir. Ona görə də bu barədə çox danışdım. İnsanlar çox sevdikləri haqqında çox danışarlar.

Həkimlik sənə qismət olmasa, nücum elmi çox şərafətlidir. Nücum elmini öyrənməyə çalış, çünki bu, çox böyük elmdir. Ona görə böyük elmdir ki, peyğəmbərlərin (s.) ən əzizi olan Peyğəmbər Əlehissəlamın möcüzələrindəndir. Deməк, şübhəsiz, bu elm peyğəmbərlik elmidir və bizim zəmanəmizdə şəriətin hökmünə görə qadağan edilmişdir.






# NÜCUM VƏ HƏNDƏSƏ ELMİ HAQQINDA

Ey oğul, bil və agah ol ki, münəccim olsan, hər şeydən əvvəl, riyaziyyat elmi sahəsində çox zəhmət çəkməlisən, çünki ehkam[117] elmi çox geniş bir elmdir və xataya yol vermədən onu tam şəkildə bilmək çox çətindir; heç kəsdə o dəqiqlik ola bilməz ki, səhv buraxmasın. Nücum elminin xeyri qabaqcadan xəbər verə bilməkdir, təqvim düzəltməyin də faydası budur. Odur ki qabaqcadan bu elmin əsaslarını yaxşı öyrənməyə çalış, ulduzların cədvəlini düzəltməkdə mahir ol.

Çünki qabaqcadan verilən xəbər o zaman doğru çıxar ki, ulduzların təqvimi dürüst olsun, rəml düz atılsın. Diqqətli ol, təxmini cədvəllərə inanma, müfəssəl təqvimlərdən istifadə et. Əvvəlcə düzgün hesabla, sonra cədvəllərlə yoxla, hesabla cədvəl düz gəlsə, onlara əsasən hökm ver, onda doğru çıxar.

Bir şeyi əvvəlcədən xəbər vermək istərkən dərhal nə doğulduğunu və nələr olacağını demə, ulduzların vəziyyətini, rəml və rəmlin xanalarını, ay və ayın bürcünü, ay bürcünün hakimini, bürclərin xüsusiyyətini, ulduzların xüsusiyyətlərini, onların hansı bürcdə, nə vaxt və necə olacaqlarının zəruriyyət xanasını, ayın ondan məsafəsini, ulduzların vəziyyətini, rəml xanasına hakim olan ulduzların xanasını, bu ulduzlara yaxınlaşacaq sabit ulduzların vəziyyətini, onların xoşbəxtlik və bədbəxtlik dərəcəsini, xeyir və şər dərəcəsini, qaranlıq və parlaqlıq, yəni günəş dərəcəsini, aşağı və yuxarı dərəcələrini heç vaxt nəzərdən qaçırma. On ikilərin, ziclərin[118], üç bucaq hökmdarlarının, hədd, surət və başlanğıcın kədər, hüzn, fərəh və bəla xanasının zirvədə və ya alçaqda olduğunu təyin et. Sonra ay və ulduzların vəziyyətinə nəzər sal, xoşbəxtlik, bədbəxtlik, xeyir, şər, maillik, tarazlıq, yaxınlaşma, uzaqlaşma, uzaqdan işartılıq, uzaqdan birləşmə, boşluqda hərəkət, yabançı hərəkətlər, cazibə və dəfetmə, işığın əks edilməsi, tədbirin dəfi, parçalanma, etiraz, mükafat, qəbul, yüksəliş, şöhrət, birləşmə, gələcək ruh və cisim, hədiyyə, ömrün qısalması və uzanması, beşlərin gərdişi[119] - bunları bil, bunları bildikdən sonra öz sözünü de, onda verdiyin hökm düz çıxar.

Hökmlərini etibarlı təqvimlər üzrə ver. Bu təqvimlər ziclərə əsasən görkəmli mütəxəssislər tərəfindən düzəldilməli, dönə-dönə sınaqdan çıxarılmalı, təkrar-təkrar yoxlanmalı və dürüst hesablamalar nəticəsində tərtib edilməlidir. Bütün bunlara baxmayaraq, səhvə yol verməmək üçün sən onlardan ehtiyatla istifadə et və nəzərdən qaçmış xətaları düzəltməyə çalış.

Bütün bunlara arxayın olduqdan sonra, gərək deyəsən: „Mən nə deyirəmsə, o da olacaq". Sən öz dediyinə əmin olmasan, hökmün də düz çıxmaz.

Ürəkdə tutulan gizli sirlər haqqında səndən sual etsələr, nə istəsən, deyə bilərsən, çünki dediklərinin çoxu düz gələr.

Doğulma məsələsinə gəldikdə isə mən müəllimlərdən eşitmişəm ki, insanın doğulan günü əslində ana bətnindən ayrılan gün deyil,



bəlkə ana bətninə düşən gün, yəni kişilik mayasının ana rəhminə düşdüyü və onun tərəfindən qəbul edildiyi, nütfənin yarandığı gündür. Əsl tale də buradan başlayır, alına yaxşı, pis nə yazılırsa,

bu anda yazılır. Ana bətnindən ayrılan saata böyük dəyişiklik taleyi deyilir, illər dəyişdikdə „orta tale" adlanır, aylar dəyişdikdə „kiçik tale". İnsanın başına nə gəlirsə, hamısı ana bətninə düşən an taleyi ilə bağlıdır və bunun həqiqətən belə olduğunu Peyğəmbər (s.) xəbər verərək demişdir: „Xoşbəxt, ana bətnindən xoşbəxtdir, bədbəxt, ana bətnindən bədbəxt". Dünyanın ağası bu sözləri mən sənə dediyim səbəblərə görə belə demişdir, sənə ana bətnindəki taledən danışmaq lazım gəlməyəcək, çünki o sənin kimi adamların boynuna biçilməmişdir. Lakin böyük dəyişikliklər taleyindən danışanda keçmiş alimlərin yolu ilə get, hər verdiyin hökmdə onların dediyinə riayət et.

Qabaq dediyim kimi, əgər səndən bir sual etsələr, əvvəl zamanın taleyinə bax, sonra onun sahibinə, bundan sonra aya, ay bürcünə, bürc hökmdarlarına, ayın yaxınlaşacağı ulduza, ayın uzaqlaşdığı ulduza, daha sonra tale ulduzuna və onun olacağı birinci xanaya bax, orada birdən çox ulduz görsən, hansının hakim olduğuna, kimin daha xoşbəxt olacağına diqqət yetir, sonra həmin ulduz haqqında danış, düz çıxar.

Ehkam şərtləri haqqında, az da olsa, dedim. İndi əgər mühəndis, ya yer ölçən olsan, hesabı yaxşı öyrən, amandır, bir saat belə hesabı təkrar etməmiş olma, çünki hesab elmi vəhşi elmdir. Əgər yer ölçsən, bucaqları təyin et, müxtəlif tərəfli şəkillərə xor baxma və demə ki, bunu ölçərəm, qalanlarını təxmini yazaram; sahədə böyük fərqlər əmələ gələr. Bucaqları düzgün təyin etməkdə xüsusən səy göstər. Mənim müəllimim həmişə deyərdi: „Ayıq ol, sahə ölçərkən bucaqlara fikir verməyi unutma".

Çoxüzlü cisimlərdə çox zaman qövs şəklində bucaq olar. Çox yerdə bunlar kor bucağa oxşarlar. Belə halda isə sahədə böyük fərq əmələ gəlir. Sahəsini hesablamaq çətin olan şəkil rast gəlsə, onu təxmini hesablama, yarısını üçbucaq və dördbucaqlara böl, heç elə bir şəkil ola bilməz ki, belə etmək mümkün olmasın, sonra hərəsini ayrı-ayrı hesabla, nəticə düz çıxar. Bu barədə danışmaq istəsəm, çox şey demək olar, lakin onda kitab əndazəsindən çıxar. Bu

qədər demək isə zəruri idi, çünki nücum elmindən danışmışdım, bu barədə də bir neçə söz demək istədim ki, hər elmdən, ey oğul, feyzyab olasan.






# ŞAİRLİK QAYDALARI HAQQINDA

Ey oğul, şair olsan, çalış sənin sözün səhli-mümtəne[120] olsun, qəliz sözlərdən qaç, sənə məlum, lakin başqalarının bilmədiyi və şərhə ehtiyacı olan ibarələr işlətmə, çünki şeiri xalq üçün yazarlar, özü üçün yazmazlar. Vəzn seçib, qafiyə tapmaqla kifayətlənmə, sənətkarlığı və ahəngdarlığı olmayan şeir demə, bayağı şeirlər xoşa gəlməz. Şeirdə sənət və məharət, ahəngdarlıq və musiqilik lazımdır ki, xalqa xoş gəlsin. Şairlərin işlətdiyi qaydalardan istifadə etmək lazımdır. Məsələn:

| | | | |
|---|---|---|---|
| mücanis[121] | mütabiq[122] | mütəzad[123] | muşakil[124] |
| mütəşabih[125] | müstəar[126] | mükərrər[127] | mürəddəf[128] |
| müzdəvəc[129] | müvazənə | müzmər[130] | müsəlsəl[131] |
| müsəccə[132] | müləvvən[133] | müstəvi[134] | müvənşəh[135] |
| müvəssəl[136] | müqəttə[137] | müxəllə[138] | müstəhil[139] |
| zu-qafiyəteyn[140] | rəcəz[141] | | məqlub[142] |

İstəyirsən sənin sözün ali olsun və uzun müddət qala bilsin, müstəar şəklində yaz, mümkün olan istiarələr işlət. Mədhnamə[143] yazdıqda da istiarələr işlət. Qəzəl ya mahnı yazsan, sadə və gözəl yaz. Yaxşı yadda qalan qafiyələr seç. Süni söz oyunu işlətmə, aşiqlərin halına müvafiq lətif sözlər qoş, incə təşbehlər gətir, qoy həm zadəganların, həm adi adamların xoşuna gəlsin. Amandır, ağır şeirlər yazıb əruzu[144] ona yamaq etmə. Əruzun ağır vəznləri dalınca yalnız o adam qaçar ki, onun təbi ağır ola, xoş sözlər deməyi, incə mənalar işlətməyi bacarmaya. Amma sifariş etsələr, yaza bilərsən. Lakin şeir vəznlərini bil, şairlik elmini, ləqəbləri işlətməyin yerini, bədiiyyatın qaydalarını öyrən, şairlər arasında yarış olsa, qoy sənə bata bilməsinlər, imtahan etmək istəsələr, aciz qalmayasan.

Fars əruzunun on yeddi dairə[145] və bəhrlərinin[146] adları bunlardır: Ərəb vəzinlərindən isə məsələn, bəsit, mədid, kamil, vaqif, təvil[147] və

| | | | |
|---|---|---|---|
| həzəc | rəcəz | rəməl | həzəci məkfuf |
| həzəci-əxrəb | rəcəzi-mətvi | rəməli məxbun | münsərih |
| xəfif | müzare | müzarei-əxrəb | müqtəzəb |
| müctəs | mütəqarib | səri | qəribi-əxrəb |
| | münsərihi-kəbir | | |

bu kimi bəhrlər vardır. Bu on yeddi bəhrdə əlli üç əruz[148] və həştad iki zərb[149] vardır ki, gərək onların hamısını öyrənəsən. Şeir, mədh, qəzəl, həcv, mərsiyə[150], tərkidünya[151] və s. yazdıqda o barədə nə mümkünsə, hamısını de, bitkin bir əsər yarat, heç vaxt yarımçıq yazma. Bir də ki, nəsrdə işlənən sözləri şeirdə işlətmə, nəsr rəiyyətdir, şeir - şah. Rəiyyətə yaraşmayan şey şaha heç yaraşmaz. Qəzəl və tərانə yazarkən incə və duzlu yaz, mədhnamələrin təntənəli və gurultulu olsun. Söz söylədikdə alicənab ol, hər kəsin öz yerini bil, hərəyə özünə layiq mədh de. Məsələn,

ömründə belinə bıçaq bağlamamış adam haqqında deməki, „qılıncın arslan parçalayar, nizən Bistun[152] dağını qaldırar, oxla tükü vurarsan“. Ömründə eşşəyə minməmiş adamın atını Düldül, Büraq[153], Rəxş[154] və Şəbdizə[155] oxşatma, kimə nə demək lazım olduğunu bil.

Şair mədh edəcəyi adamın təbiətindən xəbərdar olmalıdır, bilməlidir ki, o, nəyi xoşlayır, sonra elə mədh etməlidir ki, onun xoşuna gəlsin. Sən onun xoşuna gələn şeyi deməyincə, o da sənin xoşuna gələn şeyi sənə verməyəcək.

Alçaq təbiətli olma, mədh etdiyin adamın ləyaqəti olmasa, heç vaxt özünü qəsidədə[156] qul adlandırma. Həcv yazmağı peşə etmə, kuzə həmişə su ilə dolu qayıtmaz. Zöhd[157] və Tövhid[158] haqqında yazmağa qadir olsan, kahıllıq etmə, hər iki dünya üçün yaxşıdır. Hərçənd şeirdə mübaliğə məharət sayılır, lakin sən yalanı həddindən artıq şişirtmə.

Dostlar və böyük adamlar haqqında mərsiyə yazmaq vacibdir, lakin qəzəl və mərsiyəni bir üslubla, həcv və mədhi isə başqa üslubla yaz. Həcv yazmaq istəsən bil: mədhin əksinə hər nə yazılsa, həcv olar, qəzəl ilə mərsiyə də bunun kimidir.

Lakin hər nə yazsan, özündən yaz, başqalarının sözünü təkrar etmə, əks halda təbin inkişaf etməz, şeir meydanın genişlənməz, ilk şeirə başlarkən necə idinsə, elə də qalarsan.

Lakin şeir yazmağa qüdrətin olsa, təbin inkişaf etsə, məharət qazansan, bir yerdə nadir bir sözə rast gəlib bəyənsən və onu başqa yerdə işlətmək istəsən, inad edib yarışa girmə, həmin şeir növündə işlətmə, mədhdə rast gəlibsənsə, həcvdə işlət, qəzəldə təsadüf edibsənsə, qəsidədə işə ver. Qoy heç kəs bilməsin ki, haradan götürübsən.

Əgər mədh yazdıran tapıb bu yolla güzəran keçirmək istəyirsənsə, həmişə xoşsifət və işgüzar ol. Nadir hekayətlər, maraqlı rəvayətlər, məzəli lətifələri əzbərdən çox bil, bunları mədh etdiyin adama və onunla bir yerdə olanlara danış, şair bunlarsız keçinə bilməz.

Deyiləsi söz çoxdur, lakin bununla kifayətlənirəm. Qalanına Allah kömək edər.






# MUSİQİŞÜNASLIQ QAYDALARI HAQQINDA

Ey oğul, bil, əgər çalğıçı olsan, xoştəbiət, şənxasiyyət ol, imkanına görə həmişə təmiz geyin, xoş ətir vur, şirindil ol. Bir evə mütrib[159] kimi dəvət olunsan, üzünü turşudub, qaşqabağını tökmə, həmişə ağır havalar və ya yüngül havalar çalma. Eyni cür hava çalmaq yaxşı deyil, çünki adamların təbiəti eyni olmaz. Məclislər də müxtəlifdir. Ona görə musiqidə usta və hal əhli olanlar bu sənətdə müəyyən qayda düzəltmişlər: əvvəlcə Xosrovani[160] dəstgahını[161] çalarlar; bu, şah məclisləri üçündür. Ondan sonra ağır havalar gəlir. Bu havalarda

avazla oxumaq olar, onlara „rah“[162] adı vermişlər. Bu rahlar qocaların və ağır təbiətli adamların ruhuna yaxın olar. Deməli, bu ağır havaları onlar üçün yaratmışlar. Lakin insanların yalnız qocalardan və ağır təbiətli adamlardan ibarət olmadığını gördükdə demişlər ki: „yaxşı, bunları qocalar üçün yazdıq, indi də gəlin cavanlar üçün bir şey yaradaq“. Sonra axtarmağa başladılar, yüngül səpgidə yazılmış şeirlərə havalar qoşdular və onları „xəfif“ adlandırdılar ki, hər ağır “rah”dan sonra bir yüngül “xəfif” çalınsın. Dedilər: „Qoy hər çalğı məclisində həm qocalara, həm də cavanlara bir şey nəsib olsun“. Sonra uşaqlar, qadınlar və zərif qəlbli kişilər də razı qalsın deyə, tərənələr yaratmağa başladılar ki, onlar da zövq alıb ləzzət çəksinlər. Tərənə vəznindən daha incə və ruhoxşayan ahəng yoxdur. Deməli, həmişə eyni növlü hava çalma və oxuma. Mən deyən kimi et ki, hamı səndən razı qalsın.

Hansı məclisdə otursan, fikir ver: dinləyicilərin sifəti qızarmış və pörtmüş olsa, daha çox bəmdə çal, sifətlər sarı və solğun olsa, zilə keç, qarayanız, arıq və göyərmiş kimi görünsələr, orta pərdəyə vur, ağbəniz, şişman və tərləyən olsa, bəmə tut, çünki Rum alimləri və musiqişünasları bu sənəti dörd cür təbiətli adamlar üçün yaratmış, bu dörd pərdəni də həmin dörd cür təbiətli adamlar üçün düzəltmişlər.

Doğrudur, mənim indi dediklərimin mütriblik qayda-qanuna dəxli yoxdur, lakin istədim onlardan da xəbərin olsun.

Bir də, harada olsan, çalış çoxlu əhvalatlar danış, zarafatlar edib lətifələr söylə, qoy mütriblik işin bir az yüngülləşsin. Əgər xanəndəlik etsən və şeir yazmaq bacarsan, öz şeirinə məftun olub onu hər yerdə oxuma. Sənin öz şeirindən xoşun gəlsə də, başqalarının xoşu gəlməyə bilər. Bir də ki, xanəndələr şairlər ravisidir, öz şeirlərinin ravisi deyil. Əgər nərdbaz olsan, mütribliyə getdikdə iki nərd oynayan görsən, mütribliyi buraxıb, nərd öyrətməyə başlama, şahmata da qurşanma, bil ki, səni mütribliyə çağırıblar, qumarbazlığa



yox. Bir də, öyrəndiyin havanı yaxşı yadında saxla, qəzəl və təranənin ahəngini pozma, elə etmə ki, hava bir yerdə oxunsun, mizrab başqa yerə vurulsun. Birinə aşiq olsan, həmişə öz halına müvafiq oxuma, bu sənin xoşuna gələ bilər, başqalarına yox. Hər havanı müxtəlif mənalarda oxu, məsələn, fəraq, vüsal, məzəmmət, məlamət, rədd, narazılıq, razılıq, vəfa, cəfa, hədiyyə, bəxşiş, xələt, şadlıq və şikayətə aid çoxlu şeir və qəzəl əzbərlə, vaxta, fəslə münasib, məsələn, bahar, payız, qış, yay kimi şeirlər öyrən. Nə vaxt, necə oxumaq lazım olduğunu bil. Baharda xəzandan, payızda bahardan, yayda qışdan, qışda yaydan oxuma, hər qəzəlin öz vaxtını bil. Misilsiz musiqi ustadı olsan da, yenə məclisdə oturanların kim olduğuna diqqət yetir. Onlar mütribliyin (musiqinin) incəliklərinə bələd olan əyani, əşraf və dünyagörmüş qocalardan ibarətdirsə, mütriblik et, yaxşı "rah"lar çal, gözəl havalar oxu, lakin əsasən, yüngül havalar çal, elə qəzəllər oxu ki, o, qadın və ya şərabı tərənnüm etsin. Ordu başçıları, cəngavərlər olsa, müharibə etməyi, qan tökməyi və cəngavərliyi təriфləyən Mavəraənnəhr[163] dübeytlərini oxu. Həmişə Xosrovani havaları çalıb camaatın ürəyini çəkmə. Mütriblik şərti o deyil ki, hökmən əvvəlcə rast pərdəsində bir şey çalasan, sonra qayda üzrə bütün pərdələrdə (Badə[164], İraq[165], Üşşaq[166], Zirəfkəndə[167], Busəlik[168], İsfəhani[169], Nəva[170] və Bəstə[171] pərdələrində) çalıb mütriblik şərtlərini yerinə yetirənə qədər camaat məst olub dağılışar.

Fikir ver, gör kim hansı "rah"ı istəyir, hansı havanı sevir, qədəh ona çatanda sən də onun istədiyini çal ki, o da sənə sən istədiyini versin. Musiqişünaslıqda ən böyük məharət dinləyicinin arzu və istəyini, zövq və diləyini təmin etməkdir.

Məclislərdə olarkən şərab içməkdə ehtiyatlı ol, badənin böyüyündən yapışma. Az şərab iç ki, çox pul qazanasan. Elə ki pul qazandın, özünü vur şəraba. Hava üstündə məstlərlə öcəşmə, çətin olsa da, oxu, narahat olma, qoy nə deyirlər desinlər. Elə ki camaat kefləndi, öz həmkarlarınla yarışa qoşulma, deyişməkdən pul çıxmaz. Çalış davakar mütrib olma, sənin davakarlığın



mütriblik haqqını batırar, baş-gözünü əzişdirərlər, çörək ağacın qırılar, evə paltarıcırıq getməli olarsan. Çalğıçılar məstlərin muzdurudurlar, bilirsən ki, davakar muzdura muzd verməzlər. Əgər məclisdə biri səni tərifləsə, ona minnətdarlıq et ki, başqaları da tərifləsin. Nə qədər ki keflənməyiblər, quru tərifləyərlər, elə ki kefləndilər, tərifdən sonra pul da verərlər.

Evə dağılışanda sərxoşlar adətləri üzrə səndən əl çəkməyib bir "rah" və ya "təranə" çaldırmaq istəsələr, əsəbiləşmə, məqsədinə çatana qədər yorulmadan çal və oxu. Mütribin ən yaxşı dostu məstlərlə rəftarındakı səbirdir, səbiri olmasa, gəliri də olmaz. Bir də deyiblər ki, çalğıçı gərək eşitməsin, görmək lazım olmayan şeyi görməsin. Bir yerdə olarkən gördüyü, eşitdiyi şeyləri başqa yerdə danışmasın. Belə mütribin müştərisi həmişə başı altında olar. Yaxşısını isə Allah bilir.






# ŞAHA XİDMƏT ETMƏK HAQQINDA

Bil, ey oğul, əgər təsadüf gətirib səni şah sarayına salsa, sən ona xidmət etməli olsan və şah səninlə yaxınlıq etmək istəsə, qoy bu sənin gözünü tutub başını gicəlləndirməsin, ondan uzaqlaşmağa çalış, lakin xidmətdən qaçma, çünki şaha yaxınlaşmağın nəticəsi uzaqlaşmaq, xidmətin nəticəsi isə yaxınlaşmaq olar. Şah hansı gün sənə desə ki, arxayın ol, sənə zaval yoxdur, sən o gün daha çox qorx. Sən şahın hesabına piylənib yağlanıbsansa, demək, o səni kəsmək üçün belə kökəltmişdir.

Nə qədər əziz və yaxın olsan, yenə də ehtiyatını əldən vermə, öz yerini bil, ağanın xoşuna gələn şeylər danış və onunla mübahisəyə girişmə. Bir məsəldə deyilmişdir: "Şahla mübahisə edib inad göstərən əcəlindən tez ölər", çünki xəncər tiyəsindən yapışmaq axmaqlara yaraşar.

Öz ağana yaxşılıqdan başqa yol göstərmə ki, sənə yaxşılıq etsin, pislik etsən, sənə də pislik edər.

Hekayət. Deyirlər ki, Gəncə şahı Fəzlun Məmlanın[172] dövründə onun adlı-sanlı deyləmli bir məşvərətçisi var imiş. Fəzlun məmləkətin böyük adamlarından kimi bir günah üstündə tutub zindana salırmışsa, həmin deyləmli müşavir o saat şaha deyirmiş: "Azadları incitmə, incitdinmi, boynunu vur".

Ölkənin böyük adamlarından bir neçəsi həmin deyləmlinin məşvərəti nəticəsində həlak olmuşdu. Təsadüfən, bir dəfə həmin deyləmli müşavir özü bir səhv buraxdı, şah əmr etdi, onu tutub zindana saldılar. Deyləmli bir adam göndərdi ki, "filan qədər mal verərəm, məni öldürmə". Fəzlun Məmlan dedi: Səndən öyrənmişəm ki, "Azadları incitmə, incitdinmi, başını vur".

Deyləmli müşavir pis şey öyrətmək üstündə öz canını qurban verdi.

Yaxşılıq edib danlanmağı pislik edib təriflənməkdən daha üstün tuturam. Heç vaxt var-dövlətlə qürrələnmə, şah xidmətində də əvvəlcə ad-san axtar. Ad-san oldumu, dövlət onun ardınca öz ayağı ilə qaça-qaça gələr. Şaha xidmət etməyin şərəfi dövlətli olmaqdan çox yüksəkdir. Sən şah xidmətində kökəlmiş olsan da, özünü arıq göstər, arxayınçılıq olar. Görmürsənmi, qoyun arıq olanda kəsilməyəcəyindən arxayın olur, heç kəs onu kəsməyə çalışmır, kökələndə isə hamı onu yemək tamahına düşür?!



Dirəm xatirinə ağanı satan olma. Şah qulluğunda qazanılan dirhəm gül kimi bir şeydir: ətri məşhur, lətif, əziz olar, amma gül kimi ömrü də az olar. Fərqi orasındadır ki, şah xidmətində əldə edilmiş pulu gül

kimi gizlətmək olmaz, şah xidmətində toplanmış hər dirhəm qalxmış tozdan da tez dağılıb gedər.

Şahlar şahına xidmət etmək ən gözəl sərmayədir, qazanc eşqi ilə sərmayəni əldən vermə. Sərmayə yerində olduqca həmişə qazanca ümid bəsləmək olar, sərmayə əldən çıxdımı, bütün qazanc qapıları bağlanır.

Kim pulu canından əziz tutsa, o, tezliklə əlillikdən zəlilliyə düşər. Şərəf var ikən mal toplamağa meyl göstərənlər topladıqları maldan başqalarına da verib onların ağzını bağlamasalar, məhv olarlar.

Şah xidmətində yüksəlib böyük mənsəb sahibi olsan, öz ağana xəyanət etmə, yoxsa bədbəxt olarsan, çünki bir böyük bir kiçiyi böyük mənsəbə çatdırsa və kiçik bunun müqabilində öz ağasına xəyanət etsə, bu, Allah-Taalanın həmin böyüklüyü ondan alacağına dəlalət edər, əks halda o bədbəxt yaxşılıq qarşısında ağasına pislik etməzdi.

Hekayət. Əmir Fəzlun Əbussüvar[173] Hacib Əbulyüsrü[174] Bərdə şəhərinə sipəhsalar göndərmək istərkən Əbulyüsr dedi: “Qış gəlməyincə getmərəm, Bərdənin iqlimi çox pisdir, xüsusilə yayda”. Bu barədə uzun söhbət getdi. Əmir Fəzlun dedi: “Nə üçün belə düşünürsən? Əcəl çatmamış heç kəs ölməmiş və ölməyəcək də”. Əbulyüsr dedi: “Şah buyuran doğrudur, heç kəs əcəli çatmamış ölməz, lakin əcəli çatmamış adam yayda Bərdəyə də getməz”.

Bir də, dost və düşmənlərin işindən qafil olma, sənin xeyir və zərərin dost və düşmənə çatmalıdır. Böyüklüyün hüsnü orasındadır ki, dosta xeyir, düşmənə zərər verə biləsən. Adam böyük mənsəbə çatdıqda, barsız ağac kimi olmamalı, böyüklüyündən yalnız dövlət əldə etmək üçün istifadə etməməlidir. Əgər o, heç kəsə xeyir, ya zərər verməsə, yüz min dinarı olan yəhudi kimi bir şeyə oxşar, heç kəsə xeyir ya zərəri olmadığı üçün ən alçaq adam hesab edilər. Deməli, sənin mənafeyin öz arzu və istəklərini yerinə yetirmək və alicənablıq göstərib xalqa kömək etməkdən ibarətdir.



Peyğəmbərdən (s.) eşidiblər, deyib ki: "İnsanların ən yaxşısı insanlara xeyir verəndir".

Hakimiyyəti sona çatmaqda olan ağaya qulluğa girməyə can atma, qocalmış hökmdarın dövləti ətrafına dolanma, bir qədər ömrü qalmış olsa da, cavanlara nisbətən, xalq onu ölümə daha yaxın hesab edər. Bir də az qoca ola bilər ki, ömür ona vəfa etsin.

Həmişə şah qulluğunda xidmətdə qalmaq istəyirsənsə, Abbasın[175] öz oğlu Abdullaha[176] dediyi kimi ol. O, Abdullaha demişdir: "Bil, ey oğul, bu kişi, yəni Ömər Xəttab (Allah ondan razı olsun) sənə öz yanında iş vermiş və hamıdan çox sənə etibar etmişdir, indi istəyirsən düşmənlərin sənə üstün gəlməsinlər, gərək beş şərtə əməl edəsən ki, arxayın olasan: birincisi, gərək səndən yalan eşitməyə; ikincisi, onun yanında heç kəsə eyib tutmayasan; üçüncüsü, ona xəyanət etməyəsən, dördüncüsü; onun əmrindən çıxmayasan; beşincisi, onun sirrini heç kəsə açmayasan. Beləliklə, camaatın əlindən xilas olar və bu beş xasiyyətlə məqsədə çatarsan".

Bir də, öz ağanın qulluğunda səhlənkarlıq etmə, səhv etsən, təqsirini boynuna al, özünü elə göstər ki, nadanlıq üzündən edibsən. Qoy inansın ki, sən bunu qəsdən etməmisən, səhvən olubdur, burada tərbiyəsizlik və tabe olmamaq məsələsi yoxdur, çünki bilməməzliyi sənə günah hesab etməzlər, tərbiyəsizliyi və itaətsizliyi isə günah sayarlar. Həmişə hər şeyi deyilməmiş yerinə yetir, başqasının görmək istədiyi işi də çalış sən gör. Elə etmək lazımdır ki, səni həmişə öz işinlə məşğul görsünlər. Həmişə xidmətdə hazır ol, şah kimi axtarsa, səni görsün. Şahların adəti budur ki, həmişə özlərindən aşağıdakıları yoxlayarlar. Əgər səni bir dəfə, iki dəfə, on dəfə çağırsa, gərək həmişə qabağında hazır olasan və sənin şah sarayında olduğun həmişə gözə çarpsın, onda böyük işləri də sənə etibar edər, necə ki, Qəməri Gürgani[177] deyir:

Qarşısında söz demək, qorxulu, böyük xətər,
Lakin qorxu çəkmədən, dənizdən çıxmır göhər!

Kiçiklik zəhmətini boynuna götürməsən, böyüklük rahatlığına çatmazsan. Görmürsənmi, sürmə yarpağı çürüməyincə, sürmə əmələ

gələ bilmir. Cah-cəlallı Allah yer üzünün böyüyünü elə yaratmışdır ki, hamı ona xidmət etməyə möhtacdır.

Şah qarşısında heç kəsə həsəd apardığını bildirmə, sonralar biri haqqında doğru da danışsan, inanmaz, həsəd hesab edər. Həmişə şahın qəzəbindən qorx. İki şeyə xor baxmaq olmaz: birincisi, şahın qəzəbinə, ikincisi, alimlərin məsləhətinə. Kim bu iki şeyə xor baxsa, tezliklə xar olur. Şah xidmətçiləri içərisində olmağın şərti bunlardır.

Lakin iş gətirsə, bu dərəcədən keçib daha yüksək mənsəbə çata bilsən və padşaha nədim[178] olsan, gərək nədimliyin bütün qaydalarına bələd olasan. İndi də nədimliyin şərtlərini demək istəyirəm. Allah köməyin olsun.






# NƏDİMLİK QAYDALARI HAQQINDA

Bil, ey oğul, əgər bir padşah sənə nədimlik versə, səndə nədimliyə xas olan xüsusiyyətlər yoxsa, qəbul etmə, çünki şaha nədimlik edən adamda bir neçə xüsusiyyət olmalıdır ki, o, ağasının məclisini zinətləndirə bilməsə də, heç olmasa, korlamasın. Əvvəl, gərək bütün beş hiss üzvü onun ixtiyarında olsun; ikincisi, görünüşü elə olmalıdır ki, adam ona baxanda ürəyi bulanmasın, beləliklə, ağanın da ona baxmaqdan zəhləsi getməsin; üçüncüsü,

ərəbcə, farsca yazmağı yaxşı bilməlidir, əgər təklikdə şaha bir şey yazıb oxumaq lazım gəlsə və katib olmayanda şah sənə bir məktub oxuyub-yazmağı əmr etsə, aciz qalmayasan; dördüncüsü, nədim şair olmasa, yaxşı-pis şeir yaza bilməsə də, nəzm qaydaları ilə tanış olmalı, ərəbcə, farsca şeirlər əzbərləməlidir ki, hərdən bir ağasına şeir lazım olanda şair çağırmağa ehtiyac qalmasın, ya özündən desin, ya başqasının şeirini oxusun.

Eləcə də tibb və nücum elmindən məlumatı olmalıdır. Əgər bu barədə söhbət düşsə, ya bunlara ehtiyac olsa, həkim ya münəccim çağırmaq lazım gəlməsin, sən bildiklərindən danışıb nədimlik şərtini yerinə yetirəsən. Belə olduqda, o padşahın sənə qarşı olan etimadı artar, sənin xidmətindən istifadə etməyə daha çox rəğbət göstərər.

Sonra, nədimin musiqidən də başı çıxmalı və bir şey çalmağı bacarmalıdır ki, xəlvətdə şahın könlü musiqi istəsə və çalğıçı yaxında olmasa, bildiyin ilə onun vaxtının xoş keçməsinə səbəb olasan, beləliklə, şahın sənə qarşı olan meylini artırasan.

Bundan əlavə, gərək yaxşı danışıq qabiliyyətin olsun. Çoxlu hekayətlər, lətifələr və qəribə rəvayətlər biləsən, çünki nadir hekayətlər bilməyən nədim yarımçıq hesab edilər. Bir də, gərək nərd və şahmat oynamağı biləsən, lakin qumarbaz olmamalısan. Qumarbaz təbiətli olsan, nədimliyə yaramazsan.

Bütün bu dediklərimdən əlavə, Quranı əzbərdən bilməlisən, onun təfsirindən xəbərdar olmalısan, fiqhdən məlumatın olmalıdır, Peyğəmbərin (s.) hədislərindən bilməlisən ki, şah məclisində bunlar haqqında söhbət düşsə, cavab verə biləsən ki, qazı və fəqih çağırmağa adam göndərilməsin. Bir də, şahların tarixini çox oxumalı, onları yadda saxlamalı və keçmiş şahların xasiyyətləri haqqında elə şeylər deməyi bacarmalısan ki, onlar hökmdarın qəlbinə təsir edə bilsin, ondan Allah bəndələrinə xeyir və fərəh gəlsin.

Bir də, səndə həm ciddilik olmalıdır, həm zarafatcıllıq, lakin gərək onları işlətmək yerini və vaxtını biləsən, ciddilik lazım olan

yerdə zarafat edib, zarafat yerində ciddilik göstərməyəsən. Bildiyin hər hansı bir elmi işlədə bilməsən, onu bilib-bilməməyinin fərqi olmaz.

Bundan başqa, bir də səndə mərdlik və cəngavərlik istedadı olmalıdır, çünki şahlar həmişə eyş-işrətlə məşğul olmurlar. Qoçaqlıq vaxtı gələndə igidlik göstər. Səndə o qədər güc olmalıdır ki, bir və ya iki adamın öhdəsindən gələ biləsən. Allah eləməsin, əgər xəlvətdə və ya kef məclisində biri şaha xəyanət fikrinə düşsə, ya hadisələrdən hadisə törəsə, sən insanpərvərlik və mərdlik şərtini yerinə yetirə biləsən ki, vəlinemətin sənin vasitənlə xilas ola bilsin. Əgər öldürülsən, onun ağalıq və nemət haqqını ödəmiş, yaxşı adla bu dünyadan getmiş olarsan. Sənin övladlarının həmin ağanın boyunda böyük haqları olar, salamat qalsan, bütün ömrün boyu yaxşı ad və xoş güzəran qazanmış olarsan.

Gərək bu dediyim xüsusiyyətlər səndə olsun ki, şah nədimliyinə layiq görüləsən. Sən yalnız çörək yemək, şərab içmək və lətifə danışmağı bacarırsansa, bu, nədimlik üçün kifayət deyil. Nədim olmaq istəyirsənsə, tədbir gör ki, o vəzifə axırda başına bəla açmasın.

Həmişə fikrin öz ağanda olsun, şah məclisində onun xidmətçilərinə nəzər salma, saqi sənə şey verdikdə onun üzünə baxma, başın aşağı olsun, meyi içəndə üzünə baxmadan qədəhi saqiyə qaytar, qoy sənin haqqında şahın ürəyinə bir şey gəlməsin. Özünü saxla ki, fələkət baş verməsin.

Hekayət. Eşitmişəm, Məmun[179] qazı Əbdülməlik Ükbərini[180] öz xüsusi nədimi edir. Əbdülməlik çox şərab içən olduğundan qazılıqdan çıxarılmışdı. Bir gün məclisdə bir qulam haman qazı Əbdülməlikə şərab verir. O, şərab qədəhini alarkən qulama nəzər salır və bir gözünü bir az qıyaraq ona göz vurur. Bunu Məmun görür. Əbdülməlik Məmunun gördüyünü sezdiyindən gözünü həmin yarıyumulu halda saxlayır. Bir saat keçdikdən sonra Məmun qəsdən Əbdülməlikdən soruşur: "Ya qazı, gözünə nə olmuşdur?" Qazı Əbdülməlik deyir: "Heç bilmirəm nə oldu, bayaq gözüm belə qıyıldı".

Ondan sonra səfərdə, şəhərdə, gizlində, açıqda, evdə, məclisdə harada oldusa, heç vaxt gözünü açmadı. Beləliklə, Məmunun ürəyində ona qarşı olan şübhə aradan qalxdı.

Bax, nədim belə olar.






# KATİBLİYİN QAYDALARI VƏ ŞƏRTLƏRİ HAQQINDA

Bil, ey oğul, katib olsan, gərək qələmin qüdrətli, xəttin gözəl olsun. Xəttini daim gözəlləşdirməyə çalış, ona görə çox yazmağı adət et, xəttatlıqda mahir ol, çünki:

Hekayət. Eşitmişəm, Sahib İsmayıl Əbbad şənbə günü divanxanada nə isə yazırmış. Üzünü katiblərə tərəf çevirib deyir: "Hər şənbə günü mən öz katibliyimdə nöqsan görürəm, çünki cümə günü divanxanaya gəlib bir şey yazmıram. Bir gün işləməməyin təsirini özümdə hiss edirəm".

Ona görə həmişə bir şey yazmaqla məşğul ol, xətlər iri, enli, aydın olmalı, yuxarıları bir-birinə bitişməlidir. Çox məsələdən danışılan, geniş məzmunlu məktublarda uzunçuluq etmə, necə deyiblər:

Hikmətə bax, gör nə demiş atalar:
"Qısa sözdə olar dərin mənalar!"

Öz məktubunu istiarələr, məsəllər, Quran ayələri, Peyğəmbər (s.) hədisləri ilə bəzə. Məktubu farsca yazsan, xalqın başa düşmədiyi şəkildə yazma, xüsusilə, məlum olmayan söz işlətmə. Belə yazmaqdansa, heç yazmamaq yaxşıdır. Ərəb məktublarının məziyyətləri və onu necə yazmaq qaydaları məlumdur. Ərəb məktublarında səc[181] böyük hünər sayılır və çox yaxşı xüsusiyyət hesab edilir, xoşa gəlir, farsca yazıda səc xoşa gəlməz, yazmasan daha yaxşıdır. Lakin hər nə yazsan, ifadəli, şirin və qısa yaz. Katib gərək dərrakəli olsun, katiblik sirrini bilsin, rəmzli sözləri tez tapsın.

Hekayət. Belə eşitmişəm ki, sənin baban Soltan Mahmud (Allah ona rəhmət eləsin), Bağdad xəlifəsinə bir məktub göndərib deyir: "Gərək Məvəraənnəhri mənə bağışlayasan və o barədə mənə mənşur[182] göndərəsən, mən də o mənşuru camaata göstərəm, ya qılıncla ölkəni alam və ya əmrlə rəiyyət mənə tabe olsun".

Bağdad xəlifəsi cavabında yazır: "Bütün islam ölkəsində onlardan daha dindarı və mütisi yoxdur. Allah eləməsin, mən elə bir iş görəm. Əgər sən mənim fərmanım olmadan onlara hücum etsən, bütün dünyanı sənin əleyhinə qaldıraram".

Soltan Mahmud bu sözlərdən pərt olub elçiyə deyir: "Xəlifəyə de ki, o nə danışır? Məgər mən Əbu Müslimdən[183] əskiyəm? İndi ki, iş belə oldu, min fil ilə gəlib xilafət xanimanını fil ayaqları altında viran edəcəyəm. Darülxilafənin[184] torpağını fil dalında Qəznəyə daşıtdıracağam". Hikmətə bax, gör nə demiş atalar: "Qısa sözdə olar dərin mənalar!"

Öz filləri ilə çox böyük hədə-qorxu gəlir. Elçi gedir, bir neçə müddətdən sonra qayıdıb gəlir. Soltan Mahmud taxta oturur, hacıblər, qulamlar səf çəkib dururlar, qızmış filləri saray önündə sıraya qoyurlar, qoşunları nizamla düzürlər, sonra elçini çağırırlar. Elçi gəlir, əl böyüklükdə,

mənsuri[185] kağıza burulmuş, möhürlənmiş məktubu Soltan Mahmudun qabağına qoyur və deyir: "Əmirəlmöminin deyir, naməni oxudum, cəlalını eşitdim, sənin cavabın bu məktubda yazılmışdır". Divanxananın yazı işlərinə baxan xacə Bunəsr Müşkan[186] əlini uzadıb məktubu götürür, açıb oxumaq istərkən görür, onun əvvəlində yazılmışdır: "Bismillahi-rrəhmanür-rəhim", bir az ara verildikdən sonra yazılmışdır: Əlif, Lam, Mim "Məgər", məktubun sonunda isə bu sözlər vardır: "Şükür olsun Allaha. Peyğəmbərimiz Muhammədə və onun ailəsinə salavat!"

Başqa heç bir şey yazılmamışdı. Soltan Mahmud bütün adlı-sanlı katibləri ilə birlikdə bu rəmzli sözün nə demək olduğu haqqında fikirləşməyə başladı. Quranda "Məgər" sözü olan bütün ayələri nəzərdən keçirdilər və təfsir etdilər. Soltan Mahmudun cavabını yoza bilmədilər. Axırda hələ cavan olduğu üçün oturmaq ixtiyarı olmayan və nədimlər arasında ayaq üstə duran Əbubəkr Quhistani[187] deyir: "Şah sağ olsun, şah öz filləri ilə ona hədə-qorxu gəldiyindən o da şahın cavabında bu surəyə işarə vurmuşdur:" Məgər bilmirsən, Allah fil sahiblərinə nə etdi?", yəni fillərin cavabını Allah özü verər[188].

Eşitmişəm ki, Soltan Mahmudun halı pozulur, uzun müddət özünə gələ bilmir, ağlayıb ah-zar edir, dindar olduğundan Əmirəlmöminindən çoxlu üzr istəyir. Bu barədə danışsaq, uzun çəkər.

O, Əbubəkr Quhistaniyə bahalı xələt bağışlayır, ona nədimlər arasında oturmaq ixtiyarı verir, mənsəbini artırır. Bu nədim bircə sözlə iki böyük dərəcə alır.

Hekayət. Bir də belə eşitmişəm ki, Samanilər dövründə Əmir Bu-Əli Simcur[189] Nişaburda oturur, "mən Xorasan Əmir Sipahsalarına tabeyəm" - deyir, lakin saraya getmirmiş. Samanilər sülaləsinin axır günləri olduğundan onlar o qədər də qüvvətli deyildilər, bu səbəbdən də Bu-Əlini zorla məcbur edə bilməyib, çarəsizlikdən yalnız xütbə oxutmaq, pul və hədiyyə almaqla kifayətləndilər. Bu zaman Əbdülcabbar Xocani Xocanda xətib idi. O, şəriət qanunlarını yaxşı bilirdi, gözəl yazıçı, mahir katib, hər şeydən başı çıxan, çox bacarıqlı və usta bir adam idi. Əmir Bu-Əli onu Xocandan gətirib sarayda özünə katib edir, böyük ixtiyar və tam müstəqillik verir, heç bir işi onun məsləhəti olmadan görmür, çünki o, çox ağıllı bir adam idi.

Əhməd ibn Rafi-əl-Yəqubi də Əmiri-Xorasanın[190] saray katibi idi. O da çox alim, adlı-sanlı bir adam idi. Mavəraənnəhrin bütün işləri ona baxırdı. Əhməd Rafi, Əbdülcabbarla tez-tez məktublaşır, dostluq edirmiş. Bir gün Xorasan Əmirinin vəziri Xorasan hökmdarına deyir: "Əbdülcabbar Xocani Bu-Əli Simcurun katibi olmasa, Bu-Əlini tez ələ keçirmək olar. Bu-Əlinin dikbaşlığının səbəbi Əbdülcabbarın iş bacarmasıdır. Bu-Əliyə məktub yazıb demək lazımdır: "Əgər mənə itaət edirsənsə və mənim nökərimsənsə, bu məktub sənə çatan kimi dərhal Əbdülcabbarın başını bu qasidlə bizim qulluğumuza göndər, biz də bilək ki, sən bizə itaət edirsən. Bizə məlumdur ki, sən hər nə edirsənsə, onun məşvərəti ilə edirsən. Əks halda Xorasanın əmiri olan mən şəxsən özüm gələcəyəm. Başının çarəsini qıl".

Bu tədbiri tökdükdən sonra deyirlər, gərək bu məktub hökmən Əhməd Rafinin əli ilə yazılsın, çünki Əhməd Rafi, Əbdülcabbarın dostudur, mütləq bir adam göndərib xəbər çatdıra bilər və Əbdülcabbar qaçar.

Əmiri-Xorasan Əhməd Rafini çağırır, Bu-Əliyə həmin məzmunda məktub yazmasını əmr edir və deyir: "Məktubu yazdıqdan sonra üç gecə-gündüz mənim evimdən xaricə çıxmamalısan, sənin və mənim adamlarımdan heç kəs bu üç gündə səni görməməlidir. Əbdülcabbar sənin dostundur, ələ keçməsə, biləcəyəm ki, sən ona xəbər veribsən, bu sirri ona sən açıbsan".

Əhməd Rafinin nitqi quruyur, ağlayır və öz-özünə deyir: "Kaş heç mən katib olmayaydım, belə fazil və alim bir dost mənim yazım ilə ölməyəydi... Heç bilmirəm nə edim". Axırda bu ayə yadına düşür: "Əgər öldürsələr, assalar...".

Sonra öz-özünə deyir: "Hərçənd o bu rəmzi bilmir və bunun nə demək olduğunu başa düşməz, lakin heç olmasa mən dostluq şərtini yerinə yetirmiş olaram".

Məktubu qurtarıb ünvanını yazdıqdan sonra onun haşiyəsində bir tərəfdə nazik qələmlə bir "əlif", o biri tərəfdə isə bir "nun" hərfi yazır, yəni "ən yukəttəlu".

Məktubu Xorasan əmirinə göstərirlər. O, ünvanı nəzərdən keçirir, oxuduqdan sonra möhürləyib öz xüsusi qasidlərinə verir və

məzmunundan onu xəbərdar etmir. Ona deyir: "Get bu məktubu Bu-Əli Simcura ver, nə versə, al gətir".

Əhməd Rafi üç gecə-gündüz öz evinə getmir, ürəyindən qanlar axır.

Qasid Nişabura çatdıqda Əmir Bu-Əlinin yanına gedib məktubu ona verir. Rəsmə görə, Bu-Əli qalxıb məktubu alır, öpüb gözünün üstünə qoyur və deyir: "Xorasan əmirinin kefi necədir?" Əbdülcabbar xətib də orada oturubmuş, Əmir məktubu ona verib deyir: "Möhürünü aç, fərmanın nə olduğunu oxu!" Əbdülcabbar məktubu götürüb möhürü açmazdan əvvəl onun ünvanına nəzər salır, bir tərəfdə "əlif", o biri tərəfdə isə "nun" görür, dərhal ayə yadına düşür: "ən yükəttəlu...", başa düşür ki, məktub onun ölümü haqqındadır. O saat məktubu yerə qoyub burnundan tutur, guya burnundan qan açılmışdır, sonra deyir: "Gedim, burnumu yuyum, gəlim", eləcə də əli burnunda Bu-Əlinin yanından çıxır və gedib bir yerdə gizlənir.

Bir az gözlədikdən sonra Bu-Əli deyir: "Xacəni çağırın". Hər yeri axtarırlar, lakin tapmırlar. Deyirlər: "Ata minməmişdi, piyada gedibdir, ancaq evlərinə getməyib. Heç kəs bilmir hara gedib". Bu-Əli deyir: „Başqa katib çağırın". Başqasını çağırırlar, məktubu qasidin yanında oxuyurlar. Məsələ aydın olduqda hamı təəccüb edir ki, məktubda nə yazıldığını kim ona (Əbdülcabbara) xəbər vermişdir?!

Bu-Əli ürəyində sevinsə də, qasidin yanında özünü o yerə qoymur. Sonra şəhərdə car çəkdirib Əbdülcabbarı axtartdırır. Əbdülcabbar xəlvətcə bir adam göndərib harada gizləndiyini xəbər verir. Bu Əli sevinib əmr edir: „Olduğun yerdən tərpənmə".

Bir neçə gün keçdikdən sonra qasidə yaxşı ənam verib yola salır və məktub yazıb əhvalatın necə olduğunu təsvir edir və and içir ki, bizim bu işdən xəbərimiz olmayıb.

Qasid gəlib əhvalatı danışdıqda, Əmiri-Xorasan bu işə heyran qalır. Sonra möhürlənmiş fərman göndərib deyir ki, əgər bu işdən necə xəbər tutduğunu desə, onu bağışlayacağam. Əhməd Rafi deyir: „Mənə aman versən, mən deyərəm". Əmiri-Xorasan ona aman verir, o da əhvalatı danışır. Əmiri-Xorasan Əbdülcabbarı bağışlayıb haman məktubu istəyir ki, rəmzin nədən ibarət olduğunu görsün. Məktubu geri gətirirlər, baxır, Əhməd Rafinin dediyi kimi olduğunu görür və hamı onun ağlına təəccüb edir.

Katiblik şərtlərindən biri də budur ki, gərək həmişə ağanın əli altında olasan. Tez yadda saxlayan, tez başa düşən, müşahidəçi ol, hər işin (tapşırılan və tapşırılmayan) qeydini apar, divanxana camaatının əhval-ruhiyyəsini öyrən, bütün məmurların işlərindən xəbər tut və topla, bütün vəziyyət sənə bəlli olsun, həmişə lazım olmasa da, bir gün gələr, lazım olar. Lakin zəruriyyət olmadan bu sirri heç kəsə açma, açıqda vəzirin işi ilə maraqlanma, amma gizlində onun bütün işlərindən xəbərin olsun. Hesab aparmaqda usta ol, məxaric, təsərrüfat işləri, məktublar və qəbzlər yazmağı unutma, bunlar hamısı katib üçün məharət hesab edilir. Lakin katib üçün ən böyük məharət dilini saxlaya bilməsi, ağasının sirrini başqasına verməməsi, başqa məsələlərdən ağasını agah etməsidir.

Əgər xəttatlıqda qadir, başqalarının xəttini oxşatmaqda mahir olsan, bu, çox gözəl sənətdir. Lakin bunu hər adama göstərmə ki, saxta xətt düzəltməkdə şöhrət tapmayasan və ağanda şübhə oyatmayasan. Biri başqasının xəttini oxşatsa, tapmasalar, onu səndən görməsinlər. Kiçik şeylər üçün saxta kağız düzəltmə, bir gün böyük qazanc üçün lazım olsa və düzəltsən, qoy heç kəsin gümanı sənə getməsin.

Deyildiyinə görə, mahir və fazil katiblər xətt oxşatmaqla çox bilikli və təcrübəli vəzirləri məhv etmişlər.

Hekayət. Rəbi ibn Mütəhhər əl-Qəsri[191] adlı-sanlı və bilikli bir katib idi. Sahibin[192] divanxanasında katiblik edərdi. Bir dəfə saxta sənəd düzəltdi və bu, Sahibin qulağına çatdı. Sahib heyrətə gəlib dedi: „Belə adamı öldürmək heyifdir, çünki çox alim və kamil adamdır, eləsini tapmaq olmaz“. Ona nə edəcəyi haqqında fikirləşməyə başladı. Təsadüfən bu aralıqda Sahib xəstələndi, hamı ona dəyməyə getdi. Rəbi ibn Mütəhhər də gəlib onun qabağında oturdu, rəsm olduğu üçün Sahibdən soruşdu: „Nə şərabı içirsən?“ Sahib dedi: „filan şərabı“. Soruşdu: „Hansı xörəklərdən yeyirsən?“ Dedi: „Sən düzəltdiklərindən“, yəni „müzəvvəri“[193]. Katib anladı ki, Sahib işdən xəbərdardır, dedi: „Ey ağam, and olsun başına, bir də etmərəm“. Sahib dedi: „Tövbə etsən, etdiyini sənə bağışlaram“.



Bil ki, belə saxta sənədləri düzəldə bilmək çox böyük işdir,ondan ehtiyatlı ol. Hər şeyi dərindən özün öyrən, özün düşün, tap. Mən hər məsələ haqqında sənə özümdən tam və bitkin məlumat verə bilmərəm, söz uzanar, məqsəddən uzaq düşərəm. Deməmiş də keçə bilmirəm. Ona görə hər məsələdən işə yaraya biləcək bir neçə söz deyirəm ki, məlumatın olsun. Hər şeydən bir az danışdıq, əgər diqqətlə qulaq asıb fikirləşsən, özün də bir sıra nəticələr çıxardarsan, çünki bir çıraqla çox çıraqları yandırmaq olar.

Bəlkə, Allah-Taala sənə mərhəmət göstərdi, katiblik dərəcəsindən vəzirlik mərtəbəsinə qalxdın, onun üçün vəzirlik şərtlərini də bil, çünki ən şərəfli vəzifə və elm budur.






# ŞAHA VƏZİRLİK ŞƏRTLƏRİ HAQQINDA

Bil ki, ey oğul, iş gətirsə, vəzir olsan, hesabda, müamilədə, alıb verməkdə, rəftarda dəqiq və mahir ol, öz ağana sadiq qal, nemət sahibinin haqqını itirmə, hər şeyi yalnız özün üçün istəmə ki, deyiblər: „Hər şeyi özünə istəyən heç şeysiz qalar“. Hər şeyi sənə verməzlər, versələr də, bir azdan sonra geri istərlər. Əvvəl əl çəksələr də, sonra əl çəkməzlər.

Deməli, ağanın var-dövlətini qoru, yesən, iki barmaqla ye ki, boğazında qalmasın. Lakin məmurların əl-qolunu birdəfəlik bağlama.

Çırpını manqaldan əsirgəyən çiy kabab yeyər. Başqalarına bir dang verməsən, özün bir dirhəm yeyə bilməzsən, yesən də, mərhum olanlar qoymazlar ki, gizli qalsın.

Öz nemət sahibinə qarşı insaflı ol, lakin ondan daha çox ordu və rəiyyətlə insafla dolan, xırdaçılıq etmə, diş dibindən çıxarılan ət qarın doydurmaz. Elə gəlirin zərəri qazancından çox olar. Kiçik vergilər qoşunu düşmən edər, rəiyyəti isə ağana qarşı qaldırmış olarsan.

Vergi toplamaqda məqsədin vəzifə göstərməkdirsə, quruculuqla məşğul ol, ölkənin viran qalmış yerlərini abadlaşdır, həm gəlirin birə on artsın, həm Allah bəndələrinin ruzisini əlindən alma.

Hekayət. Bil, Pars şahlarından birinin vəzirinə acığı tutdu və vəzifədən azad etdi, onun yerinə isə başqasını qoydu. Sonra azad edilmişə dedi: „İxtiyarında olmuş vilayətlərdən birini seç, onu sənə bağışlayım, öz dövlət və xidmətçilərinlə oraya köç“.

Vəzir dedi: „Var-dövlət istəmirəm, olanlarını da hökmdara bağışlayıram, heç bir abad yer də istəmirəm ki, mənə bağışlayasınız, əgər lütf etmək fikriniz varsa, məmləkətinizdən bir uçuq kənd bağışlayın, qalım“. Şah əmr etdi, neçə uçuq kənd istəyirsə, ona versinlər. Şahın bütün məmləkətini axtardılar, ona vermək üçün bir xaraba kənd, bir uçuq daxma tapa bilmədilər. Şaha xəbər verdilər. Vəzir dedi: „Şahım, mən bilirdim ki, mənim ixtiyarımda olan vilayətlərin heç birində bir dənə də xaraba yoxdur, indi ki, idarəçiliyi məndən alırsan, heç olmasa elə adama tapşır ki, ondan da geri almaq istəsən, mən qaytaran kimi sənə qaytara bilsin“.

Bu sözdən sonra şah vəzirdən üzr istədi, ona xələt göndərib vəzirliyi yenidən ona tapşırdı.

Buna görə vəzirlikdə qurucu və ədalətli ol ki, dilin və əlin də uzun olsun. Belə halda həyatın da təhlükədə olmaz.

Ordu sənə qarşı çıxsa, ağan çarəsizlikdən sənin əlini gödəldəcək ki, onun öz əlini gödəltməsinlər. Demək, sən zülmü yalnız özünə deyil, orduya, ağana və özünə etmiş olarsan, o cüzi vergi sənin işində böyük nöqsan yaradar.

Şahı ordu və rəiyyətə yaxşılıq etməyə vadar et, çünki məmləkət rəiyyət və orduya görə, kənd isə kəndliyə görə abad olar. Demək,

abadlığa çalışsan, ölkə dolandırmış olarsan. Bil ki, ölkəni ordu ilə saxlamaq olar, ordunu isə pulla, pulu isə abadlıqla qazanmaq olar, abadlığı isə ədalət və insafla yaratmaq olar. Demək, ədalət və insafı unutmaq olmaz.

Nə qədər sadiq və ehtiyatlı olsan, yenə də həmişə şahdan qorx, hamıdan çox şahdan qorxası bir adam varsa, o da vəzirdir. Şah nə qədər kiçik olsa, sən onu kiçik hesab etmə, şahzadələr ördək balaları timsalındadır, ördək balalarına isə üzmək öyrətməzlər, çox keçməz ki, o sənin yaxşı və pis işlərindən xəbər tutar. Şah həddi-büluğa çatmışsa, iki haldan biri olar: ya ağıllı olacaq, ya axmaq. Ağıllı olsa, sənin xəyanətinə dözə bilməyib üsulluca sənin əlini gödəldəcək, yox, Allah göstərməsin, axmaq və nadan olsa, ən çirkin yolla səni vəzirlikdən qovacaq. Ağıllıdan canını qurtara bilsən də, axmaqdan heç bir vəchlə qurtara bilməzsən. Bir də, şah hara getsə, onu tək buraxma, qoyma düşmənlərin fürsət tapıb sənin haqqında pis sözlər deməyə və onun fikrini dəyişməyə nail olsunlar. Öz nemət sahibinin halından xəbərdar olmağı heç vaxt unutma, elə et ki, onun yaxın adamları sənin casusun olsunlar, onun hər çəkdiyi nəfəsdən xəbər tutasan, vaxtında hər zəhərə qarşı bir padzəhr hazırlayasan.

Ətraf şahların vəziyyətindən xəbərdar ol, elə etmək lazımdır ki, hər hansı bir ölkədə sənin dost və düşmənin bir qurtum su içsə belə, adamları sənə məlumat versinlər, onların məmləkətinin vəziyyətini öz məmləkətin kimi bilməlisən.

Hekayət. Eşitmişəm ki, Fəxrüddövlənin vaxtında Sahib İsmayıl ibn Əbbad iki gün saraya gəlib divanxanada oturmur və heç kəsi qəbul etmir. Xəbərçi bunu Fəxrüddövləyə çatdırır. Fəxrüddövlə bir adam göndərib deyir: „Sənin qanıqara olduğunu eşitdim, əgər ölkədə qanıqaralığa səbəb olan bir şey varsa, de, çarə qılaq, yox, bizdən küsübsənsə, üzr istəyək“. Sahib deyir: „Allah eləməsin, mən hökmdarımdan küsüm, şah öz kefində olsun, məmləkətin işləri də öz qaydasındadır, mənim bu qanıqaralığım da tez keçər“.

Üçüncü gün o, əvvəlki kimi kefi kök, damağı çağ saraya gəlir, Fəxrüddövlə soruşur: „Nə üçün qanın qara idi?“ Deyir: „Mənim casusum Kaşğardan yazmışdı ki, Xaqan filan sərkərdə ilə söhbət etmişdir. Bilmirdim, nə barədə danışıblar, çörək boğazımdan getmirdi,

qanım qaralmışdı ki, nə üçün Türküstan xaqanı Kaşğarda söz danışsın, biz burada bilməyək nə deyibdir. Bu gün başqa bir məktub gəldi, bildim o nə məsələ imiş, ürəyim şad oldu".

Deməli, dünya şahlarının halından xəbər tutub onları öz hökmdarına çatdırmaq lazımdır ki, dost və düşmənindən arxayın olasan, sənin iş bacarığın da meydana çıxa.

İş tapşıranda layiqli adama tapşır, tamah xatirinə dünyanı zalım adamların əlinə vermə. Bozorgmehrdən soruşdular: „İş başında sənin kimi adam ola-ola nə üçün Sasanilərin işi belə xarab oldu?" Dedi: „Çünki böyük işlərdə kiçik xidmətçilərdən kömək gözlədilər, ona görə bu kökə düşdülər". Müflis məmura iş tapşırma, o öz yükünü tapmayınca, sənin yükünü qaldırmayacaq. Görmürsənmi, tarlaları və ləkləri sulayarkən arx yaş olanda su tarlaya və ləklərə tez çatır, çünki nəm torpaq suyu canına çəkib doymayınca, onu tarla və ləklərə çatdırmır.

Deməli, müflis məmur quru arx kimidir, əvvəlcə özünü doyurar, sonra sənin hayına qalar. Bir də, verdiyin əmrlərin qədrini bil, hörmətini saxla, heç kəsə heç vəchlə yol vermə ki, onlara etinasız yanaşsın və ya onun əksini etsin.

Hekayət. Belə eşitmişəm ki, Əbülfəzl Bələmi[194] Səmərqənd divanxanasının rəislərini Səhl Xocəndiyə[195] tapşırır, bu barədə fərman verir, möhür vurur və ona xələt bağışlayır.

Səhl yola çıxan günü vidalaşmaq və fərmanı almaq üçün xacənin sarayına gedir. Vidalaşdıqdan, xeyir-duadan sonra açıq demək istədiyi sözləri deyir, sonra təklikdə qalmağı xahiş edir. Xacə əmr edir onları tək buraxsınlar. Səhl deyir: „Ağamın ömrü uzun olsun, mən gedib işə başlayandan sonra, yəqin ki, buradan fərmanlar gələcək, ağam mənə buyursun görüm, bəndəsi hansı işarəyə görə bilsin ki, bunu yerinə yetirmək lazımdır, onu yox, bilsin ki, edilməli hansıdır, edilməməli hansı". Əbülfəzl Bələmi deyir: „Ey Səhl, yaxşı dedin, bilirəm ki, bunu uzun müddət fikirləşibsən, biz də gərək bu barədə bir az fikirləşək, fikirləşməli məsələlərdə dərhal cavab vermək doğru deyil, bir neçə gün gözlə".

Səhl Xocəndi evinə qayıdır; Süleyman ibn Yəhya əs-Çoğanini Səmərqəndə divan sahibi təyin edir, fərman verib xələt bağışlayır və

yola salır. Səhlə isə əmr edilir ki, bir il evdən dışarı çıxmamalıdır. Səhl bir il evində dustaq oturur. Bir ildən sonra Bələmi onu çağırıb deyir: "Ey Səhl, sən nə vaxt bizim iki fərmanımızı görmüsən ki, biri düz olsun, biri yalan? Biz dünyanın böyüklərini qılınc gücünə müti olmağa məcbur edirik. Bizim əmrimiz bir olur. Bizdə nə axmaqlıq görübsən ki, biz əlimiz altında olanlara əmri yerinə yetirməməyi öyrədək? Yerinə yetirmək istədiyimizi əmr edirik, istəmədiyimizi isə əmr etmirik. Biz heç kəsdən qorxub ehtiyat etmirik, işdə də aciz deyilik. Sənin bizim haqqımızdakı ehtimalın yalnız acizlərin işidir. Sən bizi işdə piyada hesab etdiyin üçün biz də səni vəzifədə piyada saxladıq, ona görə göndərmədik, ürəyində fikirləşməyəsən ki, guya bizim verdiyimiz əmrləri icra etməmək də olar. Kimdə o cürət var ki, bizim fərmanlarımıza əməl etməsin?"

Nə qədər sağsan, yalan fərman vermə, məmurun sənin əmrini yerinə yetirməsə, ona yaxşıca qulaqburması ver; sən öz sağlığında öz imzanı yüksək tutub öz fərmanlarını icra etdirə bilməsən, keçmiş vəzirlərin fərmanları əsasında işlədikləri kimi, səndən sonra heç kəs sənin fərmanın əsasında işləməz.

Demək, şahların və vəzirlərin fərmanları bir, hökmləri qəti olmalıdır ki, əzəmət yerində qalsın, işlər yaxşı getsin.

Şərab içmə, şərab içməkdən səhlənkarlıq, süstlük və günah törəyir. İlahi, bizi əyyaş vəzir və vəkildən özün saxla.

Əgər şah əyyaşlıq etsə, vəzirin də başı şərab içməyə qarışsa, ölkənin işi tez xarab olar, həm özünə, həm ağana xəyanət etmiş olarsan.

Dediyim kimi ol, vəzirlər ölkənin gözətçiləridir, gözətçilərə başqa bir gözətçinin qoyulması yaxşı deyil.

Əgər vəzirlik qismət olmasa, sipəhsalar olsan, sipəhsalarlıq şərtlərini də bil. Allah köməyin olsun.






# SİPƏHSALARLIQ[196] QAYDALARI VƏ ŞƏRTLƏRİ HAQQINDA

Bil, ey oğul, əgər sipəhsalar olsan, ordu və rəiyyətlə yaxşı dolan, həm öz tərəfindən, həm də hökmdarın adından yaxşılıq et. Rəiyyətə qarşı xeyirxah ol, həmişə zəhmli görün, ordu təşkil etməyi və döyüş qaydalarını yaxşı bil. Müharibə baş verdikdə sağ və sol cinaha davadan çıxmış, dünya görmüş, təcrübəli sərkərdələr göndər. Ən şücaətli sərkərdəyə ən yaxşı dəstə ver, ordunun yanlarından və arxadan qorunmasını ona tapşır.

Düşmən nə qədər zəif olsa da, sən ona zəif baxma, gücsüz düşməndən qüvvətli düşmən qədər ehtiyat et. Savaşda çox da

dəliqanlılıq etmə, ordunu bada verərsən, o qədər ağciyər də olma, ordunu məğlubiyyətə uğradarsan.

Silah və atları həmişə yaxşı saxla. Casus yollayıb düşmənin vəziyyətini öyrənməyi unutma, ordu önündə gecə-gündüz kəşfiyyatçı dəstələri göndərməyi yaddan çıxarma. Savaş günü düşmən ordusuna nəzər saldıqda və iki qoşun bir-birinə qarşı durduqda üzügülər ol və öz orduna onların kim olduqlarını, kimlərdən doğulduqlarını, əsil-nəsəblərini xatırlat və de ki, biz bu saat düşmənin atasını yandıracağıq, darmadağın edəcəyik.

Ordunun hamısını birdən irəli aparma, bayraq-bayraq, dəstə-dəstə atlılar göndər. Hərəsinə bir salar[197], bir sərhəng[198] təyin et və de: "Filankəs, sən öz dəstənlə irəli!" Yaxşı vuruşana, düşmən öldürənə, yaralayana, əsir tutana, at gətirənə, baş gətirənə, tərifə layiq xidmət göstərənə artıqlaması ilə hörmət et, maaşını artır, xələt ver. Belə hallarda qənimət dalınca qaçma, alçaq təbiət olma, onda məqsədinə çatarsan. Bunu gördükdə bütün qoşun savaşa qalxar, heç kəs döyüşdən boyun qaçırmaz və arzuladığın qələbəni əldə edərsən. Sənin istəyin bu yolla yerinə yetirilə bilsə, çox gözəl olar. Amma sən dar hövsələ olma, öz yerində dur, davaya girişmə, çünki sipəh salar özü davaya girişsə, iş şuluqlaşa bilər. Lakin davaya girişməli olsan, var gücünlə vuruş, qaçmaq ağlına belə gəlməsin, ölənə qədər vuruş, çünki ölümü gözünə almış adamı yerindən qoparmaq olmaz. Bax ki, Soltan Mahmudun Xarəzmi fəthində Əscədi tərəfindən təsvir edilən sipəhsalardan olmayasan:

Sipəhsalar dilərdi ordu qırsın, kamran olsun,
Axır məhv etdi bir ordu, o da öz şanlı ordusun.

Əgər qalib gəlsən, qaçanların dalınca çox uzaqlara getmə, qayıdanda böyük xətalar baş verə bilər, işlərin nə ilə qurtaracağını bilmək olmaz. Böyük əmir (atam), Allah ona rəhmət eləsin, qaçanın dalınca getməzdi və heç kəsi də getməyə qoymazdı, çünki heç kəs müharibə qaydasını ondan yaxşı bilməzdi. Soltan Mahmud da belə edərdi və deyərdi: "Qaçan yorulduqda



cana doyub dayanar, geri dönsə, vuruşmasan yaxşıdır, xatası var". Müharibəyə gedərkən istər-istəməz zahirdə - başınla, gözünlə oraya necə girdiyini görəcəksən, lakin batində - qəlbinin gözü və ağlınla oradan necə çıxacağını görməlisən, bəlkə, sən düşünən kimi oldu.

Bir də, bu deyəcəyim sözü unutma, bunu bir yerdə demişəm, bir də təkrar edirəm. Müharibə zamanı arxanda bircə addımlıq yer qalsa belə, amandır, ayağını geri qoyma, çünki bircə qarış geri getsən, dərhal səni geri çəkilən hesab edərlər. Həmişə durduğun yerdən irəliləməyə çalış, heç vaxt geriləmə.

Elə etmək lazımdır ki, ordu həmişə sənin canına və başına and içsin. Sən özün də orduya qarşı əliaçıq ol, hədiyyə, ənam, xələt verə bilməsən, heç olmasa çörəyi, şərabı, xoş sözünü onlardan əsirgəmə. Bir tikə çörək, bir qurtum şərabı də ordusuz içmə. Çörəyin edə biləcəyini qızıl, gümüş və hədiyyə edə bilməz. Həmişə ordunu şad-xürrəm saxla. İstəyirsən canlarını səndən əsirgəməsinlər, çörəyini onlardan əsirgəmə. Hər şey böyük Allahın əmrinə bağlı olsa da, sən düzgün və lazımi tədbir gör, o şey ki alına yazılıb, o onsuz da olacaq.

Demək, əgər Allah sənə mərhəmət göstərib şahlığa çatdırsa, şahlıq şərtlərini yerinə yetir, tərifə layiq həyat keçir, ali düşüncəli və müstəqil fikirli ol.






# ŞAHLIQ QAYDALARI VƏ ŞƏRTLƏRİ HAQQINDA

Bil, ey oğul, şah olsan, əməli saleh ol, xalqın arvadına-qızına göz dikmə, düz və iffətli adam ol. Hər işdə hissini özünə tabe et, hər əməlində ağlınla məsləhətləş, çünki şahlığın əsl vəziri ağıldır, ağlın tərəddüd etdiyi yerdə tələsmə, hansı işə girişmək istəsən, oradan çıxmaq yolunu əvvəldən düşün. Axırını görmədiyin işin əvvəlinə başlama, həlimliklə yerinə yetirilə bilən işi heç vaxt başqa yolla icra etmə. Zalım olma. Zalım şahın aqibəti fəlakətli olar. Bütün iş və sözlərə ədalət gözü ilə bax ki, hər işdə haqqı, nahaqqı görə biləsən.

Şahın idrak gözü açıq olmasa, doğru və əyri yollar onun üzünə açılmaz.

Həmişə doğru de, lakin az danışan və az gülən ol ki, sənə tabe olanlar qudurmasınlar. Deyiblər ki, şahın ən böyük bədbəxtliyi odur ki, rəiyyəti sözə baxmayan, xidmətçiləri qudurğan olsun. Bəxşişi ehtiyacı olanlara ver ki, onlar da müstəhəqlərə versinlər. Ali təbiətli ol, rəiyyət və ordu qarşısında alçaq təbiətli görünmə, amandır, özünü yazıq göstərmə. Haqq-Taalanın yaratdıqlarına qarşı rəhmli ol, lakin rəhmsizlərə rəhm etmə, onları bağışlamağı adət etmə, amansız ol, xüsusilə öz vəzirinə qarşı.

Özünü vəzirə güzəştə gedən tanıtma və həmişə onun məsləhəti ilə oturub-durma. Bir adam və ya bir iş haqqında vəzir hər nə desə, qulaq as, lakin dərhal əməl etmə. De ki: "Baxarıq, nə lazımsa əmr edərik". Sonra işi yoxlatdır, gör o, sənin xeyrini güdür, yoxsa öz mənafeyini. Aydınlaşdırandan sonra necə məsləhətdirsə, elə də cavab ver, qoy o səni öz rəyinin qulu hesab etməsin.

Vəzirliyi kimə versən, ona tam ixtiyar da ver ki, sənin məmləkətinin işləri axsamasın. Qoca da olsan, cavan da, vəzirliyi həmişə qocaya tapşır, vəzarəti cavana vermə, bu barədə belə şeir də deyiblər:

Qocadan başqasını eyləmə vəzir,
Uşaqlar şah taxtın tez bada verir.

Sən qoca olsan, yaxşı düşməz ki, cavan sənə tədbir töksün. Sən də cavan olsan, vəzirin də, cavanlıq odu birləşib iki olar, məmləkətə iki tərəfdən od vurarlar.

Vəzir xeyirxah, ağsaqqal, qoca, lakin canı sulu, qarnı böyük, özü yekəpər və boyu uca olmalıdır. Arıq, gödək, qarasaqqal vəzirin heç əzəməti olmaz. Vəzirin əsl mənada saqqalı uzun olmalıdır.

Hekayət. Soltan Toğrul[199] vəzirliyi Xorasan vəzirlərindən birinə tapşırmaq istədi. Bir alimi seçdilər. Çox uzun və enli saqqalı var idi, göbəyinə çatırdı. Onu çağırdılar, vəzirliyə namizəd seçildiyi haqqında soltanın fikrini bildirdilər, dedilər: "Gərək məmləkətin kəndxudalığını

boynunuza götürəsiniz, çünki vəzirliyə sizdən layiq heç kəsi tapa bilmirik". Alim dedi: "Dünya hakiminə deyin ki, şahın ömrü min il uzun olsun, vəzirlik elə bir peşədir ki, adam bir çox xüsusiyyətə malik olmalıdır, məndə isə saqqaldan başqa bu xüsusiyyətlərdən heç biri yoxdur. Soltan öz bəndəsinin uzun saqqalına güvənməsin, bu vəzifəni başqasına tapşırsın".

Vəzirə, onun yaxın adamlarına yaxşılıq et, maaş verməkdə, hədiyyə bağışlamaqda xəsislik göstərmə. Lakin vəzirin qohum-qardaşlarına vəzifə tapşırma, çünki piyi tamamilə pişiyə tapşırmaq olmaz. Vəzir heç vaxt qohum-qardaşlarının xatirinə toxunmaz. Bundan əlavə vəzirin adamları ona arxayın olub camaata elə zülm edərlər ki, başqaları onun yüzdən birinə də cəsarət etməz. Vəzir öz qohumlarının əvəzində imza edə bilər, başqalarının əvəzinə yox.

Oğruya rəhm etmə, qatili bağışlama, bağışlasan, qiyamətdə cəzasını çəkərsən, lakin nökərlərinə qarşı rəhmli ol, onları bəladan qoru, çünki hökmdarı çobana, ona tabe olanları isə sürüyə bənzətmişlər, çoban sürünü yırtıcılardan qorumasa, tez məhv olar.

Hər kəsin öz gəlirini öyrən, öyrəndiyinlə kifayətlənmə, hərəyə bir iş tapşır və vəzifəni onlardan əsirgəmə. Qoy bu işdən aldıqları xeyir öz gəlirlərinə əlavə olunsun və daha yaxşı yaşasınlar. Sən də onlar haqqında daha az narahat ol, çünki nökərləri iş tapşırmaq üçün saxlarlar.

Lakin sən birinə iş tapşırarkən diqqətli ol, hərəyə özünə layiq iş ver, ləyaqəti olmayana vəzifə tapşırma. Məsələn, saqiliyə yarayanı fərraşlığa göndərmə, xəzinədarlığa layiq olana haciblik vermə, hər işi hər adama tapşırmaq olmaz. Deyiblər ki: "Hər işin öz adamı var!" Elə et ki, ağzıgöyçəklər sənin dalınca qeybət qırmasınlar, işlərə də ziyan dəyməsin, çünki xidmətçiyə vəzifə tapşırsan, o bunun öhdəsindən gələ bilməsə də, öz xeyrinə görə bacarmadığını deməyəcək, vəzifəyə başlayacaq, lakin iş axsayacaq. Demək, işi bacarana tapşır ki, başağrısı olmasın.

Gecə-gündüz duam budur, bil, sənə,  
İş verəsən onu başa düşənə!

Birinə kömək edib ona hörmət qazandırmaq istəyirsənsə, ona dövlət və ad verməklə kifayətlənmək olar, layiq olmadığı işi verib nadanlığını üzə çıxarmaqdansa, belə etmək daha yaxşıdır.

Şahlığın dövründə heç kəsə imkan vermə ki, əmrini saymasın, əmrini saymayan səni də saymaz. Şahlığın hüsnü elə əmr verməkdədir, yoxsa şahla rəiyyətin fərqi nədir? Şah əmr verəndir, rəiyyət icra edən.

Hekayət. Ey oğul, nağıl edirlər, sənin babanın dövründə Soltan Mahmudun bir amili[200] var imiş, adına Əbülfəth Büsti deyərmişlər. Nəsa və Bavərdin[201] idarəsini ona tapşırırlar. O, Nəsadan bir nəfəri tutub malına yiyələnir, mülkünü zəbt edir, özünü də dustaqxanaya salır. Bir azdan sonra bu kişi hiylə işlədərək həbsxanadan qaçır, gedib Qəzneyə çıxır. Soltana yol tapır və bağışlanmasını xahiş edir. Soltan əmr edir, ona rəsmi sənəd versinlər. Nəsaya gəlib sənədi amilə göstərirlər. Amil deyir: "Bu kişi ikinci dəfə Qəzneyə gedib şahı görə bilməz". Onun mülkünü geri qaytarmır, sənədə də əhəmiyyət vermir. Kişi ikinci dəfə qaçıb Qəzneyə getməyə müvəffəq olur. Qəzneyə çatdıqdan sonra hər gün Soltan Mahmudun sarayının qapısına gedir, nəhayət, bir gün Qələbə bağında[202] Soltan Mahmuda rast gəlir, ah-fəryad qoparıb Nəsa amilindən şikayət edir. Şah ikinci dəfə məktub verir. Kişi deyir: "Bir dəfə gəlib məktub aparmışdım, xeyri olmadı". Soltan Mahmudun qanı qara, özü fikirli olduğundan əsəbiləşib deyir: "Mənim işim məktub verməkdir, tabe olmursa, mən nə edim, get haranın istəyirsənsə, külünü başına tök". Kişi deyir: "Şahım, sənin amilin sənin əmrinə əməl etmir, külü isə mən başıma töküm?" Soltan Mahmud deyir: "Yox səhv etdim, külü mən başıma tökməliyəm".

O saat saray qulamlarından ikisini Nəsaya göndərir, o naməni Əbülfəthin boynuna bağlatdırıb kəndin girəcəyində dardan asdırır və car çəkdirir ki, "Öz hökmdarının əmrini saymayanın mükafatı bu olacaq".

Ondan sonra heç kəsdə ürək qalmadı ki, şahın əmrinə əməl etməsin, fərmanlar yerinə yetirilir, camaat asudə yaşayırdı.

Hekayət. Bil, ey oğul, Məsud[203] şahlıq taxtına oturduqdan sonra şücaət və mərdanəlik xülyasına düşdü. Ölkə dolandırmaq qaydalarını

bilmədiyindən, şahlıq əvəzinə kənizlərlə əyyaşlığa başladı. Ordu və xidmətçilər onun nə ilə məşğul olduğunu gördükdə qudurmağa başladılar, camaatın işi get-gedə xarab olmağa üz qoydu, ordu və rəiyyət mütilikdən çıxdılar. Bir gün Fəravə[204] karvansarasından zülm edilmiş bir qadın gəlib o vilayətin amilindən şikayət etdi. Soltan Məsud kağız verdi, amil ona əməl etmədi və dedi: "Bu qadın bir də Qəzneyə getməyəcək ki!" Qarı ikinci dəfə Qəzneyə gedib şikayət etdi, ədalət tələb etdi. Soltan Məsud əmr verdi kağız yazsınlar. Qarı dedi: "Bir dəfə kağız aparmışam, işə keçmədi". Məsud dedi: "Bəs mən nə edim?" Qarı dedi ki, ölkəni elə dolandır ki, kağızına əməl etsinlər, bacarmırsan, tapşır, əmri keçən bir adam idarə etsin, həm sən öz kefində ol, həm Allah bəndələri sənin amillərinin zülmündən xilas olsunlar.

Məsud çox xəcalət çəkdi, əmr etdi qarının haqqını özünə qaytarsınlar, amili isə dar ağacından assınlar. Ondan sonra qəflət yuxusundan ayıldı, heç kəsdə cürət olmadı ki, onun fərmanına əməl etməkdə səhlənkarlıq etsin.

Şahın əmrinə baxmırlarsa, deməк, o, şah deyil. Şahla adamlar arasında fərq olduğu kimi, onun əmri ilə başqalarının əmri arasında də fərq olmalıdır. Ölkədəki qayda-qanun fərmanların icrası ilə nizama salınır, fərmanların icrası cəza tədbiri ilə həyata keçirilir. Demək, cəzada səhlənkarlığa yol vermək olmaz. Belə etdikdə hökmlər rəvan, işlər isə sahman olar.

Bir də, diqqət et, qoyma ordu rəiyyətə zülm etsin. Ordunun mənafeyini qoruduğun kimi, rəiyyətin də mənafeyini qoru. Padşah günəş kimidir, olmaz ki, birinə işıq versin, birinə yox.

Bir də ki, rəiyyəti ədalətlə dolandır, ədalət olan yerdə, rəiyyət dövlətli olar, hökumətin də gəliri rəiyyətdən gəlir. Demək, ölkədə ədalətsizliyə yol vermə, şahların məmləkətləri yalnız ədalət sayəsində uzun müddət yaşayıb qədimləşə bilər, ədalətsizlərin evləri



isə tez dağılıb xarab olar, çünki ədalət abadlıqdır, ədalətsizlik isə xarabazarlıqdır. Abadlıq ədalət olan yerdə əbədiləşər, ədalətsizlik olan yerdə dağılar. Alimlər demişlər: "Dünyanın şadlıq çeşməsi adil şah, qəm bulağı isə zalım şahdır".

Allah bəndələrinin əzab çəkmələrinə yol vermə, xəlvətə çəkilib onlardan qaçma, sən qoşun və rəiyyətə nifrət etsən, ordu və rəiyyət də sənə nifrət edər. Ordu və rəiyyəti yaxşı dolandırmaqda əlindən gələni əsirgəmə, əsirgəsən, düşmənə kömək etmiş olarsan. Lakin ordunu eyni tərkibli etmə, ordusu eyni tərkibli olan şah həmişə ordunun əsiri olar və öz ordusu qarşısında aciz qalar, çünki eyni tərkibli qoşunlar öz aralarında birləşdikdə onları bir-birinin üstünə saldırmaq olmaz. Müxtəlif tərkibli olduqda isə bu növü o növün üstünə göndərmək və bir növlə digər növə qulaq burması vermək olar, belə olduqda o tayfa bu tayfanın qorxusundan itaətsizlik edə bilməz və sənin əmrlərinə tabe olar. Sənin hökmdar baban Soltan Mahmudun dörd min türk, dörd min hindli qulamı vardı, həmişə hindlilərlə türkləri, türklərlə hindliləri cəzalandırardı, beləliklə, onların hər ikisi babana tabe olardı.

Həmişə qoşununu çörək və şəraba çağır, onlara yaxşılıq elə, hədiyyə bağışla, vədlər ver, könüllərini al. Lakin bəxşişin az olsa, ucadan dilinə gətirmə, gizlində birinin vasitəsilə çatdır, görməmişlik kimi çıxmasın, belə etməsən, bir tərəfdən şaha layiq olmayan şey bağışladığın bilinər, digər tərəfdən özünü xalqa alçaq təbiət tanıtdırmış olarsan.

Mən səkkiz il Qəzneydə Soltan Moduda[205] nədim oldum, onda üç şey görmədim. Birincisi, verdiyi ənam iki yüz dinardan az olduqda heç vaxt özü verməzdi və açıqdan deməzdi, başqası vasitəsilə çatdırardı, ikincisi, heç vaxt elə gülməzdi ki, onun dişi görünsün, üçüncüsü, qəzəbləndikdə heç kəsi söyməzdi. Bu üç xasiyyət çox yaxşıdır. Eşitmişəm, Rum şahında da bu üç xüsusiyyət vardır. Lakin onlarda elə adətlər var ki, ərəb və əcəmdə yoxdur. Məsələn, Rum şahları birini öz əli ilə vursa, artıq heç kəs o adamı vurmağa cəsarət etməz. Nə qədər sağdır, deyərlər: „Şah onu öz əlilə vurub, onu vurmaq üçün gərək onun kimi bir şah olasan".

İndi yenə də özümüzə qayıdaq. Səxavət haqqında sənə deyə bilmərəm ki, zorla əli açıq ol, əgər təbiətində yoxsa, heç olmasa dediyim

kimi et ki, açıqdan-açığa camaata öz xasiyyətini bildirməyəsən. Çünki səxavət göstərməsən, bütün xalq sənin düşmənin olar, əgər dərhal sənə bir şey edə bilməsələr də, düşmən hücuma keçəndə öz canlarını sənin uğrunda qurban verməzlər və sənin düşmənininin dostu olarlar.

Çalış rahatlıq şərabı səni məst etməsin və altı xüsusiyyəti əldən vermə: zəhmət sevərlik, ədalət, səxavət, həya, mülayimlik və doğruluq. Şah bu altı xüsusiyyətin bircəsindən uzaqlaşsa, şahlıq sərməstliyinə yaxınlaşmış olar, şahlıqdan məst olan şah isə yalnız şahlığı əldən çıxdıqdan sonra ayılar. Şahlıqda sadəlövh olma, dünya şahlarının vəziyyətindən xəbər tut, elə et ki, hansı şah nə eləsə, sən onu biləsən.

Hekayət. Mən keçmiş əmir, rəhmətlik atamdan eşitmişəm ki: „Fəxrəddövlə öz qardaşı Əzüdəddövlədən[206] qaçdıqdan sonra heç yerdə sığınacaq tapmayıb, aman istəmək üçün babamın sarayına, Qabus şahın yanına getdi. Babam ona aman verdi, qəbul edib çoxlu hörmət göstərdi, bibimi ona ərə verdi, nənəm Fəxrəddövlənin xalası, mənim atam və Fəxrəddövlə hər ikisi Həsən Füruzanın[207] nəvələri olduğundan toyda həddindən artıq şadlıq etdilər. Sonra Əzüdəddövlə Şəmsülməalinin yanına elçi ilə məktub göndərdi. Tərif yerində yazırdı: „Əzüdəddövlə çoxlu salam göndərir və deyir: Qardaşım əmir Əli ora getmişdir, özün bilirsən ki, mənimlə sənin aranda dost və qardaşlıq necədir və hər iki ailə birdir. Mənim bu qardaşım düşmənimdir, gərək onu mənim yanıma göndərəsən, bunun əvəzində öz vilayətlərimdən hansını istəsən, sənə bağışlayaram, qoy dostluğumuz bir az da möhkəmlənsin. Belə bir bədnamlığı üstünə götürmək istəməsən, orada ona zəhər ver, mənim istəyim yerinə yetirilsin, sən də rüsvay olmayasan, istədiyin vilayəti də alasan“.

Əmir Şəmsülməali deyir: „Ey böyük Allah, elə adlı-sanlı bir şəxsi mənim kimi bir adama belə sözləri deməyə məcbur edən nədir?.. Mən elə bir iş görə bilmərəm ki, qiyamətə qədər rüsvayçılığı boynumda qalsın“.

Elçi deyir: „Ey böyük ağam, əmir Əliyə, yəni Fəxrəddövləyə görə Əzüdəddövlənin xatirinə dəymə. Bizim şahımız səni öz doğma qardaşından çox istəyir“. Bu cür sözlərdən sonra əlavə deyir: „O gün

şah mənə məktub verib sənin yanına yola salarkən sözarası ağzından qaçırdı ki, Allah bilir, mən Şəmsülməalini necə istəyirəm. Elə ki eşitdim filan günü Şəmsülməali hamama gedib, orta otaqda ayağı sürüşüb yıxılıb, ürəyim sıxıldı, dedim: Məgər qırx yeddi il onu elə qocaldıb ki, qüvvəti də qalmayıb?“

Elçinin bunu deməkdə məqsədi o idi ki, Şəmsülməali özü haqqında Əzüdəddövlənin hər şeyi bildiyini başa düşsün. Əzüdəddövlə elçini belə öyrətmişdi.

Şəmsülməali deyir: „Sağ olsun. Bu mərhəməti üçün ona mənim minnətdarlığımı bildir. Lakin onun haqqında mənim daha çox narahat olduğumu söylə, de ki, səni yola saldığı o şənbə günü ayın filanında, gecə filan məclisdə şərab içib filan yerdə yatmışdı. Nuştəkinlə birlikdə xəlvətə çəkilib kef eləmişdi, sonra gecə yarısı oradan qalxıb arvadların olduğu yerə getmiş, dama dırmaşaraq oradan Xizran adlı bir sazəndənin otağına girmiş və onunla da bir müddət təklikdə qalmışdı. Sonra damdan aşağı düşərkən ayağı sürüşmüş və nərdivandan yerə yıxılmışdı. Buna görədə mən ondan yaman narahat idim. Öz-özümə düşünürdüm: „Gör qırx iki yaşında kişi nə qədər ağlını itirmiş, iradəsini əldən vermişdir. Nə üçün o qədər şərab içir ki, damdan aşağı düşə bilmir, nə üçün gecə yarısı yatağından durub gedir ki, başına belə iş gəlir“.

Bu yolla elçiyə başa salır ki, o da hər şeyi bilir.



Dünya şahlarının vəziyyətindən xəbər tutduğun kimi, öz məmləkətinin, ordunun və rəiyyətin də halından xəbərdar ol, bil ki, necə dolanırlar.

Hekayət. Bil, ey oğul, sənin dayın Modud ibn Məsud Qəzneyndə olarkən mən oraya

getdim. Məni çox əzizlədi, çox ehtiram göstərdi. Bir az keçdi, məni görüb bələd olduqdan sonra özünə xüsusi nədim təyin etdi. Xüsusi nədimin vəzifəsi bu idi ki, həmişə onun məclisində olsun. Ona görə o biri nədimlərin olub-olmamasına baxmayaraq, mən həmişə yemək və içmək vaxtı onun məclisində hazır olardım. Bir gün səhər tezdən şərab içib məst olmuşdu, kefli halda ordunun rəsm-keçidinə tamaşa edib xalqı qəbul etməyə başlamışdı. Camaat gəlir, baş əyir, çıxıb gedirdi. Növbə böyük xacə Əbdürrəzaq ibn Həsən əl-Meyməndiyə[208] çatdı. O, şahın vəziri idi, gəlib şahın yanında oturdu. Bir az keçdikdən sonra sarayın təşrifat müdiri gəlib baş əydi və xadim Əli ibn Rəbiyə bir məktub verdi, o da bunu Soltana təqdim etdi. Şah oxuduqdan sonra üzünü vəzirə çevirib dedi: „Bu xəbərçiyə yüz çubuq vurmaqla bir qulaqburması ver, gələn səfər ətraflı yazsın. Burada yazıbdır ki, dünən gecə Qəzneyndə on iki min evdə kef məclisi düzəlib. Mən bilmirəm bu evlər kimindir və hansı küçədədir, indi özün bil“. Vəzir dedi: „Şah sağ olsun, o, qısa olsun deyə yığcam yazmışdır, təfsilatı ilə şərh etsəydi, bir kitab çıxardı, onu oxumağa bir neçə gün vaxt lazım olardı. Şah rəhm edib bu dəfə bağışlasa, deyərəm gələn səfər geniş yazar“.

Şah dedi: „Bu dəfə bağışladım, gələn dəfə xacə deyəntək yazsın“.

Demək, gərək ordu və rəiyyətin işindən yaxşı agah olasan, öz məmləkətinin vəziyyətindən xəbərsiz qalmayasan. Xüsusilə, öz vəzirini nəzarət altında saxlamalısan, hər aldığı nəfəsdən, içdiyi sudan xəbər tutmalısan. Çünki sən xanimanını ona tapşırıbsan, ondan xəbərin olmasa, yalnız vəzirdən deyil, xanimanından da xəbərin olmaz. Sənə tay olan başqa ölkə şahları ilə dostluq etsən, yarımçıq dost olma, düşmənçilik etsən, açıq düşmənlik et, öz tayınla gizli düşmənçilik etmə.

Hekayət. Eşitmişəm, İsgəndər öz düşmənlərindən biri ilə davaya gedirmiş, ona deyirlər: „Ey hökmdar, sənin düşmənin olan bu adam qəflət yuxusundadır, dünyadan xəbəri yoxdur. Ona gecə basqın etmək lazımdır“. İsgəndər cavabında deyir: „Qələbəni oğurluqla qazanan, şah adlana bilməz“.

Şahlıqda böyük işlər görməyə adət et, çünki şah hamıdan böyükdür, onun sözü, işi də hamıdan böyük olmalıdır. Beləliklə, o, böyük ad qazanar, başqaları da onun sözünün, işinin böyüklüyünü təsdiq edər. Lənətə gəlmiş o it Firon da, bizim cah-calallı Allahımız haqqında rəvayət edildiyi kimi, elə ağır bir söz, yəni „mən sizdən daha böyük yaradanam“, deməsəydi, bu ayə qiyamətə qədər oxunmaz, o alçaq məlunun adı heç yerdə çəkilməzdi. Demək, söylədiyim kimi ol, səxavətsiz şahın şöhrəti olmaz, bir də imzanın qədrini bil, onu böyük tut, hər kiçik şey üçün imza atıb möhür vurma.

Böyük xələt, böyük məmləkət bağışladıqda fərman ver, möhür vur, imza et. Elə ki vədi verdin, üzrlü səbəb olmadan onu pozma. Vədə xilaf çıxmaq heç kəs üçün yaxşı deyil. Padşah üçün isə çox pisdir.

Şahlığın şərtləri bunlardır. Hərçənd bu peşə çox əzizdir, lakin kitabın həcmi və mənim imkanım daxilində nə mümkün idisə hamısını deyib yazdım. Əgər sən başqa sənət sahibi olsan, məsələn, kəndçilik kimi, başqa hər hansı işdən yapışsan, gərək onun qaydasını öyrənəsən ki, işin həmişə düz gətirib rövnəq tapsın. Allah özü köməyin olsun.






# KƏNDÇİLİK VƏ BAŞQA BİLDİYİN PEŞƏLƏRİN QAYDALARI HAQQINDA

Ey oğul, bil ki, kəndli olsan, hər şeyin öz vaxtını yaxşı bilməlisən. Nə əkmək istəsən, qoyma vaxtı keçsin, hər şeyi vaxtından on gün tez əksən, bir gün gec əkməyindən yaxşıdır. Kənd təsərrüfatı alətlərini, cütü saz saxla, yaxşı öküzlər al və yemini bol elə. Gərək sənin süründə həmişə qoşqu öküzü çox olsun ki, şum vaxtı öküzlərdən biri xəstələnsə, iş axsamasın, səpindən qalmayasan.

Əkin-biçin vaxtı çatdıqda torpağı şumlamağı unutma, gələn ilin səpini haqqında bu il tədbir gör. Həmişə elə torpağı ək ki, o özünü geyindirə bilsin, onda səni də geyindirə bilər. Torpaq özünü geyindirə bilmirsə, səni də geyindirə bilməz. Kəndçilikdən xeyir görmək istəyirsənsə, abadlıq işləri ilə məşğul ol.

Bazar sənətkarlarından olsan, hər sənət olur olsun, tez işləyən və yaxşı düzəldən ol ki, alıcın da çox olsun. İşi qonşularından daha yaxşı gör, az qazancla kifayətlən. Bir dəfə ona bir qazanmaq əvəzinə, iki dəfə ona yarım qazan. Çənə vurub zəhlə tökməklə müştərini qaçırma. Belə etsən, adamların çoxu səninlə alver edər, ruzin başının altında olar. Şeyi satana qədər müştəri ilə can bir dost ol, ona yağlı dil tök, ona „ağa“ deyib təvazökarlıq et. Gülərüz olub mehribanlıq göstərsən, səndən bir şey alarlar, qaşqabaqlı oturub nadanlıq etsən, məqsədə çata bilməzsən.

Mən deyən kimi etsən, alıcın çoxalar, başqalarının qibtəsinə səbəb olarsan, bazardakı sənətkarların hamısından çox ad qazanıb şöhrət taparsan.

Lakin doğru danışmağı adət et, xüsusilə satdığın şey haqqında. Xəsislikdən qaç, amma israfçı da olma. Özündən aşağını bağışla, özündən yuxarıya ehtiram et. Özündən zəifləri incitmə, arvadları və uşaqları alverdə aldatma, qəriblərdən artıq alma. Abırlı rəftar et, şahlarla düz dolan. Şah xidmətinə çox həris olma. Orduda olanlarla yaxınlıq etmə. Sufilərlə təmiz sufi ol. Daş-tərəzini düz saxla. Öz ailənlə ikiüzlülük edib iki kisə saxlama, şəriklərinə xəyanət etmə.

Hər nə hazırlasan, başı çıxan və çıxmayan üçün eyni dərəcədə yaxşı hazırla, namuslu ol. Varın olsa, borc verməkdən imtina etmə, doğrudan və ya yalandan and içmə, sələmçilikdən uzaq qaç, alverdə qəddar olma. Yoxsula borc versən, imkanı olmadığını bilsən, tez-tez borcunu istəmə, inadkarlıq göstərmə. Ürəkdə xeyirxah ol, üzdə nikbin, Allah sənin işinə rəvac, alverinə bərəkət verər. Bu xasiyyətlərə malik olan sənətkar comərdlərin[209] comərdi olar.

Hər peşə sahibinin öz sənətində bir comərdlik şərti vardır. İndi son fəsildə hər sənətdə lazım olan comərdlik şərtlərindən danışacağam, Allah qoysa, hər növə aid bacardığım qədər məlumat verəcəyəm.






# COMƏRDLİK QAYDALARI HAQQINDA

Ey oğul, bil ki, comərdlik iddiasında olsan, gərək əvvəlcə comərdliyin nə olduğunu və nədən əmələ gəldiyini biləsən.

Bil, insanlara xas olan üç xüsusiyyət var və elə bir adam tapa bilməzsən ki, bu xüsusiyyətlərin özündə olmadığını etiraf etsin. Allah bu üç xüsusiyyəti çox az adama verdiyinə baxmayaraq, hamı: alim, cahil, ağıllı, axmaq bu cəhətdən Allahdan razıdır.

Lakin kimə bu üç şey verilibsə, onlar Allah-Taalanın xüsusi bəndələri hesab edilməlidir: birincisi - ağıl, ikincisi - düzlük, üçüncüsü- insanlıq.

Xalqın bu iddiasına diqqətlə baxsan, görərsən ki, heç kəs ağıl, doğruluq və insanlığa malik olduğunu yalandan iddia etmir, çünki elə bir canlı yoxdur ki, onda bu üç xüsusiyyət olmasın. Lakin vasitələrin kütlüyü və nasazlığı bunların əsl yollarını insanların çoxunun üzünə bağlı saxlayır. Allah insanı ayrı-ayrı üzvlərin toplanmasından yaratmışdır. Ona sən küllün aləmi de, ya cüzün aləmi — hər ikisi doğrudur. Çünki insanın bədənində təbiət qüvvələrindən göyün, ulduzun, maddənin, ünsürün, surətin, nəfsin və ağlın hissəsi vardır. Bunların hərəsi özlüyündə tərkibə görə deyil, dərəcəyə görə xüsusi bir aləmdir və insan bu aləmlərin məcmusundan ibarətdir. Demək, Yaradan bu aləmləri bir yerə toplamış, onları bağlarla bir-birinə bağlamışdır. Bu böyük dünyada gördüyün kimi, göylər, ulduzlar, təbiət qüvvələri arasında da belə rabitələr vardır, onlar zatlarına görə müxtəlif olduqları halda, bir-birindən asılıdırlar. Məsələn, cinslərinə görə bir-birinə zidd olan su və od kimi, torpaqla hava bir-birinin ziddidir. Demək, su ilə od arasında rabitə yaratmaq üçün torpaq vasitəçi olur, onun quruluğu — od, soyuqluğu — su ilə, havanın yumşaqlığı — su, istiliyi-od ilə, odun zatı — efir, istiliyi — ulduzların və göylərin şahı olan Günəşlə, Günəş isə zatına görə — maddə, maddəliyinə görə isə — şüalanma ilə rabitədədir, çünki Günəşin zatı xüsusi ünsürdəndir[210]. Maddə ali qüvvə vasitəsilə — nəfslə, nəfs isə əqllə rabitədədir.

Səbəb, nəticə, eləcə də hadisələr arasında maddə və qüvvətə görə rabitə vardır. Əgər nəticə səbəbdən həmin rabitə vasitəsilə maddə və qüvvə almasa, aralarındakı əlaqə pozular, habelə təbiət fələkdən, fələk zatdan, zat nəfsdən, nəfs əsldən. Bu minvalla müqayisə et.

Bir də insanın bədənində nasazlıq və ağırlıq adına nə varsa, hamısı təbiət qüvvələrindən əmələ gəlmişdir. Surət, sifət, həyat, qüvvət, hərəkət — fələklərdən; beş cismani duyğu, yəni eşitmə, görmə, qoxu, dad, toxunma — maddədən; ruhi hisslər: yadda saxlamaq, tədbir görmək, fikir etmək, xəyala dalmaq, söz söyləmək nəfsdən əmələ gəlmişdir. İnsanın bədənində mənbəyini və yerini göstərmək mümkün olmayan ən izzətli bir şey varsa, o da insanlıq, bilik, kamal və şərəfdir. Bunların da hamısının əsasını ağıl təşkil edir, bunların hamısı insanın bədənində ali ağlın sayəsində əmələ gəlmişdir.

Deməli, bədən cana, can ruha, ruh isə əqlə görə yaşayır. Kimin bədənində hərəkət gördün, mütləq o candandır: kimi danışan gördün, mütləq ruhdandır, kimi ruh axtaran gördün, mütləq ağıldandır. Bu, bütün adamlarda vardır. Lakin bədənlə can arasında xəstəlik pərdəsi əmələ gəldikdə, müvazinət rabitəsi süstləşər, candan bədənə verilən maddə, yəni hərəkət qüvvəti çatışmaz. Kimdə canla ruh arasında hecab[211] ağırlıq pərdəsi əmələ gəlsə, ruhdan cana heç bir maddə, yəni beş duyğu üzvü getməz, kimdə ruhla əql arasında qaranlıq və tanınmazlıq pərdəsi əmələ gəlsə, ağıl maddəsi, yəni düşüncə, tədbir, insanlıq və doğruluq ruha çatmaz.

Demək, həqiqətdə də ağıl və insanlıq olmayan heç bir bədən yoxdur. Lakin ruhani yollar ali qüvvə üçün bağlı olduqda, iddia eşidirsən, məna isə görmürsən. Deməli, dünyada elə bir adam yoxdur ki, insanlıq iddiası etməsin. Lakin, ey oğul, nə qədər sağsan, çalış başqaları kimi olma, mənasız iddia etmə, öyrənmək, dərk etmək vasitəsilə ruhani yolları ali qüvvə üçün açıq saxla, qoy səndə məna olsun, iddia olmasın.

Bil, ey oğul, müdrik adamlar insanlıq və ağıldan cismdə deyil, sözlərdə təcəssüm etmiş bir ideal yaratdılar və adını insanlıq qoydular. Onun bədəni, canı, hissləri, mənəviyyatı var idi və dedilər: “Bu idealın bədəni comərdlik, canı doğruluq, hissləri elm, mənəviyyatı gözəlliklərdir. Onu adamlar arasında bölüşdürdülər. Bir dəstəyə bədən düşdü, bir dəstəyə bədən və can düşdü, bir dəstəyə bədən, can, hiss və mənəviyyat düşdü. Paylarına heç bir şey düşməyənlər hərbçilər, əyyarlar və bazar əhli idi. Camaat onlara”comərd” adını verdi. Bədən və can düşən dəstə zahiri mərifət sahibləri və yoxsul sufilərdir, camaat onlara “zahid” və “ürəfa”adı vermişdir. Bədən, can və hisslər düşən dəstə filosoflar, imamlar və müqəddəs adamlardır, camaat onlara “müdriklər” adını vermişdir. Bədən, can, hiss və mənəviyyat düşən dəstə məlaikələr, insanlardan isə peyğəmbərliyə çatanlardı. Paylarına comərdlik düşən dəstə də həmin qrupa aiddir. Həqiqətdə isə, necə ki deyiblər, comərdliyin əsası üç şeydir: birincisi, dediyini edəsən, ikincisi, doğruya tərəfdar çıxasan, üçüncüsü, səbirli olasan, çünki comərdliyə aid bütün xüsusiyyətlər bu üç şeylə əlaqədardır”.

İndi, ey oğul, əgər çətinlik çəkirsənsə, mən bu üç xüsusiyyəti üç dəstə arasında bölüb hərəsinin dərəcə və əndazəsini, ayrı-ayrı şərh edirəm ki, başa düşəsən.

Haşiyə. Bil, əyyarların ən comərdi odur ki, onda bir neçə xüsusiyyət olsun: hünərli, ürəkli, hər işdə səbirli, sözünə sadiq, gözü tox, ürəyi təmiz, başqasına ziyan vurmayan, dostunun xeyri yolunda öz zərərinə razı olan, əsirləri incitməyən, yoxsullara bəxşiş verən, pisləri pis işdən döndərən, düz deyib düz eşidən olsun, qədir bilsin, çörək yediyi süfrəyə xəyanət etməsin, yaxşılığın əvəzini pisliklə çıxmasın, dilini xeyrə öyrətsin, hər şeydə bir xeyir görsün. Diqqətlə baxsan, bütün bu xüsusiyyətlərin hamısı dediyim həmin üç şeylə əlaqədardır, bu barədə bir hekayət də vardır.

Hekayət. Eşitmişəm, bir gün əyyarlardan bir dəstə Kuhistanda oturarkən bir adam gəlib salam verir və deyir: "Mən Mərv əyyarları tərəfindən elçiyəm, sizə salam göndərib deyirlər: "Eşitmişik Kuhistanda filan əyyarlar var, bizdən bir nəfər sizin yanınıza gələcək, bir şərtimiz var, əgər bizim sualımıza düz cavab versəniz və biz onunla razılaşsaq, sizin böyüklüyünüzü qəbul edəcəyik, düz cavab verə bilməsəniz, gərək siz bizim böyüklüyümüzü təsdiq edəsiniz". Deyirlər: "De". Deyir: "Soruşurlar comərdlik nədir, comərdliklə nacomərdlik arasındakı fərq nədən ibarətdir? Bir əyyar yol üstə oturmuş olsa, bir adam oradan keçsə, bir azdan sonra başqa birisi siyirmə qılınc gəlib ondan soruşsa ki, filan adam buradan keçib, ya yox, o nə deməlidir? Desə xəbərçilik olar, deməsə — yalançılıq, bunların hər ikisi də əyyarlıqla bir yerə sığmaz".

Kuhistan əyyarları bu məsələni eşitdikdən sonra bir-birinə baxışdılar. Onların arasında Fəzli Həmədanı adında bir kişi var idi, qalxıb deyir: "Bu suala mən cavab verərəm". Deyirlər: "De". Deyir: "Əsl comərdlik odur ki, dediyini edəsən, comərdliklə nacomərdlik arasındakı fərq ondan ibarətdir ki, səbir edəsən. O əyyar isə belə etməlidir: oturduğu yerdən durub bir addım yuxarıda oturmalı və deməlidir: "Mən burada oturduğum müddətdə buradan keçməmişdir". "Bununla da xəziyyətdən çıxmış olar". Bu sözü başa düşsən, comərdliyin mahiyyətini də başa düşmüş olarsan.

**Hərbçilərin xüsusiyyəti.** Əyyarlarda olan bu dediyim comərdlik hərbçilərdə də olur, onlarda bu şərtə riayət etmək daha tam şəkildə qanun sayılır, çünki hərbçilik təkmilləşdirilmiş əyyarlıq deməkdir. Lakin hərbçidə kəramət, qonaqpərəstlik, səxavət, minnətdarlıq, nəzakət, silah oynatmaq məharəti daha çox olmalıdır.

Amma qadınlara hörmət etmək, özünü saxlamaq, başqalarına xidmət göstərmək, başıaşağı olmaq hərbçi üçün hünər, əyyar üçün eyib sayılır. Comərdlik bazar əhli üçün də şərtdir, bu barədə peşə sahiblərindən danışarkən bəhs etmişik.

**Din alimlərinin xüsusiyyəti.** İnsanlıq idealından paylarına bədən və can düşən dəstə, dediyim kimi, din elmi sahibləri və yoxsul sufilərdir. Camaat bunlara ürəfa adı vermişdir. Bu dəstədə comərdlik daha çox olmalıdır, çünki comərdlik idealın bədəni, doğruluq isə onun canıdır, onlara isə can, yəni doğruluq da düşmüşdür. Onlar nəzakət qaydalarından əlavə, bir də din elmini bildiklərinə, üləma olduqlarına görə daha çox insan olmalıdırlar. Belə xüsusiyyətlərə malik olanlar mülayim danışmağı, ürəyi ələ almağı, xeyirli işlər görməyi, qəlbi razı salmağı daha yaxşı bacarmalıdırlar. Onlar dində möhkəm olmalı, riyadan uzaqlaşmalı, dini məsələlər istisna olmaqla, heç vaxt qəzəblənməməlidirlər. Din ayrılığına görə birinin gizli sirrini açmamalı, cəzalandırmaq üçün camaata fitva verib, onları təhrik etməməlidir, and içməməlidir. Bir yazığın səhvi olsa və onun yanına gəlsə, çarəsini bilsə, xudbinlik etməyib ona öyrədərək, xoş dillə yola salmalıdır. Dini dünya malına satmamalı, zahidliyini xalqın gözünə soxmamalıdır. Yaxşı ad qazanmaqla şöhrət tapmalı, fasiq adamı günah üstündə, xüsusilə, xalq içində danlamamalıdır. Əgər birini məzəmmət edirsə, xəlvətdə etməlidir, çünki xalq içində məzəmmət zülm, əziyyət sayılar. Heç vaxt xalqın qanına qəsd etməməli, adamın ölümə layiq olduğunu bilsə də, fitva verməməlidir. Bütün yanlış fitvalara çarə tapmaq olar, qətldən başqa, çünki ölünü diriltmək olmaz. Məzhəb fərqi üstə heç kəsi kafir adlandırmamalıdır, çünki kafirlik dinin əksidir, məzhəbin əksi deyildir. O, başqa kitab və elmi rədd etməməlidir,

onun bilmədiyi şey küfr olmaya da bilər. Xalqı günah işlərə sövq etməməlidir. Hansı fəqih və hansı zahiddə bu sifətlər varsa, o həm mərddir, həm comərd.

Təsəvvüf əhlinin xüsusiyyəti. Təsəvvüf əhlinin ənənə, qayda-qanun və şərtlərini onların özləri: Ostad Əbulqasım Əbdülkərim Qüşeyri[212] özünün "Rəsaili adab-ət-təsəvvüf", Şeyx Əbülhəsən əl Müqəddəsi[213] "Bəyan-əs-Səfa", Əbu Mənsur əd-Dəməşqi[214] "Əzəmət" və Əli Vahidi[215] "Kitabül-Bəyan fi kəşfil əyan" kitabında yazmışlar. Mən burada bu təriqətin bütün şərtləri haqqında, şeyxlərin başqa kitablarda yazdıqları qədər məlumat verə bilmərəm. Mənim bu kitabda məqsədim nəsihət vermək və sənə yaxşı gün ağlamaqdır. Ona görə bu barədə də öz borcumu yerinə yetirdim ki, əgər bu tayfa ilə oturub dursan, nə sən onlara yük olasan, nə onlar sənə.

Mən bu dəstənin də comərdlik şərtlərini sənə danışmaq istəyirəm, çünki elə bir adam tapılmaz ki, özlərini hamıdan daha üstün və daha yaxşı hesab edən bu dəstə kimi Allah xatirinə, könüllü olaraq həyatda bu qədər əziyyətə məruz qalsın.

Eşitmişəm ilk dəfə bu təriqəti kəşf edən Üzeyr Peyğəmbər (s.) olmuşdur, iş oraya çatmışdır ki, yəhudilər onu Allahın oğlu adlandırmışlar.

Eşitmişəm ki, Peyğəmbərin (s.) vaxtında onun səhabələri arasında da yamaqlı paltar geyən on iki "suffə sahibi" olmuşdur. Peyğəmbər (s.) tez-tez onlarla görüşərmiş.

Bu dəstənin comərdlik şərtləri o biri dəstələrdən çətindir. Bu dəstənin adət və ənənələri, comərdlikləri iki cürdür: biri yoxsul sufilərə xasdır, o birisi sufipərəstlərə. Hər ikisindən də danışacağam. Lakin tam mənada əsl dərvişlik odur ki, heç bir şeyin olmasın. Heç bir şey olmamaq və təklik təsəvvüfün özüdür.

Hekayət. Belə eşitmişəm, bir dəfə iki sufi gedirmiş, bunlardan birinin heç bir şeyi yox imiş, o birisinin isə beş dinar pulu var imiş. Heç nəyi olmayan ürəklə gedir, heç kəsdən qorxmur, hara çatırdısa, orada özünü arxayın hiss edir, istədiyi yerdə yatırdı. Beş dinarı olan isə qorxusundan yata bilmir, lakin pulundan da əl çəkə bilmirdi. Nəhayət,

gəlib bir quyunun başına çıxdılar. Bura bir neçə yol ayırıcı idi, qorxulu yer idi. Şeysiz sufi çörəyini yedi, başını atıb yatdı. Beş dinar sahibi isə qorxudan yata bilmir və hey deyirdi: "Nə edim, beş dinar qızılım var, bura qorxulu yerdir, sən yatırsan, amma məni yuxu aparmır, nə yata bilirəm, nə gedə bilirəm". Şeysiz sufi deyir: "O beş dinarı ver bura". Alır, alan kimi dinarları quyuya atır və deyir: "Canın qurtardı, arxayın yat, müflis mis qalada olar, yəni müflisə zaval yoxdur".



Bütün şeyxlərin fikrinə görə, təsəvvüf üç şeydən ibarətdir: təcrid, təslim və təsdiq (yəni heç bir şeyi olmamaq, özünü Allaha təslim etmək, sidq ilə iman etmək). Əgər hər şeyə bir nəzərlə baxsan, bəladan uzaq olarsan, heç bir işində maneəyə rast gəlməzsən, təriqətin əsli də elə budur. Deməli, özünü təslim etmiş dərviş heç bir adamla özü üstündə açıq düşmənçilik etməməlidir. Məsləkdaşı və ya qohumu üstündə edə bilər. Onun paxıllığı həmişə bu olmalıdır ki, "nə üçün mənim qardaşım məndən yaxşı deyil?" O, mənliyini unutmalı, qərəzi bir kənara atmalı, özündən keçməli, hər şeyə təcrid və təsdiq gözü ilə baxmalı, heç kəsə

iki müxtəlif nəzərlə baxmamalı, şəkk, şübhə, güman kimi şeylərdən əl çəkməlidir, çünki şəkkə yol verməyən baxış təsdiq deməkdir. Heç kəs buna etiraz edə bilməz, çünki həqiqətin mahiyyəti ikiliyi rədd etmək, təsdiqinki isə ziddiyyəti rəf etməkdir.

Bil, ey oğul, kim ayağını sidqlə suya qoysa, su onun ayağı altında buz olar. Bu barədə söhbət açsalar, bil ki, mümkün olmasa da ağıl onu rəva bilər. Bir şeyə ki sidqlə inandın, onu inkar etmə, şübhəyə yol vermə. Sidq elə bir şeydir ki, onu ağıl və ya güclə ürəyə daxil etmək olmaz, o ya Allah-Taala tərəfindən bəxş edilməlidir, ya da adamın öz canında olmalıdır.

Dərviş ona deyərlər ki, sidq gözü ilə baxsın, qorxunu özünə peşə etməsin, zahirdə və batində bir olsun, həmişə Allahın təkliyi haqqında düşünsün. Lakin düşünərkən bir az ehtiyatlı olmalıdır ki, düşüncələr atəşi içində yanmasın. Bu təriqət sahibləri düşüncəni elə bir od adlandırmışlar ki, onun suyu yalnız təsəlli ola bilər. Ona görə də işrət, rəqs və musiqini təsəlli üçün vasitəçi ediblər. Əgər dərviş oxuyub vird etməyə meyl göstərməsə, həmişə düşüncələr odu içərisində yanar. Tövhid haqqında düşünməyənə musiqiyə qulaq asmaq və avazla oxumaq çətin olar, çünki bu, qaranlıq üstünə qaranlıq gətirər.

Şeyx Əxi Zəngani[216] ömrünün axır vaxtlarında musiqini qadağan etmişdi. O deyirdi: „Musiqi (səma) sudur, su od olan yerdə lazımdır. Suyu suya töksən, bulanıqlıq və lillik artar. Əlli adamdan yalnız birində od varsa, bu bir nəfər xatirinə o biri qırx doqquzunun üstünə su səpməyinə dəyməz, o bir nəfərdən səbir, bu qırx doqquz nəfərdən isə sədaqət tələb etmək lazımdır“.

Əgər dərvişin batinində ədəb nuru yoxdursa, zahiri tərbiyə vacibdir ki, heç olmasa, iki xüsusiyyətdən biri yerində olsun. Deməli, dərviş ibadət edən, şirindil, ziyansız, pis işlərdən uzaq, təmiz, pəhrizkar və düz olmalıdır. Onun səfərdə və başqa yerlərdə lazım olan dərvişlərə aid bütün ləvazimatı, məsələn, əsa, kəşkül, su qabı, səccadə, yelpinc, daraq, iynə, dırnaq düzəldən, heybə və s. olmalıdır. Dərvişin dərziyə və paltaryuyana ehtiyacı olmamalıdır, bu iki işdə o, bəlkə, özü qardaşlarına xidmət göstərməlidir.

O, səyahəti sevməli, lakin səfərə tək çıxmamalı, Xanqaha[217] tək getməməlidir. Həmişə bəla təklikdən doğur. Xanqaha getdikdə başqalarının işinə mane olmamalı, xoş rəftarı heç kəsdən əsirgəməməlidir. Əvvəlcə, sol ayaqqabısını çıxarmalı, geydikdə isə sağ ayaqqabısını geyməlidir. Kəməri bağlı olmamalıdır. Xalq arasına soxulmamalıdır. Səccadəsini haraya salıblarsa, orada oturmalı, oturduqda icazə istəməli və icazə ilə də iki rükət namaz qılmalıdır. Başqa vaxtlar gəlib getdikdə salam versə də olar, verməsədə, lakin səhər salamını yaddan çıxarmamalıdır.

Camaatla xoş söhbət etməli, nalayiq sözlər deməkdən qaçmalıdır. Şirin danışmağı bacarmırsa, şirin əhvalatlar nağıl etməlidir ki, Xanqahda qaldıqca onun xatirini daha çox istəsinlər. Heç kəsi zorla söhbətə məcbur etməməlidir. Qocalara hörmət etməlidir. Hörmət vacibdir, söhbət isə yox. Hər işi razılıq və cəmiyyətin tapşırığı ilə etməlidir. Etiraz etsə, günahı olmasa da, gərək cəmiyyətin əksinə getməsin, üzr istəsin.

Xalqa çox xırda eyiblər tutmaqda ifrata varmamalıdır ki, onun özünə də hər addımbaşı eyib tutmasınlar. Səccadədən az-az ayrılmalı, hər şey üstündə tez-tez bazara qaçmamalıdır. Bir iş başlamaq istədikdə və ya özünə aid bir iş görmək arzusunda olduqda cəmiyyətin razılığı ilə görməlidir. Paltar geymək və çıxarmaq istəsə, cəmiyyətdən və ya cəmiyyətin mürşüdündən (başçısından) icazə almalıdır. Səccadəyə dirsəklənməməli və bardaş qurub onun üzərində oturmamalıdır. Camaatdan gizlin xirqə yırtmamalı, camaatdan xəlvət heç şey, bir badam belə yeməməlidir. Bu, çox pis iş sayılır. Heç bir şeyi öz zahiri adı ilə adlandırmamalı, came[218] necə deyirsə, o da elə deməlidir. Cəmiyyət arasında çox danışmamalıdır. Hamı xirqəni yerə salanda o da salmalı, geyəndə o da geyməlidir. Bacardıqca heç kəsin xirqəsini cırmamalı və tək bir şey yeməməlidir, bunların hər ikisinin xüsusi şərtləri vardır ki, hər adam onu yerinə yetirə bilməz.

Ələ su tökməyi qənimət bilməli, ayağını başqasının səccadəsi və xirqəsi üzərinə qoymamalıdır. Cəmiyyətin içərisində sürətlə getməməli və cəmiyyətdən çox qabağa keçməməlidir. Başqalarının yerində oturmamalı, zəhlətökən olmamalıdır. Musiqi çalınarkən və oxunarkən,

ya xirqə parçalanarkən, ya sirr aşkar edilərkən mürşüdlə öcəşməməli, ayağa qalxmamalı və səs salmamalıdır. Yersiz rəqs etməməli, əynindəki paltar cırılan kimi çıxarıb başçının qabağına qoymalıdır. Əgər bir dərviş onu pisləyib ya təri̇fləsə, təşəkkür edib, ona bir şey təqdim etməlidir. Bir dərviş ona xirqə versə, alıb: „Xoşdur" deyib öpməli, bundan sonra özünə qaytarmalıdır. Əgər dərvişlik işi görsə, ya paltar tiksə, ya paltar yusa, təşəkkür etməyincə geri verməməlidir. Bir dərvişi incitmiş olsa, tez ürəyini ələ almalı, kəffarəsini[219] verməlidir.

Əgər biri yaxşılıq etsə, dərhal təşəkkür etməli və əvəzini çıxmalıdır. Bacardıqca heç kəsdən, xüsusilə dərvişlərdən bir şey istəməməlidir. İsfahan camaatı istəyər, lakin verməz; xorasanlılar nə istəyərlər, nə verərlər; təbəristanlılar istəməzlər, lakin verərlər; parslar istərlər və verərlər. Eşitmişəm, sufilik ilk dəfə farsda meydana çıxmışdır.

Dərviş gərək cavanlıqda zəhmət çəkib əziyyətə dözməyi özünə peşə eləsin, qocalıqda isə bir küncə çəkilib sakit-sakit yaşasın.

Çörək yemək vaxtı süfrə başında hazır olmalıdır ki, camaat onu gözləməsin. Camaatdan əvvəl çörəyə əl uzatmamalı, camaatla birlikdə yeməkdən əl götürməlidir. Payından artığına göz dikməməli, göstəriş olmadan heç kəsi öz payına şərik etməməlidir. Müəyyən səbəbə görə çörək yeyə bilməyəcəksə, süfrə açılmamışdan əvvəl üzr istəməli və süfrə başında heç bir şey deməməlidir. Orucdursa, süfrə açsalar, oruc olduğunu deməli və orucunu yeməlidir. Təharət qaydasını öyrənməli, ayağını səccadənin altına soxmamalı, müxtəlif qaydalarla təharət almamalıdır. Comərdlik, sufilik, onların qayda və şərtləri mənim bu dediklərimdən ibarətdir.

Sufipərəst olmağın şərti budur ki, sufilərin rəmzli sözlərini rədd etməyəsən, onların şərhini soruşasan. Sufilərin eybini məziyyət biləsən, məsələn, küfrünü iman sayasan. Sufi dostu onların sirrini heç kəsə deməməli, bəyəndiyi işlərini tərifləməli, bəyənmədiyini düzəltməyə çalışmalıdır. Onların yanına getdikdə təmiz paltar geyməli, nəzakətlə öz yerində oturmalı və onların xirqəsinə layiqli hörmət etməlidir, onu geyməməli, başına qoymamalı, yerə salmamalı, nalayiq işlərdə ondan istifadə etməməlidir. Bacardıqca

yaxşılıq etməli, sufilərin xirqələrini yerə saldıqlarını gördükdə, o da salmalıdır. Əgər xirqə işrət xatirinə salınıbsa, onları dəvət etmək və ya qonaqlıq verməklə əvəzini çıxmalı, bir-bir yerdən götürüb öpməli və yiyəsinə qaytarmalıdır, yox, əgər xirqə çəkişmə nəticəsində salınıbsa, əlbəttə, ona baş qoşmamalı, mübahisə edən sufilərin arasına düşməməlidir, düşsə, yerində oturmalı, onlar məsələni özləri həll edib qurtarana qədər səsini çıxarmamalıdır. Sufilər arasında özünü Allahın vəkili hesab etməməli və deməməlidir ki, „Namaz vaxtı çatıb, durun namaz qılağın“, ibadətə dəvət etməməlidir, çünki onların heç kəsin göstərişinə ehtiyacı yoxdur. Onların arasında çox gülməli, eləcə də cansıxıcı və qaşqabaqlı olmamalıdır, beləsinə „ağırayaq“ adam deyərlər.

Əlinə şirin yemək düşsə, az olsa da, onların yanına aparmalı, azlığı üçün üzr istəməli və deməlidir: „Doğrudur, azdır, lakin əliboş gəlmək istəmədim“. Sufilərin əsl malı halvadır. Bu barədə mən bir şeir də demişəm:

Mən ki, bir sufiyəm, ey çöhrəsi nur, nazlı nigar,
Bunu hər kəs bilir: arvad, kişi, gənclər, qocalar.
O sənin al dodağın halva kimi şirindir,
Onu sən sufiyə ver, sufi malı halva olar.

Belə olsan, dostların ən kamili və ən düzü olarsan, çünki comərdlik və dostların düzlüyü bundan ibarətdir.

İnsanlıq idealından payına bədən, can və hisslər, yəni comərdlik, doğruluq və elm düşən dəstə peyğəmbərlərdir. Hansı bəndədə bu üç xüsusiyyətin üçü də birlikdə olsa, o, mütləq ya peyğəmbər olar, ya nəsihətçi filosof, çünki cismani istedadın hər ikisi ondadır. Cismani istedad doğruluq və mərifət, ruhani istedad isə elmdir. Elmin nə üçün mərifətdən sonra yazıldığı və nə üçün bilikdən üstün tutulduğu sənə maraqlıdırsa, mən bu sirri sənə aça bilərəm. Bil ki, “mərifət” farsca “tanımaq” deməkdir. Tanımaq ona deyərlər ki, bir şeyi tanıya bilmək həddindən tanışlıq dərəcəsinə çatdırasan. “Elm” farsca “daneş” deməkdir, onun vasitəsilə tanış və yad şeyi tanışlıq və yadlıq cəhətdən

tam şəkildə tanıyırsan, onun yaxşılıq və pislik dərəcələrini təyin edirsən.

Bil ki, tam bilmək beş cürdür: "əniyyət", "keyfiyyət", "ləmiyyət", "kəmiyyət" və "səbəbiyyət", yəni "nəlik", "necəlik", "nə üçünlük","neçəlik" və "səbəb".

"Nəlik" odur ki, deyəsən: "Filanı tanıyıram, "nədir" və "kimdir". Bu "mərifət"dir.

"Mərifət"də, yəni tanımaqda heyvanlar insanlara şərikdirlər ona görə ki, onlar da öz yeməklərini və balalarını tanıyırlar, adamlar da. Lakin əlavə olaraq insanlarda bilik də olduğundan onlar "nəliyi", "necəliyi", "neçəliyi", "nə üçünlüyü" və "səbəbi" də bilirlər. Görmürsənmi, heyvanların yemi olan yerə od qoyduqda onlar başını ora soxub odun yandırdığını hiss etməyincə çəkilmirlər, çünki onlar odun "nəliyini", həm də "necəliyini" bilmirlər.

İndi aydın oldu ki, nə üçün elm "mərifət"dən yüksəkdir. Buna görə dedim ki, kimin elmi kamil olsa, o, peyğəmbərliyə layiq olar. Biz heyvanlara nisbətən üstün olduğumuz qədər peyğəmbərlər də bizdən üstündürlər. Heyvanlar bircə "nəliyi" bilirlər, insanlar "nəliyi" və "necəliyi", peyğəmbərlər isə adamların ən kamilləridir, onlar "nəliyi", "necəliyi", "neçəliyi", və "nə üçünlüyü" də bilirlər. Heyvan yalnız onu bilir ki, "od" yandırır, insan bilir ki, "necə yandırır", "nə üçün yandırır" və "nə səbəbə yandırıcıdır".

Lakin adamların ən kamili odur ki, onda comərdlik kamil olsun. Comərdlik o zaman kamil olar ki, bilik kamil olsun, bu isə peyğəmbərlərdə olar. Peyğəmbərlik tam ruhanilikdir, çünki insanlıq dərəcəsində peyğəmbərlikdən daha yüksək mövqe yoxdur. Deməli, insanlıq idealından paylarına bədən, can, hisslər və mənəviyyat düşən dəstə yalnız peyğəmbərlərdir. Həqiqətən, insanlıq idealından kimin payına insanlığa aid olan bir xüsusiyyət düşübsə, onu "təmizlikdən" başqa heç cür təsvir etmək olmaz, ondan üstününü axtarsan, özü kimisini taparsan, bu isə ünsiyyət danışmaq və təcrübə vasitəsilə əldə edilər.

Kimdə "təmizlik" varsa, o, özlüyündə təkdir, onun nəyi varsa, özündəndir, ondan nə baş verirsə, o onu ona vadar edir, o kimlə olursa, onunla birlikdə olur; onun suyu təmiz, məqsədi qərəzsiz, köməyi

tələbsiz olar, qorxu bilməz, xudpəsəndlik tanımaz, məhrumiyyətdən uzaq olar. O, varlılığını yoxluqda tapar, yoxluq içində yox olduğu üçün əbədi qalar, yoxluqda varlıqla birlikdə mövcud olar. Tərifə gəlməz qədər təmiz olar, özünü başqasında görər, başqalarını isə özündən xaricdə görə bilməz, o hər şeyə gözü olmayan bir gözlə baxar. Ona görə bu dəstə nə qədər yüksək dərəcəyə, nə qədər böyük hörmətə çatsa, layiqdir.

Deməli, ey oğul, nə olursan ol, qabaqda ol, comərdliklə yaxınlıq et. Yalnız beləliklə, dünya elçisi ola bilərsən. Hansı təbəqədən olursan ol, comərdlik yoluna düşmək istəsən, ayıq ol. Görmək lazım olmayan, etmək lazım olmayan və demək lazım olmayan şeylərdən üç şeyi həmişə bağlı saxla: gözü, əli, dili.

Üç şeyi isə həmişə dost və düşmən üzünə açıq qoy: ev qapısını, yemək süfrəsini və pul kisəsini.

Bacardıqca yalan danışma, çünki əsl nacomərdlik yalan danışmaqdır. Bir adam sənin comərdliyinə etibar edirsə, sən ən əziz adam olsan və o sənin ən əziz adamını öldürüb, sənə ən böyük düşmən olsa, lakin özünü sənə təslim edib zəifliyini iqrar etsə və sənə pənah gətirsə, bağışla. Bu iş üstündə həyatın da məhv olsa, qoy olsun, qorxma, son damla qanına qədər onu müdafiə et, onda əsl comərdliyə çatmış olarsan.

Bir də, nə qədər ki sağsan, vaxtı keçmiş intiqamla məşğul olma, ona xəyanət haqqında fikirləşmə, comərdlikdə belə bir qayda yoxdur.

Ey oğul, bu küçə uzun küçədir, hər təbəqənin comərdlik şərtlərini sənə saysam, çox "necə" və "nə üçünlər" meydana çıxar. Ona görə xülasə edirəm. Comərdlik haqqında nə demişəmsə, hamısının məğzi də bu sözdədir: bil, ən kamil comərdlik odur ki, öz malını özününkü hesab edəsən, özgə malını özgəninki. Başqalarının malına tamah salmayasan, özünün bir şeyin varsa, xalqa verəsən, gözünü xalqın malına tikməyəsən. Özün qoymadığın şeyi götürməyəsən. Xalqa yaxşılıq etməyi bacarmasan, heç olmasa, bəlanı onlardan uzaqlaşdıra biləsən. Ən böyük və ən insani comərdlik budur.

Kim mən dediyim kimi yaşasa, bu dünya da onundur, o dünya da.

Bil, ey oğul, mən bu kitabda dəfələrlə qənaətdən danışmışam, bir

də təkrar edirəm: istəyirsən ki, qanıqara olmayasan, qane olmalısan. Həmişə könlünün xoş olmasını istəyirsənsə, paxıl olma. Qəmli olmağın əsası paxıllıqdır.

Bir də bil ki, insana yetişən yaxşılıq və pislik fələyin əlindədir. Mənim müəllimim deyərdi: insan gərək uzaqgörən olsun, fələyin işləri qarşısında boynunu uzadıb, ağzını açıq saxlasın, fələkdən zəiflik gəlsə, boynuna salsın, yemək gəlsə, ağzına alsın. Allah-Taala da buyurmuşdur: "Payını al, Allahına şükür elə!"

Fələyin təsiri bu iki şeydən xaric ola bilməz, bu yolu tutsan, sənin azad bədənin heç vaxt qul olmaz.

Bir də, qəlbində tamahkarlığa yer vermə, yaxşı, pis, nəsibin nə olsa, onunla da kifayətlən və bil ki, bütün tayfalar bir Allahın izni ilə Adəm əleyhissəlamın övladlarıdır, biri o birindən əksik deyil. İnsan tamahı qəlbindən çıxarsa, qənaəti özünə peşə etsə, dünyada heç kəsə ehtiyacı olmaz.

İşlərin asan olar, olsan tamahdan azad,  
Qənaətə başladın, ev-eşik oldu abad!

Dünyada ən möhtəşəm adam odur ki, heç kəsə ehtiyacı olmasın. Ən məzlum və yazıq adam odur ki, hamıya möhtac olsun və utanmadan qızıl, gümüş üçün özü kimi kişilərə əl açsın.

Hekayət. Eşitmişəm bir gün Şibli[220] (Allah ona rəhmət eləsin) iki rükət namaz qılmaq və bir az dincəlmək üçün məscidə gedir. Məktəb şagirdləri məsciddə imiş və təsadüfən onların çörək yemək vaxtları imiş. İki şagird Şiblinin yanında oturubmuşlar. Bunlardan biri dövlətli oğlu, biri yoxsul uşağı imiş. Dövlətli oğlunun heybəsində çörək və halva, yoxsulun zənbilində isə yavan çörək var imiş. Dövlətlinin oğlu halva çörək yeyir, yoxsul uşağı isə ondan hey halva istəyirmiş. Dövlətli oğlu deyir: "Sənə bir parça halva versəm, mənim itim olarsanmı?" Deyir: "Olaram". Deyir: "Hür, sənə halva verim". O yazıq hey hürür, dövlətli oğlu da ona hey halva verir. Bir neçə dəfə belə edirlər, Şibli onlara baxır və ağlayır. Müridləri[221]

soruşurlar: "Ya şeyx, sizə nə oldu ki, ağlayırsınız?" Deyir: "Görünüz tamah və qane olmamaq insanı nə kökə salır. Nə olardı, o uşaq öz quru çörəyinə qane olaydı və oğlanın halvasına tamah salmayaydı? Onda o, özü kimi birisinin iti olmazdı".

Deməli, ey oğul, zahid də olsan, fasiq də, gözü tox və qənaətcil ol, onda dünyanın ən böyük və ən təmiz adamı sən olarsan.

Bil, ey oğul, bu kitabın qırx dörd fəslində bildiyim hər sahədən bacardığım qədər danışdım və hərəsi haqqında sənə nəsihət edib öyüd verdim, yalnız ağıllılıqdan başqa. Deyə bilmərəm ki, zorla ağıllı ol, ağlı zorla öyrətmək olmaz.

Bil, ağıl iki cürdür: biri anadangəlmə, ikincisi, sonradan əldə edilmə. Sonradan əldə edilmiş ağlı öyrənmək olar, anadangəlmə ağıl böyük və izzətli Allahın hədiyyəsidir, onu təlim və təhsillə əldə etmək olmaz. Əgər böyük Allah sənə anadangəlmə ağıl versə, bu sənin üçün böyük xoşbəxtlikdir, zəhmət çək, sonradan əldə edilmiş ağlı da öyrən, sonradan əldə edilmiş ağlı anadangəlmə ağılla birləşdirsən, öz əsrinin ən gözəl alimi olarsan. Əgər anadangəlmə ağıl olmasa, nə sən, nə mən heç bir şey edə bilmərik. Onda sonradan əldə edilmiş ağla səhlənkarlıq etmə, mümkün qədər yaxşı öyrən. Ağıllılar zümrəsinə daxil olmasan da, heç olmasa axmaqlar sırasına da daxil olma. Deyiblər: "Atası olmayana atalıqdan yaxşı heç nə yoxdur".

İndi istəyirsən ağıllı olasan, hikmət öyrən, çünki ağlı hikmətlə öyrənmək olar.

Filosof Ərəstundan[222] soruşdular: "Ağıl qüvvəti haradan alır?" Dedi: "Hamı qüvvəti yeməkdən alar, ağlın yeməyi isə hikmətdir".

İndi, ey oğul, mən nəyə adət etmişdimsə, hamısını sənin üçün bir kitab etdim. Bildiyim elm, sənət və peşə haqqında bu kitabın qırx dörd fəslində hərəsindən bir az danışdım.

Bil, ey oğul, mənim uşaqlıqdan qocalığa qədər peşəm bu olmuş və belə olmuşam, mənim altmış üç illik ömrüm bu cür, bu minvalla başa vurulmuşdur. Mən bu kitabı dörd yüz yetmiş beşinci ildə başladım. Əgər Allah ömür versə, nə qədər varam, belə də olacağam. Özümə nəyi bəyənmişəmsə, sənə də onu məsləhət bilmişəm.

Əgər sən bunlardan daha gözəl adət və xasiyyət tapsan, elə ol, qoy sənin üçün daha yaxşı keçsin. Tapmasan, mənim bu nəsihət və öyüdlərimə canla-başla qulaq as və elə də et. Qulaq asmayıb qəbul etməsən, məcburi deyil. Allah kimi xoşbəxt yaradıbsa, oxuyub anlayar, çünki burada yazılanların hamısı hər iki dünyanın xoşbəxtləri üçün yazılıbdır. O böyük Allahın mənə və sənə rəhmi gəlsin. Mənim bu xoş arzularım sənə təsir etsin, Muhəmməd Mustafa və onun xanədanı xatirinə.



QEYD VƏ ŞƏRHLƏR

***Müqəddimə***

[1]Əmir Ünsürülməali Keykavus ibn İsgəndər ibn Qabus ibn Vəşmgir ibn Ziyar - "Qabusnamə" əsərinin müəllifi, 1021-ci ildə anadan olmuş, 1082-83-cü illərdən sonra vəfat etmişdir.

[2]Keyxosrov - Kəyan şahlarından birinin adı. Firdövsi öz "Şahnamə" əsərində onun haqqında ətraflı danışmışdır.

[3]Əbul-Müəyyəd Bəlxi - X əsr şairi. Kəyan şahları haqqında şeirlər yazmışdır. Əsərlərindən "Əcəyibül-əşya" daha məşhurdur.

[4]Mərzban ibn Rüstəm ibn Şərvin - "Qabusnamə" müəllifinin ana babası.

[5]Ənuşirəvan (Nuşirəvan Adil) - Sasanilərin 24-cü şahı (531-579).

[6]Kavus ibn Qubad - Birinci Xosrov Ənuşirəvanın qardaşı.

[7]Qazı Soltan Mahmud Nasirəddin - Soltan Mahmud Qəznəvi (998-1030).

[8]Firuzan Deyləmi - Deyləmi hökmdarı. 901-ci ildə Samanilərlə döyüşdə öldürülmüşdür.

***İkinci fəsil***

[9]Quran ayəsi

***Üçüncü fəsil***

[10]Quran ayəsi

***Dördüncü fəsil***

[11]Ərəfat - Məkkənin yaxınlığında dağ adı. Məkkəyə gedən zəvvarlar Həccə bir gün qalmış orada düşüb lazımi ayini icra edərlərmiş.

***Beşinci fəsil***

[12]Quran ayəsi

[13]Hədis

***Altıncı fəsil***

[14]Müğilan - Ərəbistan çöllərində bitən tikanlı bitki, kol.
[15]Fəqih - Din hüquqşünası, şəriət qanunlarını bilən ruhani.
[16]Mütəvəkkil - Abbasi xəlifələrinin onuncusu (847-861).
[17]Əl-Qaim Bi-Əmrillah - Abbasilərin iyirmi altıncı xəlifəsi (1031-1075).
[18]Sokrat - Qədim yunan filosofu (e. ə. 469-399-cu illər).
[19]İsgəndər - Makedoniyalı İsgəndər (e. ə. 356-323) nəzərdə tutulur.
[20]Əflatun - Qədim yunan filosofu Platon (e. ə. 429-347-ci illər).
[21]Muhamməd Zəkəriyya ər-Razi - İran filosofu (854-932).
[22]Əftimun - Qədimdə dəliləri sağaltmaq üçün çay kimi dəmlənib içilən və dərman kimi istifadə edilən ot, bitki adı.
[23]Xosrov - I Xosrov Ənuşirəvan nəzərdə tutulur.
[24]Bozorgmehr - Ənuşirəvanın vəziri.
[25]Əbu-Şükur Bəlxi - X əsrin görkəmli şairlərindəndir. Özünün qısa, hikmətli, dərin mənalı şeirləri ilə şöhrət qazanmışdır.

***Yeddinci fəsil***

[26]Bus-Suvar - Şəddadilərin 8-ci əmiri (1030/31-1066/67).
[27]Gürgan (Qorqan) - İranın şimal-şərqində yer adı.
[28]Piruzan Deyləmi - Bus-Suvarın yaxın adamlarından biri.
[29]Harun ər-Rəşid - Abbasilərin beşinci xəlifəsi.
[30]Sahib Əbül-Qasim İsmail ibn Əbbad - İranın məşhur ədiblərindəndir.
[31]Afei - Əbu-Abdullah Muhamməd ibn İdris Şəfei - Şafei təriqətinin banisi olmuşdur. (767-819).
[32]Rey - İranda, Tehran yaxınlığında yer adı.
[33]Tutiya - Göz dərmanı.
[34]Məmun - Xəlifə Harun-ər-Rəşidin oğlu (813-833).
[35]Dəxmə - Zərdüştilikdə insan öldükdən sonra cəsədlərin qoyulduğu açıq meydança.

***Səkkizinci fəsil***

[36]Fasiq - Alçaq, rəzil, murdar adam.
[37]Abid - İbadət edən.

***Doqquzuncu fəsil***

[38]Ərəstu - Ərəstun, Aristotel. Məşhur yunan alimi və filosofu.

[39]Əscədi - XI əsrin məşhur şairlərindən biri.

[40]Taət - İtaət, itaət etmək.

[41]Məsiyət - İtaət etməmək, dinə qarşı çıxmaq, asi olmaq.

[42]Zöhdiyyat - Tərkidünyalıq, zahidlik haqqında yazılmış əsər.

[43]Süleyman - Davudun oğlu Süleyman peyğəmbər (e. ə. 1082-975).

[44]Hacib - Saray xidmətçisi, təşrifat rəisi, pərdədar.

***On birinci fəsil***

[45]Dörd təbiət - Qədim təbabətdə böyük rol oynayan xarici aləmdəki dörd ünsürə (su, od, torpaq, külək) müvafiq olaraq insanın bədənində də dörd "təbiətin", yəni istilik, soyuqluq, quruluq və yaşlıq xüsusiyyətlərinin olduğunu qəbul edən nəzəriyyəyə işarə edilir.

[46]Müfsid - Fəsad törədən, ziyankar.

***On ikinci fəsil***

[47]Gilan - İranın şimalında vilayət adı. Vaxtilə müstəqil dövlət olmuşdur. "Qabusnamə" müəllifi özü Gilandandır.

[48]İbn Müqlə - Məşhur xəttat, ədəbiyyatşünas və dövlət xadimi olmuşdur. Abbasi xəlifələrinin vəziri olmuşdur.

[49]Mötəsim - Abbasilərin səkkizinci xəlifəsi, 833-842-ci illərdə hökmranlıq etmişdir.

***On dördüncü fəsil***

[50]Şeyx Əbu Səid bul-Xeyr Meyhəni - Xorasanda məşhur zahidlərdən biri olmuşdur (967-1049).

[51]Şəmsülməali - "Qabusnamə" müəllifinin babası.

[52]Əbul-Abbas Qanimi - Şəmsülməalinin vəziri.

[53]Qəzne, Qəzneyn - Qəznəvilərin paytaxtı, Əfqanıstandadır.

[54]İqta - hissə, parça. Xüsusi xidmət müqabilində bəxş edilən torpaq.

[55]Ptolomey - Qədim yunan filosofu və alimi (e.ə. II əsr).

***Onyeddinci fəsil***

[56]Rum alimləri - Yunan alimləri nəzərdə tutulur.

[57]"Biz gecəni örtük yaratdıq" - Quran ayəsi.

***On səkkizinci fəsil***

[58]Şərəfülməali - "Qabusnamə" müəllifinin əmisi oğlu Ənuşirəvan ibn-Mənu-çehr nəzərdə tutulur, 1029-1032/33-cü illərdə şahlıq etmişdir.

[59]Çərğ - Ağ şahin.

***On doqquzuncu fəsil***

[60]Əmr Leys - Səffarilər sülaləsinin ikinci hökmdarı (879-900)

[61]Əzhər Xər - Əmr Leysin sərkərdələrindən biri.

***İyirmi birinci fəsil***

[62]Qarun - İslam məxəzlərinə görə, Fironun vəziri olmuşdur. Heç nəyə etiqadı olmadığından 40 dəvə yükü ilə birlikdə yerə batmışdır. Şərq ədəbiyyatında dövlətli adam obrazı kimi işlənilir.

[63]Dirəm, dirhəm - Qədimdə Şərq ölkələrində işlənən pul və çəki vahidi.

[64]Həbbə - Çəki vahidi. Təqribən 0,044 q-a bərabərdir.

[65]Dang, dənge, dəng - Pul və çəki vahidi. Dirəmin 1/6 və ya 1/3 hissəsi.

***İyirmi üçüncü fəsil***

[66]Elmi fərasət - Fizioqnomika, adamın üzünə baxıb qəlbini oxuya bilmək.

[67]Fərraş - İlkin lüğəvi mənasında fərş salan, ev yığışdıran, ev-eşiyi sahmana salan deməkdir. Çox vaxt məmur mənasında işlənir.

[68]Türkan - türk xalqları, əsasən, türküstanlılar nəzərdə tutulur.

[69]Qədim tayfa adlarıdır.

[70]İstisqa - Öləş xəstəliyi, çox su içmək xəstəliyi.

[71]Burun babasili - Burun iltihabı.

[72]Əcəmi - Burada fars olmayan adam mənasında işlənmişdir.

[73]Azadanlar - Burada muzdla tutulmuş xidmətçilər, qul olmayanlar nəzərə alınır.

***İyirmi beşinci fəsil***

[74]Dül-dül - Əlinin atının adı.

[75]Əhməd Feriqun - Feriğunilər sülaləsindən Ğuzğan ölkəsinin əmiri.

***İyirmi altıncı fəsil***

[76]Dara - Əhəmənilər sülaləsindən III Dara (e. ə. 336-330) nəzərdə tutulur.

***İyirmi yeddinci fəsil***

[77]Zubin - İkihaçalı, gödək nizə.

[78]Tab-tab - Çovkan oyununun bir növü.

[79]Absukun - Xəzər dənizinin köhnə, qədim adlarından biri.

[80]Mosul - İraqda şəhər adı.

[81]Ükbəra, Əkbəra - Bağdadın yaxınlığında qəsəbə adı.

[82]Qoştasp, Kəştasib - İranın qədim şahlarından birinin adı. Deyilənlərə görə, Zərdüştün dövründə yaşamış və onun dinini qəbul etmişdir.

[83]Kostəntəniyyə - İstanbul, Konstantinopol.

[84]Şəhrbanu - Sasani hökmdarı III Yəzdgürdün qızı. 637-ci ildə öldürülmüşdür. Bəzilərinin fikrinə görə, III Yəzdgürdün belə bir qızı olmamışdır.

[85]Səlman Farsi - Muhamməd peyğəmbərin (s.) səhabələrindən biri, onun dəlləyi. İslam dinini ilk qəbul edən iranlılardan sayılır.

***İyirmi doqquzuncu fəsil***

[86] Əyyar - Xilafət dövründə daimi sənət və peşəsi olmayan adamlara deyilirdi. Bunlardan muzdlu silahlı dəstələr düzəldilir, asayişi bərpa etmək üçün istifadə edilərmiş. Sonradan bu ad "qoçaq", "igid" mənasında işlənməyə başladı. "Qabusnamə"də "əyyar" sözü müsbət mənada işlədilmişdir.

[87]Söhrab - Firdovsinin məşhur qəhrəmanı Rüstəmin oğlu.
[88]Fəxrüddövlə Əbulhəsən Əli - Albuye şahı (976-997)
[89]Xütbə - nitq, xeyir-dua, nəsihət və ya məlumat xarakterli çıxış. (Ən çox məsciddə oxunur).
[90]Zülqərneyn - Makedoniyalı İsgəndərin Şərqdə geniş yayılmış ləqəbi.
[91]Damğan - İranda şəhər adı. "Qabusnamə"də deyilir ki, İsgəndər buraya çatdıqda vəfat etmişdir. Lakin bu, tarixi faktlarla düz gəlmir.

***Otuzuncu fəsil***

[92]Müaviyyə - Əməvilərin birinci xəlifəsi, 661-680-ci illərdə hakimiyyət başında olmuşdur.

***Otuz birinci fəsil***

[93]Fəqihlik - Şəriətçilik, şəriət hüquqşünaslığı.
[94]Elm - Dini elmlər nəzərdə tutulur.
[95]Ravi - Rəvayət edən. Başqalarının şeir və əsərlərini məclislərdə oxuyan.
[96]Üsul - Burada şəriətin əsasları, təki-əsl.
[97]Hafiz - Quranı əzbərdən bilən adam.
[98]Xofla rica - qorxu ilə xahiş.
[99]Təbəristan - İranda qədim ölkə adı. İndi Mazandaran.
[100]Əbul Əbbas Ruyani - Təbəristanda baş qazı olmuşdur.

***Otuz ikinci fəsil***

[101]Müamilə - qazanclı alver, sələmlə borc verilən pul.
[102]Şagirdanəlik - Müştərinin usta şagirdinə verdiyi bəxşiş.
[103]Rəsədban - Gözətçi, keşikçi, müfəttiş, gömrükçü.
[104]Çarvadar - Yük heyvanları (at, dəvə, qatır) olan və bu heyvanlarla başqalarının yükünü daşıyan və ya heyvanları kirayəyə verən adam.

***Otuz üçüncü fəsil***

[105]Məzac - Təbiət, məzac, xüsusiyyət, fitri xasiyyət.
[106]Tərkib - Bəlğəm, səfra, qan, öd. Qədim Şərq təbabətində bəzən bu istilahın əvəzinə "ünsür", "təbiət" işlənmişdir.

[107]Soyuqluq - Şərq təbabət elmində bəzi yeməkləri istilik, bəzilərini isə soyuqluq sayardılar. Məsələn, bal istilik, kartof soyuqluq sayılırdı.
[108] İstilik - Bax: 107
[109]Calinus - Qalen. Məşhur yunan təbibi (130-200).
[110]"On altı traktat" - Calinusun əsərinin adı.
[111]Bokrat - Hippokrat. Qədim yunan təbibi (e. ə. 460-377).
[112]Əlkun əlfəsad - Varlıq və yoxluq haqqında kitab.
[113]Əs-Səma-ül-aləm - Göy və Kainat haqqında kitab.
[114]Ən-Nəfs - Ruhi keyfiyyətlər haqqında kitab. Psixologiya.
[115]Əl-hiss-ul-Məhsus - Hisslər və duyğular haqqında kitab.
[116]Əl-heyvanat - Canlılar haqqında kitab. Biologiya.

***Otuz dördüncü fəsil***

[117]Ehkam elmi - Astrologiya, münəccimlik.
[118]Zic - Ulduzların hərəkətini və yerlərini göstərən cədvəl.
[119]Beşlərin gərdişi - burada gecə, gündüz, həftə, ay, il.

***Otuz beşinci fəsil***

[120]Səhli-Mümtəne - Şərq poetikasında zahirən yazılması asan görünən, lakin əslində böyük ustalıq tələb edən şeirə deyilirdi. Belə Şeirlər dərin məzmunlu, yığcam olub asan yadda qalan olur.
[121]Mücanis - Cinas sözlər, cinaslar, həmcins sözlər.
[122]Mütabiq - Misrada və beytdə bir-birinin qarşılığı olan sözlər.
[123]Mütəzad - Təzad sözlər, mənaca bir-birinə zidd sözlər.
[124]Müşakil - Eyni şəkilli sözlər, omonimlər.
[125]Mütəşabih - Oxşar sözlər, təşbihlər.
[126]Müstəar - İstiarə, istiarəli sözlər.
[127]Mükərrər - Təkrir, təsiri gücləndirmək üçün təkrar edilən söz.
[128]Mürəddəf - Rədiflənmiş (qafiyədən sonra eyni söz işlədilən) şeir.
[129]Müzdəvəc - Cüt sözlər, qoşalaşmış sözlər.
[130]Müzmər - məcazi mənada işlənən sözlər, alleqorik sözlər.
[131]Müsəlsəl - Silsiləvari sözlər (bəhri-təvil kimi).
[132]Müsəccə - Səcli, ritmli, qafiyəli nəsr.

[133] Müləvvən - Rəngarəng, bir neçə vəzndə oxuna bilən şeir.
[134]Müstəvi - Dala-qabağa eyni cür oxuna bilən şeir.
[135]Müvəşşəh - Misraların ilk hərfləri oxunduqda məna verən şeir növü.
[136]Müvəssəl - Birinci misranın sonunda sözü yarımçıq qoyub ikinci misranın əvvəlində onu tamamlayan şeir növü.
[137]Müqəttə - Rəcəz bəhrində deyilmiş qısa şeir.
[138]Müxəllə - Xoşa gəlməyən vəzndə deyilmiş şeir.
[139]Müstəhil - Zahirən mənasız, lakin daxilən dərin mənası olan söz, şeir.
[140]Zu-qafiyəteyn – İki qafiyəli. Hər misrasında iki qafiyəsi olan şeir.
[141]Rəcəz - Özünü tərifləməkdən ibarət olan şeir.
[142]Məqlub - Tərsinə yazılmış, çevrilmiş, dəyişdirilmiş söz. Əksinə, tərsinə oxunduqda məna verən söz.
[143]Mədhnamə - Birinin tərifi üçün yazılmış şeir. Birini mədh edən şeir.
[144]Əruzi - Burada əruz vəzninin ağır və xoşa gəlməyən növləri üzərində yazılan şeir nəzərdə tutulur.
[145]Əruz dairələri - Əruz vəznində müəyyən prinsip üzrə bir neçə bəhri birləşdirən dörd, beş və altı dairə.
[146]Bəhr - Əruz vəzninin növü.
[147]Əruz bəhrlərinin və onların növlərinin adları.
[148]Əruz - beytin birinci misrasının son bölümü.
[149]Zərb - beytin ikinci misrasının son bölümü.
[150]Mərsiyə - ölüm, matəm münasibətilə yazılmış kədərli şeir.
[151]Tərkidünya - dünyadan əl çəkməyi tərənnüm edən pessimistik şeirlər.
[152]Bistun - Kirmanşahla Həmədan arasında olan məşhur dağın adı. Fərhad Şirinin eşqi ilə bu dağı yarmışdır.
[153]Büraq - Muhammməd Peyğəmbərin (s.) Meraca getdiyi varlığın adı.
[154]Rəxş - Əfsanəvi Rüstəm pəhləvanın atının adı.
[155]Şəbdiz - Şirinin atının adı.
[156]Qəsidə - Birinci iki misrası həmqafiyə, sonra isə misraaşırı həmqafiyə olan mədh, tərif, həcv, hikmət və s. mövzularda yazılmış şeir növü.

[157]Zöhd - Asketizm, tərkidünyalıq, zahidlik
[158]Tövhid - Monoteizm, təkallahlıq.

***Otuz altıncı fəsil***

[159]Mütrib - Sazandar, çalğıçı, xanəndə, rəqqas, ümumiyyətlə, musiqiçi.
[160]Xosrovani - Musiqidə hava adı, muğami-humayun.
[161]Dəstgah - Musiqi dəstgahı nəzərdə tutulur.
[162]Rah - Sanballı ağır hava, muğam.
[163]Mavəraənnəhr - Amudərya çayının arxasında olan vilayət.
[164]Badə - Musiqidə hava adı, muğam.
[165]İrak - Musiqidə hava adı, muğam.
[166]Üşşaq - Musiqidə hava adı, muğam.
[167]Zirəfkəndə - Muğam pərdəsinin adı.
[168]Busəlik - Musiqidə hava adı, Əbu Səlik adlı musiqişünas düzəltmişdir.
[169]İsfahani - Muğam adı.
[170]Nəva - Ümumiyyətlə, avaz, səs, hava. Burada muğam adı.
[171]Bəstə - Muğamın sonu, son pərdə, muğam adı.

***Otuz yeddinci fəsil***

[172]Fəzlun Məmlan - Şəddadi şahlarındandır (985-1030).
[173]Fəzlun Əbussüvar - Fəzlunun oğlu Əbussüvar.
[174]Əbulyüsr - Aranda sipəhsalar olmuşdur.
[175]Abbas ibn Əbdül Mütəllib - Muhamməd Peyğəmbərin (s.) əmisi.
[176]Abdullah - Abbasın oğlu.
[177]Qəməri Gürgani (Qorqani) - Şəmsülməalinin saray şairi, cəmi 12 beyti məlumdur.
[178]Nədim - Saraylarda şah və soltanların ən yaxın eyş-işrət dostu, həmpiyaləsi.

***Otuz səkkizinci fəsil***

[179]Məmun - Abbasilərin 8-ci xəlifəsi (813-833).

[180]Əbdülməlik Ükbəri - Məmunun nədimi.

***Otuz doqquzuncu fəsil***

[181]Səc - qafiyəli nəsr, ritmli nəsr.

[182]Mənşur - Fərman, əmr.

[183]Əbu Müslim Xorasani - Əbu Müslimin Xorasanda qaldırdığı üsyan nəticəsində xilafət Əməvilərin əlindən çıxaraq Abbasilərin əlinə keçmişdir (750-ciil). Əbu Müslim özü bir müddət Xorasanda əmirlik etmiş, 755-ci ildə Abbasi xəlifələrindən Mənsur tərəfindən öldürülmüşdür.

[184]Darülxilafə - Xilafət evi. Abbasilərin dövründə Bağdada verilən ad. Sonralar xilafət paytaxtının yerləşdiyi məkana Darülxilafə adı verilirdi.

[185]Mənsuri - Xüsusi kağız formatının adı.

[186]Bunəsr Müşkan - Soltan Mahmudun dəftərxana rəisi, gözəl xəttat və ədəbiyyatşünas olmuşdur. 1039-40-cı illərdə vəfat etmişdir.

[187]Əbubəkr Quhistanı - Soltan Mahmudun nədimi. Məşhur yazıçı olmuş, ərəb ədəbiyyatını dərindən bilmişdir.

[188]Rəvayətə görə 570-ci ildə xristian həbəşlər məşhur fil yolu ilə Kəbəni dağıtmağa gedirdilər. Onların qoşununda çoxlu fil var idi. Allahın əmri ilə əfsanəvi əbabil quşları cənnətdə olan xırda daşları dimdiklərinə alıb həbəş qoşununun üstünə uçur və daşları fillərin başına salırlar. Beləliklə, həbəşlər öz fikirlərindən dönməli olurlar

[189]Bu-Əli Simcur - Samani əmirlərindən olmuş, bir müddət Xorasanda hakimlik etmiş, 997-ci ildə öldürülmüşdür.

[190]Əmiri-Xorasan - Samani şahlarına verilmiş ləqəblərdən biri.

[191]Rəbi ibn Mütəhhər əl-Qəsri - Sahibin məharətli katibi.

[192]Sahib ibn Əbbad Taləqani - Albuyelərin məşhur vəziri.

[193]Müzəvvəri - İkimənalı sözdür, həm xəstələrə verilən çolpa suyuna, həm də özgənin xəttini yamsılamaqla saxta düzəlmiş kağıza (saxtakarlığa) deyilir.

***Qırxıncı fəsil***

[194]Əbülfəzl Bələmi - Əlli ilə yaxın (892-938) Samani əmirlərinin vəziri olmuşdur. "Kəlilə və Dimnə" kitabını ərəb dilinə tərcümə etməsi ilə məşhurdur.
[195]Səhl Xocəndi - Xocəndin adlı-sanlı məmurlarından biri.

***Qırx birinci fəsil***

[196]Sipəhsalarlıq - Ordu başçısı olmaq, sərkərdəlik.
[197]Salar - Ordu komandiri, ali rütbəli zabit.
[198]Sərhəng - Alay komandiri.

***Qırx ikinci fəsil***

[199]Soltan Toğrul bəy - Rüknəddin Əbu Talib Toğrul - səlcuq türklərindəndir. 1037-ci ildə Qəznəviləri məğlub edərək hakimiyyəti öz əlinə keçirir. 1063-cü ildə ölmüşdür.
[200]Amil - Məmur, vali, vergi toplayan.
[201]Nəsa və Bavərd - Xorasan vilayətində yer adları.
[202]Qələbə bağı - Soltan Mahmudun bağlarından birinin adı. Qəzne şəhərinin yaxınlığındadır. Soltan Mahmud burada dəfn edilmişdir.
[203]Məsud - Soltan Mahmudun oğlu. Qəznəvilərin 5-ci şahı olub 1030-1041/2-ci illər arasında hökmranlıq etmişdir.
[204]Fəravə - Nəsa yaxınlığında qəsəbə adı.
[205]Soltan Modud - Soltan Məsudun oğlu (1041/2-1048/9)
[206]Əzüdüddövlə - Albuye sülaləsinin 5-ci hökmdarı (944/5-982/3). Əbu Şücavə Fəna Xosrov (Pənah Xosrov) adı altında da məşhurdur.
[207]Həsən Firuzan - Deyləm hökmdarı. 901-ci ildə Samani qoşunları ilə vuruşmada öldürülmüşdür.
[208]Əbdürrəzaq ibn Həsən əl-Meyməndi - Soltan Modud və ondan sonrakı Qəznəvi şahlarının vəziri.

***Qırx üçüncü fəsil***

[209]Comərd - alicənab, əliaçıq adam.

*Qırx dördüncü fəsil*

[210]Xüsusi ünsür - Qədimdə əsas dörd ünsür olan su, od, torpaq və havadan əlavə bir də "xüsusi" və ya bəzi hallarda deyildiyi kimi, "beşinci ünsürün" olduğunu da qəbul edir və Günəşin məhz bu "xüsusi" ünsürdən əmələ gəldiyi ehtimalını irəli sürürdülər.

[211]Hicab, hecab - Örtük, pərdə, diafraqma, həya, utanmaq.

[212]Əbülqasım Əbulkərim Qüşeyri - Öz əsrinin görkəmli sufi şeyxlərindən olub, təriqəti şəriətlə yaxınlaşdırmağa səy göstərmiş və çoxlu miqdarda yazdığı risalələri ilə şöhrət tapmışdır (986-1074).

[213]Əbülhəsən əl-Müqəddəsi - sufi alim.

[214]Əbu-Mənsur-əd-Dəməşqi - sufi alim.

[215]Əbülhəsən Əli ibn Əhməd Vahid Nişapuri - Dövrünün görkəmli şəriətşünası olmuş, Quranı təfsir etməkdə şöhrət tapmışdır.

[216]Əxi Fərrux Zəngani - Beşinci əsr hicri ürəfasının ən məhşurlarından biridir. 450/1058-59-cu illərdə vəfat etmişdir.

[217]Xanqah (Xanəqah) - Dərvişlərin, rindlərin səma (musiqi məclisləri) üçün toplandıqları yer. Sufiyanə yazılmış Şeirlərdə xanegah həmişə məscidə qarşı qoyulur.

[218]Came - Sufilərin təşkilati, sufi cəmiyyəti nəzərdə tutulur.

[219]Kəffarə - Günahı yumaq üçün edilən yaxşılıq, verilən pul, çəkilən əzab-əziyyət və s.

[220]Şibli - Əbubəkr Cəfər ibn Yusif Şibli Xorasani - üçüncü əsr hicri sufi şeyxlərindən biri (247/861-2-334/945-6). Bağdaddakı məqbərəsi indi də ziyarətgah sayılır.

[221]Mürid - Şeyxlərin, ruhani başçılarının, mürşidlərin ardınca gedənlər. Mürşidlərin təriqətini davam etdirən şagird.

[222]Ərəstu - Aristotel. Məşhur yunan ensiklopedist alim və filosofu (e. ə. 384-322).



QABUSNAMƏ